İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## QIRX ALTINCI KİTAB

## MAY 2011 - İYUL 2011

AZƏRNƏŞR
BAKI - 2017

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın uğurla aparılan daxili və xarici siyasətinə, iqtisadi potensialının möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərinə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin İtaliya, Serbiya, Sloveniya və Tatarıstana,Belçika Krallığına səfərlərindən, həmçinin ölkəmizə səfərə gəlmiş Çexiya və Fələstin dövlətlərinin rəhbərləri ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsindən və genişləndirilməsindən bəhs olunur. Azərbaycan prezidentinin bütün görüş və danışıqlarının qayəsini Ermənistanın işğalçılıq siyasəti, Dağlıq Qarabağ problemi və bu problemin həlli yolları təşkil edir.

Bu cilddə, həmçinin Azərbaycan prezidentinin ölkəmizə gəl-miş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

Ə **0801000000 / M – 651(07) – 2017** **BBK - 32**

© Azərnəşr, 2017

## 9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2011-ci il*

*İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 66-cı ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Azərbaycan xalqı faşizm üzərində tarixi qələbəyə böyük töhfə vermişdir. Bu qələbənin əldə olunmasında çox böyük payı olan Azərbaycan xalqı özünün 640 mindən çox oğul və qızını cəbhəyə yola salmışdı. Onların təxminən yarısı döyüşlərdə həlak olmuşdur. Dəhşətli müharibədə göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşmuşdur. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılmış 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyalar döyüşlərdə misilsiz igidlik və şücaət göstərərək, adlarını tarixin səhifələrinə qızıl hərflərlə yazmışlar.*

*Şanlı qələbəyə neft Bakısının töhfəsi də əvəzsiz olmuşdur. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksək keyfiyyətli motor yağlarının 85–90 faizi Azərbaycanın payına düşürdü. İkinci dünya müharibəsində faşizm üzərində qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Bakı neftçilərinin göndərdiyi yanacaqla hərəkətə gətirilirdi.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə böyük diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndərimizin bu siyasəti prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Qələbə bayramı ərəfəsində dövlətimizin başçısının sərəncamı ilə müharibə iştirakçılarına, onların ailələrinə birdəfəlik maddi yardımın edilməsi bu qayğının bariz nümunəsidir.*

*Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, paytaxt sakinləri prezident İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar.*

*Burada Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi.*

*Azərbaycan prezidenti 1941–1945-ci illərin ağır və çətin sınaqlarından keçmiş veteranlara yaxınlaşaraq, onların problemləri, qayğıları ilə maraqlandı. Veteranlar ümummilli liderimiz Heydər Əliyevin onlara göstərdiyi diqqət və qayğını xatırladaraq, onun siyasi xəttini davam etdirən prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Onlar ölkəmizin hərtərəfli inkişaf etdirilməsi üçün çalışan dövlətimizin başçısını bundan sonra da dəstəkləyəcəklərini vurğuladılar.*

*Prezident İlham Əliyev İkinci dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.*

*Dövlətimizin başçısı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.*

## SOVET İTTİFAQI QƏHRƏMANI QAFUR MƏMMƏDOVUN ADINI DAŞIYAN PARKLA TANIŞLIQ

*9 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun adını daşıyan parkda olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyev alman faşizminə qarşı müharibədə misilsiz rəşadət nümunəsi göstərmiş Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun büstü önünə gül dəstəsi qoydu. Sonra Azərbaycan prezidenti parkda yaradılan şəraitlə tanış oldu.*

*Qafur Məmmədovun adını daşıyan park da dövlətimizin başçısının Bakı şəhərində parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması ilə bağlı verdiyi tapşırıqlara əsasən qısa müddətdə yenidən qurulmuşdur. Xüsusi tərtibatı ilə diqqəti cəlb edən parkda müasir fəvvarə quraşdırılmışdır. Parkdakı yaşıllıq zolaqları təzələnmiş, çoxlu sayda bəzək və gül kolları əkilmişdir. Parkın işıqlandırma sistemi də tamamilə dəyişdirilmişdir. Əhalinin istirahəti üçün burada bütün lazımi şərait yaradılmışdır.*

*Parkla tanışlıqdan sonra prezident İlham Əliyev Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun qardaşı qızı Tamilla Məmmədova ilə görüşüb söhbət etdi.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*Fəxri xiyaban*

*10 may 2011-ci il*

*Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər səkkizinci ildir bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Ümummilli liderimizin ad günü ərəfəsində olduğu kimi, mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.*

*Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.*

*Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin məzarı önünə əklil qoydu, ulu öndərin ruhu qarşısında baş əydi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Prezident İlham Əliyevin xanımı Mehriban Əliyeva və ailə üzvləri ümummilli liderin abidəsi önünə gül dəstələri qoydular.*

*Sonra dövlətimizin başçısı və ailə üzvləri oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət etdilər və önünə gül dəstələri qoydular.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 88-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA MÖHTƏŞƏM GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2011-ci il*

*Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü münasibətilə Bakıda, ulu öndərin adını daşıyan sarayın qarşısındakı parkda möhtəşəm Gül bayramı təşkil edilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Gül bayramında olmuşlar.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına məlumat verdi ki, səhər tezdən başlayaraq paytaxt sakinləri dünyanın 50-dək ölkəsindən gətirilmiş gül-çiçəklə bəzədilmiş parka gəlirlər.*

*Müstəqil dövlətimizin xilaskarı və qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin əzəmətli abidəsinin ətrafı gül-çiçəyə qərq olmuş, postament ağ güllərlə hörülmüşdür.*

*Prezident İlham Əliyev və ailə üzvləri ulu öndərin abidəsini ziyarət etdilər, başdan-başa bahar ətirli güllərə qərq olmuş parkın gözəlliyini seyr etdilər.*

*Müxtəlif güllərdən yığılmış «xalça»lar və ulu öndər Heydər Əliyevin tər çiçəklərdən «toxunmuş» portret xalçası orijinallığı ilə göz oxşayırdı. Çiçəklərdən yığılmış «88» rəqəminin kompozisiyası da diqqəti cəlb edirdi.*

*Mehriban xanım Əliyevaya və ailə üzvlərinə xüsusi növdən olan ağ zanbaqlardan buketlər təqdim edildi. Məlumat verildi ki, bu ağ zanbaqlar Holland–Azərbaycan Dostluq Cəmiyyəti ilə Hollandiya Zanbaqlarının Kultivasiyası üzrə Kral Asso-*

*siasiyası tərəfindən dünyada ilk dəfə olaraq Mehriban xanımın adına yetişdirilmişdır və bundan sonra onun ismini daşıyacaqdır.*

*Dövlətimizin başçısı, Mehriban xanım Əliyeva və ailə üzvləri Holland–Azərbaycan Dostluq Cəmiyyətinin direktoru Marion van der Vegtlə xatirə şəkli çəkdirdilər.*

*Marion van der Vegt Hollandiya Zanbaqlarının Kultivasiyası üzrə Kral Assosiasiyasının yeni zanbaq növünə verdiyi sertifikatı imzalamaq üçün Mehriban xanım Əliyevaya təqdim etdi.*

*Azərbaycanın birinci xanımı yeni zanbaq növünün yetişdirilməsi münasibətilə cəmiyyətin direktorunu təbrik etdi, onlara müvəffəqiyyətlər arzuladı.*

*Prezident İlham Əliyev və ailə üzvləri gül kompozisiyalarına maraqla tamaşa etdilər. Güllərdən hazırlanmış müxtəlif mənzərələr, orijinal lövhələrdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərinə aid fotoşəkillər böyük maraq doğurdu.*

*Üzərində ulu öndərin portreti, müxtəlif çiçəklər əks olunmuş 30 metr hündürlüyündə iki hava şarı da maraqla qarşılandı. Bildirildi ki, onlar bu gün axşam havaya buraxılacaqdır.*

*Gül bayramı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunduğu üçün nümayiş etdirilən hər bir gül çələngində, əl işlərinin mövzu və kompozisiyasında sevimli rəhbərə məhəbbət hissi diqqəti cəlb edir.*

*Gül və müxtəlif nağıl qəhrəmanları kimi bəzənmiş, bayramı daha da gözəlləşdirən uşaqlar prezident İlham Əliyevi və ailə üzvlərini özlərinə xas səmimiyyətlə salamladılar.*

*Dövlətimizin başçısı və ailə üzvləri uşaqlarla söhbət etdilər, ulu öndər Heydər Əliyevin gül-çiçəyə qərq olmuş abidəsi önündə fidan balalarla xatirə şəkli çəkdirdilər.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 88-ci İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 7 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*«Buta» sarayı*

*10 may 2011-ci il*

*Mayın 10-da «Buta» sarayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 88-ci ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 7 illiyi münasibətilə təntənəli mərasim keçirilmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlət və hökumət nümayəndələrinin, xarici ölkələrdən dəvət olunmuş nüfuzlu qonaqların iştirak etdikləri tədbir ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolunun müxtəlif anlarını əks etdirən fotoxronikanın nümayişi ilə başladı.*

*Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva çıxış etdi.*

### Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hər il mayın 10-da olduğu kimi, bu il də Heydər Əliyev Fondu tərəfindən hazırlanmış ənənəvi mərasimdə sizi səmi-

mi-qəlbdən salamlayıram. Mərasimdə iştirak etmək üçün ölkəmizə gələn bütün qonaqlara Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm və bu axşam bizimlə olduğunuza görə sizə dərin minnətdarlığımı bildirirəm.

Bu il Azərbaycan dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünü qeyd edir. Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan dünya xəritəsində müstəqil ölkə kimi yalnız 20 ildir ki, mövcuddur. 20 il tarixi baxımdan uzun dövr deyildir. Lakin bu 20 il ərzində ölkəmiz böyük uğurlar əldə edib. Bu gün Azərbaycan müxtəlif sahələrdə rekord inkişaf tempini nümayiş etdirən, regionda lider olan, dünyanın aparıcı dövlətləri ilə partnyor əlaqələri quran, beynəlxalq arenada nüfuza malik olan bir dövlətdir. Azərbaycan güclü, qarşısına istənilən məqsədləri qoyub həll etməyə qadir olan və gələcəyə ümidlə baxan dövlətdir.

Yaxın keçmişimizə nəzər salsaq, qeyd etməliyik ki, bu günümüzə gətirən yol heç də asan və hamar olmayıb. Bu yolda problemlərimiz, çətinliklərimiz, ağrılarımız kifayət qədər olub. Arxada qalan illərin hər birinə müraciət edərək biz müasir tariximizin hər bir səhifəsində dahi şəxsiyyət, böyük insan Heydər Əliyevin silinməz izini görürük. Onun bizimlə olub-olmamasından asılı olmayaraq, bu 20 il ərzində reallaşan hər bir layihədə, əldə edilən hər bir uğurumuzda ulu öndərin böyük payı vardır.

Müstəqilliyimizin ilk illərini xatırlayaq. Ölkəmizdə hökm sürən ağır böhranın müxtəlif səbəbləri var idi və mən bu axşam onları sadalamaq istəməzdim. Qısa söyləsəm, sanki biz işıqdan məhrum olmuşduq. Şəhərlərimizin işıqları söndüyü kimi, daxilimizdə ümid çıraqlarımız sönmüşdü. İşığı, nuru, ümidi bizə Heydər Əliyev qaytardı. O, ölkəni böyük bəlalardan xilas etdi və müasir tariximizin ilk səhifələrini yazmağa başladı. 1993-cü ildə heç də hamı inanmırdı ki, gün gələcək və Heydər Əliyevin bütün arzuları, planları, ideyaları reallaşacaqdır. Bütün çətinliklərə baxmayaraq o, Azərbay-

canın neft strategiyasını uğurla reallaşdırdı və onunla da gələcək qələbələrimizin, nailiyyətlərimizin təməlini qoydu.

Bu gün böyük insan Heydər Əliyevin ömür yolu hər birimiz üçün xalqa, Vətənə xidmət etməyin rəmzinə çevrilib. Onun ən sevimli kəlmələrindən birini – «Mən fəxr edirəm ki, azərbaycanlıyam» kəlməsini təkrar edərək biz onun unudulmaz xatirəsi qarşısında baş əyirik.

Əziz dostlar, bu gün eyni zamanda, Heydər Əliyevin adını daşıyan fond 7 ildir ki, fəaliyyət göstərir. Ötən il fond bir sıra irimiqyaslı layihələr, mühüm işlər həyata keçirib. Həmişə olduğu kimi, çalışmışıq müxtəlif sahələri – elmi, təhsili, səhiyyəni, mədəniyyəti, sosial problemləri əhatə edək.

Bu axşam fondun fəaliyyəti haqqında ətraflı məlumat səslənəcək, film nümayiş olunacaqdır. Mən yalnız onu demək istərdim ki, bu 7 il ərzində ən böyük nailiyyətimiz, ən böyük uğurumuz Azərbaycan xalqının inamını və hörmətini qazanmağımız olub. Mən bu kürsüdən istifadə edərək bir daha hamını əmin etmək istərdim ki, Heydər Əliyev Fondu Azərbaycanın bu günü və sabahı naminə gələcəkdə də çalışmağa hazırdır. Bu yolda bizə dəstək verən, yardım edən hər bir insana, hər bir quruma – istər dövlət, istər qeyri-dövlət qurumuna, bizimlə əlaqə, əməkdaşlıq yaradan beynəlxalq təşkilatlara dərin minnətdarlığımı çatdırıram.

Əziz dostlar, ümidvaram ki, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış bu gözəl axşam heç birinizi biganə qoymayacaqdır. Bu axşamın təşkilində əməyi olan hər bir insana, xüsusilə də Heydər Əliyev Fondunun komandasına dərin minnətdarlığımı çatdırıram. Mən sizə uğurlar, xoşbəxtlik, məhəbbət arzulayıram. Qoy Tanrı Azərbaycanı qorusun! Çox sağ olun!

* * *

*Sonra ümummilli lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən film nümayiş olundu.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Bu gün ulu öndər Heydər Əliyevin doğum gününü qeyd edərkən, əziz xatirəsini yad edərkən bir daha onun ölməz xatirəsinə Azərbaycan xalqının dərin hörmət və ehtiramını ifadə edirəm.

Heydər Əliyev bütün dövrlərdə doğma xalqına sədaqətlə xidmət etmiş, Azərbaycanın inkişafına çox böyük töhfələr vermişdir.

1969-cu ildə birinci dəfə Azərbaycana rəhbərliyə başlayan zaman Azərbaycan müttəfiq sovet respublikaları arasında ən geridə qalanlar sırasında idi. Demək olar ki, iqtisadiyyat inkişaf etmirdi, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülmürdü, sənaye istehsalı isə çox aşağı səviyyədə idi. Məhz onun fəaliyyəti nəticəsində 13 il ərzində Azərbaycan Sovet İttifaqı miqyasında ən qabaqcıl yerlərə çıxa bilmişdir. Əgər o vaxt iki respublika özünü təmin edə bilirdisə, onlardan biri Azərbaycan idi. O illərdə sənayenin güclü və möhkəm əsasları qoyulmuşdur ki, bu gün də müstəqil Azərbaycanın sənaye potensialına bunun böyük köməyi vardır. Azərbaycan Respublikasının bütün sahələrdə inkişafında böyük irəliləyiş əldə edilmişdir. Bir sözlə, keçən əsrin 70-ci illəri Azərbaycanın tarixində inkişaf və tərəqqi illəri kimi qalmışdır. Təbii ki, Azərbaycan müstəqil deyildi və bütün bu nailiyyətləri o vaxt Sovet İttifaqında mövcud ideoloji çərçivələr daxilində əldə etmək mümkün olmuşdur.

Heydər Əliyev 1982–1987-ci illərdə Sovet İttifaqının ali rəhbərliyində təmsil olunmuşdur. İlk dəfə idi ki, azərbaycanlı böyük dövlətdə yüksək vəzifəyə layiq görülmüşdü. Sovet İttifaqı Nazirlər Soveti sədrinin Birinci müavini kimi, o eyni zamanda, Azərbaycanın inkişafına da böyük diqqət göstərmişdir və ürəyi Azərbaycanda qalmışdı. O illərdə Azərbaycanda proseslər hələ də öz axarı ilə gedirdi. İnersiya gücü o qədər möhkəm idi ki, hətta Heydər Əliyevin burada

olmaması Azərbaycanın inkişafına mənfi təsir göstərmirdi. Lakin XX əsrin 80-ci illərinin ortalarından Azərbaycanda işlər yavaş-yavaş tənəzzülə uğramağa başlamışdı. 1987-ci ildə isə o, siyasi səhnədən gedəndən sonra Azərbaycan üçün böyük problemlər başlanmışdır.

Biz hamımız o illəri yaxşı xatırlayırıq və bilirik ki, ulu öndər siyasi hakimiyyətdən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək üçün fəal işlərə başlamışdılar. Əvvəlki illərdə onları bu əməllərdən çəkindirən məhz Heydər Əliyev amili olmuşdur.

1987-ci ilin sonundan başlayaraq separatizm meyilləri gücləndi və beləliklə, Dağlıq Qarabağ münaqişəsinin başlanması üçün şərait yaradıldı. Əgər o zaman Heydər Əliyev Azərbaycanda olsaydı, heç vaxt bu münaqişə baş verməzdi və Azərbaycanın tarixi torpaqları işğal altına düşməzdi. Ancaq o vaxtkı sovet rəhbərliyi Heydər Əliyev amilini dərk edərək, bütün imkanlardan istifadə edirdi ki, onu Azərbaycandan təcrid etsin. Ona qarşı başlanmış böhtan kampaniyasının mənası və səbəbi məhz ondan ibarət idi ki, Heydər Əliyev amili Azərbaycandan silinsin. Ancaq onun əməlləri, Azərbaycana verdiyi töhfələr mənsub olduğu xalqın qəlbində daim yaşayırdı.

Heydər Əliyevə qarşı təzyiqlər və təqiblər güclənəndə o, təbii ki, doğma Vətənə üz tutdu. Əfsuslar olsun ki, o vaxt Azərbaycanın siyasi hakimiyyətində təmsil olunanlar imkan vermədilər o, Bakıda yaşasın və məcbur qalıb doğulduğu yerə – Naxçıvana üz tutdu. Ulu öndər orada yaşadığı dövrdə Naxçıvanın inkişafına öz töhfəsini verdi, naxçıvanlılar da Heydər Əliyevi qorudular. Onun həyatında çox çətin anlar da olmuşdur, amma bütün sınaqlardan şərəflə çıxmışdır, bütün dövrlərdə cəsarətli siyasət aparmışdır və bu siyasət, bu cəsarət özünü müxtəlif mərhələlərdə göstərmişdir.

Azərbaycan xalqına qarşı törədilən təcavüz – 20 Yanvar faciəsi nəticəsində həlak olmuş şəhidlərimizin ruhu qarşısın-

da o vaxt söz vermişdi ki, son damla qanına qədər Azərbaycana xidmət edəcəkdir. O vaxt Sovet İttifaqının dağılmasına hələ 2 il qalmışdı. Buna baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransında Sovet İttifaqı Kommunist Partiyasının rəhbərliyini çox kəskin tənqid etmiş və günahsız insanların həlak olmasında onları günahlandırmış, sonra da onilliklər ərzində xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Bütün bu addımlar böyük siyasi iradə və cəsarət tələb edirdi. Məhz o addımlar nəticəsində bu gün Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın milli üçrəngli bayrağı ilk dəfə olaraq rəsmi Dövlət bayrağı kimi, Naxçıvanda qaldırılmışdır. O vaxt hələ Sovet İttifaqı mövcud idi. Məhz o vaxt Sovet İttifaqının saxlanması üçün keçirilən referendumda Naxçıvan iştirak etmirdi. Biz bu tarixi anları yaxşı xatırlayırıq və Heydər Əliyevin nə qədər böyük şəxsiyyət olduğunu bir daha görürük.

Məhz o illərdə Azərbaycanın müasir siyasi sisteminin formalaşması üçün tarixi hadisə baş vermişdir. 1992-ci ildə müxalifət partiyası kimi, Naxçıvanda Yeni Azərbaycan Partiyası yaradıldı. Yarandığı gündən indiyə qədər Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə olaraq, ölkəmizin inkişafı üçün böyük xidmətlər göstərmişdir.

Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıdışı da zamanın və xalqın tələbi idi. O vaxt Azərbaycanda vətəndaş müharibəsi başlamışdı, ölkədə xaos, anarxiya, böhran hökm sürürdü. İqtisadi və siyasi böhran ölkəmizin gələcək müstəqil həyatını sual altında qoymuşdu. Xalqın tələbi ilə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra bütün xoşagəlməz halların qarşısı alındı, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, sabitlik yarandı və Azərbaycan inkişaf etməyə başladı. Əgər o vaxt Heydər Əliyev qətiyyəti, cəsarəti və siyasi nüfuzu olmasaydı, müstəqilliyimiz əldən gedə bilərdi.

1993–2003-cü illər Azərbaycanda sabitlik və inkişaf illəri kimi tarixdə qaldı. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. Biz deyəndə ki, Heydər Əliyev müasir müstəqil Azərbaycanın qurucusudur, tam haqlıyıq. Çünki dövlət müstəqilliyi əldə etdikdən sonra 2 il ərzində ölkə idarəolunmaz vəziyyətdə idi. Dövlətçiliyimizin, müstəqilliyimizin əsasları məhz 1993-cü ildə qoyulmuşdur. O vaxtdan bu günə qədər Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedir. İqtisadi sahədə aparılan islahatlar öz nəticəsini verməyə başlamışdır. Siyasi sabitlik təmin olunandan sonra ölkəyə böyük həcmdə xarici sərmayələr gəlməyə başlamışdır. O vaxt xarici sərmayələri Azərbaycana cəlb etmək üçün böyük peşəkarlıq və siyasi səriştə tələb olunurdu. Çünki Azərbaycan dünyada çox riskli ölkə kimi tanınırdı, sərmayə qoymaq istəyənlərin sayı çox az idi. Xarici investorları inandırmaq, onları Azərbaycana dəvət etmək və milli maraqlarına uyğun şəkildə böyük investisiya layihələrini icra etmək siyasi bacarıq və siyasi bilik tələb edirdi.

Bugünkü Azərbaycan Heydər Əliyevin əsəridir. Bu reallıqdır, həqiqətdir. 1993–2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Ölkəmizin müstəqil yaşaması üçün neft kontraktlarının müstəsna rolu olmuşdur. Bu kontraktlar nəticəsində ölkə iqtisadiyyatına milyardlarla dollar vəsait qoyulmuşdur. Azərbaycan etibarlı tərəfdaş kimi, özünü dünya birliyinə təqdim edə bilmişdir. İqtisadi müstəqillik isə dövlət müstəqilliyinin əsasıdır.

İqtisadi inkişaf templərinə görə Azərbaycan son 7 il ərzində dünyada bənzəri olmayan sürətlə inkişaf etmişdir, təxminən 3 dəfə artmışdır. Sənaye istehsalımız 3 dəfə yüksəl-

miş, yoxsulluq 5 dəfə azalmışdır. Biz artıq böyük maliyyə imkanlarına malikik. İqtisadiyyatımız artıq çoxşaxəlidir. Enerji siyasətimiz də Heydər Əliyevin qoyduğu neft strategiyası əsasında qurulub. Bu strategiya müasir tələblərə uyğunlaşdırılıb və zənginləşdirilib. Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, qitədə çox mühüm rola malikdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi tarixi nailiyyətdir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlini Heydər Əliyev qoymuşdur. Biz o layihəni başa çatdırdıq və kəmər 2006-cı ildən işləyir. Azərbaycanın iqtisadi müstəqilliyinin güclənməsində bu layihənin müstəsna rolu vardır.

1996-cı ildə Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış böyük «Şahdəniz» qaz yatağı üzrə kontrakt bu gün Azərbaycanı enerji təhlükəsizliyi baxımından əvəzolunmaz tərəfdaşa çevirmişdir. Əgər 1996-cı ildə – o çətin illərdə, çətin anlarda bu düzgün addım atılmasaydı, bu gün enerji təhlükəsizliyimiz bizim üçün böyük problem ola bilərdi. Biz o layihəni başa çatdırdıq. 2007-ci ildə Azərbaycan qazını xarici bazarlara ixrac etmək üçün Bakı–Ərzurum kəməri tikildi, o dəhliz artıq açıldı, işlədi. Biz o dəhlizi dəmiryol layihəsi ilə zənginləşdiririk. Dəmir yolu nəinki Azərbaycanı qonşu dövlətlərlə, Asiyanı Avropa ilə birləşdirəcəkdir. Ümid edirəm ki, biz gələn il bu tarixi layihənin işə düşməsini qeyd edəcəyik. Müstəqilliyimiz möhkəmlənir, iqtisadi imkanlarımız, regiondakı rolumuz artır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Ölkədə iqtisadi və sosial məsələlər öz həllini tapmaqdadır. Son 7 ildə büdcə xərclərimiz 12 dəfə artmışdır. Maaşlar, pensiyalar dəfələrlə artmışdır.

Bu gün Azərbaycan dinamik inkişaf edən, öz ehtiyaclarını özü ödəyən müasir ölkədir. Bizim siyasətimiz çox açıqdır, aydındır. Güclü iqtisadi təməl üzərində müasir siyasi sistemin formalaşdırılması, dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının gücləndirilməsi məsələləri bizim üçün prioritet məsələlərdir.

Bu gün Azərbaycan eyni zamanda, regionda sabitləşdirici amildir. Bizim təşəbbüslər bir çox hallarda regionda həlledici rol oynayır. Bu regional əməkdaşlığın hüdudları da genişləndirilir. Bizim irəli sürdüyümüz və icra etdiyimiz layihələr tərəfdaş dövlətləri cəlb edir.

Ölkəmizdə iqtisadi və sosial məsələlərin həlli müsbət istiqamətdə inkişaf edir, ictimai-siyasi vəziyyət çox müsbətdir. Bizim ölkə çoxmillətlidir. Azərbaycan dünya miqyasında mədəniyyətlərarası dialoqun aparılması üçün çox gözəl məkana çevrilmişdir. Son vaxtlar keçirilən müxtəlif tədbirlər bir daha Azərbaycanı çox müasir və tolerant ölkə kimi, dünya birliyinə təqdim edir.

Ölkəmizdə elə bir sahə yoxdur ki, o sahə üzrə konkret proqram olmasın və həmin proqram icra edilməsin. Bugünkü Azərbaycan güclü, müasir, öz gücünə arxalanan dövlətdir. Biz elə etməliyik ki, ölkəmizi bundan sonra da gücləndirək, inkişaf etdirək, qarşıda duran bütün vəzifələri icra edək, xalqın rifah halını yaxşılaşdırmaq üçün əlavə tədbirlər görək, sosial məsələlərin həllinə nail olaq.

Biz bütün bu uğurları məhz ona görə əldə etmişik ki, 1993-cü ildə Azərbaycan xalqı müdriklik göstərib Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etmişdir. Uğurlarımızın təməli məhz o vaxt, 1993-cü ildə qoyulmuşdur. Ona görə Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşayır və daim yaşayacaqdır. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük dəyərdir. Bu gün inkişaf edən, güclənən Azərbaycan Heydər Əliyevin xatirəsinə olan hörmətimizin nümunəsidir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayacaqdır. Biz bu yoldan dönməyəcəyik. Heydər Əliyev siyasətinə daim sadiq qalacağıq. Sağ olun.

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun Baş direktoru xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum gününün əlamətdar bir tarix olduğunu və bu günün ən xoş hisslərlə qeyd edildiyini xüsusi vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayaraq Baş direktor Əbdüləziz bin Osman əl-Tüveycrinin ölkəmizə səfərinin bu əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna toxunaraq Əbdüləziz bin Osman əl-Tüveycrinin bu beynəlxalq tədbirdə iştirakının əhəmiyyətini vurğuladı.*

*İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri Bakının artıq mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilməsinin önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan–İSESKO əməkdaşlığının bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## FRANSA MİLLİ ASSAMBLEYASI MÜDAFİƏ KOMİSSİYASININ SƏDR MÜAVİNİ MİŞEL VUAZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Fransa Milli Assambleyası müdafiə komissiyasının sədr müavini Mişel Vuazenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyi, müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, parlamentlərarası əlaqələrin əhəmiyyəti vurğulandı, münasibətlərimizin daha da möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmi qeyd olundu.*

*Görüşdə Fransa Milli Assambleyası müdafiə komissiyasının sədr müavini Mişel Vuazen ölkəsinin Azərbaycan ilə Fransa arasında münasibətlərin təkcə siyasi, iqtisadi sahələrdə deyil, humanitar və digər sahələrdə də inkişaf etdirilməsinə maraqlı olduğunu bildirdi.*

## ATƏT-in KİV AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi xanım Dunya Miyatoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda kütləvi informasiya vasitələrinin fəaliyyəti, media sahəsində Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

# BAKIƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI MƏRDƏKANDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*Xəzər rayonu*

*12 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə kənd və qəsəbələrdə abadlıq və quruculuq işləri ilə bağlı verdiyi tapşırıqların icrası ilə tanış olmaq üçün ayrı-ayrı yaşayış sahələrində olmuşdur.*

*Mayın 12-də prezident İlham Əliyev Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində görülmüş işlərlə yaxından tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qəsəbənin sxemi əsasında həyata keçirilmiş quruculuq işləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Bakının digər kənd və qəsəbələrində olduğu kimi, Mərdəkanda da qəsəbədaxili yolların əsaslı yenidən qurulması işlərinə başlanılmışdır. Buradakı yolların 16 min 500 kvadratmetr sahəsinə artıq yeni asfalt döşənmiş, əlavə olaraq 19 min kvadratmetr əraziyə isə asfalt salınması nəzərdə tutulur. Mərdəkan qəsəbəsində su və qaz xətlərinin yeniləri ilə əvəzlənəcəyi, Bakının digər kənd və qəsəbələrində olduğu kimi, bu qəsəbədə də kanalizasiya sisteminin qurulacağının Dövlət Proqramına salındığı qeyd edilmişdir.*

*Görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı qəsəbə sakinləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bilirsiniz ki, Bakıətrafı qəsəbələrin inkişafı üçün xüsusi proqram hazırlanıbdır, kompleks təd-

birlər nəzərdə tutulur. Bu ayın əvvəlində proqram təsdiq olunub və yaxın zamanlarda işlər sürətlə aparılacaqdır. Artıq işlərin müəyyən hissəsi, o cümlədən Mərdəkan qəsəbəsində yolların çəkilişi başlanmışdır. Bu işlər geniş vüsət alacaqdır. Bütün qəsəbələrdə infrastruktur layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Proqram mətbuatda dərc edilib. Hər bir qəsəbə üzrə konkret tapşırıqlar verilmişdir. O ki qaldı Mərdəkan qəsəbəsinə, burada məktəbin, uşaq bağçalarının təmiri nəzərdə tutulub. Xəstəxana əsaslı təmir olunacaqdır. Yollar çəkiləcəkdir. Qazlaşdırma layihəsi nəzərdə tutulur. Əlbəttə ki, su və kanalizasiya layihələri də öz həllini gözləyir.

Beləliklə, proqramın icrası nəticəsində 2013-cü ilə qədər hər bir qəsəbədə bütün sosial və iqtisadi məsələlər öz həllini tapmalıdır. Mən bu ərəfədə bir neçə qəsəbədə vəziyyətlə tanış olmuşam, sakinlərin arzularını dinləmişəm. Artıq proqram qəbul edilib. Gərək həm mən, həm də siz bu proqramın icrasını yoxlayaq, ona nəzarət edək.

Mən istəyirəm ki, bütün qəsəbələrdə işlər qısa müddətdə sürətlə aparılsın ki, insanları narahat edən məsələlər həll olunsun. Biz bu məsələləri, bu problemləri bilirik. Ona görə hesab etdim ki, Bakı və Bakıətrafı qəsəbələrin inkişafı üçün xüsusi Dövlət Proqramı qəbul edilməlidir və biz bunu etdik. Bütün dövlət qurumlarına tapşırıqlar verilmişdir ki, fəal işləsinlər və yerli sakinlərin xahişləri, arzuları da mütləq nəzərə alınmalıdır. Biz çalışmışıq ki, proqramda bütün məsələləri əhatə edək. Ancaq təcrübə göstərir ki, bəzi hallarda bu, mümkün olmur. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul olunanda orada bəzi məsələlər nəzərdə tutulmamışdı. Ona görə də biz vaxtaşırı o proqrama əlavələr etmişik.

Bu proqramla da bağlı oxşar vəziyyət yarana bilər. Ona görə əlavə təkliflər olan zaman onlara da baxılacaqdır. Çalışmışıq ki, insanları narahat edən əsas infrastruktur məsələləri orada öz həllini tapsın. Artıq işlər başlanmışdır. Əminəm ki, bütün tapşırıqlar vaxtında yerinə yetiriləcəkdir.

**S a k i n:** Cənab Prezident, rayonumuz, qəsəbəmiz gündən-günə çiçəklənir, gözəlləşir. Rayonda, qəsəbədə bir çox işlər görülür.

İndi bir çox təkliflər vardır. Siz özünüz də dediniz, xəstəxana təmir olunmalıdır. Rayonumuzda 26 nömrəli ən böyük xəstəxana vardır. Qədim xəstəxanadır, təxminən 1982-ci ildə yenidən bərpa olunub. Ancaq uzun illər keçəndən sonra günün tələblərinə cavab vermir. Biz arzu edərdik ki, 26 nömrəli xəstəxana plana düşsün, yaxşı təmir olunsun və sakinlərimiz, veteranlarımız orada müalicə alıb özlərinin sağlamlığını bərpa edə bilsinlər.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Dediyiniz məsələ öz həllini tapacaqdır. Proqramda 26 saylı xəstəxananın əsaslı təmiri və müasir avadanlıqla təchiz edilməsi məsələləri nəzərdə tutulubdur. Əminəm ki, yaxın zamanlarda işlər başlanacaqdır. Bu xəstəxananın çox böyük tarixi vardır. Bu bölgənin, bu zonanın mərkəzi xəstəxanası olmuşdur, təmirə ehtiyacı vardır və yüksək səviyyədə bərpa olunacaqdır. Təmirdən sonra açılışda bir yerdə iştirak edəcəyik. Xəzər rayonu böyük, qədim rayondur. Mərdəkan qəsəbəsinin böyük və zəngin tarixi, mədəniyyəti vardır. Çox istəyirəm ki, burada bütün işlər yüksək səviyyədə görülsün.

İndi Mərdəkana çox möhtəşəm giriş də yaradırıq, gözəl körpü tikilir. Mərdəkan dairəsində maşınlar bir neçə dəqiqə, bəlkə də yarım saat tıxacda dayanırdı. Mərdəkana məsafə azalmasa da, indi zaman baxımından daha sürətlə gəlmək mümkündür. Bu yoldaki dairənin yerində gözəl körpülər, yolötürücüləri tikilib, yol genişləndirilib.

Mərdəkanın daxili yolları da təmir olunacaqdır. Bu yollar o qədər də enli deyildir. Amma əsas küçənin yenidən qurulması layihəsi işlənilir, təqdim olunacaq və bərabər baxacağıq ki, o küçəni nəqliyyat və piyadalar üçün daha da yüksək səviyyədə quraq. Bu məsələlər öz həllini tapacaqdır.

Qəbul edilmiş proqram çox böyükdür. Həm texniki cəhətdən, həm maliyyə baxımından böyük iş tələb edən layihə-

dir. Proqramın icrası üçün çox böyük vəsait tələb olunacaqdır. Biz bu il dövlət büdcəsinə əlavələr də edəcəyik ki, bu işləri təxirə salmadan həll edək. Proqramın icra müddəti cəmi iki il yarımdır. Nə üçün?! İstəyirəm ki, bu məsələlər tezliklə həll olunsun. Burada ictimai nəzarət də çox güclü olmalıdır. İndi işlər başlanacaq, yollar, su xətləri çəkiləcək, qaz xətləri yenidən çəkiləcəkdir. Elə etməliyik ki, keyfiyyətli olsun. Çünki dövlət vəsait ayırır və işlər görülür, bəzi hallarda görülmüş işlər bizi qane etmir. Nə üçün?! Çünki ictimai nəzarət zəif olubdur. İş icraçıları vəzifə borclarına məsuliyyətsiz yanaşmışlar. Ona görə ictimai nəzarət çox güclü olmalıdır. Sizdən və bütün qəsəbələrdə yaşayan sakinlərdən xahiş edirəm ki, əgər hansısa bir məsələ düzgün həll olunmursa, yaxud da ki, hansısa qüsur varsa, mütləq mənə məlumat göndərin. İndi həm məktub göndərmək olar, həm də elektron poçt vardır, yəni müxtəlif yollarla məlumat çatdırmaq mümkündür.

**S a k i n:** Hörmətli Prezident, bizim rayonda Sizin sərəncamlarınız əsasında böyük işlər görülür. Bu işlər göz qabağındadır. Sizə təşəkkür edirik. Bu gün kanalizasiya problemi ən vacib məsələlərdən biridir. Sizin gördüyünüz işlər, verdiyiniz sərəncamlar, gəlib tapşırıqların icrasını yerində yoxlamaq insanlara göstərdiyiniz qayğının təzahürüdür.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Qaldırdığınız məsələlər çox vacibdir. Kanalizasiya nəinki Mərdəkan qəsəbəsinə, bütün qəsəbələrə aid problemdir. Təəssüflər olsun ki, əvvəlki dövrlərdə kanalizasiya xətləri çəkilməmişdir. Bu, böyük zəhmət və maliyyə mənbələri tələb edən məsələdir. Ancaq bu proqram artıq icra olunmağa başlamışdır. «Azərsu» Səhmdar Cəmiyyəti bu işlərlə məşğuldur. Çalışacağıq ki, 2-3 il ərzində ölkəmizin bütün məntəqələrində kanalizasiya və su xətlərinin çəkilişinə nail olaq. Bu çox böyük və mürəkkəb bir işdir. Bu xətlər yenidən çəkilməlidir, borular quraşdırılmalıdır, müasir təmizləyici qurğular tikilməlidir. Bütün bu işlər nəzərdə tutulur və əlbəttə, Bakıətrafı qəsəbələrdə də ilk növbədə bu məsələyə diqqətimizi yönəldirik. Bilirəm ki,

insanları ən çox narahat edən məsələ məhz budur – içməli su, kanalizasiya. Vaxtilə biz elektrik enerjisindən korluq çəkirdik. Bu məsələ həll olundu. İndi bu problem yoxdur.

Qazlaşdırma prosesi sürətlə gedir, müəyyən işlər görülüb və ölkəmizdə nəzərdə tutulan bütün qazlaşdırma layihələri gələn ilin sonuna qədər icra ediləcəkdir. Bütün qəsəbələr qazla təmin ediləcəkdir.

İndi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu həm biz bilirik, həm də Bakıya gələn qonaqlar qeyd edirlər. Bakıda gözəl parklar salınır, binalar tikilir, bərpa olunur, yollar çəkilir, infrastruktur yaradılır. Bakı doğrudan da dünya səviyyəli gözəl şəhərə çevrilib. Elə etməliyik ki, Bakıətrafı qəsəbələr də öz müasirliyi, gözəlliyi, təmizliyi ilə seçilsin.

**S a k i n:** Cənab Prezident, Siz səkkizinci ildir ki, Azərbaycana rəhbərlik edirsiniz. Bu dövrdə Siz respublika üçün, Azərbaycan xalqı üçün çox böyük işlər görmüsünüz. Hamısı göz qabağındadır. Bu gün Azərbaycan xalqının rahat, asudə, firavan yaşayışı, öz işi ilə məşğul olması Sizin siyasətinizin nəticəsidir.

Bizim bu gün qarşısında durduğumuz bu məktəb vaxtilə rəhmətlik Hacı Zeynalabdin Tağıyev tərəfindən tikilib. Biz burada – bu məktəbin köhnə binasında təhsil almışıq. Bu bina sonradan tikilib. O köhnə binanın yenidən bərpasına böyük ehtiyac vardır. Qoy onu biz itirməyək. Mərdəkan əhalisi bu məktəbi Hacı Zeynalabdin Tağıyevin məktəbi kimi tanıyır. O, bugünkü tələblərə cavab vermir. Düzdür, istifadə olunur, amma bu gün üçün deyil, əsrin əvvəlində tikilmiş binadır.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Dediyiniz sözlərə görə sizə çox minnətdaram. Mən bundan sonra da çalışacağam ki, doğma xalqıma xidmət edim. Biz ölkə qarşısında duran bütün vəzifələri həll etməliyik. O ki qaldı bu məktəb məsələsinə, əlbəttə, bu məktəb təmir olunacaqdır.

Hacı Zeynalabdin Tağıyev Azərbaycan xalqı üçün böyük işlər görmüşdür. Onun xatirəsi bizim üçün çox əzizdir. Mən

şəxsən onun gördüyü işlərə çox yüksək qiymət verirəm. Onun kimi şəxsiyyətlər Azərbaycan xalqını o dövrdə lazımi səviyyədə təmsil etmişlər. O, zəngin adam idi, öz zəhməti hesabına böyük maliyyə imkanlarına da nail olmuşdu. İmkanlarından xalqın güzəranının yaxşılaşdırılması üçün istifadə etdi. O istəyirdi ki, Azərbaycan gəncləri oxusunlar, ağıllı, bilikli olsunlar. İstəyirdi ki, Azərbaycanda sosial məsələlər öz həllini tapsın. Öz vəsaiti hesabına böyük su kəməri çəkdirdi, məktəblər tikdirdi, kimsəsiz, kasıb uşaqları ali məktəblərə oxumağa göndərdi. Belə görkəmli şəxsiyyətin bütün mədəni, mənəvi və maddi irsinə biz gərək hörmətlə yanaşaq. Məhz bu məqsədlə biz onun Bakıdakı evini əsaslı təmir və bərpa etdik. Orada indi Azərbaycan Tarix Muzeyi yerləşir. Onu Hacı Zeynalabdinin evi kimi bərpa etdik. Onun burada – Mərdəkan qəsəbəsində qəbrini də o vaxt biz abadlaşdırdıq. «Pir Həsən» ziyarətgahı hələ neçə il bundan əvvəl bizim təşəbbüsümüzlə abadlaşdırıldı. Tağıyevin xeyriyyəçilik missiyası Azərbaycan xalqının inkişafına xidmət edib. Mən müasir dövrün sahibkarları ilə dəfələrlə görüşürəm və onlara da dövlət tərəfindən dəstək verilir.

Bu məktəb mütləq təmir olunacaq, müvafiq sərəncam imzalanacaq və biz onun xatirəsinə gözəl abidə yaradacağıq. Bu məktəbin tikintisi ilə əlaqədar yaranmış problemləri indi mənə dedilər. Əgər burada qüsurlar varsa, onlar da aradan qaldırılacaqdır.

* * *

*Sonra prezident İlham Əliyev Hacı Zeynalabdin Tağıyev adına 123 nömrəli orta məktəbin binası ilə tanış oldu.*

## ATƏT-in PARLAMENT ASSAMBLEYASININ SƏDRİ PETROS EFTİMİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də ATƏT-in Parlament Assambleyasının sədri Petros Eftimiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ATƏT-in Parlament Assambleyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair məsələlər müzakirə edildi, əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «BAKI ÜRƏK GÜNLƏRİ» BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

Hörmətli Konqres iştirakçıları!

Sizi – Azərbaycan kardioloqlarını və müxtəlif ölkələrdən Bakıya gəlmiş alimləri səmimi-qəlbdən salamlayır, Konqresinizin işinə uğurlar, hər birinizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayıram.

Bu il öz dövlət müstəqilliyinin bərpasının 20 illiyini qeyd edən ölkəmizdə səhiyyə sisteminin inkişafı, o cümlədən kardiologiyanın beynəlxalq standartlar səviyyəsinə qaldırılması istiqamətində çox işlər görülmüşdür. Paytaxtda və regionlarda müasir tipli tibb müəssisələrinin qurulması və onların zəruri avadanlıqlarla təchiz olunması əhalinin sağlamlığının qorunması üçün lazımi şərait yaratmışdır. Əminəm ki, kardiologiyanın və ürək-damar cərrahiyyəsinin aktual problemlərinin müzakirəsi həm bizim həkimlərə beynəlxalq təcrübədən faydalanmaq imkanı verəcək, həm də respublikamızda təbabətin inkişafı üçün yeni perspektivlər açacaqdır.

Ümidvaram ki, böyük elmi və elmi-praktiki əhəmiyyətə malik olan bu Konqres Azərbaycan kardioloqlarının xarici həmkarları ilə əlaqələrini daha da möhkəmləndirəcək və ümumilikdə tibb elminə öz layiqli töhfələrini verəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 may 2011-ci il*

## ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI GENERAL DUNKAN MAK NABBIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də ABŞ Silahlı Qüvvələrinin Nəqliyyat Komandanı general Dunkan Mak Nabbın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, beynəlxalq terrorizmlə mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «EUROVİSİON–2011» MAHNI MÜSABİQƏSİNDƏ QƏLƏBƏ QAZANMIŞ AZƏRBAYCAN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 16-da Almaniyanın Düsseldorf şəhərində keçirilmiş «Eurovision–2011» mahnı müsabiqəsində qələbə qazanmış Azərbaycan nümayəndələrini qəbul etmişlər.*

*Dövlətimizin başçısı nümayəndələri təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi ürəkdən təbrik edirəm. Siz «Eurovision» mahnı müsabiqəsində ölkəmizi çox ləyaqətlə təmsil etmisiniz, böyük qələbə qazanmısınız. Bu qələbə ölkəmizin qələbəsidir, sizin qələbənizdir. Bu qələbə ilə siz bütün Azərbaycan xalqını sevindirmisiniz. Qələbədən sonra dərhal minlərlə insan küçələrə çıxıb sizin qələbənizi qeyd etdi. Azərbaycan bayrağı dalğalanırdı. Biz çox gözəl anlar yaşadıq. Siz doğrudan da ölkəmizi ləyaqətlə təmsil etdiniz.

Biz «Eurovision» müsabiqəsində dördüncü dəfədir ki, iştirak edirik. Bütün bu illərdə yaxşı nəticələr göstərmişik. Ancaq bu nəticə, əlbəttə ki, ən gözəl nəticədir və zirvədir.

Onu da deyə bilərəm ki, «Eurovision»da iştirakımızın təşəbbüskarı Heydər Əliyev Fondu, Mehriban xanım olmuşdur. Biz bu yarışa onun təşəbbüsü ilə qoşulduq və bütün bu illərdə Heydər Əliyev Fondu, Gənclər və İdman Nazirliyi, İctimai Televiziya və digər qurumlar çox fəal işlədilər. Hər il biz qələbəyə daha da yaxınlaşırdıq.

Bu, dünyanın ən mötəbər mahnı müsabiqəsidir. Hesab edirəm ki, dünya miqyasında buna oxşar ikinci müsabiqə yoxdur. Tamaşaçı auditoriyası haradasa 100 milyondan artıq idi. Belə mötəbər yarışda birincilik əldə etmək tarixi qələbədir. Mən sizi bir daha təbrik edirəm. Bu, Azərbaycan gəncliyinin, xalqının və Azərbaycan dövlətinin qələbəsidir. Bu, artıq tarixdə qalacaqdır. Siz də artıq tarixdə varsınız. «Eurovision» tarixində Azərbaycan öz sözünü demişdir.

Mən sizi bir daha təbrik edirəm! Sizə uğurlar arzulayıram! Əminəm ki, bundan sonra da siz ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz. Beləliklə, Azərbaycan bu sahədə də dünyada öz sözünü dedi. Biz idmanda qələbələrə öyrəşmişik. İdmançılarımız müxtəlif yarışlarda qələbələrlə bizi sevindirirlər. Bu sahədə isə birinci qələbədir.

Bir daha sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram!

*Sonra Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva «Eurovision–2011» mahnı müsabiqəsinin qaliblərini təbrik etdi, onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ BAÇANA AXALAYA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Gürcüstanın Müdafiə naziri Baçana Axalayanı qəbul etmişdir.*

*Nazir Baçana Axalaya Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, müdafiə sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTANIN REGİONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRİ RAMAZ NİKOLAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Gürcüstanın Regional İnkişaf və İnfrastruktur naziri Ramaz Nikolaşvilini qəbul etmişdir.*

*Görüşdə ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən regional inkişaf və infrastruktur sahəsində uğurlu əməkdaşlığından məmnunluq ifadə olundu. Azərbaycan ilə Gürcüstan arasında həyata keçirilən müxtəlif layihələr, o cümlədən Bakı–Tbilisi–Qars dəmiryol layihəsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BAKIDA KEÇİRİLMİŞ QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ HESABAT KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*16 may 2011-ci il*

*Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş Qafqaz Xalqları Ali Dini Şurasının hesabat konfransının iştirakçılarını qəbul etmişdir.*

**İlham Əliyev:** Mən sizi salamlamağa, yeni görüşümüzə şadam. Bu çox əhəmiyyətlidir ki, biz tez-tez görüşürük və siz ölkəmizdə tez-tez olursunuz. Biz bunu çox yüksək qiymətləndiririk, bu cür əlaqələr hamımız üçün çox vacibdir. Qafqazın dini liderlərinin bu səviyyədə münasibətləri, Qafqaz xalqları arasında ənənəvi qardaşlığa əsaslanan qarşılıqlı anlaşma bizi çox sevindirir. Bu münasibətləri çox yüksək qiymətləndiririk. Əsrlər boyu xalqlarımız arasında dostluq, qardaşlıq, qarşılıqlı dəstək, qarşılıqlı kömək münasibətləri olmuşdur. Mən şadam ki, bu gün bu münasibətlər davam edir, inkişaf edir və sizin ölkəmizə tez-tez səfərləriniz, eləcə də bizim möhtərəm şeyxin Şimali Qafqaz respublikalarına

---

* Bakıda keçirilmiş Qafqaz Xalqları Ali Dini Şurasının hesabat konfransının iştirakçıları ilə görüşdə Qaraçay–Çərkəz Müsəlmanları Ruhani İdarəsinin və Şimali Qafqaz Müftiləri Əlaqələndirmə Mərkəzinin sədri İsmayıl Berdiyev, Çeçenistan Müsəlmanları Ruhani İdarəsinin sədri Sultan Mirzəyev, Şimali Osetiya–Alaniya Ruhani İdarəsinin sədri Hacımurad Qatsalov, MDB Dinlərarası Şurası Qəyyumlar Komitəsinin həmsədri Abbas Abbasov və Adıgey Müsəlmanları Ruhani İdarəsinin sədri Nurbay Yemis çıxış etdilər.

səfərləri, Şimali Qafqaz respublikalarının rəhbərləri ilə onun görüşləri ölkəmizdə çox yüksək qiymətləndirilir.

Qafqaz bizim ümumi evimizdir, böyük bir ailə, vahid orqanizmdir. Etimad tədbirlərini gücləndirmək, Qafqazda sabitliyi, təhlükəsizliyi möhkəmlətməyə çalışmaq, bu məsələlər üzərində işləmək çox vacibdir. Biz öz tərəfimizdən regionda təhlükəsizliyin və sabitliyin möhkəmlənməsinə bundan sonra da töhfə verəcəyik. Hesab edirəm ki, burada əsas amil Yer kürəsinin Qafqaz kimi gözəl guşəsində məskunlaşan xalqlar arasında münasibətlərdir. Dini liderlərin bir yerə toplaşması, müzakirələr aparması, əməkdaşlıq formatına malik olması çox vacibdir. Çünki sizin sözünüzü bizim bütün xalqlar, bütün vətəndaşlar eşidir və hörmətli ağsaqqallar kimi, sizdən çox şey asılıdır.

Azərbaycan ilə Rusiya arasında münasibətlər və əməkdaşlıq Qafqaz regionunun inkişafının və Qafqazda təhlükəsizliyin möhkəmlənməsinin mühüm amilidir. Bu, regional inkişafın, sabitliyin çox mühüm amilidir. Bizim üçün olduqca xoşdur ki, son illərdə bu münasibətlər çox müsbət, dinamik inkişaf edir. Biz – iki Qafqaz ölkəsi – Rusiya və Azərbaycan regionda vəziyyətin sabitləşməsinə çox böyük töhfə veririk. Bizim birgə fəaliyyətimizdən çox şey asılıdır. Əlbəttə ki, bizim cəmiyyətlərin qarşısında öz həllini tələb edən vəzifələr durur. Hesab edirik ki, iqtisadi rifah və iqtisadi artım sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin əsas amillərindən biridir. Bu, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün ən başlıca amildir.

Biz Azərbaycanda bu məsələlərə böyük diqqət yetiririk və ölkəmizin inkişafı nümunəsində görürük ki, işsizlik azaldıqca yoxsulluq da azalır, biznes inkişaf edir, ölkəyə sərmayələr gəlir, təhlükəsizlik və sabitlik tədbirləri möhkəmlənir. Biz öz tərəfimizdən Qafqaz regionunda bütün müsbət proseslərdə fəal iştirak etməyə həmişə hazırıq.

Bizim ümumi vəzifəmiz, ümumi borcumuz elə etməkdir ki, adamlarımız daha yaxşı yaşasın, təhlükəsizlik, layiqli hə-

yat və iş şəraiti olsun, bütün müsbət proseslərə gəncləri fəal cəlb edək. Hazırda biz gənclər siyasətinə dair böyük proqram üzərində işləyirik. Tezliklə 2011–2015-ci illər üçün çox konkret və çox effektiv Dövlət Proqramı qəbul ediləcəkdir. Həmin proqramda qərarların icra mexanizmləri və müddətləri, maliyyə bazası və ən başlıcası, görmək istədiyimiz nəticə dəqiq müəyyən ediləcəkdir.

Buna görə də bu məsələdə də zərurət olarsa, məsləhətləşmələr, təcrübə mübadiləsi aparmağa hazırıq. Çünki Qafqazda sülh, təhlükəsizlik, tərəqqi, inkişafın olması bizim üçün çox vacibdir. Azərbaycan xalqı ilə Şimali Qafqaz xalqları arasında ənənəvi qardaşlıq, dostluq münasibətləri vardır. Əməkdaşlıq və qarşılıqlı dəstəyimiz çoxəsrlik tarixə malikdir. Bu əməkdaşlıq indi həm Şimali Qafqaz respublikalarının rəhbərləri ilə mənim əlaqələrim səviyyəsində, həm də insanlar və biznes qurumları arasında əlaqələr səviyyəsində davam edir. Bu, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün çox mühüm amildir.

Fürsətdən istifadə edib sizin vasitənizlə Şimali Qafqaz respublikalarının rəhbərlərinə ehtiramımı və ən xoş arzularımı çatdırmaq istəyirəm. Onların çoxu dəfələrlə burada olmuşlar. Lakin istərdim ki, əvvəllər olanlar bir də gəlsinlər, Fikrimcə, qarşılıqlı səfərlər münasibətlərimizi daha da möhkəmləndirəcəkdir.

Bu gün Bakıda Əlaqələndirmə Şurasının mühüm tədbiri keçirilir. Mənə xoşdur ki, ölkəmizin paytaxtında bu cür tədbirlərin keçirilməsi həm Qafqaz respublikaları arasında əməkdaşlıq çərçivəsində, həm də dünya miqyasında birinci dəfə deyildir. Bu yaxınlarda biz mədəniyyətlərarası dialoq üzrə böyük forum keçirdik, dünyadan qonaqlar qəbul etdik. Keçən il sizin də iştirakınızla dini liderlərin sammitini keçirdik, bu tədbir də çox uğurlu oldu. Bu il biz Rusiyanın və Azərbaycanın himayəsi ilə I Beynəlxalq humanitar forum keçirəcəyik. Bu foruma bütün tərəfdaşlarımızı dəvət edəcəyik. Biz bu məsələlərə böyük əhəmiyyət veririk. Onlara

iqtisadiyyat və ya sənayenin inkişafı məsələlərindən az əhəmiyyət verilməməlidir, çünki hər şey insanlar üçün, onların rifahı, ölkələrimizin və bütövlükdə regionun təhlükəsizliyi və inkişafı üçün edilir və edilməlidir.

Mən bir daha sizi ürəkdən salamlayıram. Xoş gəlmisiniz, siz bizim əziz qonaqlarımızsınız. Sizi ölkəmizdə görməyə həmişə şadıq. Sizə və respublikalarınıza firavanlıq və səadət arzulayıram.

**Allahşükür Paşazadə** *(Qafqaz Müsəlmanları İdarəsinin və Qafqaz Xalqları Ali Dini Şurasının sədri, şeyxülislam):* Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin Zati-aliləri möhtərəm Prezident tərəfindən qəbul edilməsi bizim üçün böyük şərəfdir. İstərdim ki, Qafqaz Xalqları Ali Dini Şurasının rəhbəri kimi, burada iştirak edənlər və xüsusən müftilər adından Sizə bu qəbula görə minnətdarlığımı bildirim.

Zati-aliləri, Sizin dediyiniz kimi, Qafqaz bizim ümumi evimizdir. Bir məsləkə malik olan biz qafqazlılar bu evin təməlinin qurulması, onun mənafeyi və xoşbəxt gələcəyi üçün səylərimizi əsirgəməməliyik. Qafqazda sülhün, əmin-amanlığın bərqərar olunması işində fəal iştirak etməliyik. Təəssüf ki, özlərini siyasətçi adlandıran bəziləri xalqları bir-birinə qarşı qoyan, insan həyatına təhlükə yaradan, şər işlərə rəvac verən təhdidlər və təhlükələr törədirlər. Biz, din xadimləri bunların əleyhinəyik.

Möhtərəm Prezident, Azərbaycanın Qarabağ kimi çətin məsələsinin həlli istiqamətində apardığınız siyasətdə biz Sizin arxanızdayıq. Azərbaycanın haqq işinin müdafiəsi, torpaqlarımızın azad edilməsi istiqamətində gördüyünüz işləri bəyənirik. Allaha dualar edirik ki, bu məsələ, İnşallah, sülh yolu ilə tezliklə həll olunsun. Deyə bilərəm ki, bu gün Azərbaycan bölgədə lider dövlətdir. Sizin rəhbərliyinizlə Azərbaycanda bütün sahələrdə sürətli inkişaf gedir. Ona görə tam əminliklə deyə bilərəm ki, bu gün Azərbaycan dövləti Qafqazda proseslərin sağlam məcrada getməsinə öz təsirini göstərir.

Siz din–dövlət münasibətlərinin inkişafında, mənəvi irsin qorunmasında çox böyük işlər görürsünüz. Ona görə də biz Sizə təşəkkürümüzü bildiririk.

Mən Qafqaz Müsəlmanları İdarəsinin, Qafqaz Xalqları Ali Dini Şurasının sədri, MDB dövlətləri Müsəlman Dini Məşvərət Şurasının rəhbəri və Dinlərarası Dialoq Məşvərət Şurasının həmsədriyəm. Bunları sadalamaqda məqsədim odur ki, bu məsul vəzifələrə çatmağımda bir ustadım, bir müəllimim olmuşdur. Bu, unudulmaz Heydər Əliyev həzrətləridir. Allah-Təala ona rəhmət etsin. Onun hikmətli sözləri, müdrik kəlamları, uzaqgörən fikirləri bu gün də yaşayır və bizi irəliyə aparır. Biz, Qafqaz Xalqları Ali Dini Şurasının müftiləri tez-tez görüşür və ulu öndərin misilsiz xidmətlərini yada salırıq. Biz bu gün də onun qiymətli fikirlərindən istifadə edir və onun ruhuna dualar oxuyuruq. Biz Qafqazda terrorun, qarşıdurmanın əleyhinəyik. Terrordan bizim müftilər də ziyan çəkmişlər. Onların bir neçəsi öldürülüb, şəhid olub. Çünki onlar haqq yolunda idilər. İndi onlar da, ulu öndərimiz Heydər Əliyev həzrətləri də aramızda yoxdurlar.

Sizin getdiyiniz yol haqq, ədalət yoludur. Bu yolda – Qafqazın firavanlığı, gələcəyi, xüsusən Azərbaycanın inkişafı naminə apardığınız bütün işlərdə biz Sizin yanınızdayıq. Siz dini dəyərlərimizin, məbədlərimizin, müqəddəs yerlərimizin qorunmasında, bərpa edilməsində çox böyük işlər görmüsünüz və görürsünüz. Bu işləriniz saymaqla qurtarmaz.

Burada əyləşənlərin hamısı Sizə, ailənizə, ulu öndərə çox böyük rəğbət bəsləyirlər. Allah-Təala bütün işlərinizə rəvac versin. Bizim yolumuz haqq yoludur. Yuxarıda Allahın, aşağıda Heydər Əliyevin göstərdiyi yoldur. Bizi bu yoldan heç bir şey döndərə bilməyəcəkdir.

## ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*17 may 2011-ci il*

*Mayın 17-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Çexiya Respublikasının Prezidenti Vatslav Klausun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Çexiya prezidenti Vatslav Klausu və xanımı Liviya Klausovanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Çexiya prezidentinə raport verdi.*

*Çexiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Çexiya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Vatslav Klausa, Çexiya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*17 may 2011-ci il*

*Mayın 17-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çexiya Respublikasının Prezidenti Vatslav Klausun təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Dövlət başçıları ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdilər.*

*Prezidentlər Azərbaycan–Çexiya münasibətlərinin Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdilər.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 may 2011-ci il*

*Mayın 17-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Çexiya prezidenti Vatslav Klausun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha Azərbaycanda salamlamaq istəyirəm.

Bu Sizin ölkəmizə ilk səfərinizdir. Əminəm ki, səfər çox uğurlu olacaqdır. Biz gündəliyimizdə olan müxtəlif mövzulara, ikitərəfli münasibətlərimizə, o cümlədən Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa aid çox yaxşı müzakirələr apardıq.

Əminəm ki, səfər və onun nəticələri əlaqələrimizi daha da gücləndirəcəkdir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərə olduqca böyük əhəmiyyət veririk. Əlaqələrimiz çox uğurla inkişaf edir. Yüksək səviyyəli nümayəndə heyətlərinin bir çox səfərləri həyata keçirilmişdir. Əlbəttə ki, cənab Prezidentin rəsmi səfəri münasibətlərimizin ən vacib məqamıdır. Əminəm ki, səfər əməkdaşlığımızın siyasi, iqtisadi, mədəni və enerji sahələrində olduqca fəal şəkildə inkişafı ilə nəticələnəcəkdir. Bir sözlə, ikitərəfli gündəliyimiz kifayət qədər genişdir. Ümid edirik ki, səfər nəticəsində ölkələrimizin işgüzar dairələri bir yerə toplaşacaq və birgə biznes imkanlarını araşdıracaqlar.

Mən Sizi bir daha salamlayıram və çox şadam ki, proqramınız çərçivəsində Siz Azərbaycan rayonlarının birinə səfər

edəcəksiniz. Vacibdir ki, nəinki paytaxtla, o cümlədən regional inkişafla da tanış olasınız. Ümid edirəm ki, Sizin yaxşı təəssüratlarınız olacaqdır.

Bir daha xoş gəlmisiniz!

**V a t s l a v K l a u s**: Sağ olun, cənab Prezident!

Yeri gəlmişkən, onu deməliyəm ki, biz cənab Prezidentlə artıq bütün problemləri həll etmişik. Yenidən davam etməyə, məncə ehtiyac yoxdur. Bizim dostluq mühitində keçmiş intensiv və səmərəli danışıqlarımız olub.

Sadəcə, təkrar etmək istəyirəm ki, dəvətə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu səfərə artıq uzun müddət idi ki, hazırlaşırdım. Hesab etdim ki, əgər dünyanın bu bölgəsinə, bu regiona və bu ölkəyə səfər etməsəm, onda gündəliyim dolğun olmazdı.

Biz o faktı dəyərləndiririk ki, ölkələrimiz arasında münasibətlər son bir neçə il ərzində daha da intensivləşir. Bir sıra siyasətçilərin və iş adamlarının həyata keçirilmiş səfərləri çox müsbət haldır. Ümid etmək istəyirəm ki, bu gün imzalanacaq sənədlər əməkdaşlığımıza əlavə təkan verəcəkdir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*17 may 2011-ci il*

*Mayın 17-də prezident İlham Əliyevin və prezident Vatslav Klausun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan–Çexiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Çexiya Respublikasının Texniki Standartlaşdırma, Metrologiya və Dövlət Sınaqları üzrə İdarəsi arasında standartlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və Çexiya Respublikası Texniki Standartlaşdırma, Metrologiya və Dövlət Sınaqları üzrə İdarəsinin prezidenti Milan Holeçek imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş»i Azərbaycanın Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiyanın Azərbaycandakı səfiri Radek Matula imzaladılar.*

*«Azərbaycan Respublikası və Çexiya Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycanın Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiyanın Azərbaycandakı səfiri Radek Matula imzaladılar.*

## ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUS İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*17 may 2011-ci il*

*Mayın 17-də Azərbaycan–Çexiya sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev və Çexiya prezidenti Vatslav Klaus bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bir daha deyirəm, xoş gəlmisiniz! Bu, ölkəmizə Sizin ilk rəsmi səfərinizdir. Əminəm ki, səfərin müsbət nəticələri olacaqdır. Biz gündəlikdə duran ikitərəfli mövzular, regional məsələlər, o cümlədən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq üzrə geniş müzakirələr apardıq. Tərəflər arasında yüksək səviyyədə qarşılıqlı anlaşma mövcuddur. Ölkələrimiz arasında siyasi münasibətlər uğurla inkişaf edir. Çexiya Respublikası Prezidentinin Azərbaycana rəsmi səfəri daha da güclənən siyasi dialoqun göstəricisidir və digər sahələrdə də münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı imkan yaradır. İqtisadi əlaqələrin inkişafına hər iki tərəf böyük maraq göstərir. Bu gün biz Çexiya–Azərbaycan biznes-forumunda iştirak edəcəyik. Bilirəm ki, Çexiya iş adamlarından ibarət böyük nümayəndə heyəti cənab Prezidenti müşayiət edir. Əminəm ki, işgüzar dairələr birgə işləmək üçün bir çox imkanlar əldə edəcək, sərmayə və birgə layihələrin həyata keçirilməsi imkanlarını araşdıracaqlar.

Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq ikitərəfli münasibətlərimizin bir hissəsidir. Biz Çexiya tərəfinə Avropa

İttifaqı–Azərbaycan tərəfdaşlığına verdiyi dəstəyə görə olduqca minnətdarıq. Hazırda biz «Şərq Tərəfdaşlığı» Proqramında iştirak edirik və ümidvarıq ki, bu proqram nəticəsində Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər daha da sıx olacaqdır. Çox şadıq ki, Azərbaycanın karbohidrogen resursları artıq Çexiya Respublikasının bazarına çıxarılır. Ümidvarıq ki, bu əməkdaşlıq növbəti illərdə daha da artacaqdır. Hazırda biz neft ixrac edirik, lakin gələcəkdə qaz sektorunda da əməkdaşlıq ikitərəfli münasibətlərimizin bir hissəsi olacaqdır. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə imzalandı. Avropanın enerji təhlükəsizliyi və Avropa ilə enerji əməkdaşlığı Avropa İttifaqı–Azərbaycan tərəfdaşlığının gündəliyində daim duran məsələlərdir.

Bu gün biz, həmçinin regional məsələləri, o cümlədən regional əməkdaşlıq və təhlükəsizlik məsələlərini müzakirə etdik. Mən cənab Prezidentə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və danışıqlar prosesi haqqında məlumat verdim. Uzun illərdir ki, Azərbaycan əraziləri işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın vəziyyətinə düşüb və ərazimizin 20 faizi 20 ildir ki, işğal altındadır. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrində erməni silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz və dərhal çıxarılması tələb edilir. Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra olunmamış qalır. ATƏT-in qərarları, Avropa parlamentinin, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qətnamələri eyni tərzdədir və eyni məna daşıyır. Münaqişə beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Bundan sonra regionda sülh bərqərar olunacaqdır.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkələrimiz arasında münasibətlərimiz olduqca güclü tərəfdaşlıq ruhunda inkişaf edir. Əminəm ki, cənab Prezidentin səfəri və səfərin nəticələri bu tərəfdaşlığı gücləndirəcək, biz tərəfdaşlıq və

dostluğu daha da inkişaf etdirəcəyik. Cənab Prezident, bir daha xoş gəlmisiniz!

## Çexiya prezidenti Vatslav Klausun bəyanatı

Cənab Prezident!

Xanımlar və cənablar!

Mənə söz verdiyinizə görə təşəkkür edirəm. Cənab Prezident, dəvətinizə görə minnətdaram. Bu mənim Çexiya Respublikasının Prezidenti kimi, ölkənizə ilk səfərimdir.

Ölkənizə səfərimlə Azərbaycan və Çexiya xalqlarına aydın işarə verirəm ki, biz Azərbaycan–Çexiya, Çexiya–Azərbaycan əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni sahələrdə genişləndirilməsində olduqca maraqlıyıq. Bu mənim üçgünlük səfərimin əsas məqsədi və marağını təşkil edir. Cənab Prezident, biz buraya açıq ürəklə gəlmişik. Biz buraya ölkənizi daha yaxından tanımaq, anlamaq üçün gəlmişik.

Ermənistanla olan ağrılı münaqişədən xəbərimiz vardır və bu münaqişənin həllinə kiçik də olsa, öz yardımımızı etmək istərdik. Avropa İttifaqının son «Şərq Tərəfdaşlığı» Proqramına da xüsusi diqqət yetiririk. Çexiya Respublikası bu ideyanın ərsəyə gəlməsində təşəbbüskarlardan biri olub. 2 il öncə «Şərq Tərəfdaşlığı» Proqramı ilə bağlı Praqada görüş keçirildi və biz o zaman orada görüşdük. Cənab Prezident, Sizə həmin vaxt söz verdim ki, səfər edəcəyəm və budur, bu gün artıq buradayam. Cari ilin sonunda Varşavada keçirilməsi nəzərdə tutulan «Şərq Tərəfdaşlığı» sammitini səmimiyyətlə arzulayırıq. Ümid edirəm ki, bu tədbir Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətləri daha da inkişaf etdirəcəkdir.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*17 may 2011-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Çexiya Respublikasının Prezidenti Vatslav Klaus və xanımı Liviya Klausova mayın 17-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Çexiya dövlətinin başçısını və xanımını Azərbaycan prezidenti İlham Əliyev qarşıladı.*

*Prezident İlham Əliyev ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə kömək edir.*

*Çexiya prezidenti və xanımı ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldular.*

*Fondla tanışlıq zamanı prezident Vatslav Klausa və xanımı Liviya Klausovaya məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir.*

*Prezident Vatslav Klaus fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Çexiya dövlətinin başçısına Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu.*

## AZƏRBAYCAN–ÇEXİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*Bakı Biznes Mərkəzi*

*17 may 2011-ci il*

*Mayın 17-də Bakı Biznes Mərkəzində Azərbaycan prezidenti İlham Əliyevin və Çexiya prezidenti Vatslav Klausun iştirakı ilə Azərbaycan–Çexiya biznes-forumu keçirilmişdir.*

*Dövlətimizin başçısı Çexiya prezidenti Vatslav Klausu qarşıladı.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən cənab Prezidenti Azərbaycanda bir daha salamlayıram. Bu gün biz Çexiya Respublikasının Prezidentinin ölkəmizə səfəri çərçivəsində çox mühüm bir tədbirdə, biznes-forumda toplaşmışıq. Əminəm ki, biznes-forumun nəticələri bizim gözlədiyimiz nəticələrə və ölkələrimiz arasında yaranan münasibətlərə uyğun olacaqdır.

Çexiya Respublikasının Prezidentinin ölkəmizə səfəri mühüm, deyərdim ki, tarixi xarakterli hadisədir. Çünki bu, ilk səfərdir. Ölkələrimiz arasında əməkdaşlığın bütün illəri ərzində ilk dəfədir ki, bu cür yüksək səviyyədə səfər, Prezidentin rəsmi səfəri həyata keçirilir. Düzdür, bundan əvvəl də yüksək vəzifəli rəhbərlərin səfərləri olmuşdur. Lakin Prezidentin rəsmi səfəri xüsusi əhəmiyyət kəsb edir və səfər çox uğurlu keçir.

Bu gün səhər biz çox səmərəli danışıqlar apardıq və çox geniş spektrli məsələləri, o cümlədən iqtisadi sahədə əməkdaşlığı, ölkələrimizin biznes strukturları arasında əlaqələri müzakirə etdik. Hesab edirəm ki, bu gün biz biznes strukturlarına daha sıx əməkdaşlıq etmək üçün mühüm işarə vermə-

liyik. Biznes cəmiyyəti siyasi nüanslara həmişə çox həssas münasibət bildirir və deməliyəm ki, ölkələrimiz arasında siyasi münasibətlər yüksək səviyyədədir. Bizim ölkələr arasında heç bir problem yoxdur. Lakin həm ikitərəfli formatda, həm də Azərbaycan ilə Avropa təsisatları arasında əməkdaşlıq çərçivəsində münasibətləri və əməkdaşlığı möhkəmlətmək üçün qarşılıqlı istək vardır. Fikrimcə, bu cür sanballı siyasi bazaya malik olan biznes öz sözünü deməlidir. Artıq müəyyən uğurlar vardır və cənab Prezidenti biznesmenlərdən ibarət nümayəndə heyətinin müşayiət etməsi bizim biznes qrupları arasında qarşılıqlı marağın göstəricisidir. Zənnimcə, bu gün forumun işi zamanı Azərbaycanın iqtisadi nailiyyətləri, habelə imkanları artıq təqdim edilmişdir ki, ölkəmizdə baş verən hadisələr, iqtisadiyyatın necə transformasiya etməsi, bizim hansı islahatları həyata keçirməyimiz barədə daha dolğun təsəvvür yaransın.

Bizim üçün iqtisadi müstəqillik müstəqilliyimizin əsası olmuşdur. Bizim müstəqillik əldə etməyimizdən 20 ildən az vaxt keçir. Bu il biz ölkəmizin müstəqilliyinin bərpa edilməsinin 20 illiyini təntənəli şəkildə qeyd edəcəyik. Bu illər ərzində Azərbaycanın dünya xəritəsində dinamik inkişaf edən, açıq iqtisadiyyata və inkişaf etmiş infrastruktura malik bir ölkə kimi öz yerini tapması üçün çox iş görülmüşdür. Biz hamımız vaxtilə müəyyən siyasi sistemdə, planlı təsərrüfat, sosializm sistemində yaşamışıq. Ölkəmizdə iqtisadiyyatda özəl sektorun nisbi payı sıfıra bərabər idi. Bu gün isə özəl sektor Azərbaycan iqtisadiyyatının 50 faizdən çoxunu təşkil edir, əsaslı iqtisadi islahatlar aparılmışdır. Biznes üçün yaxşı şərait yaradılmışdır və biz hər il əlavə addımlar atmağa çalışırıq ki, bürokratik əngəllər və maneələr azaldılsın, biznes şəraiti daha yaxşı olsun.

Biz əlverişli investisiya mühiti yarada bilmişik. Bütün dünyadan iri investisiyalar cəlb etmişik. Bunlar əsasən inkişaf etmiş ölkələrin investisiyalarıdır. Bu sərmayələr ilk illərdə əsasən neft-qaz sektoruna yatırılmışdır. Bu da təbii idi, çünki XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan iqti-

sadi baxımdan yalnız enerji ehtiyatlarına malik olan bir ölkə kimi maraq doğururdu. Bizim vəzifəmiz ondan ibarət idi ki, bu marağı iqtisadiyyatın qeyri-neft sektorunun investisiyalarına transformasiya edək. Bunun üçün biz özümüzü etibarlı tərəfdaş kimi təqdim etməli idik ki, əcnəbi investorlar bilsinlər, burada investisiyalar qorunur və dövlət öz üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Bunun üçün bizim əsas kommersiya kontraktlarımız həm də parlamentdə müzakirə edilmiş və qanun qismində qəbul edilmişdir. Mənim fikrimcə bu, dünya tarixində nadir hallardan biridir ki, kommersiya sazişi, iri investisiya layihəsi qanun forması kəsb edir. Bu bizim öz öhdəliklərimizi heç vaxt pozmayacağımız barədə investorlara tam zəmanət vermək üçün edilmişdir. Biz etimad qazana, məbləği on milyard dollarla ölçülən iri investisiyaları cəlb edə bildik. Beləliklə, əlverişli investisiya şəraiti yaratmışıq. Azərbaycan uzun illərdir ki, adambaşına birbaşa xarici investisiyalar göstəricisi üzrə postsovet məkanında liderlik edir.

Energetikaya iri yatırımlar bizə maliyyə ehtiyatları toplamağa imkan verdi. Ölkəmiz dünya iqtisadi dairələrində yaxşı ad qazandı. Üçüncüsü isə iqtisadiyyatın bizim üçün əsas olan sahələrinə – daha doğrusu, qeyri-neft sektoruna, kənd təsərrüfatına, infrastruktura, nəqliyyata, turizmə sərmayələr cəlb edə bildik. Bir neçə il əvvəl müşahidə etdiyimiz neftin qiymətinin kəskin aşağı düşməsi, məhz şaxələndirmə siyasətimiz sayəsində ölkəmizdə, demək olar ki, hiss olunmadı. Halbuki əsas gəlirləri neft satışından gələn ölkə üçün qiymətlərin 4-5 dəfə aşağı düşməsi böyük sınaq idi. Hətta 2008–2009-cu və 2010-cu illərdə, dünya iqtisadi böhranı illərində iqtisadiyyatımız artırdı.

Bu gün Azərbaycanın şaxələnmiş iqtisadiyyatının möhkəm təməli artıq qoyulmuşdur və hazırda biz diqqətimizi məhz buraya cəlb edirik. Biz müasir texnologiyaların inkişafına böyük diqqət yetiririk. Bizim üçün çox vacibdir ki, ölkəmizdə istehsal olunan məhsul beynəlxalq standartlara

uyğun gəlsin və ixrac meyilli olsun. Biz maksimum, o cümlədən kənd təsərrüfatı məhsulları ilə özünütəmin siyasətini həyata keçiririk. Çünki ərzaq təhlükəsizliyi məsələləri hazırda çox böyük əhəmiyyət kəsb edir.

Gələn il ilk Azərbaycan telekommunikasiya peyki orbitə çıxarılacaqdır və Azərbaycan kosmik sənayeyə malik ölkəyə çevrilir. Müasir informasiya texnologiyalarına çoxlu sərmayə qoyulur, internet istifadəçiləri şəbəkəsi inkişaf edir, bu göstəriciyə görə biz regionda birinci yerdəyik.

Turizm sektoruna çoxlu sərmayə qoyulur. Biz turistlərin cəlb edilməsi üçün coğrafiyamızdan və təbii şəraitimizdən istifadə etmək niyyətindəyik və artıq istifadə edirik. Bu il təkcə Bakı şəhərində dünya səviyyəsində 6 yeni beşulduzlu otel açılacaqdır və bu göstərir ki, dünya brendləri Azərbaycana sərmayə qoyulması mümkün və sərmayə qoyulmalı bir ölkə kimi yanaşırlar, ən əsası isə ölkəmizin gələcəyinə inanırlar. Biz uzunmüddətli sərmayələrin, uzunmüddətli tərəfdaşlıq münasibətlərinin yaradılmasının tərəfdarıyıq və bu məqsədlə radikal, çox mühüm iqtisadi islahatlar həyata keçiririk.

Əlbəttə, siyasi islahatlar olmadan iqtisadi islahatlar yalnız qısamüddətli perspektivdə səmərə verə bilər. Buna görə də biz siyasi islahatlar sahəsində çox ardıcıl siyasət aparırıq. Avropa strukturları ilə çox konstruktiv münasibətlər qurmuşuq. 10 ildir Avropa Şurasının üzvüyük, Avropa İttifaqı ilə «Şərq Tərəfdaşlığı» Proqramı üzrə işləyirik. Ölkəmizi modernləşdirmək və Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək niyyətindəyik. Hesab edirəm ki, bunun üçün bütün imkanlarımız vardır – dövlət siyasəti, proqramı, özəl biznesə, sahibkarlığa dövlət dəstəyi, savadlı gənclər və formalaşmaqda olan güclü orta sinif, habelə az əhəmiyyət kəsb etməyən təbii ehtiyatlar və maliyyə müstəqilliyi.

Xatirimdədir, neft layihələrimizin inkişafının birinci mərhələsində xarici mətbuatda Azərbaycan iqtisadiyyatının birtərəfli inkişaf edəcəyi, bizdə «Dutch disease» (Holland xəstəliyi) inkişaf edəcəyi və neft gəlirlərinin lazımi nəticələr

verməyəcəyi barədə çoxlu diskussiyalar aparılırdı. Lakin bizim siyasətimiz və enerji ehtiyatlarından düzgün istifadə olunması ona gətirib çıxardı ki, bu gün artıq heç kim Hollandiya xəstəliyindən danışmır, bu gün artıq ölkəmizin iqtisadi inkişafından söhbət gedir.

Son 7 ildə Azərbaycanda ümumi daxili məhsul, sənaye təxminən 3 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 5 dəfə aşağı düşmüşdür. Bu, bazar iqtisadiyyatının və sosial məsələlərin, bir növ bir-birini tamamlayaraq həll olunmasını göstərir. Çox iri infrastruktur layihələri – kommunikasiya, nəqliyyat, neft-qaz layihələrini həyata keçirmişik və bu gün Azərbaycan nefti həm də Çexiya Respublikasının bazarına daxil olur. Əminəm ki, bu da ixracın şaxələndirilməsinə və iqtisadiyyatın inkişafına kömək edir.

Bu gün biz dünyada ən iri qaz yataqlarından birini – ehtiyatlarının həcmi bir trilyon kubmetrdən çox olan «Şahdəniz» yatağını işləyirik. Ümumiyyətlə, Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bu ehtiyatlar artacaqdır, biz hələ yeni yataqların kəşfiyyatı mərhələsindəyik və Azərbaycanın qaz potensialı bizim tərəfdaş ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaqdır.

Bu gün bizim enerji ehtiyatlarını dünya bazarlarına çatdırmaq üçün şaxələndirilmiş yollarımız vardır. Enerji ehtiyatlarını bütün istiqamətlər üzrə – həm Şimala, həm Qərbə, həm də Cənuba nəql edən üç neft kəməri və dörd qaz kəməri vardır. Şaxələndirmə tamamilə təmin edilmişdir. Biz enerji ehtiyatlarının çatdırılma mənbələrini şaxələndirməyə çalışan istehlakçıları başa düşürük. Buna görə də biz istehsalçılar və istehlakçılar arasında səyləri əlaqələndirməyə, mənafeləri tarazlaşdırmağa və şaxələndirməyə, habelə azad rəqabətə can atırıq.

Ölkəmizdə bundan sonra da zəruri islahatlar həyata keçiriləcəkdir. Biz iri regional inkişaf proqramını reallaşdırırıq və təkcə Bakı deyil, ilk növbədə regionlarımız inkişaf edir.

Son yeddi ildən bir qədər artıq müddətdə regional inkişaf proqramı sayəsində Azərbaycanda 900 mindən çox yeni iş yeri yaradılmışdır və bu iş yerlərinin böyük əksəriyyəti regionlardadır. Azərbaycan İnvestisiya Şirkətini yaratmışıq. Bu şirkət bizim iqtisadiyyat üçün mühüm layihələrdə sərmayədarlardan biridir.

Mən bu fürsətdən istifadə edərək Çexiya Respublikasından olan biznesmenləri bizim tərəfdaşlarımız olmağa, layihələrdə investorlar və ya kontraktorlar qismində iştirak etməyə dəvət etmək istəyirəm və əminəm ki, bunun üçün bütün imkanlar vardır. Sizin ölkənin banklarına bizim ölkədə həyata keçirilən mühüm infrastruktur layihələrinin maliyyələşdirilməsinə görə təşəkkür etmək istərdim. Ümid edirəm ki, bu əməkdaşlıq bundan sonra da uğurla davam edəcəkdir.

Mən bizim əziz qonaqlarımızı bir daha salamlamaq və ümidvar olduğumu bildirmək istəyirəm ki, həm səfər, həm də biznes-forum yaxşı nəticələr verəcəkdir və biz daha tez-tez görüşəcəyik.

**V a t s l a v K l a u s:** Mən çox şadam ki, biz bu səfər barədə 2 il bundan əvvəl Praqada prezident Əliyevlə razılaşmışdıq və nəhayət, onu təşkil etmək mümkün oldu. Ümid edirəm ki, bu səfər təkcə mənim səfərim deyil, həm də bizim nümayəndə heyətinin, biznesmenlərin nümayəndə heyətinin səfəridir, cənab Prezidentin dediyi kimi, bizim bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində ikitərəfli münasibətləri inkişaf etdirməkdə maraqlı olmağımıza mühüm işarədir. İqtisadiyyat ən mühüm sahələrdən biridir. Çünki o bizim münasibətlərin daha da inkişaf etdirilməsi üçün ciddi bazadır. Cənab Prezidentin dediyi kimi, bizim müsbət, səmərəli, faydalı danışıqlarımız olmuşdur. Biz bir-birimizi çox yaxşı başa düşürük və bu, gələcək əməkdaşlıq üçün yaxşı bazadır.

Biz təkcə danışıqlar aparmadıq, həm də dövlətlərimiz arasında üç müqavilə imzaladıq.

Cənab Prezident, biz iqtisadiyyatın sürətlə inkişaf etməsinin şahidiyik. Bu gün təkcə Bakı şəhərində olmaqla bunu yəqin etdik. Ola bilsin ki, ölkənin regionlarında bu inkişaf bir qədər başqa cür görünür. Sonuncu dəfə şəhərdə bu qədər inşaat kranını Çində görmüşdüm. Ola bilər ki, Siz bunları Potyomkin kəndləri kimi göstərirsiniz, istəyirsiniz burada necə inkişaf olduğunu görək. Lakin bu da innovasiya, marketinq olardı. Bu, maraqlı ideya olardı.

Biz buraya açıq gözlə gəlmişik ki, Sizin ölkənizi başa düşək, burada nə baş verdiyini anlayaq.

Bizdə heç bir maliyyə böhranı olmamışdır. Çexiya hökuməti bizim bank, maliyyə sisteminə bir Çexiya kronu da verməmişdir. Bunu etməyə ehtiyac yox idi, bizdə heç nə olmamışdı. Lakin bizdən qərbdəki bazarlar hər şeyi itirdilər. Beləliklə, biz Qərbə ixracımızın xeyli hissəsini itirdik. Buna görə də 2009-cu ildə bizdə iqtisadi tənəzzül oldu. İndi isə deyə bilərəm ki, biz bərpa olunuruq, iqtisadiyyatımız, demək olar ki, normal Avropa sürəti ilə artır. Əlbəttə, bu artım sizdə bir neçə il ərzində müşahidə olunan 20–30 faizlik artım deyildir. Mən ümid edirəm ki, bizim biznesmenlər bu iqtisadi böhran dövründə nəyisə başa düşdülər. Biz başa düşdük ki, ixracın bu qədər yüksək hissəsinin birtərəfli olması çox təhlükəlidir. Buna görə də bizim biznesmenlər ixracı və ticarəti şaxələndirməyə bu qədər böyük maraq göstərirlər. Fikrimcə, çexiyalı sahibkarların Azərbaycana səfərə marağının əsas səbəbi budur. Cənab Prezident, mən ümid edirəm ki, onlar nahardan sonra haradasa bir kafedə əyləşməmiş, burada işləmişlər. Ümid edirəm ki, bizim çıxışlarımız biznes-forumun başlanğıcı deyil, artıq sonudur. Mən onların nə deyəcəklərini, hansı nəticələrə nail olduqlarını gözləyirəm.

Biz Qarabağ problemini hiss edirik. Ümid edirik ki, bu problemi həll edə biləcək müəyyən perspektiv vardır. Biz bu istiqamətdə Sizi dəstəkləməyə hazırıq.

Cənab Prezident, biz ölkənizin Avropa ruhunu da çox yaxşı başa düşür və hiss edirik. Bu mənada da biz sizi dəs-

təkləyirik. 2 il əvvəl bizim «Şərq Tərəfdaşlığı» ideyası ilə əlaqədar ilk görüşümüz olmuşdu. Biz Praqada görüşmüşdük. Bu ilin payızında həmin proqram üzrə sammit Varşavada olacaqdır. Mən ümid edirəm ki, bu görüş müsbət nəticələr verəcəkdir.

Cənab Prezident, xanımlar və cənablar, səmimi qəbula görə, Sizin burada olmağınıza görə bir daha təşəkkür edirəm və ümid edirəm ki, bu forum müsbət nəticələr verəcəkdir. Çox sağ olun.

* * *

*Forumdan sonra prezidentlər İlham Əliyev və Vatslav Klaus Dənizkənarı Milli Parkda Bakının mənzərəsini seyr etdilər. Çexiya prezidentinə son illərdə sürətlə inkişaf edən Azərbaycanın paytaxtında görülən abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verildi.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*17 may 2011-ci il*

*Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Çexiya prezidenti Vatslav Klausun və xanımı Liviya Klausovanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanım Liviya Klausova!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini məmnuniyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Cənab Prezident, ölkəmizə ilk səfəriniz Azərbaycan–Çexiya münasibətlərində əlamətdar hadisədir. İnanıram ki, bu səfəriniz müxtəlif sahələrdə əməkdaşlığımızın daha da inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.

Keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanan sənədlər və bugünkü biznes-forum əlaqələrimizin yeni mərhələyə qalxmasına təkan verəcəkdir.

Mən ikitərəfli münasibətlərimizin inkişaf etməsi və keyfiyyətcə yeni mərhələyə qalxması məqsədi ilə qarşılıqlı səylərin artırılmasını vacib sayıram.

Bu gün ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı üçün əlverişli şərait və imkanlar vardır. Azərbaycanda gedən böyük tikinti işlərində çex banklarının da kreditor qismində iştirak etməsi müsbət haldır. Çexiya Res-

publikasının enerji bazarında Azərbaycan nefti mühüm yer tutur. Bu baxımdan əlaqələrimizin daha da intensivləşdirilməsi üçün hər iki ölkənin iqtisadi subyektləri arasında birbaşa əməliyyatların aparılmasına ehtiyac yaranmışdır. Ölkələrimiz beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlarla əlaqələr mühüm yer tutur. BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurasında əməkdaşlığımız məmnunluq doğurur.

Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır və Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır. Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və müxtəlif layihələr üzərində işləyirik. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Azərbaycan ilə Avropa İttifaqı arasında 2006-cı ildə imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu, eləcə də bu ilin yanvar ayında imzalanmış Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə bunun bariz nümunəsidir.

Son illər Azərbaycanda həyata keçirilən konkret layihələr ölkəmizin dinamik inkişafını təmin edir, regionda əməkdaşlıq proseslərinə müsbət təsir göstərir. Görülən işlər nəticəsində Azərbaycan sürətlə inkişaf edir. Hətta dünya maliyyə böhranının çətin illərində belə, ölkəmizin iqtisadi inkişafı davam etmişdir. Son 7 ildə ölkədə ümumi daxili məhsul təxminən 3 dəfə, 2009-cu və 2010-cu illərdə iqtisadiyyatımız 14 faiz artmış, valyuta ehtiyatları təxminən 35 milyard ABŞ dollarına çatdırılmış, yoxsulluq səviyyəsində yaşayan insanların sayı 5 dəfə azalmış, ölkəmizə 80 milyard dollardan çox sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Lakin təəssüflə qeyd etməliyəm ki, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu günə kimi həll edilməmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi –

Dağlıq Qarabağ və ətrafdakı 7 rayon hələ də işğal altında qalmaqdadır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, ATƏT, Avropa parlamenti, Avropa Şurasının Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident!

Bir daha Sizi ürəkdən salamlayır, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram.

Bu badəni Sizin və xanımınızın sağlığına, Çexiya Respublikası ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

## Çexiya prezidenti Vatslav Klausun nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İcazə verin, gözəl ölkənizə dəvət aldığım üçün Sizə dərin təşəkkürlərimi bu mötəbər məclisdə bir daha təkrarlayım.

Mən çox istərdim ki, Sizin ölkənizə Çexiya prezidentinin bu tarixi ilk səfərini bizim tərəfimizdən göstərilən maraq və qarşılıqlı münasibətlərin genişlənməsi üçün atılan addım kimi qiymətləndirəsiniz.

Keçmişdən qalan bütün müsbət halları davam etdirmək lazımdır. Ancaq bu münasibətlərə indi yeni impuls və müasirlik gətirmək istəyirik. Azərbaycanı böyük inkişaf potensialına malik olan ölkə kimi qəbul edirik və bu potensialdan istifadə olunmasına Çexiya şirkətləri də öz töhfələrini vermək marağındadırlar.

Çox gözəl başa düşürük ki, Sizin ölkəniz bu çətin və iğtişaşlı regionda sabitləşdirici amilə malikdir, həmçinin Avropa ölkələrinin enerji balansında əhəmiyyətli rol oynayır.

Bizim ölkəmiz də idxal etdiyi neftin ümumi həcminin 25 faizini Sizin ölkədən alır. Məhz bu sahədə əməkdaşlıqda geniş potensiallar mövcuddur.

Hörmətli cənab Prezident!

3 il bundan qabaq Praqada Avropa İttifaqına sədrlik zamanı Sizinlə başlayan dialoqumuza görə çox şadam. Bu görüşümüz «Şərq Tərəfdaşlığı» layihəsi çərçivəsində baş tutmuşdur və fikrimizcə Avropa siyasətinin vacib məqsədlərindən biri olmalıdır. Ümid edirəm ki, bu il nəzərdə tutulan «Şərq Tərəfdaşlığı» Varşava zirvə toplantısı bunu sübut edəcəkdir.

Çexlər çox səyahət edən xalqdır. Yad ölkələri yaxından tanımağı xoşlayırlar. Ancaq bildiyimə görə, Xəzər dənizinin gözəlliklərini və sizin füsunkar dağlarınızı hələlik kəşf etməyiblər. İnanıram ki, bu, tezliklə baş verəcək və həmçinin bizim ölkəmizə də sizlərdən qonaqlar gələcəklər.

Mən Sizin ölkənizə Çexiya şirkətlərini təmsil edən çoxsaylı nümayəndə heyəti ilə gəlmişəm və onlar iqtisadi əməkdaşlığın genişlənməsinə böyük maraq göstərirlər. Buna görə də inanıram ki, bizim səfərimiz aramızdakı siyasi dialoqun gücləndirilməsi və ikitərəfli müqavilə əməkdaşlığının genişlənməsi, həm də ticarət əlaqələrinin və investisiyaların artması üçün yeni impuls olacaqdır.

Əminəm ki, bunun fonunda mədəni əlaqələr və vətəndaşlar arasında ünsiyyət də inkişafdan qalmayacaqdır.

Hörmətli cənab Prezident!

İcazə verin, bu badəni ölkənizin uğurlarının, Çexiya–Azərbaycan dostluğunun şərəfinə və şəxsən Sizin və yaxınlarınızın sağlığına qaldırım.

## AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ GERHARD ROİSS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Avstriyanın OMV şirkəti İdarə Heyətinin sədri Gerhard Roissi qəbul etmişdir.*

*OMV şirkəti İdarə Heyətinin sədri Gerhard Roiss Avstriya prezidenti Haynts Fişerin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə neft və qazın hasilatı, nəqli, Avropada marketinqi və satışı sahəsində mümkün əməkdaşlıq, Nabukko layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Avstriya prezidenti Hayntz Fişerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avstriya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## DÖVLƏT BAYRAĞI MEYDANININ ƏTRAFINDA HƏYATA KEÇİRİLMİŞ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*18 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Dövlət Bayrağı Meydanının ətrafında həyata keçirilmiş abadlıq və quruculuq işləri ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev 2010-cu il noyabrın 9-da Azərbaycanda ilk dəfə qeyd edilən Dövlət Bayrağı günü münasibətilə təşkil edilmiş mərasimdə Dövlət Bayrağı Meydanının ətrafında tikinti-quraşdırma işlərinin davam etdirilməsi ilə bağlı tapşırıqlarını vermişdi. Meydanın ətrafındakı 60 hektar ərazidə parkların, bulvarın, istirahət və gəzinti yerlərinin salınması istiqamətində xeyli iş görülübdür. Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlətimizin başçısı Bakıda icra edilən böyük layihələrdən olan Dövlət Bayrağı Meydanı ətrafında görülmüş işlərin tamamlanması və bu ilin sonunadək paytaxt sakinlərinin istifadəsinə verilməsi ilə bağlı göstərişlər verdi.*

*Bu böyük layihənin icrasını daim diqqət mərkəzində saxlayan Azərbaycan prezidenti İlham Əliyev burada aparılmış tamamlama işləri ilə yerində tanış oldu. Bakı şəhərinin sxemi əsasında Dövlət Bayrağı Meydanında və ətraf ərazilərdə həyata keçirilmiş quruculuq işləri barədə prezident İlham Əliyevə ətraflı məlumat verildi.*

*Dövlətimizin başçısı Bayraq meydanından şəhərin ponoramını da seyr etdi.*

*Ərazidə aparılmış abadlıq və quruculuq tədbirləri ilə yaxından tanış olan prezident İlham Əliyev işlərin sürətlə və keyfiyyətlə həyata keçirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN ƏMƏKDAŞLARI ÜÇÜN İNŞA EDİLMİŞ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*19 may 2011-ci il*

*Mayın 19-da Dövlət Sərhəd Xidmətinin əməkdaşları üçün inşa edilmiş yeni yaşayış kompleksi istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin göstərdiyi yüksək diqqət və qayğı nəticəsində ölkəmizdə Dövlət Sərhəd Xidməti ən müasir tələblər səviyyəsinə yüksəlmişdir. Son illər dövlət sərhədlərinin etibarlı şəkildə qorunması, xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika, avadanlıq və ləvazimatla təmin olunması, yeni sərhəd infrastrukturunun yaradılması, kadr hazırlığı, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində böyük işlər görülmüşdür. Xidmətin təkmilləşdirilməsi dövlət sərhədlərinin toxunulmazlığının təmin edilməsinə, beynəlxalq terrorizmə, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizədə mühüm nailiyyətlərin əldə olunmasına gətirib çıxarmışdır.*

*Dövlət Sərhəd Xidmətində sərhədçilərin sosial problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına əsasən paytaxtın Nərimanov rayonu ərazisində sərhədçilər üçün yeni yaşayış kompleksi tikilib istifadəyə verilmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının Komandanı general-leytenant Elçin Quliyev Azərbaycan Respubli-*

*kasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı sərhədçi ailələri üçün inşa edilmiş yeni yaşayış kompleksində yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, kompleks 1,6 hektar sahəni əhatə edir. Burada 12 mərtəbəli 264 mənzilli yaşayış binası inşa olunmuşdur. Yaşayış binası iki və üçotaqlı mənzillərdən ibarətdir. Kompleksdə sərhədçilər üçün bütün şərait yaradılmışdır. Burada uşaq bağçası, qadın və kişi fitnes salonları, market və kafe, voleybol və basketbol meydançaları, avtomobil dayanacağı və istirahət parkı vardır.*

*Dövlətimizin başçısı yaşayış kompleksində yaradılan ayrı-ayrı xidmət sahələri ilə tanış oldu. Yaşayış kompleksi havalandırma, yanğınsöndürmə, müasir işıqlandırma və suvarma sistemləri ilə təchiz edilib. Kompleksin ərazisində abadlaşdırma və yaşıllaşdırma işləri aparılıb, çəmənliklər salınıb, dekorativ ağac və kollar əkilib.*

*Yaşayış kompleksi ilə tanışlıqdan sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bir qrup işçilərə mənzillərin orderlərini təqdim etdi.*

## BMT-nin QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERRES İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da BMT-nin qaçqınlar üzrə ali komissarı Antonio Quterresi qəbul etmişdir.*

*BMT-nin qaçqınlar üzrə ali komissarı Antonio Quterres Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində əldə olunan nailiyyətləri digər ölkələrə nümunə kimi qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulandı və bu əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU, MƏRDƏKAN, BİLGƏH QƏSƏBƏLƏRİ VƏ PAYTAXT İSTİQAMƏTİNDƏ YENİ YOL İNFRASTRUKTURUNUN GENİŞLƏNDİRİLMƏSİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*20 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Heydər Əliyev Beynəlxalq Aeroportu, Mərdəkan, Bilgəh qəsəbələri və paytaxt istiqamətində yeni yol infrastrukturunun genişləndirilməsi işlərinin gedişi ilə tanış olmuşdur.*

*Məlum olduğu kimi, prezident İlham Əliyevin tapşırığı ilə Bakı şəhərində yolların abadlaşdırılması, paytaxt sakinlərinin asudə vaxtlarını səmərəli keçirməsi üçün yeni park və xiyabanların, yaşıllıq zolaqlarının salınması istiqamətində xeyli işlər görülmüşdür. Prezident İlham Əliyevin tapşırığı ilə Heydər Əliyev prospekti əsaslı surətdə yenidən qurulmuş, magistral genişləndirilərək yeni yolötürücüləri və körpülər inşa edilmiş, yaşayış binalarının fasadları müasir səviyyədə təmir olunmuşdur. Dövlətimizin başçısı paytaxt və paytaxtətrafı kəndlərdə, qəsəbələrdə həyata keçirilmiş abadlıq və quruculuq işlərini daim diqqət mərkəzində saxlayır.*

*Görülmiş işlərlə yaxından tanış olan prezident İlham Əliyev paytaxtın giriş qapısı hesab edilən Heydər Əliyev prospektinin şəhərə qədər olan hissəsinin daha da abadlaşdırılması, yolboyu yaşıllıq zolaqlarının salınması, Heydər Əliyev Beynəlxalq Aeroportu, Mərdəkan, Bilgəh qəsəbələri və paytaxt istiqamətində yeni yol infrastrukturunun genişləndirilməsi ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Avropa parlamentinin sədri Yeji Buzeki qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı, Avropa parlamenti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, Avropa parlamentinin sədri Yeji Buzekin ölkəmizə səfərinin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Sizi və bütün Rusiya xalqını dövlət bayramı – Rusiya günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu gün dost Rusiya cəmiyyət həyatının siyasi, sosial-iqtisadi və mənəvi sahələrinin modernləşdirilməsi yolunda uğurla irəliləyir.

Azərbaycan və Rusiya əsrlər boyu bir-biri ilə sıx dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək telləri ilə bağlıdır. Əminəm ki, bu mehriban münasibətlərə əsaslanaraq bizim çoxşaxəli əməkdaşlığımız və strateji tərəfdaşlığımız bundan sonra da xalqlarımızın və ölkələrimizin firavanlığı, regionda sülh, sabitlik və tərəqqi naminə dinamik inkişaf edəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, bütün Rusiya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2011-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Bu gün Azərbaycan ilə Birləşmiş Krallığı sıx dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Ümidvaram ki, dövlətlərarası münasibətlərimizin daha da möhkəmləndirilməsi, bir sıra mühüm sahələri əhatə edən işbirliyimizin müvəffəqiyyətlə davam etdirilməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2011-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Portuqaliya arasındakı mövcud münasibətlərin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2011-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Filippin arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2011-ci il*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA**

Əlahəzrət!

Milli bayramınız – İsveç bayrağı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İsveç münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında öz inkişafını davam etdirəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveç xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2011-ci il*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MOHAMMAD REZA RAUF ŞEYBANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də İran İslam Respublikası Xarici İşlər nazirinin müavini Mohammad Reza Rauf Şeybanini qəbul etmişdir.*

*Mohammad Şeybani İran İslam Respublikasının Ali Dini Rəhbəri Ayətullah Xameneinin və İran prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. O, prezident Mahmud Əhmədinejadın və İranın digər yüksək rütbəli rəsmilərinin Azərbaycan prezidenti İlham Əliyevin şəxsiyyətinə xüsusi hörmət və ehtiram bəslədiklərini, Azərbaycana və xalqına daim inkişaf arzuladıqlarını dedi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini və bu əlaqələrin hazırda yüksək səviyyədə olduğunu məmnunluqla qeyd etdi. Azərbaycan ilə İranın siyasi əlaqələrinin güclü olduğunu, iqtisadi sahədə yeni təşəbbüslərin irəli sürüldüyünü vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında çoxlu sayda ikitərəfli sənədlərin imzalanmasının əhəmiyyətini qeyd etdi. İran prezidenti Mahmud Əhmədinejadla mütəmadi olaraq görüşlərini xatırladan prezident İlham Əliyev onunla dostluq əlaqələrinin iki ölkə arasındakı münasibətlərə və xalqlarımız arasındakı dostluq və qardaşlıq əlaqələrinə müsbət təsir göstərdiyini dedi.*

*Dövlətimizin başçısı İranın Ali Dini Rəhbəri Ayətullah Xameneinin və prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran İslam Respublikasının Ali Dini Rəhbərinə və prezidentinə çatdırmağı xahiş etdi.*

## QAZAXISTANIN YUNESKO-dakı DAİMİ NÜMAYƏNDƏSİ, ŞAİR, YAZIÇI OLJAS SÜLEYMENOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi, şair, yazıçı Oljas Süleymenovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Oljas Süleymenovu anadan olmasının 75 illik yubileyi münasibətilə təbrik etdi, ona yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzuladı. Dövlətimizin başçısı Azərbaycanın çox çətin vaxtlarında, xalqımızın 20 Yanvar faciəsi ilə üzləşdiyi bir zamanda Oljas Süleymenovun qətiyyətli mövqedə durmasının və Azərbaycanın yanında olmasının xalqımız tərəfindən heç vaxt unudulmayacağını dedi. Prezident İlham Əliyev Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi və ictimai xadim kimi, Oljas Süleymenovun bu gün Azərbaycanın uğurlarına və ölkəmizin inkişafına ürəkdən sevinməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğindəki xidmətlərinə görə dövlətimizin yüksək mükafatını – «Dostluq» ordenini Oljas Süleymenova təqdim etdi.*

*Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi, şair, yazıçı Oljas Süleymenov Azərbaycan dövlətinin yüksək ordeninə layiq görüldüyünə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və bu hadisəni onun Azərbaycana olan münasibətinin yüksək ifadəsi kimi dəyərləndirdi.*

## BAKIƏTRAFI KƏND VƏ QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI PAYTAXTIN ŞÜVƏLAN VƏ SABUNÇU QƏSƏBƏLƏRİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*24 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı ilə əlaqədar müşavirədə kənd və qəsəbələrdə abadlıq və quruculuq işləri ilə bağlı verdiyi tapşırıqların icrası ilə tanışlıq üçün ayrı-ayrı yaşayış sahələrində olmuşdur.*

*Mayın 24-də dövlətimizin başçısı paytaxtın Şüvəlan və Sabunçu qəsəbələrində görülmüş işlərlə yaxından tanış olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə Xəzər rayonunun Şüvəlan qəsəbəsinə gəldi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Şüvəlan qəsəbəsinin sxemi əsasında həyata keçirilmiş abadlıq və quruculuq tədbirləri barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirədə Azərbaycan prezidentinin verdiyi tapşırıqlara uyğun olaraq paytaxtın digər kənd və qəsəbələrində olduğu kimi, Şüvəlanda da abadlıq və quruculuq tədbirlərinə başlanılmışdır.*

*Görülmüş işlərlə yaxından tanış olan dövlətimizin başçısı sakinləri salamladı.*

**İ l h a m Ə l i y e v:** Necəsiniz, işlər necədir?

Şüvəlan qəsəbəsində də işlər yaxşı gedir, yollar çəkilir, bütün infrastruktur yeniləşəcəkdir. Bildiyiniz kimi, Bakıətrafı qəsəbələrin inkişafı proqrami qəbul edilibdir. Çox böyük proqramdır və orada hər bir qəsəbə üçün xüsusi məsələlər

nəzərdə tutulub, onlar öz həllini gözləyir. İki il yarım ərzində Bakıətrafı qəsəbələrdə bütün sosial və iqtisadi məsələlər həllini tapacaqdır. İndi biz birinci mərhələdə yolların çəkilişi ilə məşğuluq. Müvafiq göstərişlər verilib, vəsait ayrılıb və Şüvəlan qəsəbəsində yollar çəkilir. Bununla bərabər, bütün başqa məsələlər də öz həllini tapmalıdır.

Proqramda hər bir qəsəbə üzrə konkret layihələr nəzərdə tutulubdur. Şüvəlan qəsəbəsində də həllini gözləyən bütün məsələlər həll olunacaqdır. Xüsusilə yollar, qazlaşdırma ilə bağlı məsələlər daha da böyük həcmdə həll olunmalıdır. Qaz təchizatında işlər daha da yaxşı görülməlidir. Su və kanalizasiya məsələləri həll edilməlidir. Bilirəm ki, insanları ən çox narahat edən məsələ budur. Bütün sosial məsələlər həll olunmalıdır. Uşaq bağçaları, məktəblər təmir olunmalıdır. Elə etməliyik ki, iki il yarım ərzində Bakının bütün ətraf qəsəbələrində sosial və infrastruktur məsələləri öz həllini tapsın. Bu günə qədər müəyyən işlər görülmüşdür. O cümlədən Şüvəlan qəsəbəsində abadlıq, quruculuq işləri aparılmışdır, yeni binalar, məktəblər tikilmişdir. Ancaq icrasını gözləyən məsələlər tezliklə öz həllini tapmalıdır. Sizdən xahiş edirəm, bu işlərə nəzarət edəsiniz və çatışmayan məsələlər haqqında məlumat verəsiniz.

Keçən dəfə Mərdəkan qəsəbəsində olarkən vətəndaşlarla görüş zamanı məsələ qaldırıldı ki, 5 il əvvəl tikilmiş məktəb artıq yararsız vəziyyətə düşmüşdür. Mən özüm o məktəblə tanış oldum, gördüm ki, doğrudan da orada təmirə ehtiyac vardır. Görünür ki, vaxtilə o məktəbi tikənlər məsələyə çox laqeyd yanaşmışlar. Keyfiyyətsiz işlər görmüşlər və yaxşı ki, mənə məlumat verildi. Məlumat verilməsəydi bilməyəcəkdim. Deyəcəkdim ki, məktəb 5 il bundan əvvəl tikilibdir, yaxşı vəziyyətdədir. Ona görə də görülən işlərə ictimai nəzarət və əhali tərəfindən nəzarət olmalıdır, çatışmayan məsələlər haqqında da vaxtında məlumat verilməlidir.

Yəqin ki, siz proqramda Şüvəlan qəsəbəsi ilə bağlı nəzərdə tutulmuş məsələlərlə tanışsınız. Əgər əlavə arzularınız,

xahişlәriniz varsa mәnә deyin ki, biz onları da nәzәrә alaq. Çünki proqramın hazırlanması işinә biz, әlbәttә ki, bütün müvafiq dövlәt qurumlarını cәlb etmişdik vә maksimum çalışmışdıq ki, bütün mәsәlәlәr bu proqrama salınsın. Bәlkә elә mәsәlә vardır ki, orada yoxdur, amma hәllini gözlәyir. Siz mәnә deyin, onları da hәll edәk. İstәyirәm ki, Bakıәtrafı qәsәbәlәrin hamısında bütün mәsәlәlәr, hәllini gözlәyәn işlәr tezliklә vә yüksәk keyfiyyәtlә icra edilsin.

**S a k i n:** Cәnab Prezident, Bakıәtrafı kәndlәrin abadlaşdırılması ilә bağlı qәbul etdiyiniz sәrәncam bizi çox sevindirir. Şüvәlanda yaşayanların böyük әksәriyyәti Qala kәndindәndir. Qala kәndinin abadlaşması, onun tarixi möhtәşәmliyinin özünә qaytarılması da bizi çox sevindirir. Buna görә Sizә vә Mehriban xanıma möhkәm cansağlığı arzulayırıq. Sizin gördüyünüz bu işlәr biz dindarları ikiqat sevindirir. Quranın ayәlәrini oxuduqda görürük ki, Allah bizә xatırladır: «Torpaqdan yaranmısınızsa, torpağın üzәrindә quruculuq işlәri görün, torpağı abadlaşdırın». Biz Quranın bu ayәsindә deyilәnlәri Sizin hәyata keçirdiyiniz işlәrin timsalında çox aydın görürük. Bütün bunlara görә Allah-Tәaladan Sizә müvәffәqiyyәt, möhkәm cansağlığı arzulayırıq.

**İ l h a m Ә l i y e v:** Sağ olun. Biz elә etmәliyik ki, ölkә qarşısında duran bütün vәzifәlәr öz hәllini tapsın. Hәm iqtisadi, hәm sosial mәsәlәlәrin hәlli ilә ciddi mәşğuluq. Tarixi keçmişimizә, mәdәniyyәtimizә, dini abidәlәrin qorunmasına da böyük diqqәt göstәrilir. İndi ölkәdә bütün dini abidәlәrimiz böyük zövqlә, böyük sevgi ilә tәmir edilir, bәrpa olunur. Bu bizim mәnәvi dayağımızdır. Biz çox möhkәm milli vә tarixi tәmәl üzәrindә müasir dövlәt qururuq. Mәdәniyyәtlә bağlı bütün mәsәlәlәr dә Azәrbaycanda uğurla hәll olunur.

Siz Qala kәndini misal gәtirdiniz. Qala indi ölkә miqyasında çox yaxşı tanınan bir kәnd olubdur. Çünki orada Etnoqrafiya Muzeyinin fәaliyyәtә başlaması vә onun әtrafında gedәn abadlıq işlәri zövq oxşayır. Hәm ölkә vәtәndaşları,

həm də xaricdən gələn qonaqlar çalışırlar ki, oraya getsinlər və orada Azərbaycanın qədim tarixi ilə əyani şəkildə tanış olsunlar. Qala kəndinin abadlaşması ilə bağlı əlavə göstərişlər verilmişdir. Orada böyük binalar tikilir, gözəl istirahət zonaları yaradılır. Hesab edirəm ki, yaxın zamanlarda oraya insan axını daha da güclü olacaqdır.

Bütün bu işlərin görülməsi bir daha ölkəmizin həm gücünü göstərir, həm də ki, zəngin mədəniyyətimizi təcəssüm etdirir. Biz elə etməliyik ki, dünyada Azərbaycanı daha da yaxşı tanısınlar. Bu gün Bakıya, digər şəhər və rayonlara gələnlər etiraf edirlər ki, burada olan inkişaf heç bir yerdə yoxdur. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Həm Bakının tarixi siması qorunub saxlanılır, həm də müasirlik vardır. Bakıda olan infrastruktur, yollar, körpülər deyə bilərəm ki, hər bir paytaxta yaraşıq verə biləcək bir mənzərədir. Mən istəyirəm ki, bütün qəsəbələr də belə gözəl olsun.

Biz ölkəmizi ona görə qururuq ki, Azərbaycan vətəndaşları rahat yaşasınlar. Yaşamaq, işləmək üçün bütün şərait olsun. Uşaqlar yaxşı məktəbə getsinlər, yaxşı tibb mərkəzləri yaradılsın, yollar yaxşı olsun. Kommunal infrastruktur, idman qurğuları müasir tələblərə cavab versin.

Bu bölgədə bu istiqamətdə əvvəlki dövrdə də işlər görülmüşdür. Burada stadion tikilibdir. Ondan sonra bu ərazilərdə idman kompleksi Şağanda açılıbdır. Mərdəkanda 26 saylı xəstəxana əsaslı təmir ediləcək və bütün bu qəsəbələrə xidmət göstərəcəkdir. Burada digər müasir obyektlər, ticarət obyektləri yaradılır. Bilirsiniz ki, bu bölgənin tarixi çox zəngindir. Şüvəlan, Mərdəkan qəsəbələri və ətraf qəsəbələr böyük tarixə malikdir. Biz bu qəsəbələrin inkişafına xüsusi diqqət göstərməliyik və burada yaşayan vətəndaşlar bütün lazımi infrastruktur imkanları ilə təmin edilməlidir. Məqsədim bundan ibarətdir.

Son illər ərzində görülmüş işlər ölkəmizi qabağa aparıbdır. Amma hələ də narahatedici məsələlər vardır. Mən istəyi-

rəm ki, 2013-cü ilə qədər, yəni ikinci Dövlət Proqramının başa çatması ilə əlaqədar bütün əsas məsələlər də həllini tapsın.

**S a k i n:** Mən ağsaqqallar və ziyalılar adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm. İnsan həyatı üçün zəruri olan sudur, işıqdır, qazdır – hamısı həll olunub. Mən kanalizasiya məsələsini xüsusi qeyd etmək istəyirəm. Bu kanalizasiyanın çəkilməsi həyətlərdəki su quyularının saflaşmasına səbəb olacaqdır.

**S a k i n:** Hörmətli Prezident, mən də Şüvəlanın qadınları adından Sizi salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm.

Ulu öndərimizin təbirincə desək, hər şey təhsildən başlayır. Bu gün qəsəbəmizdə bütün ümumtəhsil məktəbləri, internat məktəbləri, demək olar ki, əsaslı şəkildə təmir olunmuş, bəziləri də yenidən qurulmuşdur. Buna görə biz şəxsən Sizə, Mehriban xanıma böyük təşəkkürümüzü bildiririk.

Şüvəlan qəsəbəsində gənclərin asudə vaxtının səmərəli təşkili üçün yeni böyük stadion açılmışdır. Gənclərimiz bu stadionu çox sevirlər, orada məşğul olurlar. Yeni futbol məktəbi yaradılmışdır. Orada hazırda tikinti gedir. Onun yanında böyük mehmanxana, böyük idman kompleksi açılacaqdır. Yaradıcılıq evləri əsaslı təmir olunmuşdur. Mədəniyyət sarayımız çox gözəl, müasir standartlara uyğun şəkildə yenidən qurulmuşdur. Orada klublar, dərnəklər təşkil edilib ki, gənclərimiz məşğul olurlar.

Makarenko adına gimnaziya hazırda əsaslı təmirdədir. Bağçaları, körpələri də yaddan çıxarmayıblar. Uşaqlar üçün hazırda üçmərtəbəli möhtəşəm bağça binası tikilir. Biz onun açılışını səbirsizliklə gözləyirik.

Şüvəlanda gözəl parkımız vardır. Vaxtilə Şüvəlan camaatı parkda dincəlmək üçün şəhərə gedirdi. İndi şəhərdəki qonaqlar bizə gəlir. Bu park da Sizin sərəncamınızla yüksək səviyyədə təmir olunmuşdur. Bütün bunlar üçün Sizə son dərəcə minnətdarıq, ürəkdən təşəkkür edirik, uzun ömür, ailənizlə birlikdə cansağlığı arzulayırıq.

**İ l h a m  Ə l i y e v:** Tamamilə düz söyləyirsiniz ki, həm sosial sahədə, həm də mədəniyyət sahəsində çox işlər görülübdür. Daha da böyük işlər görülməlidir. Uşaq bağçaları tikilir, təmir edilir. Elə etməliyik ki, onların və məktəblərin səviyyəsi yaxşı olsun. İndi doğrudan da Bakıdan Şüvəlana gəlirlər – ticarət mərkəzlərinə, istirahət zonalarına.

İndi qəsəbəyə Bakıdan gələn yolda gözəl körpü tikilir. Əvvəlki dövrdə o dairələrdə maşınlar tıxacda gözləyirdilər. İndi dairə yoxdur. Bakıdan buraya qədər sonuncu dairə Mərdəkan dairəsi idi, indi o da yoxdur. İndi heç bir dairə qalmayıb. İndi rahat, gözəl körpü tikilir. Körpünün bir məqsədi vardır ki, buraya insanlar rahat gəlsinlər.

Bilirsiniz ki, körpü tikmək həm texniki cəhətdən çox çətin məsələdir, həm də ki, çox böyük vəsait tələb edir. Adətən, körpüləri daha çox şəhər mərkəzində tikirlər. İndi şəhərin müxtəlif yerlərində yeni körpülər tikilib. Doğrudan da şəhərdən buraya tez gəlmək mümkündür. Əvvəllər bəlkə bir saat vaxt lazım idi. İndiki dövrdə əgər o körpülər olmasaydı, maşınların artımını nəzərə alsaq, bəlkə bir saat yarım lazım olacaqdı. Qəsəbələrdə tikilən körpüləri yəqin ki, ancaq Azərbaycanda görmək mümkündür. Biz bunu ona görə edirik ki, insanlar rahat gəzsinlər. Gələn il yəqin ki, Qala yolu da əsaslı təmir ediləcəkdir. Aeroport şosesindən Qala kəndinə gedən yol vaxtilə genişləndirilmişdir, ancaq indi əsaslı təmirə ehtiyac vardır. O yol da gözəl magistral yolu kimi təmir ediləcəkdir. Bizim planlarımız çoxdur və planların mərkəzində insan amili dayanır. Çünki budur bizim siyasətimizin əsas mahiyyəti. Hər şey insanlar üçün, insanların yaxşı yaşaması üçün olmalıdır. Hər bir dövlət məmuru fəaliyyətində bu məqsədi əsas tutmalıdır.

* * *

*Şüvəlan qəsəbəsində görülmüş işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı Sabunçu qəsəbəsinə gəldi.*

*Bu il aprelin 27-də prezident İlham Əliyev Sabunçu sakinləri ilə görüşərkən onlar dövlətimizin başçısından bu qəsəbədən Bakıxanov qəsəbəsinə və Heydər Əliyev prospektinə aeroport istiqamətində nəqliyyatın çıxışını təmin etmək üçün yeni yolun çəkilməsini xahiş etmişdilər. Həmin gün Azərbaycan prezidenti İlham Əliyev Sabunçu qəsəbəsindən Bakıxanov qəsəbəsinə və Heydər Əliyev prospektinə aeroport istiqamətində nəqliyyatın çıxışını təmin edəcək yeni yolun keçəcəyi ərazi ilə yerindəcə tanış olmuş və məsələnin həlli ilə bağlı müvafiq göstərişlərini vermişdi.*

*Dövlətimizin başçısının tapşırıqları qısa vaxt ərzində və yüksək keyfiyyətlə həyata keçirilmişdir. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yeni yolun tikintisi barədə Prezidentə məlumat verdi. Bildirildi ki, 1000 metr uzunluğu olan yeni yolda 12 min kvadratmetr asfalt işləri aparılmış, 4 min metr uzunluğunda səkilərə xaricdən gətirilmiş qranit döşənmişdir. Yağış sularının axıdılması üçün 500 metr uzunluğunda boru xətti çəkilmişdir. Yolboyu xaricdən gətirilmiş işıq dirəkləri quraşdırılmışdır. Yolun keçdiyi ərazidə məskunlaşmış 25 qaçqın ailəsi yeni mənzillərlə təmin edilmişdir. Yolun yatağı 2 metrdən 6 metrə qədər qaldırılmışdır. Yeni yolun istifadəyə verilməsi 40 min əhalisi olan Sabunçu qəsəbəsinin Bakıxanov, Qaraçuxur qəsəbələrinə, Əmircan və Bülbülə kəndlərinə, o cümlədən Heydər Əliyev prospektinə çıxışını tam təmin edəcək və məsafəni xeyli qısaldacaqdır.*

*Yeni yolla tanış olan dövlətimizin başçısı sakinlərlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Sizi təbrik edirəm. Bu yolun çəkilişi onu göstərir ki, mümkün olmayan şey yoxdur. Biz qısa müddət ərzində – bir ay keçmədən bu yolu yaratdıq. Özü də

gözəl, keyfiyyətli yoldur və bütün qəsəbəyə rahatlıq verəcəkdir.

Biz bunu tezliklə operativ şəkildə həll etdik. Müvafiq göstərişlər verilmişdi. Belə də olmalıdır. İnsanları narahat edən məsələ varsa, onu mən bilməliyəm və onu tezliklə həll etməliyəm. Bu yolun çəkilişindən sonra qəsəbəyə gəliş-gediş çox rahat olub. Yol gözəl, müasir səviyyədədir.

**S a k i n:** Sizi yenidən rayonumuzda görməyimizə çox şadıq. Bu bizim üçün çox böyük şərəfdir. Bu işlər 20 gün müddətində yerinə yetirilmiş və təbii ki, müxtəlif tədbirlər görülmüşdür. Qısa müddətdə 25 məcburi köçkün ailəsi yaxşı evlərə köçürülmüşdür. Onlar çox razıdırlar. Bu qədər qısa müddətdə belə bir yolun çəkilməsinə görə Sizə çox təşəkkür edirik. Məsafə 5-6 dəfə qısalmışdır.

**İ l h a m Ə l i y e v:** Yəqin ki, siz Zabrat tərəfə gedib, oradan dönürdünüz?

**S a k i n:** Bəli, Zabrat tərəfə gedib oradan mərkəzi yola dönürdük.

**İ l h a m Ə l i y e v:** Siz bu yola görün nə qədər vaxt sərf edirdiniz.

**S a k i n:** Bakıxanov, Bülbülə, Əmircan və Əhmədli qəsəbələri tərəfə, eləcə də aeroporta gedən yol 5-6 dəfə qısalmışdır. Bu bizə – Sabunçu sakinlərinə böyük hədiyyədir. Bu yola görə biz Sizə çox təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərinizə görə sağ olun.

*Dövlətimizin başçısı Bakıətrafı kənd və qəsəbələrdə abadlıq və quruculuq işlərinin ardıcıl olaraq davam etdiriləcəyini qeyd edərək, işlərin sürətlə və keyfiyyətlə həyata keçirilməsində ictimai nəzarəti gücləndirməyin vacibliyini bir daha vurğuladı.*

**İ l h a m Ə l i y e v:** Burada yaşayan bizim soydaşlarımız – qaçqınlardır. Onları da biz yaxşı yerlərə köçürdük, onlar da razıdırlar, əhali də razıdır. Belə məsələlərlə bağlı gələcəkdə də çox ciddi addımlar atılacaqdır.

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU ƏSƏD ALAM İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Əsəd Alamı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bir sıra mühüm layihələr üzrə fəal işlərin aparıldığı qeyd edildi, ölkəmizin müvafiq strukturları ilə Dünya Bankı arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## BRİTANİYA–AZƏRBAYCAN PARLAMENT QRUPUNUN SƏDRİ MARK FİELDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Britaniya–Azərbaycan parlament qrupunun sədri, Konservativ Partiyasının, «Cities of London and Westminster» ərazisindən Kəşfiyyat və Təhlükəsizlik Komitəsinin üzvü Mark Fieldin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Britaniya–Azərbaycan parlament qrupunun sədri bildirdi ki, başçılıq etdiyi qrupun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan haqqında məlumatları Böyük Britaniya parlamentinin üzvlərinə çatdırmaqdır. Azərbaycanın təkcə neft-qaz sahəsində deyil, eləcə də qeyri-neft sektorunda böyük potensiala malik olduğunu deyən Mark Field ölkələrimiz arasında kənd təsərrüfatı, turizm, idman, mədəniyyət və digər sahələrdə qarşılıqlı təcrübə mübadiləsi aparılacağına ümidvar olduğunu dedi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan britaniyalı qonaq münaqişə ilə bağlı son 20 ildə Azərbaycan xalqının və hökumətinin böyük səbir nümayiş etdirdiyini və Azərbaycanın bu məsələ ilə bağlı keçirdiyi narahatlığın onlar tərəfindən başa düşüldüyünü bildirdi, səfər müddətində problemlə yaxından tanış olacaqlarını dedi.*

*Dövlətimizin başçısı Britaniya–Azərbaycan parlament qrupunun Azərbaycanda əldə edilən nailiyyətlər və qarşıda duran vəzifələrlə bağlı məlumatların Böyük Britaniyaya çatdırılmasını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev ölkə-*

*lərimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və bir çox sahələri əhatə etdiyini vurğuladı, enerji sahəsində əlaqələrimizin uzun tarixə malik olduğunu dedi. Əlaqələrimizin, turizm, idman, mədəniyyət, qeyri-neft sektoruna investisiyaların qoyulması və digər sahələrdə genişləndirilməsinin önəmini qeyd edən dövlətimizin başçısı qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imkanları araşdırmağın vacibliyini bildirdi.*

## ZİVƏR BƏY ƏHMƏDBƏYOV PARKININ AÇILIŞI MƏRASİMİ

*26 may 2011-ci il*

*Mayın 26-da metronun «Nizami» stansiyasının qarşısındakı Zivər bəy Əhmədbəyov parkı açılmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Zivər bəy Əhmədbəyov 1918–1920-ci illərdə Bakının ilk azərbaycanlı Baş memarı olub və şəhərin inkişafında mühüm rol oynayıb. O öz layihələrində Qərbi Avropa və Şərq memarlıq ənənələrini böyük məharətlə birləşdirib. Azərbaycan prezidentinin sərəncamı ilə Zivər bəy Əhmədbəyovun adını daşıyan park salınmış və burada onun abidəsi ucaldılmışdır.*

*Parkla üzbəüz bina Zivər bəy Əhmədbəyovun layihəsi əsasında inşa edilib. Bildirildi ki, parkın ətrafında olan binaların tarixi memarlıq üslubu saxlanılmaqla fasadları təmir ediləcəkdir.*

*Görülmüş işlərlə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ, RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ ALEKSANDR JUKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Rusiya Federasiyası Hökumətinin sədr müavini, Rusiya Federasiyası Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukovu qəbul etmişdir.*

*Rusiya Federasiyası Hökumətinin sədr müavini, Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukov Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Baş nazir Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Görüşdə, həmçinin beynəlxalq olimpiya hərəkatında Azərbaycan Milli Olimpiya Komitəsi ilə Rusiya Olimpiya Komitəsi arasında yüksək səviyyədə əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.*

*Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Baş nazir Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Federasiyasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Respublika günü münasibətilə paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Abidənin önündəFəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*Mərasim başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstiqlaliyyət küçəsində və metronun «İçərişəhər» stansiyasının ətrafında görülmüş işlərlə tanış oldu.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL

*«Buta» sarayı*

*27 may 2011-ci il*

*Mayın 27-də «Buta» sarayında 28 May – Respublika gününə həsr olunmuş rəsmi qəbul təşkil edilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etmişdir.*

*Salona toplaşanlar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika günü münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Həm bizim xalqımız üçün, həm dünya miqyasında bu hadisənin çox böyük tarixi əhəmiyyəti var idi. Xalqımız üçün əhəmiyyəti ondan ibarət idi ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşamış Azərbaycan xalqı müstəqilliyə qovuşmuş, müstəqil dövlətini qurmuşdu. Dünya miqyasında əhəmiyyəti ondan ibarət idi ki, dünya tarixində ilk dəfə olaraq müsəlman Şərqində demokratik respublika yaradılmışdı. Azərbaycan dövləti və Azərbaycan xalqı Azərbaycan Xalq Cümhu-

riyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl Bakının mərkəzində Azərbaycan Demokratik Respublikasının şərəfinə abidə ucaldılmışdır. Bugünkü müstəqil Azərbaycan–Azərbaycan Demokratik Respublikasının varisidir. Azərbaycan Demokratik Respublikası iki ildən sonra süqut etdi. Ondan sonra Azərbaycanda sovet dövrü başlandı. Bütün çətinliklərə və ideoloji çərçivələrə baxmayaraq, o dövr də Azərbaycan üçün uğurlu olmuşdur. Sovet dövründə Azərbaycan inkişaf etmişdir, sosial-iqtisadi məsələlər öz həllini tapmışdır, savadsızlığa son qoyulmuşdur – hesab edirəm ki, bu, tarixi nailiyyətdir – Azərbaycanda elmin inkişafına təkan verilmişdir və xüsusilə XX əsrin 70-ci illərində Azərbaycanda sənaye potensialı formalaşmışdır. O potensial ki, bəzi hallarda bu gün müstəqil Azərbaycanın inkişafında da bunun çox böyük mənası vardır. Kənd təsərrüfatı inkişaf etmişdir.

İdeoloji çərçivələrə baxmayaraq, o dövr də Azərbaycan üçün uğurlu olmuşdur. Ancaq müstəqil deyildik və müstəqillik arzuları ilə yaşamışdıq. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan yenidən müstəqilliyə qovuşmuşdur. Müstəqilliyimizin ilk illəri çox ağır keçmişdir. Bu barədə hamımız dəfələrlə öz fikirlərimizi bildirmişik. Xalqımız yaxşı xatırlayır ki, ötən əsrin 90-cı illərində Azərbaycanda gedən proseslər müstəqilliyimizə böyük təhlükə idi. Müstəqilliyimiz təhlükə altında idi və müstəqil həyatımız haqqında müxtəlif fikirlər, şayiələr dolaşırdı. Müstəqilliyimizin ilk illərində hökm sürən anarxiya, özbaşınalıq, hakimiyyətsizlik, xaos praktiki olaraq ölkəni iflic vəziyyətinə salmışdı.

Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımızın işğal altına düşməsi, bununla bərabər, ölkə daxilində hakimiyyət uğrunda gedən mübarizə, vətəndaş müharibəsinin başlanması müstəqil həyatımıza çox böyük zərbələr vurmuşdur. 1993-cü ildə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərmiş, Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etmişdir. Xalqın dəstəyi ilə prezident vəzifəsinə seçilmiş Heydər Əliyev vəziyyəti yaxşılaş-

dırmaq və xoşagəlməz hallara son qoymaq üçün çox böyük səylər göstərmişdir. Qısa müddətdə bütün xoşagəlməz hallara, qanunsuz silahlı birləşmələrə son qoyuldu, onlar tərk-silah edildi, vətəndaş müharibəsi dayandırıldı, cəbhədə atəşkəs əldə olundu və bu, imkan verdi ki, Azərbaycan sürətli inkişafa qədəm qoysun.

1993-cü ildən başlayaraq Azərbaycanda sabitlik və inkişaf dövrü başlanmışdır. Deyə bilərəm ki, dövlətçiliyimizin əsasları məhz 1993-cü ildən sonra formalaşmağa başlamışdır. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə aparılmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, ölkədə aparılan siyasi və iqtisadi islahatlar müsbət nəticələrini vermişdir. Azərbaycan beynəlxalq təcriddən çıxa, informasiya blokadasını yara bilmişdir. Azərbaycan haqqında keçən əsrin 90-cı illərinin əvvəllərində dünya ictimai rəyində formalaşmış, təhrif edilmiş təsəvvür dəyişdirilmişdir. Azərbaycan beynəlxalq aləmdə öz yerini tuta bilmişdir. Beynəlxalq təşkilatlara üzv olmuşdur. 1993-cü ildən başlayaraq bütün sahələrdə quruculuq və inkişaf meyilləri başlanmış və gücləndirilmişdir. Ölkə iqtisadiyyatı və müstəqil inkişaf üçün həlledici mahiyyət daşıyan neft kontraktları imzalanmışdır. Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi təmin edilmişdir. 1994-cü ildə bu məsələlər həll olunmağa başlayanda Azərbaycan dünyada çox riskli bir ölkə kimi tanınırdı və buraya investisiya qoymaq istəyənlərin sayı çox məhdud idi. Buna baxmayaraq, ölkəmiz üçün məqbul şərtlərlə neft kontraktları imzalanmışdır, Heydər Əliyevin neft strategiyası başlanmışdır və ölkənin uğurlu inkişafı təmin edilmişdir.

1993–2003-cü illər Azərbaycan üçün, dövlətçiliyimiz üçün həlledici illər olmuşdur. O illərdə əldə edilmiş uğurlar bu gün də bizə imkan verir ki, ölkəmizi inamla irəliyə aparaq, bu siyasəti davam etdirək və qarşıda duran bütün vəzifələri layiqincə icra edək.

2003-cü ildən sonrakı dövr ölkəmiz üçün çox uğurlu olmuşdur. Bu özünü bütün statistik rəqəmlərdə büruzə verir.

2003-cü ildən sonra ölkəmizdə siyasi və iqtisadi islahatlar davam etdirilmişdir. Azərbaycan beynəlxalq aləmdə yerini daha da möhkəmlətmiş, regional müstəvidə bizim təsir imkanlarımız xeyli artmışdır. Bu gün Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər regional inkişafın istiqamətlərini yüksək səviyyədə müəyyən edir. Siyasi islahatlarla yanaşı, iqtisadi sahədə böyük uğurlar əldə edilmişdir. Son 7-8 ildə ölkəmizin ümumi daxili məhsulu 3 dəfə artmışdır. Bu, dünyada analoqu olmayan bir göstəricidir. Sənaye istehsalı da təxminən 3 dəfə artmışdır. Yoxsulluq səviyyəsində yaşayanların sayı 5 dəfə azalmışdır və bu gün bu rəqəm Azərbaycanda 9,1 faiz təşkil edir. Əminəm ki, görülən və görüləcək əlavə tədbirlər nəticəsində biz ilin sonuna qədər yoxsulluğun daha da aşağı düşməsinə nail olacağıq. Ölkəmizdə bir milyona yaxın yeni iş yerləri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yerləridir. Ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün çox ciddi addımlar atılmışdır və beləliklə, ölkəmizin iqtisadiyyatı artıq dayanıqlı iqtisadiyyatdır. Beynəlxalq aləmdə beynəlxalq maliyyə qurumları tərəfindən ölkədə aparılan iqtisadi islahatlara verilən yüksək qiymət mənim sözlərimi bir daha təsdiqləyir.

Son illər Azərbaycanda uğurlu enerji siyasəti aparılmışdır. Enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Nəinki özümüzü təmin edə bilmişik, eyni zamanda, başqa ölkələrin enerji təhlükəsizliyi məsələlərinə töhfəmizi veririk.

Ölkədə ictimai-siyasi vəziyyət çox müsbətdir. Çünki son illər Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması sayəsində biz bütün bu nailiyyətlərə çata bilmişik. Bu gün Azərbaycan sürətlə inkişaf edən, dinamik, müasir ölkədir. O ölkədir ki, burada bütün məsələlər ədalətli şəkildə həll olunur. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi yaşayır. Bu da nadir təcrübədir. Qürur hissi ilə deyə bilərəm ki, bu təcrübə dünyada öyrənilir. Azərbaycanda ənənəvi xarakter daşıyan, artıq bir neçə dəfə keçirilmiş dinlərarası və mədəniyyətlərarası müxtəlif dialoq forumları bir daha onu göstərir ki, Azərbaycan bu cür tədbirlərin təşkili üçün çox məqbul bir ölkədir.

Ölkəmizdə bütün istiqamətlər üzrə konkret proqramlar icra edilir. İstər sosial məsələlərin həllində, istərsə də iqtisadi islahatların həyata keçirilməsində regional inkişaf proqramı uğurla icra edilir. Artıq ikinci proqramı icra edirik. Proqramın icrası nəticəsində bütün bölgələrimiz abadlaşır, şəhərlərimiz gözəlləşir. O ki qaldı Bakı şəhərinə, Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bakının gözəlliyi artıq həqiqətdir, ölkəmizə və paytaxtımıza gələn bütün qonaqlar bunu görür və qeyd edirlər.

Bir sözlə, ölkə qarşısında duran əsas vəzifələr həllini tapmaqdadır. Ölkə iqtisadiyyatı dayanıqlığını dünyada hökm sürən maliyyə və iqtisadi böhran zamanı göstərmişdir. Hətta böhranlı illərdə iqtisadiyyatımız artmışdır və bütün investisiya layihələri icra edilmişdir. Keçən il ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulmuşdur. Hesab edirəm ki, bu il bu rəqəm daha da böyük olacaqdır. Bu il büdcəmizə edilən əlavələr, yəni dürüstləşmə nəticəsində tarixdə ilk dəfə Azərbaycanın büdcəsi 20 milyard dollardan çox olacaqdır. Bu, böyük nailiyyətdir, böyük göstəricidir. Nəzərə alsaq ki, 2003-cü ilin dövlət büdcəsi cəmi 1,2 milyard dollar idi, biz əyani şəkildə görərik ki, son 7-8 il ərzində bu istiqamətdə böyük işlər görülmüşdür. Büdcəmizin artımı bizə imkan verir ki, Azərbaycanda həm infrastruktur layihələri icra edilsin, həm də sosial məsələlər öz həllini tapsın. Son illər maaşlar və pensiyalar bir neçə dəfə artırılmışdır. Bu gün pensiyaların orta həcmi əməkhaqqının orta həcminin 40 faizini təşkil edir. Bu da onu göstərir ki, Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edir. Bizim siyasətimiz məhz bundan ibarətdir.

Bazar iqtisadiyyatına sadiqliyimiz şübhə doğurmur. Ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Bununla bərabər, çox güclü sosial siyasət aparılır. Əsaslı iqtisadi islahatların aparılması güclü sosial siyasətlə tamamlanırdı və məhz buna görə biz imkan vermədik ki, köklü iqtisadi islahatlar insanların yaşayış səviyyəsinə mənfi təsir göstərsin. Əksinə, Azərbaycanda ildən-ilə maddi rifah, insan-

ların yaşayış səviyyəsi artır və bütün sosial məsələlər öz həllini tapır.

Ölkə qarşısında duran əsas problem, bizim üçün ən ağrılı problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Bütün səylərimizə baxmayaraq, bu günə qədər bu münaqişə öz həllini tapmamışdır. Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü pozulubdur. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilmir. O qətnamələrdə işğalçı qüvvələrin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması tələb edilir. ATƏT-in, Avropa parlamentinin, Avropa Şurasının, digər beynəlxalq təşkilatların qərar və qətnamələri Ermənistan tərəfindən icra edilmir. Belə olan halda biz beynəlxalq ictimaiyyətin, beynəlxalq qüvvələrin bu məsələ ilə bağlı daha fəal olmasını istəyirik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tezliklə tapmalıdır. Bizim ərazi bütövlüyümüz pozulubdur. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür və bu ədalətsizlik davam edir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Azərbaycanın ərazi bütövlüyü Dağlıq Qarabağ daxil olmaq şərti ilə bütün dünya tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir.

Biz ümid edirik ki, danışıqlar öz nəticəsini verəcəkdir. Bu ümidləri möhkəmləndirən amillər son aylar ərzində kifayət qədər çox olmuşdur. Deyə bilərəm ki, son aylar ərzində ilk dəfə olaraq Minsk qrupunun həmsədr ölkələri tərəfindən status-kvonun dəyişdirilməsi ilə bağlı bəyanatlar verilməyə başlanmışdır. Bu günə qədər – baxmayaraq ki, Minsk qrupu 1992-ci ildə yaranıb və atəşkəs rejimi 1994-cü ildən qüvvədədir – biz bu barədə belə dəqiq və ciddi bəyanatlar eşitməmişdik. Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Dünən Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının birgə bəyanatı verildi. Bu bəyanatda da təxminən oxşar fikirlər səslənir ki, məsələ tezliklə öz həllini tapmalıdır. Biz də bunun tərəfdarıyıq və məsələnin tezliklə həll olunmasında ən çox maraqlı olan tərəf Azərbaycandır. Biz dəfələrlə bu barədə həm rəsmi bəyanatlarda, həm aparılan danışıqlarda fikrimizi və narahatlığımızı ifadə etmişik. Ermənistan tərəfinə imkan verilməməlidir ki, danışıqları süni şəkildə uzatsın və danışıqlar prosesini sonsuz etsin. Son bəyanat bu mövqeni dəstəkləyir ki, məsələ tezliklə Helsinki Yekun Aktının əsasında öz həllini tapmalıdır. Bu da çox mühüm bəyanatdır və birinci dəfə deyil ki, səslənir. Ancaq bunu da deyə bilərəm ki, son müddət ərzində Helsinki Yekun Aktına bütün sənədlərdə istinad edilir. Helsinki Yekun Aktında isə ərazi bütövlüyü prinsiplərinin xalqların öz müqəddəratını müəyyənetmə prinsipləri ilə heç bir ziddiyyəti yoxdur. Əksinə, orada prinsiplərin prioritetləri də sadalanır və hər bir xalqın öz müqəddəratını təyinetmə hüquqları ölkələrin ərazi bütövlüyünü pozmamalıdır və bu da münaqişənin həlli üçün yeganə düsturdur.

Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, vətəndaşlar doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar. Ondan sonra bölgədə sülh və əməkdaşlıq yarana bilər və bütün tərəflər hadisələrin bu cür inkişafından ancaq fayda götürə bilərlər. Bizim qəti mövqemiz bundan ibarətdir. Bir də demək istəyirəm ki, heç vaxt Azərbaycan dövləti Dağlıq Qarabağa müstəqillik verilməsi ilə barışmayacaq, heç vaxt buna razılıq verməyəcəkdir.

Hər bir bayram günündə görülmüş işlərə qiymət verilir. Keçmiş illərdə görülmüş işlər bir daha təhlil edilir. Biz çatışmayan məqamları xüsusilə qeyd edirik ki, gələcək fəaliyyətimizdə daha da səmərəli iş görə bilək. Bununla bərabər, hər bir bayram günündə biz gələcək haqqında fikirlərimizi ifadə edirik, gələcək planlarımız haqqında ictimaiyyətə məlumat veririk. Bu, canlı prosesdir. Bu proses daim qüvvədədir və ölkəmizin dinamik inkişafı üçün bu, mütləq lazımdır. Bu gün

də fürsətdən istifadə edərək gələcək planlarımız və vəzifələr haqqında bir neçə kəlmə demək istərdim.

Mən tam əminəm ki, növbəti illərdə də Azərbaycanın uğurlu və dayanıqlı inkişafı təmin ediləcəkdir. Biz növbəti illərdə siyasi islahatları davam etdirəcəyik. Bu günə qədər görülən işlər təqdirəlayiqdir, ancaq daha da böyük işlər görülməlidir. Demokratiyanın inkişafı istiqamətində çox böyük addımlar atılmışdır və bu istiqamətdə yeni addımlar atılmalıdır. Azərbaycanda bütün sahələrdə demokratik prinsiplər bərqərar olunmalıdır. Azərbaycanda hüquqi dövlət quruculuğu uğurla gedir və bu istiqamətdə əlavə addımların atılması gözlənilir. Bu həm xalqın, həm də zamanın tələbidir. Biz müasir dövlət qururuq. O dövlət ki, burada bütün demokratik azadlıqlar mövcuddur. Biz bu müsbət meyilləri gücləndirməliyik.

Ölkəmizdə xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə nəticələrini verməkdədir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə bəhrəsini verir. Addımlarımız xalq tərəfindən dəstəklənir. Bir daha bu kürsüdən bəyan etmək istəyirəm ki, biz bu yoldan dönməyəcəyik. Korrupsiyaya, rüşvətxorluğa, xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparacağıq. Görəndə ki, bu mübarizə nəticə verir, bu bizim gücümüzü daha da artırır və bizi daha da ruhlandırır.

Ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Dövlət büdcəmizin imkanları qeyd etdiyim kimi, kifayət qədərdir. Bununla bərabər, ölkə iqtisadiyyatına xaricdən və yerli sahibkarlar tərəfindən qoyulan investisiyaların həcmi artır. Azərbaycan investisiyaların cəlb edilməsi istiqamətində çox böyük addımlar atmışdır. Adambaşına düşən xarici sərmayələrin həcminə görə həmişə olduğu kimi, biz MDB məkanında qabaqcıl yerlərdəyik, daxili investisiyalar xarici investisiyaları üstələyir. Bu onu göstərir ki, həm dövlət xətti ilə qoyulan sərmayə səmərəsini

verir, həm də özəl sektor güclənib və ölkə iqtisadiyyatına sərmayə qoyur.

Özəl sektorun güclənməsi dövlət tərəfindən göstərilən dəstəyin hesabına mümkün olmuşdur. Dövlət kreditləri, güzəştli şərtlərlə verilən kreditlər, sahibkarlığa dövlət və prezident tərəfindən göstərilən dəstək özəl sektorun möhkəmlənməsinə, güclənməsinə gətirib çıxarır. Biz o vəziyyətə gəlmişik ki, bu gün Azərbaycan şirkətləri başqa ölkələrin iqtisadiyyatına, infrastrukturuna milyardlarla dollar məbləğində sərmayə qoyur. İnvestisiya portfelimiz də çoxşaxəlidir. Bu bizə həm siyasi, həm də iqtisadi mənfəət gətirəcəkdir.

İqtisadi sahədə şaxələndirmə ilə yanaşı, idxalı əvəzləyən məhsulların buraxılması üçün dövlət tərəfindən əlavə tədbirlər görüləcəkdir. Bu istiqamətdə böyük uğurlara nail ola bilmişik. Daha da fəal işləməliyik. Hazırda iqtisadi sahədə vacib məsələlərdən biri ərzaq təhlükəsizliyimizi təmin etməkdir. Bu istiqamətdə də böyük addımlar atılır, istehlak olunan ərzaq məhsullarının bir çoxu Azərbaycanda istehsal edilir. Halbuki bir neçə il əvvəl biz tam şəkildə idxaldan asılı idik. Bu gün nəinki özümüzü təmin edirik, eyni zamanda, ərzaq məhsullarımızı xarici bazarlara da ixrac edirik. Növbəti illərdə ərzaq təhlükəsizliyimizlə bağlı əlavə tədbirlərin görülməsi nəticəsində Azərbaycan özünü əsas ərzaq məhsulları ilə 100 faiz səviyyəsində təmin edəcək, eyni zamanda, bu sahədə güclü ixrac imkanlarımız yaranacaqdır.

Maaşlar, pensiyalar mütəmadi qaydada qaldırılır, sosial infrastrukturun yaradılması üçün böyük vəsait ayrılır. Son illərdə Azərbaycanda 2 mindən artıq məktəb, yüzlərlə tibb mərkəzi, 31 Olimpiya İdman Kompleksi, mədəniyyət ocaqları tikilmişdir. Bir sözlə, sosial blok daim diqqət mərkəzindədir. Növbəti illərdə bu sahəyə daha da böyük vəsait qoyulacaqdır və buna ehtiyac vardır. İstəyirik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı sıfıra bərabər olsun.

Azərbaycan beynəlxalq əlaqələr istiqamətində çox düşünülmüş və balanslaşdırılmış siyasət aparır. Bu siyasət xalq

tərəfindən dəstəklənir. Bu siyasət imkan verir ki, bütün ölkələrlə qarşılıqlı maraq əsasında bərabərhüquqlu əlaqələr yaradaq, onları möhkəmləndirək. Biz bu yanaşmanın tərəfdarıyıq. İlk növbədə, qonşu ölkələrlə əlaqələrimiz daha da güclü olmalıdır. Biz bu əlaqələri tərəfdaşlıq əlaqələri kimi qiymətləndiririk. Növbəti illərdə xarici siyasətimizin bu istiqamətinə daha da böyük diqqət veriləcəkdir. Biz bu bölgədə yaşayırıq və qonşularla münasibətlərimizin inkişafı bizim üçün prioritet məsələdir.

Ermənistana gəldikdə, bundan sonra da Ermənistanı bütün regional layihələrdən təcrid etmək üçün biz öz səylərimizi göstərəcəyik. Biz bunu gizlətmirik. Bu bizim siyasətimizdir. Ermənistan torpaqlarımızı işğal edib. Bu siyasət işğala son qoyulanadək davam etdiriləcəkdir. Sülh müqaviləsi bağlanarsa, Ermənistan da regional layihələrə cəlb oluna bilər. Bu onların addımlarından asılı olacaqdır.

Qonşu ölkələrlə bərabər, biz bütün başqa ölkələrlə ikitərəfli formatda əlverişli və bərabərhüquqlu əlaqələrin qurulmasına çalışırıq, buna nail ola bilmişik. Dostlarımızın, tərəfdaşlarımızın sayı artır və artıq Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır. Beynəlxalq təşkilatlarla əlaqələrimiz inkişafdadır. Biz bütün beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə hazırıq. Üzv olduğumuz təşkilatlarla əlaqələrimiz, əlbəttə ki, daha da fəaldır. Biz üzv olduğumuz təşkilatlar qarşısında götürdüyümüz öhdəlikləri vaxtında yerinə yetiririk. Üzv olmadığımız beynəlxalq təşkilatlar qarşısında heç bir öhdəliyimiz yoxdur və ola da bilməz. Çünki biz o təşkilatların üzvü deyilik. Üzv olmadığımız təşkilatlarla siyasətimizi yalnız tərəfdaşlıq və bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qururuq və qarşı tərəfdən də eyni yanaşmanı gözləyirik.

Bu gün enerji təhlükəsizliyi məsələləri ilə bağlı bir-iki kəlmə demək istərdim. Bu istiqamətdə böyük addımlar atılmışdır. Ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı bütün məsələləri uğurla və yüksək səmərə ilə həll edə bilmişik. Bu

gün çoxşaxəli enerji nəqliyyatı infrastrukturu yaradılıbdır. Azərbaycanın 7 neft və qaz kəməri vardır ki, təbii resurslarımızı 7 istiqamətdə dünya bazarlarına çıxarır. Bu, sözün əsl mənasında, şaxələndirmədir. Bəzi ölkələr şaxələndirmə məsələləri ilə bağlı indi fəal işləyirlər, o cümlədən Azərbaycanla da danışıqlar aparırlar. Biz isə şaxələndirmə siyasətimizi uğurla başa vurmuşuq. Növbəti illərdə artıq yalnız bu marşrutlar əsasında ixrac imkanlarımızı genişləndirə bilərik. Çünki bu 7 istiqamətdən başqa, daha heç bir istiqamət qalmayıb. Enerji resurslarımız qonşu ölkələrə nəql edilir. Gələcəkdə aparılacaq danışıqlardan asılı olaraq biz istənilən istiqamət üzrə enerji resurslarımızın ixracının həcmini artıra bilərik. Yenə də deyirəm ki, bu, aparılacaq danışıqlardan asılı olacaqdır.

Bu il biz müstəqilliyimizin 20 illiyini qeyd edirik. 20 il böyük tarixi mərhələdir. Birinci 2 ili çıxmaq şərti ilə Azərbaycan 20 il ərzində çox uğurla və inamla inkişaf edib, ölkə qarşısında duran bütün vəzifələr icra edilib, ölkəmiz güclənib və dünya xəritəsində öz layiqli yerini tuta bilibdir.

Bu gözəl dövlət bayramı ərəfəsində bir daha bütün Azərbaycan xalqını Müstəqillik bayramı – Respublika günü münasibətilə ürəkdən təbrik edirəm, bütün Azərbaycan xalqına uğurlar və xoşbəxtlik arzulayıram. Sağ olun.

## TÜRKİYƏNİN QURU QOŞUNLARI TƏLİM VƏ DOKTRİNA KOMANDANI SALDIRAY BERKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 may 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Türkiyənin Quru Qoşunları Təlim və Doktrina Komandanı Saldıray Berkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyənin Quru Qoşunları Təlim və Doktrina Komandanı Saldıray Berk 1996–98-ci illərdə Bakıda çalışdığı zaman xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük məmnunluq hissi ilə xatırlatdı. Türkiyəli qonaq ölkəmizə əvvəlki səfərindən ötən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə və hərbi sənaye sahələrində uğurla inkişaf etdiyi bildirildi və bu sahədə əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## İTALİYAYA İŞGÜZAR SƏFƏR

*1 iyun 2011-ci il*

*İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə İtaliyanın birləşməsinin 150 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün paytaxt Romaya gəlmişdir.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VƏZİFƏSİNİ İCRA EDƏN MARİAN LUPU İLƏ GÖRÜŞ

*Roma*

*1 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Romada onun üçün ayrılmış iqamətgahda Moldova Respublikasının Prezidenti vəzifəsini icra edən Marian Lupu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinin mövqeyini dəstəkləməsinin önəmi qeyd edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulanaraq bu potensialın reallaşdırılması ilə bağlı fikir mübadiləsi aparıldı.*

## İTALİYANIN «EDİSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BRUNO LESKÖ İLƏ GÖRÜŞ

*Roma*

*1 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də onun üçün ayrılmış iqamətgahda İtaliyanın «Edison» şirkətinin Baş icraçı direktoru Bruno Leskönü qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «Edison» şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, Türkiyə–Yunanıstan–İtaliya qaz kəmari layihəsinin həyata keçirilməsinin perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

## «TECHNİP-İTALY»(TEKNİP İTALİYA) ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MARKO VİLLAN İLƏ GÖRÜŞ

*Roma*

*1 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də onun üçün ayrılmış iqamətgahda neft-qaz və neft-kimya sənayesi üçün mühəndis və texnoloji avadanlıq istehsal edən «Technip-İtaly» (Teknip İtaliya) şirkətinin Baş icraçı direktoru Marko Villanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə «Technip-İtaly» şirkəti arasında müxtəlif sahələrdə əmək-daşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# İTALİYANIN BİRLƏŞMƏSİNİN 150 İLLİYİNƏ VƏ RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ BAYRAM MƏRASİMİ

*Roma*

*2 iyun 2011-ci il*

*İyunun 2-də Romada İtaliyanın birləşməsinin 150 illiyinə və Respublika gününə həsr olunmuş rəsmi parad keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə bayram mərasimində iştirak etmişdir.*

*Mərasimin iyunun 2-də keçirilməsi isə 65 il əvvəl – 1946-cı il iyunun 2-də referendum yolu ilə monarxiyanın ləğvi və İtaliyanın respublika elan olunması ilə bağlıdır.*

*Bayram mərasimində iştirak etmək üçün paytaxt Romaya 80-dən çox ölkənin nümayəndə heyəti gəlmişdir. Ölkələrin əksəriyyəti dövlət və hökumət başçıları səviyyəsində təmsil olunmuşdur.*

*İtaliyanın birləşməsi bu ölkə tarixinin ən önəmli səhifələrindən biridir. XIX əsrin ilk illərində İtaliyanın I Napoleon tərəfindən işğal edilərək Fransa təbəəliyinə qatılması ölkədə böyük narazılıqlara səbəb olmuşdu. Napoleon Bonapart taxtdan endirildikdən sonra Vyana Konqresi İtaliyanın işğaldan əvvəlki krallıqlara verilməsi ideyasını dəstəkləmişdi. Beləliklə, Papalıq dövləti, Sardiniya–Piemonte, Toskana, Modena və Lombardiya–Venesiya krallıqları yenidən qurulmuşdur.*

*Bu ərəfədə «Karbonari» adlandırılan gizli dərnəklər İtaliyanın birləşməsi istiqamətində fəaliyyətə başlamışdır. Cüzeppe Mazzini və Cüzeppe Haribaldinin rəhbərlik etdiyi bu dərnəklərin fəaliyyəti nəticəsində birləşmə ideyası İtaliyada tədri-*

*cən ümummilli məsələyə çevrilmişdir. Birləşmə məsələsində Fransanın da dəstəyini almağa müvəffəq olan İtaliya 1859-cu ildə bu ölkə ilə birlikdə Avstriyanı məğlub etmiş və təsir dairəsində olan bütün İtaliya krallıqları Sürix sülhü ilə onun nəzarətindən çıxmışdır.*

*1861-ci ildə paytaxtı əvvəlcə Turin, sonra Florensiya, daha sonra Roma olmaqla, birləşmiş İtaliya Krallığı yaranmışdır. 1946-cı ildən etibarən isə İtaliya respublikadır. İndi bu ölkə Avropanın qabaqcıl dövlətlərindən biridir.*

*Romada bayram təntənələrinin mərkəzi «İmperator forumları» meydanıdır. Bu meydan Romanın məşhur Venesiya prospektini Kolizeylə birləşdirir. İndiki bayramın əsas mərasimi də məhz bu meydanda olmuşdur. Burada təntənəli rəsmi parad keçirilmişdir. İtaliya hökuməti 150 il əvvəl ölkənin birləşməsində iştirak etmiş müxtəlif millətlərin nümayəndələrini və müttəfiq dövlətlərin hərbçilərini də hərbi parada dəvət etmişdir. Paradda 5 mindən çox hərbçi iştirak etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri də paradda Dövlət bayrağı ilə təntənəli keçid etmişlər.*

*Sonda aviasiya şousu nümayiş etdirilmişdir.*

## İTALİYA PREZİDENTİ CİORCİO NAPOLİTANONUN ADINDAN VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*Roma*

*2 iyun 2011-ci il*

*İyunun 2-də axşam Romanın «Kurinale» sarayında İtaliyanın birləşməsinin 150 illiyinə və Respublika gününə həsr olunmuş bayram mərasiminə qatılan nümayəndə heyəti başçılarının şərəfinə konsert proqramı təşkil edilmişdir.*

*Sonra İtaliya prezidenti Ciorcio Napolitanonun adından nümayəndə heyəti başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

### Səfər başa çatdı

*İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun dəvəti ilə İtaliyanın birləşməsinin 150 illiyi və Respublika günü münasibətilə paytaxt Romada keçirilmiş təntənəli bayram mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işgüzar səfəri iyunun 3-də başa çatmışdır.*

* * *

*Həmin gün prezident İlham Əliyev Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ (FİFA) PREZİDENTİ CƏNAB YOZEF BLATTERƏ

Hörmətli cənab Blatter!

Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu məsul vəzifəyə seçilməyiniz dünya futbolunun inkişafı, milyonların sevimli idman növünün təbliği və yayılması sahəsində xidmətlərinizə verilən yüksək qiymətdir. Əminəm ki, Azərbaycan ilə rəhbərlik etdiyiniz dünya futbol təşkilatı arasındakı əlaqələr, səmərəli əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2011-ci il*

## FİFA-nın PREZİDENTİ YOZEF BLATTER VƏ UEFA-nın PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də FİFA-nın prezidenti Yozef Blatteri və UEFA-nın prezidenti Mişel Platinini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Yozef Blatteri növbəti dəfə FİFA-nın prezidenti seçilməsi münasibətilə təbrik etdi və bu yüksək posta seçildikdən sonra ilk səfərini Azərbaycana etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev Yozef Blatterin dünya futbol ictimaiyyətinin böyük dəstəyi ilə FİFA-nın prezidenti seçilməsinə toxunaraq bunu onun rəhbərliyi ilə FİFA-nın səmərəli fəaliyyətinin nəticəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı Yozef Blatter ilə Bakıda və Sürixdə keçirdiyi görüşləri xatırlatdı. Azərbaycan futbolunun 100 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər etdiyinə görə Yozef Blatterə təşəkkürünü bildirən prezident İlham Əliyev onun səfərinin maraqlı və uğurlu olacağına əminliyini bildirdi.*

*FİFA-nın prezidenti Yozef Blatter ölkəmizə yenidən səfər etməsindən və Azərbaycan prezidenti ilə görüşündən məmnunluğunu ifadə etdi. O, Azərbaycan futbolunun 100 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün ölkəmizə dəvət olunduğuna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Yozef Blatter və Mişel Platini prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdilər.*

## BAKIDA OLİMPİYA STADİONUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*6 iyun 2011-ci il*

*Azərbaycan futbolunun 100 yaşının tamam olması münasibətilə paytaxtımızda keçirilən yubiley tədbirlərinin ən möhtəşəmi Bakı Olimpiya stadionunun təməlinin qoyulması olmuşdur.*

*İyunun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Olimpiya stadionunun təməlqoyma mərasimində iştirak etmişlər.*

*Tədbirdə, həmçinin FİFA-nın prezidenti Yozef Blatter və UEFA-nın prezidenti Mişel Platini, eləcə də dünya futbol ictimaiyyətinin görkəmli nümayəndələri, federasiya rəhbərləri, futbol veteranları və digər qonaqlar iştirak etmişlər.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, metronun «Məşədi Əzizbəyov» stansiyası dairəsindəki yolayrıcının şimal hissəsində, Sabunçu rayonunda 50 hektarlıq ərazidə yerləşəcək və paytaxtda müasir tikinti üslubu, xüsusi gözəlliyi ilə seçiləcək 65 min tamaşaçı yeri olan Bakı Olimpiya stadionu bu tipli müasir idman qurğuları sırasında özünəməxsus yer tutacaqdır. Beynəlxalq standartlara tam cavab verəcək stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur inşa ediləcəkdir.*

*Bildirildi ki, daxili sahəsi 120830 kvadratmetr olacaq stadionda tikinti işləri Beynəlxalq Tikinti Standartına (İBC), UEFA və FİFA standartlarına və Azərbaycanın inşaat normativlərinə uyğun aparılacaqdır. Jurnalistlərin işləməsi üçün nəzərdə tutulan bina 2 min kvadratmetrlik ərazini əhatə edəcəkdir. Stadionun ətrafında ümumi sahəsi 13847 kvadratmetr olacaq hovuz yaradılacaq, 81574 kvadratmetrlik yaşıllıq sa-*

*həsi salınacaqdır. Ümumilikdə, 18 girişi olacaq stadionda 41 lift quraşdırılacaq, 3617 avtomobili qəbul edəcək 7 dayanacaq fəaliyyət göstərəcəkdir.*

*Qeyd edildi ki, stadionun layihələndirilməsi ilə bağlı ilkin işlərə 2008-ci ildən başlanılmışdır. Müsabiqə elan olunmuş, bir çox yerli və xarici şirkətlərin təkliflərinə baxılmışdır. İqtisadi səmərəlilik, müasirlik, funksional xüsusiyyətlərin əlverişliliyi, paytaxtın arxitekturasına, habelə qoyulan texniki şərtlərə uyğunluğu baxımından Türkiyənin «TOCA» şirkəti tərəfindən təqdim olunan layihə konsepsiyası bəyənilmiş və layihələndirmə işləri həmin konsepsiya əsasında aparılmışdır.*

*Dünya və Azərbaycan futbolunun tarixindən bəhs edən film nümayiş olundu.*

*Dövlətimizin başçısı mərasim iştirakçılarını salamladı.*

**İlham Əliyev:** Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Azərbaycan futbolunun 100 illik yubileyini qeyd edirik. Bizimlə bərabər bu bayram tədbirlərində iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Xüsusilə FİFA-nın prezidenti cənab Blatteri, UEFA-nın prezidenti cənab Platinini səmimiyyətlə salamlayıram. Sizin hər bir gəlişiniz Azərbaycanda futbolun inkişafına yeni təkan verir və sizi qonaqlar arasında görmək bizim üçün böyük şərəfdir.

Fürsətdən istifadə edərək, bir neçə gün bundan əvvəl FİFA-nın prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə, cənab Blatter, sizi ürəkdən təbrik edirəm. İnamlı qələbəniz bir də onu göstərir ki, FİFA sizin rəhbərliyiniz altında çox böyük və uğurlu yol keçmişdir, beynəlxalq futbol aləminin mütləq əksəriyyəti sizin namizədliyinizi dəstəkləmişdir. Bir daha demək istəyirəm ki, sizin rəhbərliyiniz altında FİFA qlobal təşkilata çevrilib. O təşkilata ki, onun əsas idealları dostluq, qardaşlıq, sülh, ədalət anlayışlarıdır.

Bu gün biz futbolumuzun 100 illik yubileyini qeyd edərkən gələcəyə ümidlərlə baxırıq. Ümid edirəm ki, Azərbaycanda futbolun inkişafı uğurlu olacaqdır. Azərbaycan dövləti futbolun inkişafı üçün lazımi tədbirləri görür. Bildiyiniz kimi, futbolun inkişafına dair Dövlət Proqramı bir neçə ildir ki, icra edilir. Azərbaycanda futbolun kütləviliyinin təmin edilməsi üçün praktiki addımlar atılır. Həm dövlət qurumları, həm Azərbaycan Futbol Federasiyaları Assosiasiyası məqsədyönlü iş aparmaqla futbolun inkişafına böyük töhfə verir. Ümid edirəm ki, bu səylər nəticəsiz qalmayacaq, futbolçularımız beynəlxalq yarışlarda bizi sevindirəcəklər.

Futbol ən sevimli idman növüdür. Azərbaycanda da belədir. Biz çox istəyirik ki, uşaqlarımız, gənclərimiz, yeniyetmələrimiz futbol seksiyalarına qoşulsunlar, futbolla məşğul olsunlar. Bunu etmək üçün indi şərait yaxşıdır. Son illərdə ölkəmizdə bir neçə stadion istismara verilmişdir. Futbol meydançaları tikilir, futbolun kütləviliyinin təmin edilməsi üçün Azərbaycanda böyük işlər aparılır.

Bu gün cənab Blatterin, Platininin və digər qonaqların iştirakı ilə Bakıda ən böyük və ən müasir stadionun təməl daşı qoyulur. Ümid edirəm ki, 2-3 il ərzində bu ərazidə möhtəşəm futbol arenası – 65 min yerlik yeni, müasir, bütün beynəlxalq standartlara uyğun stadion istismara veriləcəkdir. Bu nəinki Azərbaycanın, ümid edirəm ki, bölgənin ən möhtəşəm, gözəl, yaraşıqlı və rahat stadionu olacaqdır.

Stadionun tikilməsi bir daha onu göstərir ki, Azərbaycan dövləti futbolun inkişafına dəstəyini əsirgəmir. Bundan sonra da çalışacağıq ki, biz addımlarımızla futbolun inkişafına töhfə verək. Ancaq ictimaiyyətimiz və futbol azarkeşləri futbolçularımızdan yaxşı nəticələr, gözəl qollar və qələbələr gözləyirlər. Bu bizim haqlı istəyimizdir. Ümid edirəm ki, görülən və bundan sonra görüləcək işlər, xüsusilə gənc futbolçularımızın yetişdirilməsi, seleksiya işinin düzgün təşkili nəticəsində futbolçularımız bizə futbol sevincini bəxş edəcəklər.

Bizim bu sahədəki beynəlxalq əlaqələrimiz artır. Qeyd etmək istəyirəm ki, gələn il Azərbaycanda ölkəmizin tarixində ən böyük və mötəbər futbol yarışı keçiriləcəkdir. 17 yaşınadək qızlar arasında dünya çempionatı Azərbaycanda keçiriləcəkdir. Bu, böyük məsuliyyətdir, ümid edirəm ki, bütün müvafiq qurumlar hazırlıq işlərini lazımi səviyyədə quracaq və bu çempionat çox uğurlu keçəcəkdir.

Beynəlxalq əməkdaşlıq yüksək səviyyədədir. Bu gün Azərbaycan Futbol Federasiyaları Assosiasiyası dünya futbol federasiyaları arasında öz yerini tuta bilmişdir. Hesab edirəm ki, bu da futbolun inkişafı üçün çox vacib bir amildir. Xüsusilə Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının, Avropa Futbol Assosiasiyaları İttifaqının rəhbərliyinə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Çünki onlar tərəfindən Azərbaycana verilən dəstək bizim üçün çox əhəmiyyətlidir. Ümid edirəm ki, futbol ictimaiyyətimiz öz növbəsində futbolun inkişafı üçün əlavə ardıcıl, düşünülmüş addımlar atacaqdır.

Bir daha bütün futbol ictimaiyyətini bu bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün qonaqlara bir daha «Xoş gəlmisiniz!» – deyirəm və hesab edirəm ki, bütün azarkeşlər də mənim sözlərimə qoşulacaqlar. Futbolçularımızdan qələbələr və uğurlar gözləyirik.

**M i ş e l  P l a t i n i** (*UEFA-nın prezidenti*): Cənab Prezident!

Hörmətli birinci xanım!

Cənab federasiya prezidenti, icraiyyə komitəsinin və Assosiasiyanın üzvləri!

Azərbaycanda olmağımdan böyük şərəf hissi duyuram. Belə bir gözəl gündə bu mərasimdə iştirak etməkdən şərəf hissi duyuram. Biz elə indicə burada tikiləcək bu böyük stadionun ilk çalarlarını gördük. Gördük ki, burada böyük tikinti işi gedəcəkdir.

Ümumiyyətlə, bu şəhər mənim çox xoşuma gəldi. Cənab nazir, siz də bunu qeyd edə bilərsiniz, Assosiasiyanızın prezi-

denti və o cümlədən icraçı katib də gördük ki, imkanlar yaradılır, valideynlər öz övladlarını gətirirlər. Onlara bu şəraitdən istifadə etmələri üçün imkan yaradırlar.

Bir daha qeyd etmək istəyirəm ki, bu bizim üçün böyük şərəfdir. Mən burada futbolun keçmişi barədə o qədər də bilmirəm. Lakin cənab Prezident, Sizin sözlərinizə şərik olaraq çox qısa onu deyə bilərəm ki, Azərbaycan futbolunun böyük gələcəyi vardır.

**Y o z e f  B l a t t e r** (*FİFA-nın prezidenti*): Hörmətli cənab prezident Əliyev!

Hörmətli birinci xanım!

Hörmətli hökumət üzvləri, futbol həvəskarları, dostlarımız, xanımlar və cənablar!

Bu gün elə bir gündür ki, ölkə və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası çox möhtəşəm bir tədbiri qeyd edir. Bu ölkədə futbolun 100 illiyi qeyd olunur. Bəli, FİFA-nın bütün üzvləri burada olmasa da – bizim üzvlərimizin sayı 200-dən artıqdır – hamısının adından deyə bilərəm ki, onlar bu gözəl oyunun məhz 100 il bundan öncə burada təşəkkül tapdığını bilməkdən çox şad olardılar.

Mən böyük şərəf hissi ilə bu gün yeni tikiləcək stadionun təməlqoyma mərasimində də iştirak edirəm. Əslində bu çox gözəl, möhtəşəm bir qurğu olacaq və 60 mindən artıq futbol azarkeşi bu stadiona gəlib futboldan həzz ala biləcəkdir. Bu, Assosiasiyanın da apardığı çox böyük işin nəticəsidir. Bu addımın atılması çox böyük bir hadisədir. Ona görə mən istərdim ki, sizin başqa planlarınız varsa, hətta digər memarlar da gəlib tanış olsunlar. Çünki bu həqiqətən çox yaddaqalan, çox gözəl bir layihədir. Bu baxımdan bu stadion, cənab Prezident, Siz bunu artıq qeyd etdiniz, o məqsədə xidmət edəcəkdir ki, FİFA 2012-ci ildə Azərbaycanda 17 yaşlı yeniyetmə qızlar arasında çempionat təşkil edəcəkdir. Bu da bizim üçün böyük şərəfdir. Mənə futbolun tarixi haqqında məlumat verildi və qeyd edildi ki, məhz Siz mini

futbol üzrə 5 nəfərdən ibarət iki komandanı yaradanlardan birisiniz. Bu da neçə illər bundan əvvəl baş tutubdur.

Biz futbolun digər aspektlərindən söhbət açsaq, mən onu demək istərdim ki, Sizin bir qəhrəmanınız olubdur. Bəlkə də o, futbol oyunçusu olmayıb. Söhbət Tofiq Bəhramovdan gedir. O, tarixdə iz qoyan bir şəxs olubdur. Bir neçə il öncə sizin şəhərinizdə onun abidəsinin açılışı mərasimində bir yerdə iştirak etmişdik.

Əslində futbol klassik üsluba malik olan bir oyundur. Bu, klassik, tragik bir formada öz təşəkkülünü tapan bir oyundur. Çünki burada həm vaxt, həm güc, həm böyük enerjinin sərf edilməsi tələb olunur. Futbol bu deməkdir.

Cənab Prezident, Siz burada öz şərhlərinizi verdiniz. Mən Sizin dediklərinizə şərik çıxıram və Mişel də əslində bu idman kompleksi haqqında danışdı.

Futbol insanları birləşdirir, bir araya gətirir. Mən çox şadam ki, Assosiasiya prezidentinin qeyd etdiyi kimi, bütün bu qurğular futbolla məşğul olmaq istəyənlərin hamısı üçün açıq olacaqdır. Futbol insanların, cəmiyyətin oyunudur. Ona görə, qapılar açıq olacaqdır. Bu baxımdan futbol, həmçinin mədəni, sosial rol oynaya bilər. Bəlkə də o qədər yüksək səviyyədə mədəniyyət sahəsi olmasa da, əslində bu oyunun özündə də ədalət, hörmət və fiziki ruh vardır. Ona görə, hörmətli xanımlar və cənablar, bu ədalətli oyun ruhunun cəmiyyətimizə gətirilməsində məhz futbol vacib bir məsələdir. Futbol qarşısına qoyduğu bu məqsədə nail olur.

İndi isə bizim gözəl bir fürsətimiz olacaqdır. Biz təməlqoyma mərasimində iştirak edəcəyik. Yeni tikiləcək stadionun təməlini qoyacağıq və iki il yarım, üç ildən sonra siz çox gözəl, xüsusi bir futbol arenasının şahidi olacaqsınız. Belə bir möhtəşəm işin görülməsi cənab prezident İlham Əliyevin qətiyyəti və müdrik rəhbərliyi sayəsində mümkün olacaqdır.

Biz bilirik ki, Sizin ölkənin hər bir yerində, hər bir guşəsində idmana böyük diqqət göstərilir. Bu nəinki siyasət, nəinki iqtisadiyyat, ümumiyyətlə, bütün digər sahələrlə mü-

qayisədə çox yüksək səviyyədə görülən işlərdir. Elə indicə mən buraya gələrkən gözəl bir fotoşəkil gördüm. Gördüm ki, cənab Prezident, Siz çox gözəl bir mövqedə dayanıb ayağınızla topu vurursunuz. Mən istərdim ki, kaş bütün ölkə rəhbərləri futbola belə yanaşaydılar, bu cür yanaşma nümayiş etdirəydilər. Bütün bu işlərə görə Sizə «çox sağ olun» – deyirəm, cənab Prezident! Futbol üçün gördüyünüz bütün işlərə görə çox sağ olun.

Mən bu gün burada FİFA-nın prezidenti kimi, təxminən 200-ə yaxın assosiasiyanı təmsil edirəm. Həmin assosiasiyaların prezidentləri də burada əyləşiblər. Fürsətdən istifadə edərək onların da adından, cənab Prezident, Sizi xüsusi olaraq təbrik edirəm. Həmçinin Sizin milli futbol təşkilatınızı təbrik edirəm. Bildiyiniz kimi, futbol gözəl idman növüdür. Hər zaman deyirəm ki, futboldan həzz alın. Amma ən vacibi odur ki, həyatdan da həzz alasınız. Çox sağ olun!

* * *

*Sonra stadionun təməlqoyma mərasimi oldu.*

*Dövlətimizin başçısı metal gilizi rəmzi topun içərisinə qoydu. Prezidentin oğlu Heydər Əliyev topu rəmzi qapıya vuraraq bünövrəyə saldı.*

*Prezident İlham Əliyev, FİFA-nın prezidenti Yozef Blatter və UEFA-nın prezidenti Mişel Platini beton qarışığı tökən qurğunu işə saldılar, mərasimdən xatirə olaraq saxlanılacaq futbol topunu imzaladılar.*

*Mərasimdə iştirak edən qonaqlar prezident İlham Əliyev ilə söhbətlərində bir daha dövlətimizin başçısına Azərbaycanda idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdilər.*

## AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycanda keçirilən «Xəzər neft, qaz, neft emalı və neft kimyası» XVIII Beynəlxalq sərgisinin önəmi qeyd edildi və bu sərginin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Prezident İlham Əliyev və Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, xüsusilə də enerji sahəsində uğurlu inkişafından məmnunluqlarını bildirdilər və bu əməkdaşlığın daha da genişləndirilməsi və inkişafı ətrafında fikir mübadiləsi apardılar.*

*Dövlətimizin başçısı Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının sədrinə çatdırmağı xahiş etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

## AVROPA XARİCİ SİYASƏT XİDMƏTİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ İDARƏEDİCİ DİREKTORU MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Avropa Xarici Siyasət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə İdarəedici direktoru Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da inkişaf etdirilməsinin perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## BAKIYA GƏTİRİLMİŞ YENİ AVTOMOBİLLƏRƏ BAXIŞ

*6 iyun 2011-ci il*

*Bakı şəhərində taksi xidmətinin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə Avropa standartlarına cavab verən müasir avtomobillərin növbəti hissəsi paytaxta gətirilmişdir.*

*İyunun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni avtomobillərə baxış keçirmişdir.*

*Dövlətimizin başçısının Bakı şəhərinin və respublikamızın ayrı-ayrı bölgələrinin yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı göstərişlərinə uyğun olaraq paytaxtda yolların beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması, yeni körpülərin və yolötürücülərinin tikilib istifadəyə verilməsi müasir ictimai nəqliyyat növlərinə ehtiyacı daha da artırmışdır. Avtomobil nəqliyyatı kompleksində aparılan işlər əhalinin nəqliyyat xidmətlərindən yüksək səviyyədə istifadə etməsi üçün şəraitin yaradılmasına yönəldilib. Azərbaycan prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən Bakı şəhərinin və bölgələrin taksi parkının müasirləşdirilməsi istiqamətində böyük işlər görülür. Taksi minik avtomobilləri ilə sərnişin daşımalarında qanunvericiliyin tələblərinə ciddi riayət olunması, bu sahədə pərakəndəliyin aradan qaldırılması və ümumilikdə, taksi xidmətinin müasir standartlar səviyyəsində təşkilinin təmin olunması zərurəti yarandığı üçün şəhərin taksi parkının yeniləşdirilməsinə başlanılmışdır.*

*Bildirildi ki, bu modellər yalnız taksi məqsədləri üçün istehsal edilmiş avtomobillərdir. TX4 Avro 4 standartlarına cavab verir, 2500 sm$^3$ həcmində dizel mühərriki ilə, 5 pilləli mexaniki sürət qutusu və hidravlik sükanla təchiz olunmuşdur. Bu avtomobillərin manevr imkanları yüksəkdir. Avtomobilin*

*sürücü hissəsinin sərnişin hissəsindən şəffaf şüşə ilə ayrılması sərnişinlərin rahatlığını və təhlükəsizliyini təmin edir. Arxa hissədə nəzərdə tutulmuş üzbəüz 5 oturacaq sərnişinlərə gediş zamanı rahat söhbət etməyə şərait yaradır. Avtomobil sərnişinlərə onlara aid olan hissədən avtomobildə quraşdırılmış hər iki kondisionerlərdən birini idarə etməyə, sürücü ilə danışığı asanlaşdıran sistemdən istifadə etməyə və salonun işığını yandırıb-söndürməyə imkan verir. Taksilərdə sayğac quraşdırılıb. Sərnişin sayğacın göstəricisinə görə sürücü ilə hesablaşacaq, bununla da sərnişinlə sürücü arasında narazılıqlar aradan qalxacaqdır. Qeyd edilmişdir ki, Bakı şəhərində istismar olunacaq taksilərin sürücüləri tibbi müayinədən və xüsusi psixoloji testlərdən keçmişlər. Onlarla xüsusi proqram üzrə təlim keçirilmişdir. Gələcəkdə dayanacaqların sayının tələbata uyğun olaraq artırılması nəzərdə tutulur. Gətirilmiş 100 taksi şəhərin 11 dayanacağı üzrə bölüşdürüləcəkdir. Qeyd edək ki, hər bir taksi dayanacağının yaradılması Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunmuş «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qanuna müvafiq olaraq hər bir taksi dayanacağı Nəqliyyat Nazirliyi ilə yerli şəhər və rayon icra hakimiyyəti orqanları və Bakı Şəhər Yol Polisi İdarəsinin müvafiq şöbələrinin birgə razılığı əsasında yaradılır.*

*Prezident İlham Əliyev yeni gətirilmiş avtomobillərin salonunun rahatlığı ilə də tanış oldu. Dövlətimizin başçısı avtomobillərdən birinin sükanı arxasında əyləşib avtomobili idarə etdi.*

*Paytaxta gətirilmiş yeni avtomobillərlə yaxından tanış olan prezident İlham Əliyev Bakı şəhərinin və bölgələrin taksi parkının müasirləşdirilməsi istiqamətində işlərin daha da sürətlə aparılması ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## NORVEÇ KRALLIĞININ VƏLİƏHDİ HOOKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Norveç Krallığının Vəliəhdi Hookonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Norveç Krallığının Vəliəhdi Hookonun Azərbaycana səfərinin maraqlı olacağına, ölkəmizi tanımaq baxımından bu səfərin yaxşı imkan yaradacağına əminliyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Norveç arasında əlaqələrə 1994-cü ildə enerji sahəsində əməkdaşlıqla başlanıldığını qeyd etdi. Azərbaycan–Norveç əlaqələrinin uzun tarixə malik olduğunu vurğulayan prezident İlham Əliyev Norveçin Statoyl şirkəti ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında uğurlu əməkdaşlığın önəmini qeyd etdi. Dövlətimizin başçısı Vəliəhd Hookonun Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişafı işinə xidmət edəcəyinə əminliyini vurğuladı.*

*Norveç Krallığının Vəliəhdi Hookon Azərbaycana səfərindən məmnunluğunu bildirdi. Bakıda keçirilən XVIII beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransının əhəmiyyətini vurğulayan vəliəhd Hookon Azərbaycanın regionda mühüm rolunu, Avropanın enerji məsələlərində etibarlı tərəfdaş olduğunu qeyd etdi. Norveç Krallığının Vəliəhdi ölkəsinin Azərbaycan ilə enerji sektorunda əməkdaşlığı daha da inkişaf etdirmək əzmində olduğunu bildirdi.*

## LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

Əlahəzrət!

Milli bayramınız – Böyük Hersoqun Təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Lüksemburq münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2011-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVO YOSİPOVİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Xorvatiya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2011-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DANİLO TYURKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–Sloveniya münasibətləri müvəffəqiyyətlə inkişaf etməkdədir. Əminəm ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2011-ci il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDRİS BERZİNŞƏ**

Hörmətli cənab Prezident!

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Latviya münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, dövlətlərarası münasibətlərimiz, dostluq əlaqələrimiz, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Latviya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2011-ci il*

## XVIII BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*Bakı Sərgi Mərkəzi*

*7 iyun 2011-ci il*

*İyunun 7-də Bakı Sərgi Mərkəzində XVIII Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransı öz işinə başlamışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.*

*Builki sərgidə dünyanın 27 ölkəsindən 285 şirkət təmsil olunur. Sərginin ekspozisiyasının 40 faizindən çoxu dünyada tanınmış iqtisadi qurumların payına düşür. Bu tədbirdə Azərbaycanın şirkətləri də ildən-ilə daha geniş təmsil olunur və cari sərgidə iştirakçıların 38 faizini yerli iqtisadi qurumlar təşkil edir. Ötənilki sərgi ilə müqayisədə ekspozisiyaların sahəsi 25 faiz çoxdur. Sərgi iştirakçılarının 12 faizi isə bu tədbirə ilk dəfə qatılıb. Dünyanın 11 ölkəsindən təxminən 90 aparıcı kütləvi informasiya vasitəsi sərgi və konfransa informasiya dəstəyi göstərir. Sərginin ekspozisiyası Bakı Sərgi Mərkəzinin 2 pavilyonunda yerləşir. Burada ən yeni neft-qaz avadanlığı, neftçıxarma və enerji daşıyıcılarının nəqli sahəsində qabaqcıl texnologiyalar nümayiş etdirilir. Bundan başqa, sərgi iştirakçılarına Azərbaycanda hazırda reallaşdırılan və perspektiv layihələr də təqdim olunur.*

*Açılış mərasimindən sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və şirkətin birinci vitse-prezidenti Xoşbəxt*

*Yusifzadə dövlətimizin başçısına ARDNŞ-in ekspozisiyası barədə ətraflı məlumat verdilər. Qeyd olundu ki, beynəlxalq səviyyəli şirkətə çevrilən ARDNŞ ən qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verir, 2010–2015-ci illəri əhatə edən nanoneft proqramını və digər silsilə layihələri reallaşdırır.*

*Sonra «Ümid» qaz yatağındakı 10 nömrəli quyunun qazılmasına start verilməsi mərasiminin iştirakçıları ilə canlı videobağlantı yaradıldı.*

**N e f t ç i l ə r:** Beynəlxalq Xəzər neft-qaz sərgisi iştirakçılarına Bakı arxipelaqının sahildən 80 kilometr məsafədə yerləşən «Ümid» platformasından səmimi salamlarımızı yetiririk. Möhtərəm Prezident, «Ümid-1» platformasında 10 nömrəli quyunun qazılmasına başlanılması üçün Sizin xeyirduanızı istəyirik. Qazma prosesini beynəlxalq standartlar səviyyəsində tam başa çatdırmaq üçün qurğu və mexanizm tam işlək vəziyyətə gətirilmişdir.

Möhtərəm Prezident, məlumat üçün bildirmək istəyirəm ki, layihələndirilən 10 nömrəli quyu məhsuldar qatın 7-ci horizontuna layihələndirilmişdir. Bu quyunun layihə dərinliyi 6500 metrdir. Cənab Prezident, kollektivimiz adından Sizə söz veririk ki, «Ümid-1» platformasında qazılacaq 10 nömrəli quyu müvəffəqiyyətlə və keyfiyyətlə qazılıb təhvil veriləcəkdir.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, mən sizi təbrik edirəm. «Ümid» yatağının aşkarlanması bizim üçün tarixi hadisədir. Neftçilərimiz böyük peşəkarlıq göstərmişlər. Geoloqlarımızın gərgin səyləri nəticəsində böyük yataq aşkarlanmışdır. Bu gün biz özümüz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin imkanları çərçivəsində «Ümid» yatağının işlənilməsinə başlayırıq. Bu münasibətlə mən sizi ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, «Ümid» yatağının işlənilməsi nəticəsində yaxın zamanlarda Azərbaycanın qaz ehtiyatları daha da artacaq və Azərbaycan özünü dünyada qaz ölkəsi kimi tanıtdıracaqdır. Mən arzu edirəm ki, «Ümid» yatağının işlənilməsi zamanı bütün lazımi parametrlər gözlənilsin,

xüsusilə texnoloji məsələlərə diqqət göstərilsin. Bu gün ARDNŞ dünya səviyyəli bir şirkətdir və onun gördüyü işlər də dünya səviyyəsində olmalıdır.

**N e f t ç i l ə r:** Uğurlar olsun, sağ olun.

*Sonra 10 saylı quyunun qazma qurğusu işə salındı.*

*Dövlətimizin başçısı bp şirkətinin ekspozisiyası ilə tanış oldu. Qeyd edildi ki, Xəzərin Azərbaycan sektorunda iri neft və qaz yataqlarının işlənilməsində, Səngəçal, Supsa və Ceyhan kimi böyük terminalların inşasında, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru kəmərlərinin tikintisində mühüm xidmətləri olan bp şirkəti bundan sonra da Azərbaycan ilə sıx əməkdaşlıq edəcəkdir.*

*Prezident İlham Əliyevə dünyanın 80-dən çox ölkəsində fəaliyyət göstərən Fransa–Amerika birgə şirkəti olan «SCHLUMBERGER»in ekspozisiyası barədə də məlumat verildi. Bildirildi ki, bu iqtisadi qurum Azərbaycanda reallaşdırılan iri neft-qaz layihələrində yaxından iştirak edir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, OMV şirkəti də Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bu istiqamətdə səylərini əsirgəmir.*

*Prezident İlham Əliyev pavilyonlarla tanışlıqdan sonra sərgi və konfransın işinə uğurlar arzuladı.*

*«Eurovision–2011» mahnı müsabiqəsindəki qələbədən məmnunluğunu bildirən Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger bu zəfər münasibətilə Azərbaycanı təbrik etdi. Bu gün Almaniya–Azərbaycan futbol oyununun keçiriləcəyini xatırladan komissar Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın tək musiqi və yaxud futbolla məhdudlaşmadığını qeyd etdi. Hər iki tərəfin energetika sahəsində əməkdaşlıq etdiyini deyən Ottinger bu istiqamətdə Azərbaycanın mühüm rolunu diqqətə çatdırdı.*

*Daha sonra Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun tədbir iştirakçılarına müraciəti oxundu.*

*Sərgidə iştirakdan məmnun olduğunu deyən Norveç Krallığının Vəliəhdi Hookon Norveç ilə Azərbaycanın zəngin neft*

*ehtiyatlarına malik olduğunu qeyd edərək Dövlət Neft Şirkəti ilə Statoylun uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Cənub qaz dəhlizində Azərbaycanın xüsusi rolunu diqqətə çatdıran Hookon ölkəmizdə neft hasilatının qədim tarixə malik olduğunu vurğulayaraq, neftdən əldə olunan gəlirlərin idarə olunmasında şəffaflıq və uzunmüddətlilik siyasətinin həyata keçirilməsinin vacibliyini bildirdi.*

*Sonra Gürcüstanın Energetika və Təbii Ehtiyatlar naziri Aleksandr Xetaquri çıxış edərək sərginin əhəmiyyətindən danışdı. Xəzər bölgəsi neftinin Avropa və dünya bazarlarına çıxarılmasında şaxələndirmənin önəmini qeyd edən Aleksandr Xetaquri bu istiqamətdə əməkdaşlığın uğurlu olacağına inamını ifadə etdi.*

*Açılış mərasimindən sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*Prezident İlham Əliyev pavilyonlarla tanışlıqdan sonra sərgi-konfransın işinə uğurlar arzuladı.*

# XVIII BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA NİTQ

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi Xəzər neft, qaz sərgi və konfransının açılışı münasibətilə təbrik edirəm. Ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram.

Bu sərgi və konfrans artıq ənənəvi xarakter daşıyır. On səkkizinci ildir ki, Bakıda belə mötəbər tədbir keçirilir. Mən çox şadam ki, ildən-ilə bu sərgiyə maraq artır. Bu çox gözəl göstəricidir və onu göstərir ki, baxmayaraq Azərbaycanda əvvəlki illərdə böyük investisiya layihələri həyata keçirilib, yenə də ölkəmizin neft-qaz sektoruna xarici investorlar tərəfindən maraq azalmır. Bunun səbəbi ondan ibarətdir ki, bizim neft strategiyamız uzunmüddətli strategiyadır. Bu strategiyanın uğurlu icrası nəticəsində neft-qaz sektorunda ölkə qarşısında duran əsas vəzifələr yerinə yetirildi. Ancaq biz yenə də gələcəyə baxırıq və əminəm ki, bu günlərdə burada gələcək planlarımız haqqında çox geniş müzakirələr aparılacaqdır.

Bildiyiniz kimi, Azərbaycan qədim neft ölkəsidir. Sənaye üsulu ilə dünyada ilk dəfə neft XIX əsrdə məhz Azərbaycanda hasil edilmişdir. XX əsrdə dəniz yataqlarından dünyada ilk dəfə neft yenə də Azərbaycanda hasil edilmişdir. Yəni, bizim böyük ənənələrimiz vardır, Azərbaycanın bu sahədəki nailiyyətləri dünya ictimaiyyəti üçün real bir faktdır və bu barədə bəlkə geniş danışmağa da dəyməz.

Bir məsələyə toxunmaq istəyirəm ki, İkinci dünya müharibəsi zamanı faşizm üzərində qələbənin qazanılmasında

Azərbaycan neftçilərinin çox böyük rolu və payı olmuşdur. O vaxt Sovet İttifaqının yanacağının 90 faizi Bakıda Azərbaycan neftçiləri tərəfindən istehsal edilmişdir.

Müstəqilliyə qovuşanda ölkəmiz yeni çağırışlarla üzləşmişdir. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Qeyri-sabit vəziyyətin mövcud olduğu, vətəndaş müharibəsinin başlandığı, total böhranın hökm sürdüyü bir zamanda Azərbaycan müstəqil ölkə kimi, ilk addımlarını atmışdır. Ölkəmizin gələcəyi üçün lazımi tədbirlərin görülməsi böyük bir zərurət idi. Azərbaycanın bəxti gətirmişdir ki, ölkəmiz üçün həlledici anlarda böyük dövlət xadimi, ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəlmişdir. Dövlətimizin və dövlətçiliyimizin əsasları məhz onun siyasəti nəticəsində formalaşmışdır. Azərbaycanda dövlətçiliyin əsasları qoyulmuş, hüquqi dövlət quruculuğu, siyasi və iqtisadi islahatlar aparılması prosesi başlanmışdır. Onların içində ən mühüm və tarixi əhəmiyyətə malik olan hadisə 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması idi.

Bu kontraktın imzalanması nəticəsində Azərbaycan ilk dəfə olaraq xarici investorları Xəzər dənizinə dəvət etmişdir. İlk dəfə olaraq Xəzər dənizində xarici neft şirkətləri fəaliyyətə başlamışlar. Ölkə iqtisadiyyatına böyük həcmdə investisiyalar qoyulmağa başlanmışdır. Deyə bilərəm ki, neft sektoruna qoyulan investisiyalar digər sektorlara da investisiyaların cəlb edilməsinə çox müsbət xidmət göstərmişdir. Bütövlükdə 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına 97 milyard dollar sərmayə qoyulmuşdur ki, onların 42 milyardı neft-qaz sektoruna qoyulan sərmayədir və mütləq əksəriyyəti xarici sərmayədir.

Azərbaycan 1994-cü ildə çox riskli bir dövlət kimi tanınırdı. Xarici böyük neft şirkətlərinin Azərbaycana dəvət edilməsi, onlar üçün şəraitin yaradılması, investisiyalarının qorunması üçün lazımi tədbirlərin görülməsi, qanunvericilik sahəsində lazımi addımların atılması böyük məsuliyyət tələb edirdi.

«Əsrin müqaviləsi» tarixi hadisə idi, ona görə ki, xarici şirkətlərlə əməkdaşlığımızın ilk təcrübəsi uğurlu olmuşdur. Birinci müqavilədən sonra Azərbaycana maraq artdı. Azərbaycan özünü dünyada etibarlı tərəfdaş, sözünə hörmət edən ölkə kimi tanıda bilmişdir. 1994-cü ildən bu günə qədər Azərbaycan ilə xarici neft şirkətləri arasında heç bir ciddi mübahisə, heç bir qarşıdurma, kontraktlara yenidən baxılmaq arzuları olmamışdır. Bunu ona görə deyirəm ki, bəzi ölkələrdə vaxtilə imzalanmış kontraktlara yenidən baxılır, onların dəyişdirilməsi üçün addımlar atılır. Biz isə etimadı qazanmışıq və bu etimadı qiymətləndiririk. Hesab edirəm, investorlar üçün ən vacib amil ondan ibarətdir ki, onlar tam əmin olmalıdırlar, onların investisiyaları dövlət tərəfindən lazımi səviyyədə qorunur və bu siyasət dəyişməz olaraq qalır.

«Əsrin müqaviləsi»nin imzalanması nəticəsində investisiyaların cəlb edilməsi, əlbəttə ki, işimizə birinci təkan vermişdir. Ondan sonra nefti xarici bazarlara çıxarmaq üçün böyük addımlar atılmağa başlanmışdır. Görülən çox vacib işlərin arasında mən neft kəmərlərinin tikintisini xüsusi qeyd etmək istəyirəm. Hazırda Azərbaycan nefti dünya bazarlarına üç istiqamətlə nəql edilir. Biz bu sahədə şaxələndirmə məqsədlərimizə tam çatmışıq. Bu gün üç istiqamətdə nəql edilən neftimiz dünya bazarlarına çox etibarlı yollarla çıxarılır.

Neft kəmərinin, xüsusilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı, həm də ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı. O vaxt bizim bölgədə çox çətin geosiyasi vəziyyət mövcud idi. Buna baxmayaraq, xarici investorlar böyük vəsait cəlb etdilər, beynəlxalq maliyyə qurumları öz dəstəyini göstərdi. Azərbaycan tərəfi də üzərinə düşən bütün vəzifələri ləyaqətlə və uğurla icra etmişdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi nəticəsində biz nəinki yeni bazara çıxa bilmişik və dəhlizi açmı-

şıq, eyni zamanda, ölkə iqtisadiyyatına böyük həcmdə vəsait gəlməyə başlamışdır. Biz bu vəsaitdən çox səmərəli şəkildə istifadə etdik. 1999-cu ilin sonunda Azərbaycanda yaradılmış Dövlət Neft Fondu bu gün dünya səviyyəsində ən şəffaf qurumlardan biridir. Fondun fəaliyyəti beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı və digər təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Neft fondu tam şəffaf bir qurumdur. Bu bizə imkan verdi ki, əldə olunmuş gəlirlərdən səmərəli və ədalətli istifadə edək. Nəticədə Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı son 7 ildə 49 faizdən 9 faizə düşmüşdür. Əgər əlimizdə Neft fondu kimi çox şəffaf və müasir qurum olmasaydı, biz bu nailiyyətlərə çata bilməzdik. Azərbaycana gələn vəsait ədalətli bölünür, vəsaitin toplanması və xərclənməsi çox şəffaf şəkildə həyata keçirilir.

Müəyyən mərhələdə, xüsusilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismarından sonra belə bir fikir oyana bilərdi ki, artıq biz qarşımızda duran bütün vəzifələri icra etdik. Bundan sonra əldə edilmiş gəlirlərin idarə edilməsi ilə məşğul olmalıyıq. Lakin bizim yanaşmamız tam fərqlidir, nəinki bu sahədə, bütün başqa sahələrdə də. Əldə edilmiş nailiyyətlər bizim üçün bir mərhələdir, addımdır, bir pillədir. Biz daim gələcəyə baxırıq və ölkəmizin uğurlu və dayanıqlı inkişafı üçün uzunmüddətli proqram çərçivəsində addımlarımızı planlaşdırırıq.

Qarşımızda duran ikinci vacib məsələ Azərbaycanı dünyada nəinki neft dövləti kimi, qaz dövləti kimi də tanıtmaqdır. 1996-cı ildə imzalanmış «Şahdəniz» qaz yatağı üzrə kontrakt icra edilməyə başlamışdır və Azərbaycanda çox böyük qaz yataqları aşkarlanmışdır. Deyə bilərəm ki, «Şahdəniz» qaz yatağının kəşfi o dövrdə bir o qədər də böyük diqqət cəlb etməmişdi. Çünki dünyada, xüsusilə Avropada qaz amilinə o qədər də böyük diqqət göstərilmirdi. Sonrakı dövrdə qaz amilinin ölkələrin enerji təhlükəsizliyinə nə qədər təsir edən məsələ olduğunu hamımız daha da yaxşı başa düşdük. Azərbaycan öz tərəfindən bütün lazımi tədbirləri görmüşdür və «Şahdəniz» qaz

yatağının aşkarlanması dünya enerji bazarında çox təsirli bir hadisə olmuşdur. Biz hazırda enerji siyasətimizi daha çox qaz amili üzərində qururuq. Çünki neft sahəsində bütün layihələr icra edilib. Bundan sonra biz yalnız hasilatı sabit saxlamaqla öz siyasətimizi davam etdirəcəyik.

Qaz bazarı istiqamətində çalışmalarımız məqsədyönlü xarakter daşıyır. Şaxələndirilmiş ixrac infrastrukturumuz bu gün həm Azərbaycanın maraqlarına xidmət edir, həm də qonşu bazarlara dəstəkdir. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də tarixi hadisə idi. Əvvəlki fikrə qayıtmaq istəyirəm ki, əgər Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi və bu dəhliz açılmasaydı, sınaqdan keçməsəydi, qaz dəhlizinin açılması da böyük problemlərlə üzləşə bilərdi. Yəni mövcud dəhliz üzərindən qaz kəmərini də çəkdik və Bakı–Tbilisi–Ərzurum qaz kəməri regional və qitə miqyasında ciddi bir amildir. Bu gün Azərbaycan qazı dörd istiqamətdə dünya bazarlarına çıxarılır. Biz qonşu dövlətlərə qazı ixrac edirik və artıq neft-qaz kəmərlərimizin sayı yeddiyə çatmışdır. Zəngin qaz yataqlarımızdan səmərəli şəkildə istifadə etmək üçün bizə böyük, etibarlı bazarlar lazımdır. O bazarlar ki, qanunlarla tənzimlənir, bizim qazımıza orada ehtiyac vardır. Bir neçə ildir ki, Cənub qaz dəhlizi ilə əlaqədar çox fəal siyasət aparırıq, müzakirələr gedir və konkret addımlar atılır.

2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa dair memorandum imzalanmışdır. Bu birinci addım idi. Ondan sonrakı dövrdə müxtəlif beynəlxalq forumlarda Azərbaycan öz qaz resurslarını təqdim edə bilmişdir. Bu gün bizim təsdiq edilmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetrə bərabərdir.

Bu ilin yanvarında Avropa İttifaqı ilə Azərbaycan arasında yeni vacib sənəd – «Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə» imzalanmışdır. Bu bəyannamə konkret sənəddir və biz bu sənəd üzərində işləyirik. Avropa İttifaqı ilə Azərbaycan arasında işçi qrupu yaradılmışdır. Bu işçi qrupu çox səmərəli işləyir. Ümid edirəm ki, bütün lazımi sənədlər

yaxın zamanlarda imzalanacaq və «Şahdəniz» layihəsinin ikinci mərhələsinin işlənməsi üçün bizdə əsas olacaqdır. Hesab edirəm ki, Cənub qaz dəhlizinin gələcəyi çox gözəl olacaqdır.

Hazırda bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasında tranzit məsələlərinin həlli üçün danışıqlar aparılır. Bu danışıqlar son mərhələdədir. Keçən ilin iyun ayında Türkiyə ilə Azərbaycan arasında qaz tranziti haqqında protokol imzalanmışdır. O protokolda bütün lazımi məsələlər öz əksini tapmışdır. Ümid edirik ki, yaxın zamanlarda o protokolda göstərilən və sadalanan maddələr son sənədə çevriləcəkdir. Beləliklə, tranzit sazişinin imzalanmasından sonra artıq Azərbaycan qazı üçün bütün maneələr aradan qaldırılacaqdır.

Keçən sərgidən bu günə qədər Azərbaycanın enerji siyasətində bir neçə vacib hadisə baş vermişdir. Mən onlardan ikisini xüsusilə vurğulamaq istəyirəm. Birincisi, dediyim kimi, yanvar ayında Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi haqqında imzalanmış bəyannamə, ikincisi isə Azərbaycan neftçiləri tərəfindən kəşf edilmiş böyük «Ümid» qaz yatağıdır. Bu onu göstərir ki, bizim «Şahdəniz»dən başqa da böyük ehtiyatlarımız vardır. Neftçilərimiz və geoloqlarımız həmişə bunu vurğulayırlar. İkinci tərəfdən, «Ümid» yatağının önəmi ondadır ki, bu yataq Azərbaycan neftçiləri, Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən aşkarlanmışdır. Neftçilərimizin müasir təcrübəsi və xarici şirkətlərlə əməkdaşlığı nəticəsində əldə edilmiş təcrübə artıq konkret nəticələr vermişdir. Azərbaycan Dövlət Neft Şirkəti «Ümid» yatağında həm investordur, həm də operatordur. «Ümid» yatağının aşkarlanması göstərir ki, onun yanında yerləşən perspektiv strukturlarda da kifayət qədər qaz vardır. Biz buna əminik. Ümid edirəm ki, növbəti mərhələlərdə Azərbaycanda qaz yataqlarının kəşfiyyatı davam edəcəkdir.

Enerji təhlükəsizliyi məsələləri bu gün dünya gündəliyində dayanan vacib məsələlərdən biridir. Azərbaycan tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz üzərinə

düşən vəzifələri ardıcıllıqla və böyük iradə ilə icra edir. Mən hesab edirəm ki, hazırda istehlakçılar, tranzit ölkələr və istehsalçılar arasında yaranan əməkdaşlıq yaxşı nəticələrə gətirib çıxaracaqdır. Çünki məhz bu üç tərəfin birgə fəaliyyəti nəticəsində biz uğura nail ola biləcəyik.

Bu il müstəqilliyimizin 20-ci ildönümünü qeyd edərkən tam əminliklə deyə bilərik ki, neft-qaz sektorunda enerji təhlükəsizliyi sahəsində əldə edilmiş nailiyyətlər ölkəmizi möhkəmləndirə bilmişdir. Azərbaycan özünü tam şəkildə təmin edən ölkədir. Valyuta ehtiyatlarımız artır və hazırda onun səviyyəsi təqribən 35 milyard dollara çatmışdır. İqtisadiyyatımız artır və son 7 ildə ümumi daxili məhsul 3 dəfə artmışdır. Büdcə xərcləri 2003-cü ildə 1,2 milyard dollar idi, 2011-ci ildə bu rəqəm 20 milyard dollara çatmışdır.

Ölkədə çox güclü sosial siyasət aparılır, işsizliyə qarşı mübarizə güclənir, yoxsulluq azalır. Sənaye potensialımız və qeyri-neft sektoru inkişaf edir. Bütün bu uğurların təməlində, birmənalı deyə bilərəm ki, 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» dayanır. Ona görə bu gün bu sərgi və konfransın açılışında 1994-cü ildə bizə inanan, Azərbaycanın gələcəyinə inanan xarici neft şirkətlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Son illər ARDNŞ ilə xarici tərəfdaşlar arasında çox işgüzar münasibətlər qurulmuşdur. Bu münasibətlərin çox gözəl gələcəyi vardır. Çünki bizim planlarımız çoxdur, gələcəyə ümidlərlə baxırıq və əldə edilmiş uğurlar bu ümidləri daha da gücləndirir.

Bir daha, əziz dostlar, sizi sərginin və konfransın açılışı münasibətilə təbrik edirəm. Sərgiyə və konfransa uğurlar arzulayıram. Sağ olun.

## ABŞ-ın AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*XVIII Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransının əhəmiyyətinə toxunularaq, hər il Bakıda ənənəvi olaraq yüksək səviyyədə təşkil edilən bu tədbirin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd edildi.*

## SERBİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*8 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Serbiyaya rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Serbiya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Belqradın «Nikola Tesla» aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Serbiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Belqrad*

*8 iyun 2011-ci il*

*Serbiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı «Serbiya» Palatasının qarşısında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Serbiya prezidenti Boris Tadiç Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Serbiyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Serbiyanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Boris Tadiçə təqdim olundu.*

## SERBİYA PREZİDENTİ BORİS TADİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Belqrad*

*8 iyun 2011-ci il*

*İyunun 8-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu, yüksək səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşməsi baxımından əhəmiyyətli olduğu vurğulandı.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Belqrad*

*8 iyun 2011-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Boris Tadiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Serbiya prezidenti Boris Tadiç Azərbaycanı ölkəsinin mühüm tərəfdaşı adlandırdı. Bildirdi ki, ölkələrimizin siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələri möhkəmləndirmələri vacibdir. Serbiya prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir daha öz dövlətinin mövqeyini bəyan etdi.*

*Prezident Boris Tadiç vurğuladı ki, ölkəsi Azərbaycan şirkətlərinin Serbiyanın nəqliyyat infrastrukturunda və digər sahələrdə iştirakında maraqlıdır. Bu, kənd təsərrüfatı sahəsinə də aid edilə bilər. Serbiya Azərbaycanın nəqliyyat-tranzit imkanlarından istifadə etməkdə də maraqlıdır.*

*Azərbaycan prezidenti İlham Əliyev bildirdi ki, Azərbaycan–Serbiya əlaqələri sürətlə inkişaf edir. «Bu cür görüşlər müxtəlif layihələrin müzakirəsi baxımından vacibdir» – deyən prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı inamın mövcud olduğunu söylədi. Bildirdi ki, siyasi əlaqələrimiz yüksək səviyyədədir, enerji sahəsində əməkdaşlığın yaxşı perspektivləri vardır.*

*Dövlətimizin başçısı Kosovo problemi ilə bağlı Azərbaycanın mövqeyini bir daha Serbiya prezidentinin diqqətinə çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev ümidvar olduğunu bildirdi ki, hökumətlərarası birgə Komissiyanın fəaliyyəti əlaqələrimizin daha da inkişafına öz töhfəsini verəcəkdir.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Belqrad*

*8 iyun 2011-ci il*

*Prezident İlham Əliyevin və prezident Boris Tadiçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları başa çatdıqdan sonra Azərbaycan–Serbiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın və Serbiyanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vuk Yeremiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş»i Azərbaycanın və Serbiyanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vuk Yeremiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın İqtisadiyyat və Regionların İnkişafı naziri Neboyşa Çiriç imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Serbiya Respublikasının Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın Təhsil və Elm naziri Jarko Obradoviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Serbiya Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclərlə iş və idman sahəsində əməkdaşlıq haqqında*

*Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın Gənclər və İdman naziri xanım Snejana Samarjiç-Markoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Serbiyanın Ətraf Mühit, Mədən Sənayesi və Ərazi Planlaşdırması naziri Oliver Duliç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın Mədəniyyət, Mətbuat və İnformasiya Cəmiyyəti naziri Predraq Markoviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Serbiya Respublikasının Kənd Təsərrüfatı, Ticarət, Meşəçilik və Su Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın Kənd Təsərrüfatı, Ticarət, Meşəçilik və Su Təsərrüfatı naziri Duşan Petroviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Serbiya Respublikasının İqtisadiyyat və Regional İnkişaf Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın İqtisadiyyat və Regionların İnkişafı naziri Neboyşa Çiriç imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Serbiya Respublikasının İnfrastruktur və Energetika Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Serbiyanın İnfrastruktur və Energetika naziri Milutin Mrkoniç imzaladılar.*

*«Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Serbiya Respublikasının İnfrastruktur və Energetika*

*Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Serbiyanın İnfrastruktur və Energetika naziri Milutin Mrkoniç imzaladılar.*

*«Azərbaycan Respublikasının Mülki Aviasiya Administrasiyası və Serbiya Respublikasının Mülki Aviasiya Direktorluğu arasında Anlaşma Memorandumu»nu «Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov və Serbiyanın Mülki Aviasiya direktoru Neboyşa Starçeviç imzaladılar.*

# SERBİYA PREZİDENTİ BORİS TADİÇ İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və Serbiya prezidenti Boris Tadiç mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Serbiya prezidenti Boris Tadiçin bəyanatı

Böyük məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti hörmətli dostum cənab İlham Əliyev ilə mənim görüşüm baş tutdu. Ölkələrimiz arasında mövcud olan bir çox məsələləri müzakirə etdik və bu gün bir çox sənədi imzaladıq. Bu əslində ölkələrimiz arasında bir çox sahədə əlaqələrin təzahürüdür. Biz görürük ki, siyasi münasibətlərimiz strateji səviyyəyə qalxır.

Xanımlar və cənablar, Serbiya və Azərbaycan bu gün eyni vəzifələr və məsələlər qarşısındadır. Ölkələrimiz arasında oxşarlıqlar da vardır. Söhbət burada Dağlıq Qarabağ və Kosovo məsələlərindən gedir. Serbiya Respublikası Azərbaycanın hər hansı bir hissəyə bölünməsinin tərəfdarı deyil, qətiyyən bu fikirdə deyil və Azərbaycanı BMT-nin üzvü kimi, öz ərazi bütövlüyü çərçivəsində tanıyır. Əslində bu bizim mətbuat konfransında bəyanatımızın əsas hissəsidir. Mən cənab Prezidentə təşəkkürümü bildirdim. Cənab Prezidentin Kosovo məsələsində tutduğu mövqe ilə bağlı təşəkkürümü bildirdim.

Azərbaycan Serbiyanın ərazi bütövlüyünü və Serbiya da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Bu prinsiplər beynəlxalq hüququn vacib, təməl prinsipləridir. Əslində bu, ölkələrimiz üçün də çox mühüm məsələdir.

Biz digər sahələrdə də əməkdaşlığımızı müzakirə etdik, müxtəlif sahələrə aid sənədləri imzaladıq. Hesab edirik ki, iqtisadiyyat, energetika sahələrində əməkdaşlığımızı daha da dərinləşdirməliyik. Azərbaycan bu gün böyük həcmdə neft və qaz hasil edir. Azərbaycanın bu sahədə mövqeləri qlobal səviyyədə güclənir və Azərbaycan böyük layihələrə imza atır.

Əslində Gürcüstan, Rumıniya və Azərbaycan bir mühüm layihə üzərində işləyir. Çox ümid edirik ki, Macarıstan da bu yaxınlarda həmin layihəyə qoşulacaq və bu, böyük bir qaz layihəsi olacaqdır. Serbiyanın bu məsələdə strateji maraqları vardır. Serbiya bu layihəyə qoşulmaq istəyir və cənab Prezidentlə mən bu məsələni müzakirə etdik, bir daha iradəmizi bildirdik ki, biz bu layihəyə qoşulmaq istəyirik. Biz əməkdaşlığımızın digər sahələrini müzakirə etdik. Energetika, tikinti, terminallar, sıxılmış maye qaz sahələrini nəzərdən keçirdik. Hesab edirik ki, qazın saxlanılması üçün anbarların tikintisində əməkdaşlıq edə bilərik. Əslində bu, regionumuz üçün çox vacibdir, xüsusən də qış mövsümündə. Azərbaycanla xüsusi əməkdaşlığımız olmalıdır. Görürük ki, dünyada enerji problemləri üzə çıxır. Nüvə enerjisi ilə bağlı bəzi qəzalar baş verir. Buna görə də Avropa üçün daha çox qaz vacibdir, nəinki nüvə enerjisi. Biz belə hesab edirik.

Ona görə Azərbaycanın bu sahədəki addımlarının vacibliyi get-gedə artır. Bununla bağlı mən cənab Prezidentə təşəkkürümü bildirirəm və onu təbrik edirəm ki, əslində Azərbaycan bu sahədə – qazın hasilatı sahəsində böyük addımlar atmışdır və bu, ölkənin iqtisadiyyatının inkişafına kömək etmişdir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf edir, regionda öz mövqeyini tutur, öz mədəni irsini, özünəməxsusluğunu qoruyur. Biz nəinki energetika, bir çox digər iqtisadi sahələrdə də əməkdaşlıq edirik.

Əməkdaşlığımızın sahələrindən biri mədəniyyət sahəsində mübadilələrdir. Mən Belqradda mədəniyyət ocaqlarının tikintisi ilə bağlı ayrılan maliyyə yardımına görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Biz xüsusi bir yanaşmadan istifadə

edərək ətraf mühitin qorunmasına da xüsusi diqqət yetiririk. Gələcəkdə bununla bağlı bir çox nəticələr əldə edə bilərik. İnfrastruktur sahəsində əməkdaşlığımızı da müzakirə etdik. Azərbaycan şirkətləri olduqca tanınan şirkətlərdir. Onlar bir çox ölkələrdə yollar çəkirlər, körpülərin tikintisi ilə məşğuldurlar.

Azərbaycan infrastrukturunu inkişaf etdirir və bu baxımdan gələcəkdə bir çox imkanlar vardır. Bunu nəzərə alaraq belə bir fikrə gəldik ki, Azərbaycan şirkəti ilə birgə bizim şirkətlər Serbiyada dəmiryol xəttinin tikintisi ilə məşğul olsunlar. Fikrimiz var ki, Çindən Xəzər dənizi regionu – Azərbaycan vasitəsilə Avropaya ümumi çıxış, marşrut təmin edilsin. Balkan regionu olduqca böyük strateji əhəmiyyətə malikdir. Azərbaycan isə Qafqaz regionunda strateji əhəmiyyətə malikdir. Çin və Avropa ilə birbaşa əlaqələr yaradılsa, daha qlobal əhəmiyyətə malik olar.

Biz səhiyyə sahəsinə də toxunduq, müdafiə sahəsində əməkdaşlıq məsələlərini də nəzərdən keçirdik. Əslində elə bir iqtisadi sahə qalmadı ki, biz onu nəzərdən keçirməyək. Hökumətlərimiz arasında bu addımlar artıq atıldı. Atdığımız bu addımlar hətta bizi onilliklərə doğru aparan bir addımdır. Azərbaycan ilə Serbiya arasında xüsusi dostluq və əməkdaşlıq əlaqələri mövcuddur.

Sonda mən bir daha əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə, xüsusən də mədəni sahədə verilmiş yardıma görə cənab Prezidentə təşəkkürümü bildirirəm. Biz Bakıda və Belqradda mədəniyyət mövzusunda seminarın keçirilməsi məsələsini də müzakirə etdik.

Cənab Prezident Əliyev, Serbiyaya xoş gəlmisiniz! Özünüzü burada öz evinizdəki kimi hiss edin. Necə ki, mən Bakıya səfərim zamanı özümü öz evimdə hiss etdim. Bir daha çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, çox sağ olun!

İlk növbədə, cənab Prezident, Sizə məni gözəl ölkənizə dəvət etdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Serbiyada olmağımdan çox məmnunam. Çox şadam ki, iki ölkə arasında münasibətlər sürətlə inkişaf edir. Münasibətlərimiz bütün dövrlərdə yüksək səviyyədə olub. Ancaq qeyd etməliyəm ki, son bir neçə il ərzində bu münasibətlər daha da dinamik və intensiv xarakter daşıyır. Cənab Prezident, Sizin keçən il Azərbaycana səfəriniz və səfərin gözəl nəticələri bu münasibətlərin inkişafına güclü təkan vermişdir. Mənim bugünkü səfərim onu göstərir ki, aramızda güclənən siyasi dialoq doğrudan da strateji xarakter daşıyır və biz ikitərəfli münasibətlərə məhz bu nöqteyi-nəzərdən yanaşırıq.

Əlaqələrimiz çoxşaxəlidir və cənab Prezident, Siz çıxışınızda bu gün apardığımız danışıqlar haqqında məlumat verdiniz. Əlavə etmək istəyirəm ki, biz doğrudan da bu münasibətlərə çox böyük diqqət göstəririk. Bu münasibətlər bizim üçün çox önəmlidir. Biz istəyirik ki, bütün sahələrdə ikitərəfli formatda əməkdaşlıq daha da dərinləşsin. Eyni zamanda, münasibətlərimizin regional əməkdaşlıq meyillərinin gücləndirilməsinə də çox müsbət təsiri vardır. Balkan regionunu Xəzər və Qafqaz regionları ilə birləşdirə biləcək kifayət qədər layihələr vardır. Biz bu gün bu layihələr haqqında geniş fikir mübadiləsi aparmışıq və bizdə heç bir fikir ayrılığı yoxdur.

Siyasi əlaqələrimizin inkişafı üçün beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizi davam etdirəcəyik. Bildiyiniz kimi, ölkələrimiz separatizmdən əziyyət çəkən ölkələrdir. Bizim ərazi bütövlüyümüz pozulubdur və əfsuslar olsun ki, bu ədalətsizlik uzun illərdir davam edir. Biz Serbiyanın ərazi bütövlüyünü tanıyırıq və üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda Serbiyanın ərazi bütövlüyünü daim müdafiə edəcəyik.

Hesab edirik ki, heç bir ölkənin beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri o ölkənin razılığı olmadan dəyişdirilə bilməz. Beynəlxalq hüquq normaları bütün hallarda üstünlük təşkil etməlidir və bu bizim prinsipial mövqemizdir, biz bu mövqedən bir addım da geri atmayacağıq.

Biz Serbiya hökumətinə və rəhbərliyinə minnətdarlığımızı bildiririk ki, Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Serbiya daim ədalətli mövqe nümayiş etdirib. Bu mövqe beynəlxalq təşkilatlarda, xüsusilə BMT-nin Baş Məclisində keçirilən səsvermə zamanı da özünü göstərmişdir. Bu mövqeyə görə biz Sizə minnətdarıq.

Bizi birləşdirən təkcə ağrılarımız, dərdlərimiz, problemlərimiz deyildir. Bizi birləşdirən hər iki ölkədə olan nikbinlik əhval-ruhiyyəsidir. Biz tam əminik ki, ölkələrimizin gələcəyi parlaq olacaqdır. Hazırda bizi incidən, narahat edən problemləri həll edəcəyik, haqq-ədalət öz yerini tutacaq və əminəm ki, ölkələrimizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Bu gün, cənab Prezident, dediyiniz kimi, biz geniş fikir mübadiləsi aparmışıq və doğrudan da ikitərəfli münasibətlərimizin gündəliyi kifayət qədər genişdir. Biz Serbiyanın AGRİ layihəsinə qoşulmaq təşəbbüslərini böyük məmnuniyyətlə alqışlayırıq. Bildiyiniz kimi, bu layihə bu yaxınlarda müzakirə mövzusuna çevrilmişdir və birinci sammit Bakıda keçirilmişdir. Hazırda AGRİ layihəsi üzrə araşdırmalar aparılır, texniki-iqtisadi əsaslandırma hazırlanır. Biz çox istərdik ki, Serbiya da bu layihəyə qoşulsun. Nəzərə alsaq ki, Azərbaycanın zəngin karbohidrogen ehtiyatları hazırda müxtəlif bazarlara nəql edilir və bizim üçün yeni bazarlar çox maraqlıdır. Ümid edirik ki, zəngin qaz potensialımızı maksimum dərəcədə reallaşdıra bilərik.

Hazırda Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrə bərabərdir. Ancaq bu çox təvazökar rəqəmdir. Proqnoz isə ondan ən azı iki dəfə çoxdur. Bunu nəzərə alaraq, Avropa və başqa bazarlar üçün bizim qazımız ən azı 100 il xidmət göstərəcəkdir. Bizə yeni bazarlar, Avro-

padakı istehlakçılara isə yeni mənbələr lazımdır. Şaxələndirmə məsələləri həm istehsalçılar, həm də istehlakçılar üçün eyni dərəcədə önəmlidir. Ona görə burada bizim maraqlarımız üst-üstə düşür.

Bütövlükdə Azərbaycan enerji təhlükəsizliyi məsələlərində fəal rol oynayır. Ölkəmiz ilk dəfə olaraq Xəzər dənizinin zəngin ehtiyatlarını dünya bazarlarına nəql edə bilmişdir. Hazırda Azərbaycanı dünya bazarları ilə birləşdirən 7 neft və qaz kəməri vardır ki, onların hamısı işlək vəziyyətdədir. Bizim neftimiz, qazımız müxtəlif istiqamətlərlə dünya bazarlarına nəql edilir. Biz çox istərdik ki, Serbiyanı Azərbaycanla o cümlədən enerji sahəsində bağlayan, birləşdirən əməkdaşlıq olsun.

Bu gün digər layihələri də müzakirə etdik. Böyük dəmir yolunun – Yeni İpək yolunun bərpası layihəsi icra edilir. Ümid edirəm ki, gələn ilin sonuna qədər Azərbaycanı, Gürcüstanı, Türkiyəni birləşdirən yeni dəmir yolu istismara veriləcəkdir. Bu eyni zamanda, Asiyanı Avropa ilə birləşdirən bir dəmir yolu olacaqdır. Bu dəmir yolunun üzərində yerləşən bütün ölkələr həmin əməkdaşlıqdan ancaq fayda götürəcəklər. Beləliklə, regional əməkdaşlıq daha da böyük həcmdə öz həllini tapa bilər.

Biz Serbiya rəhbərliyinə minnətdarıq ki, Azərbaycan şirkətlərinə onların münasibəti çox müsbətdir. İndi Azərbaycanda müasir, güclü şirkətlər yaranmışdır və onlar üçün Serbiyada işləmək, iş görmək, kontraktlarda iştirak etmək böyük maraq doğura bilər. Biz bu məsələləri də müzakirə etdik.

Beləliklə, ikitərəfli hökumətlərarası birgə Komissiyanın işi çox olacaqdır. Əminəm ki, komissiya tezliklə öz işinə başlayacaqdır. Bu gün müzakirə etdiyimiz məsələlər komissiya tərəfindən baxılıb prezidentlərin diqqətinə təqdim ediləcəkdir.

Bu gün imzalanmış sənədlər onu göstərir ki, niyyətimiz çox gözəldir. Biz istəyirik ki, bütün sahələrdə əməkdaşlıq edək. Bu əməkdaşlığın təməlində güclü siyasi əlaqələr vardır. Bu gün cənab Prezidentlə müzakirə əsnasında eyni fikri söyləmişik ki,

insanlararası münasibətlər, humanitar əlaqələr də çox vacibdir. Həm Serbiyada, həm Azərbaycanda dini və milli tolerantlığın dərin kökləri, böyük tarixi vardır. Həm Serbiyada, həm Azərbaycanda müxtəlif dinlərin, müxtəlif xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu bizim nadir təcrübəmizdir. Biz bu təcrübədən istifadə edərək çalışmalıyıq ki, bütün dünyada nə dini, nə milli zəmində heç bir münaqişə, heç bir qarşıdurma olmasın. Serbiya Balkanlarda, Azərbaycan isə Qafqaz və Xəzər hövzəsində bu istiqamətdə səylərini birləşdirərək böyük işlər görə bilər.

Bir sözlə, bugünkü səfərim artıq çox gözəl nəticələrini verməkdədir. Əminəm ki, səfərin nəticələri gözəl olacaq və mənim səfərim münasibətlərimizin inkişafına yeni güclü təkan verəcəkdir. Cənab Prezident, göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram. Serbiya xalqına uğurlar və tərəqqi arzulayıram. Sağ olun.

## SERBİYA MİLLİ ASSAMBLEYASININ SƏDRİ SLAVİTSA DJUKİÇ-DEYANOVİÇ İLƏ GÖRÜŞ

*Belqrad*

*8 iyun 2011-ci il*

*İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikası Milli Assambleyasının sədri xanım Slavitsa Djukiç-Deyanoviç ilə görüşmüşdür.*

*Görüşdə qeyd olundu ki, Azərbaycan prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına öz töhfəsini verəcəkdir.*

*Bildirildi ki, səfər çərçivəsində imzalanan sənədlər siyasi və iqtisadi sahədə əlaqələrin güclənməsinə xidmət edir və ölkələrimiz beynəlxalq səviyyədə bir-birinin mövqelərini yüksək səviyyədə müdafiə edirlər.*

*Görüşdə parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərimizin daha da genişlənməsinə yönəldiyi və bu sahədə əməkdaşlığın genişləndirilməsinin zəruri olduğu bildirildi. Qeyd olundu ki, ikitərəfli əlaqələrimiz müxtəlif sahələrdə dinamik inkişaf edir. Bu da ölkələrimizin əməkdaşlığını daha da gücləndirir.*

## BELQRADDA TAŞMAYDAN PARKININ AÇILIŞI MƏRASİMİ

*Belqrad*

*8 iyun 2011-ci il*

*İyunun 8-də Belqradda Taşmaydan parkının açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Serbiya prezidenti Boris Tadiç mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Taşmaydan parkı Belqradın Palilula bələdiyyəsinin ərazisində yerləşir. İki min il əvvəl romalılar Belqrad hakimi üçün saray tikmək məqsədi ilə bu ərazidə yerləşən karxanadan daş çıxarırmışlar. Karxananın osmanlılar dövründə də mövcudluğu onun adının yaranmasına səbəb olmuşdur. Osmanlılar dövründə Belqradda inşa olunmuş tikili və divarlar bu karxanadan çıxarılan daşlardan tikilmişdir. Taşmaydanda XIX əsrdə yaşamış bir çox görkəmli serb xadimləri dəfn olunmuşlar. Həmin əsrin sonundan başlayaraq qəbiristanlıq başqa əraziyə köçürülmüş və burada yaşıllıqlar salınmışdır. İndi bu park Belqrad sakinlərinin istirahət üçün ən çox üz tutduqları məkanlardan biridir.*

*Parkda ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələri ucaldılmışdır. Hazırda dünyanın bir çox ölkəsində ulu öndər Heydər Əliyevin adı əbədiləşdirilmiş, onun adına park və xiyabanlar salınmış, abidələr ucaldılmışdır. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin abidəsinin Taşmaydan parkında ucaldılması ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasına dəlalət etməklə yanaşı, həm də serb xalqının bu dahi şəxsiyyətin xatirəsinə olan ehtiramından xəbər verir.*

*Azərbaycan və Serbiya prezidentləri parkda rəmzi olaraq ağac əkdilər.*

*Dövlət başçıları mərasimdə çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli dostlar, hörmətli xanımlar və cənablar!

Bu gün Serbiya–Azərbaycan əlaqələrinin inkişafında çox gözəl və əlamətdar bir gündür. Bu gün bizim tariximizdə dostluq günü kimi qalacaqdır. Belqradın gözəl guşələrindən birində iki xalqın görkəmli şəxsiyyətlərinin şərəfinə abidələr ucaldılıb. Bu dostluq rəmzi əminəm ki, hər iki xalqın qəlbində gözəl əks-səda verəcəkdir. Serb xalqının böyük oğlu, filosof və yazıçı Milorad Paviçin abidəsi, Azərbaycan xalqının böyük oğlu, dövlət xadimi, müstəqil Azərbaycanın banisi Heydər Əliyevin abidəsi bir-birinin yanında iki qədim xalqın dostluq rəmzinə çevrilib.

Bu gözəl parkın yaradılmasında iştirak etmiş bütün insanlara dərin minnətdarlığımı bildirmək istəyirəm. Serbiya dövlətinin rəhbərliyinə, Belqrad meriyasına və bütün dostlara minnətdaram ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin xatirəsinə hörmət göstərilibdir və gözəl abidə ucaldılıbdır.

Bu gün mənim dostum prezident Tadiç ilə biz çox geniş fikir mübadiləsi apardıq. Serbiya–Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün konkret planlar nəzərdə tutulur. Əlaqələrimiz çoxşaxəlidir. Biz siyasi müstəvidə bütün məsələlərə eyni yanaşmadan baxırıq. Ölkələrimizin ərazi bütövlüyü məsələlərinə eyni mövqedən yanaşırıq. Əminəm ki, bizim aramızda gələcəkdə də çox gözəl hadisələr olacaq, əlaqələr daha da güclənəcəkdir.

Sizə məlumat vermək istəyirəm ki, Bakı şəhər meriyası Bakı parklarının birində serb xalqının böyük oğlu, dünya şöhrətli alim Nikola Teslanın abidəsinin ucaldılması haqqında qərar vermişdir. Əminəm ki, yaxın zamanlarda gözəl parkda Nikola Teslanın abidəsi ucaldılacaqdır. Sizin hamınızı o tədbirə dəvət edirəm. Belə hadisələr xalqlarımızı

birləşdirir. Biz istəyirik ki, xalqlarımız da bir olsunlar, ölkələrimiz də daim bir-birinin yanında olsun.

Bu tarixi gündə Bakı şəhər meriyasının Nikola Teslanın abidəsinin ucaldılması haqqında verdiyi qərarın surətini Sizə təqdim etmək istəyirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyəti başçısının Nikola Teslanın abidəsinin ucaldılması haqqında qərarının surətini Belqrad şəhərinin merinə təqdim etdi.*

**Serbiya prezidenti Boris Tadiçin çıxışı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Hörmətli Belqrad şəhərinin meri!

Əziz dostlar, hörmətli Belqrad şəhərinin sakinləri!

Bu gün bu gözəl parkda bu mərasimdə iştirak etməkdən böyük şərəf və iftixar hissi duyuram. Biz bu gün elə bir tarixi mərasimdə iştirak edirik ki, parkımız artıq yeni görkəm alacaqdır.

Bu gün burada Azərbaycanın və Serbiyanın bayraqları ucaldılıb. Hər iki xalqın tarixində mühüm rol oynamış şəxsiyyətlərin burada abidələri ucaldılıb. Müasir Azərbaycanın yaradıcısı, böyük öndər Heydər Əliyevin abidəsi və Serbiya xalqının böyük oğlu yazıçı Milorad Paviçin heykəli buradadır. Qeyd etmək istəyirik ki, biz bu işləri əməkdaşlığımız nəticəsində görmüşük və bundan sonra da hər iki ölkə üçün strateji əhəmiyyət daşıyan konkret layihələrin həyata keçirilməsi üzərində çalışacağıq.

Mən bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi bir daha təbrik etmək istəyirəm. Azərbaycan son illər ərzində çox böyük uğurlar əldə edib və sürətli inkişaf nümayiş etdiribdir. Biz bu böyük nailiyyətlərə

həqiqətən sevinirik. Bakı gözəl şəhərdir. Bakı bu gün dünyada mövcud olan ən gözəl paytaxtlar cərgəsinə qoşulub. Bu bizi çox sevindirir. Bu gün isə biz bu parkda mərasimi açıq elan edərək, həmçinin ölkənizin əldə etdiyi nailiyyətlərə kiçik də olsa töhfəmizi veririk. Biz bundan sonra da arzu edirik ki, hər iki xalqın gələcəyi çox parlaq olsun. Hər iki ölkəyə böyük rifah və inkişaf arzulayırıq.

Bu çox gözəl məkanda bugünkü mərasim olduqca mühüm rəmzi məna daşıyır. İcazə verin, bu park haqqında bir neçə maraqlı faktı sizin nəzərinizə çatdırım. Bu park paytaxtımızın lap mərkəzində yerləşir. Digər tərəfdən, dayandığımız bu yerdə idman mərkəzi yaradılıb, burada hovuz və üzgüçülük seksiyası vardır. Daha qədim tariximizdə bu parkda karxana mövcud idi, burada mədən də yerləşirdi. Məhz buna görə də parkın adı Taşmaydan adlanır. Bu, türk dilindən götürülmüş bir sözdür və bizim türk mədəniyyəti ilə yaxınlığımızı göstərir. Bizdən sağda Müqəddəs Mark kilsəsi yerləşibdir. Daha sonra Belqradın Hüquqşünaslıq Məktəbinin binası gəlir. Bundan əlavə, bizim nəsli və xalqımızı, ümumiyyətlə, bu parkla çox emosional hisslər bağlayır. Çünki çoxlarımız öz tariximizi bu parkda yaşatmışıq. Burada iki restoran da yerləşir və digər obyektlər mövcuddur. Mən xüsusi qeyd etmək istəyirəm ki, bu gün biz bu addımı ataraq mədəniyyət sahəsindəki əməkdaşlığa artıq töhfə vermiş oluruq. Çünki mədəniyyət, bu sahənin inkişafı xalqları bir-birinə daha da yaxınlaşdırır. Biz bu gün bəyan edirik ki, Serbiya Avropadadır. Serbiya müxtəlif xalqlar arasında dözümlülüyü ilə fəxr edə bilər. Bu gün bu mərasimin məhz Taşmaydan parkında keçirilməsi bizim üçün xüsusi əhəmiyyət kəsb edir və biz bundan çox məmnunuq.

Bizim dahi yazıçımız Milorad Paviç «Xəzər lüğəti»ni tərtib etmişdir. Burada onun əsərlərindən ibarət iki köşk də yerləşdirilib. Bu parka gələn insanların böyük Azərbaycan xalqı haqqında bir çox məlumatları əldə etmək imkanı olacaqdır. Biz bilirik ki, azərbaycanlılar bu gün dünyanın digər ölkələrində də yaşayırlar, həmçinin serblər də.

Serbiya çoxmillətli, çoxmədəniyyətli ölkədir, dinlər və mədəniyyətlər arasında dialoqa öz töhfəsini verir. Məhz bunu nəzərə alaraq, bu gün bu mərasimdə müsəlman icmasının rəhbəri Yusis Bakiç də iştirak edir. Əslində biz onunla tez-tez təmasda oluruq. Bizim mədəniyyət, həmçinin dini məsələlər haqqında səmimi söhbətlərimiz olur.

Azərbaycan ilə Serbiya siyasi sahədə əməkdaşlıq edir. Ölkələrimiz, həmçinin beynəlxalq təşkilatlar, BMT çərçivəsində əməkdaşlıq edir. Həm iqtisadi, həm mədəni, həm idman sahəsində əməkdaşlığımız mövcuddur. Bəli, idman sahəsində əməkdaşlığımız mövcuddur, lakin bundan da yaxşı ola bilər.

Cənab Prezident, mən Sizə bu mərasimdə iştirakınıza görə dərin təşəkkürümü bildirirəm. Xüsusi minnətdarlığımı bildirirəm ki, Siz bu parkın bərpa edilməsinə yardımınızı əsirgəməmisiniz. Hesab edirəm ki, bizi gələcəkdə bir çox nailiyyətlərlə dolu illər gözləyir. Biz bu gün əslində həm Serbiya, həm də Azərbaycan xalqlarını səmimi-qəlbdən təbrik edirik.

* * *

*Sonra Azərbaycan və Serbiya prezidentləri ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət etdilər.*

*Prezident İlham Əliyev parkda Belqrad ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Sakinlər ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin daha da inkişafına verdiyi töhfələrə görə prezident İlham Əliyevə minnətdarlıq etdilər.*

*Parkın açılışı münasibətilə Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər. Konsert böyük maraqla qarşılandı.*

## AZƏRBAYCANIN SERBİYADAKI SƏFİRLİYİNİN AÇILIŞI MƏRASİMİ

*Belqrad*

*8 iyun 2011-ci il*

*İyunun 8-də Belqradda Azərbaycan Respublikasının Serbiyadakı səfirliyinin iqamətgahının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı səfirliyin açılışını bildirən rəmzi lenti kəsdi.*

*Prezident İlham Əliyev səfirliyin binasında yaradılmış şəraitlə tanış oldu.*

*Azərbaycanın Serbiyadakı səfiri Eldar Həsənov dövlətimizin başçısına məlumat verdi ki, burada diplomatik korpus nümayəndələrinin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Səfirliyin binasının bütün iş otaqları zəruri avadanlıqla təchiz olunmuşdur. Bu da səfirlikdə işin daha keyfiyyətlə yerinə yetirilməsinə hərtərəfli imkan yaradır.*

*Prezident İlham Əliyev mərasimdə çıxış etdi.*

*«Bu gün Serbiya–Azərbaycan əlaqələrinin inkişafında çox əlamətdar və tarixi bir gündür» – deyən dövlətimizin başçısı bildirdi ki, gün ərzində keçirilən bir neçə mühüm və əlamətdar tədbir bunu söyləməyə əsas verir. Taşmaydan parkının iki xalqın dostluq rəmzinə çevriləcəyini deyən prezident İlham Əliyev səfər çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu. «Azərbaycan–Serbiya əlaqələri uğurla inkişaf edir və bu əlaqələr bütün sahələri əhatə edir» – deyən dövlətimizin başçısı ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, bundan sonra Azərbaycan beynəlxalq təşkilatlarda Serbiyanın yanında olacaqdır. Hər iki ölkənin siyasi rəhbərliyi tərəfindən ərazi bütövlüyü məsələsinə dair mühüm bəyanatların verildiyini vurğulayan dövlətimizin başçısı bildirdi ki, səfər çərçivəsində iqtisadiyyat, enerji sahələrində perspektivlər barədə də fikir mübadiləsi aparıldı və müzakirə olunan məsələlərin heç biri ilə bağlı fikir ayrılığı yoxdur.*

**İ l h a m Ə l i y e v:** Mən tam əminəm ki, bu gün bizim strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlərimiz artıq müttəfiqlik səviyyəsinə qalxır.

İki xalqın görkəmli şəxsiyyətlərinin xatirəsinə olan qarşılıqlı hörmət – ulu öndər Heydər Əliyevin və serb xalqının böyük oğlu Milorad Paviçin abidələrinin ucaldılması bir daha münasibətlərimizin nə qədər səmimi olmasının təzahürüdür. Bu gün Taşmaydan parkındakı mərasimdə mən Belqrad şəhərinin merinə Bakı Şəhər İcra Hakimiyyətinin başçısının sərəncamını təqdim etdim. O sərəncamda deyilir ki, Bakı şəhərində parkların birinə serb xalqının görkəmli şəxsiyyəti, dünya şöhrətli alim Nikola Teslanın adı veriləcək və o parkda Nikola Teslanın şərəfinə abidə ucaldılacaqdır.

Bu gün yaddaşımızda gözəl gün kimi qalacaq, xüsusilə nəzərə alsaq ki, artıq Serbiyada Azərbaycan dövlətinin bir parçası da mövcuddur. Bizim səfirliyimiz əminəm ki, fəal işləyəcək və iki ölkə arasındakı münasibətlərin inkişafı üçün dəyərli töhfəsini verəcəkdir. Bizə göstərilən qonaqpərvərliyə və xoş, səmimi münasibətə görə mən Serbiya rəhbərliyinə, Serbiya xalqına və bütün dostlara bir daha minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm.

Sağ olun.

* * *

*Mərasimdə iştirak edən Serbiyanın Xarici İşlər naziri Vuk Yeremiç bu tədbirdə iştirak etdiyinə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Azərbaycan hər*

*zaman beynəlxalq təşkilatlarda Serbiyanı dəstəkləyir və ölkələrimizdə səfirliklərin açılması ikitərəfli əməkdaşlığımıza mühüm töhfələr verəcəkdir.*

*Ölkəmizin Serbiyadakı səfiri Eldar Həsənov prezident İlham Əliyevə Azərbaycanın Serbiyadakı diplomatik missiyasının fəaliyyətinə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdi. Səfir bildirdi ki, ulu öndər Heydər Əliyev Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin fəaliyyətinə böyük diqqət yetirirdi. Bu siyasəti prezident İlham Əliyev də davam etdirir.*

*Eldar Həsənov Serbiya–Azərbaycan əlaqələrinin dərinləşməsi üçün səfirliyin xətti ilə həyata keçirilən layihələr barədə də məlumat verdi.*

*Görkəmli serb yazıçısı Milorad Paviçin xanımı Yasmina Mixayloviç həyat yoldaşının xatirəsinə göstərilən diqqət və ehtirama görə Azərbaycan prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, Milorad Paviçin xatirəsi Serbiyada olduğu kimi, Azərbaycanda da hər zaman dərin hörmətlə anılacaqdır.*

*Prezidenti İlham Əliyev «Azərnəşr» tərəfindən nəfis şəkildə çap edilmiş «Xəzər lüğəti» kitabını Serbiya prezidenti Boris Tadiçə və Milorad Paviçin ailəsinə təqdim etdi. Kitabın tərcüməçisi Əlövsət Ağalarov əsərin məzmunu haqda hər iki prezidentə qısa məlumat verdi.*

*Yasmina Mixayloviç Milorad Paviçin müəllifi olduğu «Xəzər lüğəti» kitabının əlyazmasını prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra mərasimə dəvət olunan xarici ölkələrin səfirliklərinin nümayəndələri prezident İlham Əliyev ilə görüşlərində Azərbaycana beynəlxalq aləmdə böyük marağın olduğunu, ölkəmizin iqtisadi inkişafının dünyada diqqətlə izlənildiyini bildirdilər və Serbiyada Azərbaycan səfirliyinin iqamətgahının açılması münasibətilə dövlətimizin başçısını təbrik etdilər.*

## SERBİYANIN NOVİ SAD ŞƏHƏRİNDƏ ÜZEYİR HACIBƏYLİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*Novi Sad*

*9 iyun 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və Serbiya prezidenti Boris Tadiç iyunun 9-da Novi Sad şəhərində dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstünün açılışında iştirak etmişlər.*

*Serbiyanın Novi Sad şəhəri Voevodina muxtar diyarının paytaxtıdır və Belqraddan sonra ölkənin ikinci ən böyük şəhəri sayılır. Novi Sad 1694-cü ildə salınmışdır. XVII–XIX əsrlərdə Serbiya mədəniyyətinin beşiyi olmuş bu şəhəri «Serb Afinası» adlandırırlar. Bu gün Novi Sad Serbiya iqtisadiyyatının sənaye və maliyyə, ölkənin əsas mədəniyyət mərkəzlərindən biridir. Burada Serbiyanın ən qədim mədəniyyət, elm mərkəzləri, muzeylər, teatrlar yerləşir. Təsadüfi deyildir ki, Serbiyanın ilk teatrı 1861-ci ildə bu şəhərdə fəaliyyətə başlamışdır.*

*Serbiyanın mədəni həyatına daha bir töhfəni Azərbaycan vermişdir. Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə Novi Sadda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstü ucaldılmışdır.*

*Mərasimin aparıcısı Üzeyir Hacıbəylinin həyat və fəaliyyətindən danışdı. Bildirdi ki, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yaradıcılıq irsi nəinki Azərbaycan xalqının milli sərvətidir, həm də dünya mədəniyyətinin incisidir. Onun musiqisi dünya mədəniyyətinin Qızıl fonduna daxil olmuşdur. Bəstəkarın yaratdığı musiqi, ədəbi və elmi irs ölməz və əbədidir.*

*Mərasimdə çıxış edən Novi Sad şəhərinin meri İqor Pabliçiç dahi bəstəkar Üzeyir Hacıbəylinin büstünün açılması mü-*

*nasibətilə verdiyi dəstəyə görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Qeyd etdi ki, çoxmədəniyyətli ölkə olan Serbiya digər mədəniyyətlərə hörmətlə yanaşır və Üzeyir Hacıbəylinin büstünün Novi Sadda ucaldılması bu şəhərin sakinləri üçün böyük şərəfdir.*

*Azərbaycan və Serbiya prezidentləri büstün üzərindəki örtüyü götürdülər.*

*Dövlət başçıları mərasimdə çıxış etdilər.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident!

Hörmətli cənab mer!

Hörmətli xanımlar və cənablar!

Novi Sad şəhərinin əziz sakinləri!

Bu gün Serbiya–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar bir gündür. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstü Serbiyanın gözəl guşələrindən biri olan Novi Sad şəhərində ucaldılıb. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm. Üzeyir Hacıbəyli Azərbaycan klassik musiqisinin banisi, Azərbaycan Konservatoriyasının qurucusu və Azərbaycan milli himninin müəllifidir.

1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika yaranmışdır – Azərbaycan Demokratik Respublikası və onun Dövlət himninin müəllifi məhz Üzeyir Hacıbəyli olmuşdur. Azərbaycan müstəqilliyini itirəndən sonra təbii ki, bizim milli himnimiz də səslənmədi. Ancaq Sovet İttifaqı dağılandan, Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Üzeyir Hacıbəylinin yaratdığı Azərbaycan Demokratik Respublikasının milli himni müstəqil Azərbaycan Respublikasının milli himni kimi elan edildi və bu gün bütün rəsmi tədbirlərdə Üzeyir bəyin bu gözəl əsəri səslənir.

Dünən və bu gün ölkələrimizin tarixində çox əlamətdar hadisələr baş vermişdir. Dünən Belqradın Taşmaydan meydanında serb xalqının dahi yazıçısı Milorad Paviçin və Azərbaycan xalqının görkəmli şəxsiyyəti Heydər Əliyevin

abidələri ucaldılmışdır. Yaxın aylarda Bakı şəhərində serb xalqının görkəmli nümayəndəsi, dünya şöhrətli alim Nikola Teslanın abidəsi də ucaldılacaqdır. Bu gözəl hadisələr xalqlarımızı bir-birinə daha da yaxın edəcəkdir. Əminəm ki, ölkələrimiz də gələcəkdə bir-biri ilə daha sıx əməkdaşlıq edəcəklər.

Mənim gözəl ölkənizə səfərim bu gün başa çatır. Mən deyə bilərəm ki, səfərin çox gözəl nəticələri vardır. Əminəm ki, Serbiya–Azərbaycan strateji tərəfdaşlıq əlaqələri bu iki gün ərzində daha da möhkəmləndirildi. Ölkələrimiz və xalqlarımız üçün ən ağrılı problemlər olan Kosovo və Dağlıq Qarabağ məsələsi ilə bağlı qarşılıqlı dəstək daha da gücləndirildi və dünən mövqelərimiz yenidən bəyan edildi. İqtisadi əməkdaşlıq haqqında çox ümidverici danışıqlar aparılmışdır və konkret fəaliyyət planı yaxın zamanlarda tərtib ediləcəkdir. Əminəm ki, əldə edilmiş bütün razılaşmalar tezliklə reallaşacaq və Serbiya Balkanlarda, Azərbaycan isə Qafqazda və Xəzər hövzəsində regional əməkdaşlığın dərinləşməsi üçün birgə səylərini göstərəcəkdir.

Mən bir daha mənə və nümayəndə heyətinə göstərilən səmimi qonaqpərvərliyə görə Serbiya prezidenti cənab Tadiçə, bütün serb xalqına minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən öz fəaliyyətimdə iki ölkənin daha da yaxınlaşması üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm.

## Serbiya prezidenti Boris Tadiçin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli cənab mer!

Novi Sad şəhərinin, Voyevodina diyarının hörmətli sakinləri!

Bu gün səhər Azərbaycanın dahi bəstəkarının – Üzeyir Hacıbəylinin abidəsinin açılışında iştirak etməkdən olduqca məmnunam. Mən xüsusi olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin təşəkkürümü

bildirirəm ki, şəhərin belə bir gözəl yerində bu parkın bərpasında və bu abidələrin açılışında Azərbaycan tərəfindən olduqca dəyərli yardım göstərilmişdir.

Gördüyünüz kimi, bu park Avropanın böyük çayı – Dunayın sahilində yerləşir. Zənnimcə, gözəl bir yerdir. Musiqiçilər gəlib burada əsərlərini ifa edə bilərlər. Təbii ki, burada yaşayan sakinlər, vətəndaşlarımız parka gəlib asudə vaxtlarını keçirə, istirahət edə bilərlər. Hesab edirəm ki, bu gün bu hadisənin baş tutması mədəni sahədəki əlaqələrimizə böyük bir töhfədir.

Bir neçə il əvvəl parkda vəziyyət o qədər də ürəkaçan deyildi və istirahət üçün kifayət qədər şərait yox idi. Lakin bundan sonra hökumət qərar qəbul etdi ki, bu çayın sahilində gücləndirici qurğular yaratsın. Bu, vətəndaşlara istirahət etmək imkanı yaradır. Digər tərəfdən, burada idmanla məşğul olmaq üçün şərait yaradıldı. Görürsünüz, burada abadlıq, yaşıllaşdırma işləri aparılıb. Həmçinin fəvvarələri görürük və burada digər imkanlar yaradılıb ki, vətəndaşlar gəlib asudə vaxtlarını keçirsinlər.

Bu gün böyük məmnuniyyətlə deyə bilərəm ki, Novi Sad şəhərinin sakinləri üçün yeni körpü salınıb və istismara verilibdir. Bu çox gözəl bir haldır. Bundan sonra, gələn illər ərzində Novi Sad şəhərini bir növ bu regionun qovşağına çevirəcək bir sıra digər yeni körpülərin də tikintisi nəzərdə tutulur. Azərbaycanlı dostların da belə layihələrdə iştirakı bizim tərəfimizdən çox arzuolunandır.

Biz danışıqlarımız zamanı Serbiyada yolların, şoselərin çəkilməsi, o cümlədən dəmir yollarının tikintisi sahəsində Azərbaycan şirkətlərinin iştirakını xüsusilə vurğuladıq. Ölkələrimiz arasında əməkdaşlıq sırf yeni qaz boru kəmərinin çəkilməsi, enerji təhlükəsizliyinin təmin edilməsi, Serbiyaya enerji daşıyıcılarının gətirilməsi, şaxələndirmənin təmin edilməsi ilə məhdudlaşmır. Bizim görüləcək, həyata keçiriləcək bir çox ümumi layihələrimiz vardır. Bu layihələrin nəticələri artıq göz qabağındadır. Gördüyünüz kimi, biz dünən Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsinin

açılışında iştirak etdik. Həmçinin bildiyiniz kimi, Serbiyanın dahi yazıçısı Milorad Paviçin də abidəsi həmin abidənin yanında ucaldıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev burada qeyd etdi ki, ölkələrimiz çox ağrılı problemlərlə üzləşib. Burada mən Kosovo və Dağlıq Qarabağ problemlərini nəzərdə tuturam. Amma bu problemlərə baxmayaraq, biz irəliyə doğru addımlarımızı davam etdirməliyik. Söhbət burada iki ölkənin xalqı arasında daha da yaxınlaşmadan gedir. Biz uşaqlarımız, yeni nəsillər üçün yeni sahələr yaratmalıyıq.

Dövlət başçıları arasında mövcud olan şəxsi dostluq münasibətləri ölkələr və xalqlar arasında dostluq münasibətlərinin daha da gücləndirilməsinə müsbət təsir göstərir. Hesab edirik ki, biz ölkələrimiz arasında böyük iqtisadi əməkdaşlığı daha da yüksək səviyyəyə qaldıra bilərik. Bizim ümumi amalımız, məqsədimiz məhz hər iki ölkədə xalqın güzəranını, həyat səviyyəsini daha da yaxşılaşdırmaq və xalqlarımızın gördüyümüz bütün bu işlərdən daha çox fayda götürməsini təmin etməkdən ibarətdir.

Bununla bağlı mən sizin hamınıza uğurlar arzulayıram, bir daha sizi təbrik edirəm. Sağ olun.

* * *

*President İlham Əliyev və prezident Boris Tadiç Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin ifasında dahi bəstəkarın əsərlərini dinlədilər.*

*Sonra dövlət başçıları dahi bəstəkarın büstünün yerləşdiyi parkın yaxınlığından keçən Dunay çayının sahilini seyr etdilər.*

## Səfər başa çatdı

*İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Belqradın «Nikola Tesla» aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Serbiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## SLOVENİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*Lyublyana*

*9 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Sloveniya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Lyublyananın «Joze Puçnik» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Sloveniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Lyublyana*

*9 iyun 2011-ci il*

*İyunun 9-da Sloveniya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Brdo qəsrinin önündə Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Sloveniya prezidenti Danilo Tyurk Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Sloveniyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Sloveniyanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Danilo Tyurka təqdim olundu.*

## SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Lyublyana*

*9 iyun 2011-ci il*

*İyunun 9-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Sloveniya Respublikasının Prezidenti Danilo Tyurkun təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Sloveniya prezidenti Danilo Tyurkun Azərbaycana, Azərbaycan prezidenti İlham Əliyevin Sloveniyaya səfərlərinin əlaqələrimizin inkişafının genişlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Bildirildi ki, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensial vardır.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Sloveniya prezidenti Danilo Tyurk qarşılıqlı olaraq dövlət hədiyyələrini təqdim etdilər.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Lyublyana*

*9 iyun 2011-ci il*

*İyunun 9-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Sloveniya Respublikasının Prezidenti Danilo Tyurkun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan ilə Sloveniya arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi.*

*Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundular.*

*Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın Avropa İttifaqı çərçivəsində əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətinin qeyd olunduğu görüşdə «Şərq Tərəfdaşlığı» Proqramının önəmindən danışıldı.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Lyublyana*

*9 iyun 2011-ci il*

*İyunun 9-da prezident İlham Əliyevin və prezident Danilo Tyurkun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Sloveniya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Sloveniya Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında mədəniyyət, təhsil və elm sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Sloveniyanın Xarici İşlər naziri Samuel Jboqar imzaladılar.*

*«Sloveniya Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Sloveniyanın İqtisadiyyat naziri xanım Darya Radiç imzaladılar.*

## SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Lyublyana*

*9 iyun 2011-ci il*

*İyunun 9-da sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Sloveniya prezidenti Danilo Tyurkun birgə mətbuat konfransı olmuşdur.*

*Əvvəlcə dövlət başçıları bəyanatlarla çıxış etdilər.*

### Sloveniya prezidenti Danilo Tyurkun bəyanatı

Bu gün Sloveniya Respublikasının ali qonağı ölkəmizə rəsmi səfər edən dost Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Əslində bu, cavab səfəridir. Çünki mənim də 2009-cu ildə Azərbaycana rəsmi səfərim olmuşdu. İndi isə növbəti cavab səfəri baş tutur. Əslində bu səfər ikitərəfli münasibətlərimizin nəzərdən keçirilməsi üçün yaxşı fürsətdir. Elə indicə biz iki ölkə arasında əməkdaşlığa dair iki sənəd imzaladıq. Sloveniya və Azərbaycana aid olan bir çox digər məsələləri də nəzərdən keçirdik.

Qeyd etmək istəyirəm ki, ikitərəfli münasibətlərimiz yaxşıdır. Əməkdaşlığımız uğurludur və iqtisadi əlaqələrimiz də inkişaf etməkdədir. Hazırda ticarət dövriyyəsi 10 dəfə artmışdır. Bir sıra sazişlərin imzalanması nəzərdə tutulur. Burada həm enerji, həm elektrik stansiyalarının tikintisi, həm informasiya texnologiyası, həm də sığorta sahələrində əməkdaşlıq baş tuta bilər. Biz Azərbaycan şirkətlərindən Sloveniyaya sərmayələrin qoyulmasını gözləyirik. Mədəniy-

yət sahəsində də əməkdaşlığımız genişlənir. Qarşımızda hələ bir çox əməkdaşlıq imkanları vardır.

Bu gün aparılmış danışıqlar, həmçinin bəzi beynəlxalq məsələləri də nəzərdən keçirmək imkanı yaratdı. Sloveniya Avropa məkanında əməkdaşlıq və təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Biz istəyirik ki, bu sahədə töhfəmizi verək. Bu məsələ bütün dövlətlərdən xüsusi fəallıq tələb edir, xüsusən də əgər söhbət silahlı münaqişələrdən gedirsə.

Bunların arasında Dağlıq Qarabağ münaqişəsini də qeyd etmək lazımdır. Bu gün danışıqlarımızın mövzusu, həmçinin həmin münaqişədir. Biz bu haqda öncədən də danışmışdıq. Mənim, Ermənistan prezidenti Serj Sarkisyanın və Rusiya prezidenti Dmitri Medvedevin üçtərəfli qaydada danışıqlarda iştirakını da nəzərdən keçirdik. Status-kvo qəbul edilən həll variantı deyildir. Biz addımlarımızı sürətləndirməliyik ki, prinsiplər əks olunsun və həmin prinsiplər üzərində sülh müqaviləsi, sülh razılaşması əldə edilsin.

Bildiyimiz kimi, Rusiya prezidenti Dmitri Medvedev Soçidə üçtərəfli görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Sloveniya bu istiqamətdə göstərilən digər təşəbbüsləri də alqışlayır. Bu ayın sonunda yenidən Rusiyada keçiriləcək üçtərəfli görüşə ümid bəsləyirik. O görüş zamanı elə prinsiplər müəyyən ediləcəkdir ki, onların əsasında sülh razılaşması əldə olunsun. Əslində bu məsələnin həlli Helsinki Yekun Aktına və ATƏT-in qərarlarına uyğun olmalıdır.

Biz bir sıra digər məsələləri də nəzərdən keçirdik. Burada enerji sahəsində beynəlxalq əməkdaşlıq müzakirə olundu. Bu, Sloveniya üçün olduqca maraqlı mövzudur. Həmçinin digər Avropa ölkələri və bütövlükdə Avropa İttifaqı üçün əhəmiyyətli bir məsələdir. Biz Azərbaycan ilə əməkdaşlıq münasibətlərimizi genişləndirmək istəyirik. Sloveniya hesab edir ki, enerji təhlükəsizliyi olduqca mühüm məsələdir. Bu məsələ get-gedə daha geniş, çoxtərəfli əməkdaşlıq tələb edir. Burada həm istehlakçılar, həm də hasilatçılar arasında əməkdaşlıq nəzərdə tutulur. Bildiyiniz kimi, bu yaxınlarda

Rusiya Federasiyası ilə apardığımız danışıqlar çərçivəsində Sloveniya bir sıra ölkələrə təklif etdi ki, Cənub qaz dəhlizinin bəyannaməsini imzalayan ölkələrlə daha sıx əməkdaşlıq mövcud olsun. Bizim tərəfimizdən təklif olundu ki, onların da iştirakı daha geniş şəkildə təmin edilsin.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə demək istəyirəm ki, yenidən Sloveniyada olmağımdan çox məmnunam. Mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram.

Ölkələrimiz arasında əlaqələr çox yüksək səviyyədədir. Bizim aramızda çox fəal siyasi dialoq aparılır. Cənab Prezidentin qeyd etdiyi kimi, iki il bundan əvvəl biz Sloveniya prezidentini Azərbaycanda qəbul etdik, bu gün mən Sizin gözəl ölkənizə səfər edirəm. Bu arada biz cənab Prezidentlə mütəmadi qaydada telefonla əlaqə saxlamışıq, beynəlxalq tədbirlərdə daim imkan olan kimi görüşürük. Ölkələrimiz arasında mövcud olan siyasi dialoq çox yüksək səviyyədədir. Əlbəttə ki, bu, əlaqələrimizin inkişafı və bütün başqa sahələri əhatə etmək üçün yaxşı zəmin yaradır. Əminəm ki, səfərim və imzalanmış sənədlər, aparılmış danışıqlar nəticəsində qəbul ediləcək qərarlar münasibətlərimizi daha da möhkəmləndirəcəkdir. Biz buna maraqlıyıq və Sloveniya bizim üçün bu bölgədə çox vacib tərəfdaşlardan biridir.

Bu gün iqtisadi sahədə əməkdaşlığın perspektivləri müzakirə edildi. Müəyyən təkliflər nəzərdən keçirilir, həm qarşılıqlı investisiya layihələri, həm şirkətlərimizin birgə fəaliyyəti haqqında fikir mübadiləsi aparılmışdır. Yəqin ki, bu məsələlərin müzakirəsi sabah keçiriləcək Sloveniya–Azərbaycan biznes-forumu çərçivəsində daha geniş formatda aparılacaqdır.

Bu gün ikitərəfli məsələlərlə yanaşı, Avropa İttifaqı–Azərbaycan əlaqələri də müzakirə edildi. Sloveniya Avropa İttifaqının üzvü kimi, Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafı üçün dəyərli töhfəsini verir. Bu əlaqələr inkişaf edir. Bu ilin əvvəlində Avropa Komissiyasının prezidenti cənab Barrozunun Azərbaycana səfəri və səfər zamanı aparılmış danışıqlar, qəbul edilmiş siyasi qərarlar və bəyannamə gələcək əməkdaşlıq üçün yaxşı şərait yaradır. Avropa İttifaqı ilə münasibətlərimiz çox yüksək səviyyədədir və bu əlaqələr genişlənir. Biz gələcək əməkdaşlığa da çox müsbət yanaşırıq. Hesab edirik ki, indiki mərhələdə gələcək əməkdaşlığımızın perspektivləri haqqında daha dəqiq məsələlər müzakirə edilməlidir, dəqiqləşdirmə aparılmalıdır, prioritetlər müəyyən edilməlidir. Biz uzunmüddətli uğurlu tərəfdaşlıq münasibətlərimizi qura bilərik və qurmalıyıq.

Avropa İttifaqı ilə gündəliyimiz çox genişdir. Enerji təhlükəsizliyi məsələləri gündəliyin, demək olar ki, birinci sırasındadır və bu istiqamətdə əməkdaşlıq dərinləşir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün töhfəsini verməyə hazırdır. Bizim zəngin qaz ehtiyatlarımız artıq müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarılır. Biz qaz infrastrukturumuzun yaradılması nəticəsində çoxşaxəli ixrac imkanlarına malikik. Bu gün Azərbaycan qazını dünya bazarlarına çıxaran 4 kəmər vardır. Bu kəmərlər işlək vəziyyətdədir. Zəngin qaz ehtiyatlarımızı dünya bazarlarına əmniyyətli yolla çıxarmaq üçün yeni kontraktlar lazımdır. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrə bərabərdir. Bu da Azərbaycanı qaz ixrac edən ölkə kimi dünyaya təqdim edir.

Cənub qaz dəhlizi üzrə danışıqlar gedir. Əminəm ki, danışıqların yaxşı nəticələri olacaqdır. Danışıqların uğuru üç tərəfin səmimi münasibətlərindən və əlaqələrindən asılıdır. İstehsalçılar – Azərbaycan, istehlakçılar – Avropa tərəfi və tranzit ölkələri. Yəni, hər üç tərəfin maraqları təmin edilməlidir və hər bir tərəf bu layihənin həyata keçirilməsi üçün

töhfəsini verməlidir. Hazırda bu əməkdaşlıq formalaşır. Ümid edirəm ki, yaxın zamanlarda biz daha konkret nəticələr haqqında danışa biləcəyik. Ancaq bir daha qeyd etmək istəyirəm ki, bu məsələ nəinki Azərbaycan, Avropa üçün də çox vacibdir. Biz maraqlıyıq ki, ixrac imkanlarımız daha da genişlənsin və qazımızı dünya bazarlarına daha da böyük həcmdə ixrac edək. İstehlakçılar isə maraqlıdırlar ki, alınan qazın coğrafiyasını daha da genişləndirsinlər və burada bizim maraqlarımız üst-üstə düşür.

Cənab Prezidentin qeyd etdiyi kimi, bu gün regional təhlükəsizlik məsələlərinə də münasibətimizi bildirdik. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyətin son reallıqlarını cənab Prezidentə bildirdim. Danışıqlar gedir və ümid edirəm ki, danışıqlar yaxşı nəticə verəcəkdir. Əgər bu gün müzakirə edilən məsələlər – baza prinsipləri qəbul olunarsa, məsələnin ədalətli həlli mümkün olacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək və təhlükəsizlik məsələləri öz həllini tapacaq, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxarılacaqdır.

Bildiyiniz kimi, uzun illərdir ki, Azərbaycan erməni işğalından əziyyət çəkir. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz pozulubdur. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, bu ərazilərdən azərbaycanlılar tamamilə çıxarılıb. Bizim millətə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. O qətnamələrdə işğalçı qüvvələrin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. ATƏT-in qərarları oxşar mahiyyət daşıyır. Avropa parlamenti, Avropa Şurası, İslam Konfransı Təşkilatı da oxşar qətnamələr qəbul etmişlər. Amma əfsuslar olsun ki, işğalçı qüvvələr bu günə qədər torpaqlarımızı azad etməyiblər.

Məsələnin ədalətli həlli üçün indi yaxşı şərait yaradılıb. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının

may ayının sonunda verdikləri birgə bəyanat artıq çox ciddi bir siqnaldır. Orada göstərilir ki, status-kvo qəbuledilməzdir. Biz bunu uzun illərdir ki, deyirik – status-kvo dəyişdirilməlidir, işğalçı qüvvələr işğal edilmiş torpaqları tərk etməlidir. Belə dəqiq bəyanatın verilməsi bizi daha da ruhlandırır və ümidlərimizi artırır. Bəyanatın digər vacib məsələsi ondan ibarətdir ki, orada Helsinki Yekun Aktına istinad edilir. Helsinki Yekun Aktında ölkələrin ərazi bütövlüyü prinsipləri və xalqların öz müqəddəratını müəyyənetmə prinsipləri arasında heç bir ziddiyyət yoxdur. Bu iki prinsip bir sazişdə öz əksini tapmalıdır və hesab edirəm ki, bu da çox müsbət haldır.

İndiki mərhələdə Ermənistan tərəfi konstruktivlik və səmimiyyət göstərməlidir. Uzun illər Ermənistan danışıqların sadəcə olaraq, danışıqlar naminə aparılmasına, imitasiya ilə məşğul olmağa çalışmışdır. İndi isə vaxt çatıb ki, verilmiş təkliflərə dəqiq, konkret cavab versin. Əgər belə olarsa, o zaman hesab edirik ki, Azərbaycanın torpaqları tezliklə işğalçılardan azad ediləcəkdir.

Bu gün biz regional məsələlər haqqında da fikir mübadiləsi apardıq. Aramızda fikir ayrılığı yoxdur. Yanaşmamız da bir-birinə çox yaxındır. Ümidvaram ki, biz bu gün və sabah davam edən söhbətlər əsnasında ölkələrimizi bir-birinə daha da yaxın edəcəyik, xalqlarımız da bir-birinə yaxın olacaqlar.

Cənab Prezident, bizə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram, gözəl ölkənizdə olmağımdan bir daha məmnunluğumu ifadə etmək istəyirəm. Sağ olun.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**S u a l: Cənab prezident Tyurk, Azərbaycan ilə qarşılıqlı investisiyaların qoyulması sahəsində perspektivləri necə görürsünüz?**

**D a n i l o   T y u r k**: Əvvəlcə icazə verin deyim ki, ümumiyyətlə, bu istiqamətdə aparılan proses mənim 2009-cu ildə Bakıya səfərim zamanı başladı. Biz prioritet sahələri müəyyən etdik və Sloveniya Azərbaycanda həmin sahələrdə fəal işləmək istəyir. Xüsusi olaraq iki sahə müəyyən edildi: informasiya texnologiyaları – bizim «İskratel» şirkəti artıq Azərbaycandakı tərəfdaşları ilə əməkdaşlıq edir. Biz istəyirik ki, bu əməkdaşlığı daha da genişləndirək. Digər sahə bərpaolunan alternativ enerji mənbələridir. Məsələn, su enerjisi. Biz sizə su elektrik stansiyalarının tikintisindəki təcrübəmizlə yardım etmək istəyirik ki, uğurlar qazanasınız, nailiyyətlər əldə edəsiniz. Bu elə bir sahədir ki, Sloveniya kifayət qədər böyük təcrübəyə malikdir. Əslində bu, 100 ildən artıq olan təcrübədir.

Bu sahələr tərəflər arasında artıq müəyyən edilib və nəticələrini vermişdir. «Korona» şirkəti – telekommunikasiya sahəsindəki lider şirkət Azərbaycandakı tərəfdaşları ilə artıq saziş imzalayıb. Həmçinin su elektrik stansiyası sahəsində texniki əsaslandırma işinin aparılması ilə bağlı razılaşma əldə edilib. Biz həmçinin istərdik ki, qarşılıqlı sərmayələr olsun. Hazırda Azərbaycanın Dövlət Neft Fondu Sloveniyada sərmayə imkanlarını araşdırır. Bizim nümayəndə heyətimiz də, İqtisadiyyat nazirimiz də bu məsələ ilə daha yaxından məşğul olacaq və əməkdaşlıq üçün bir çox imkan yaranacaqdır.

**S u a l: Sualım prezident İlham Əliyevədir. Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinə gəldikdə gücdən istifadə etmək təhlükəsi nə qədər böyükdür? Siz Ermənistan prezidenti ilə görüşə nə dərəcədə nikbin baxırsınız? İkinci sual: Əməkdaşlıq layihələrindən birini seçmək istəsəydiniz, hansını seçərdiniz?**

**İ l h a m   Ə l i y e v:** Bildiyiniz kimi, hər bir ölkənin özünü müdafiə etmə hüququ vardır. Hər bir ölkənin bu hüququ Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində də tanınıbdır. Sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsinin nəticələri məhz sülh yolu ilə yox, zor, güc tətbiq etməklə formalaşmışdır. Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və işğalçı

siyasəti nəticəsində yüz minlərlə dinc sakin öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayon – harada ki heç vaxt ermənilər yaşamamışlar – azərbaycanlılardan tamamilə boşaldılıb. Orada bütün binalar yerlə yeksan edilib. Bir neçə ay bundan əvvəl ATƏT-in qiymətləndirmə missiyası işğal altındakı torpaqlara səfər etmişdir. Onların hazırladığı məruzəyə baxmaq kifayətdir ki, hər kəs bilsin, orada bir dənə də olsun salamat bina qalmamışdır. Bütün binalar dağıdılıb. Bizim dini məbədlərimiz dağıdılıb. Bütün sərvətlər talan edilib. Yəni, bir tərəf güc tətbiq etməklə artıq bu vəziyyətin yaranmasına gətirib çıxarıbdır.

Biz sülh yolunun tərəfdarıyıq. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun və məhz buna görə 19 ildir ki, sülh danışıqları aparılır. Minsk qrupu 1992-ci ildə yaranmışdır. O gündən bu günə qədər aparılan danışıqların heç bir nəticəsi olmamışdır. Müəyyən mərhələlərdə tərəflərin mövqelərində yaxınlaşma baş verən kimi, Ermənistan tərəfi geriyə addım ataraq danışıqların faktiki olaraq pozulmasına gətirib çıxarmışdır. Belə olan halda sülh prosesinə ümidlər azalır. Mən hesab edirəm ki, bu gün indiki mərhələdə müzakirə edilən variant son şansdır. Bütün bu 19 il ərzində müxtəlif variantlar müzakirə edildi, sınaqdan keçirildi. Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində hazırda biz sülh müqaviləsinə nail ola bilməmişik. İndi bu son şansdan istifadə etməliyik.

Məsələnin sülh yolu ilə həllinə ümidlərimiz Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının bəyanatından sonra artıbdır. Biz tezliklə status-kvonun dəyişdirilməsinə nail olmalıyıq. Mən çıxışımda xüsusilə qeyd etdim ki, bu çox vacib məsələdir. 19 il ərzində biz bir dəfə də olsun vasitəçilərdən eşitməmişdik ki, status-kvo dəyişdirilməlidir.

Son aylar ərzində verilən bu bəyanat ümidlərimizi artırır. Ümid edirik ki, vasitəçilərin fəal işi nəticəsində məsələ öz həllini tapa bilər. Ancaq bununla bərabər, heç bir başqa variant, təbii ki, istisna olunmur. Azərbaycanın başqa ölkələrin ərazi bütövlüyünə heç bir iddiası yoxdur. Biz heç kimin

torpağını işğal etməmişik. Ancaq öz ərazi bütövlüyümüzü bərpa etmək üçün bizim həm imkanımız, həm də gücümüz var. Beynəlxalq hüquq normaları da bizə bu imkanları yaradır. Bir daha deyə bilərəm ki, BMT-nin Nizamnaməsinə nəzər salmaq kifayətdir, orada hər şey açıq-aydın görünür. Amma mən, əlbəttə, istəməzdim ki, sülh prosesi sual altına düşsün. Mən çox istəyirəm ki, tezliklə məsələ sülh yolu ilə həll olunsun və ərazi bütövlüyümüz bərpa edilsin.

**S u a l: Sualım Sloveniya prezidentinədir. Cənab Prezident, ikitərəfli münasibətlərimizi Avropa İttifaqı və «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlıq baxımından necə qiymətləndirirsiniz?**

**D a n i l o  T y u r k:** Sloveniya hesab edir ki, strateji mahiyyət daşıyan «Şərq Tərəfdaşlığı» Proqramı olduqca əhəmiyyətlidir. Əslində Avropanın gələcəyi məhz bu sənəddə əks olunubdur. Bizə ən yaxın olan qonşu ölkələrlə bu proqram çərçivəsində əməkdaşlığımızı genişləndirmək fikrindəyik. Bu əslində yeni bir fenomen, yeni bir layihədir ki, biz onun çərçivəsində konkret əməkdaşlığın məzmununu müəyyən edirik. Konkret olaraq bu nə deməkdir? Yəni, əməkdaşlığın prioritetləri Avropa İttifaqı ilə Azərbaycan arasında müəyyən edilir və məhz bu, «Şərq Tərəfdaşlığı» Proqramında iştirak edən ölkəyə aiddir. Tutaq ki, viza rejiminin asanlaşdırılması nəzərdə tutulur. Ümidvarıq ki, biz bu sahədə də irəliyə doğru gedə biləcəyik. Biz insanların səfərlərini daha da liberallaşdırmalıyıq. Əslində, insanlar arasında münasibətlər xüsusi əhəmiyyət kəsb edir. «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində, həmçinin iqtisadi əməkdaşlıq haqqında söhbət açmalıyıq. Azərbaycan elə bir ölkədir ki, onun xüsusi iqtisadi gücü, imkanları var və o, Avropa İttifaqına böyük töhfə verə bilər.

Siz qeyd etdiniz, Nabukko ilə «Cənub axını» layihələrinə gəldikdə hansını seçərdiniz? Siz belə bir sual verdiniz? Burada seçim olmalı deyil. Bizə hər iki layihə lazımdır. Çünki enerji istehlakçılarının tələbatları bundan sonra yalnız artacaq və hər iki tərəf digər əməkdaşlıq formalarında

maraqlı olmalıdır. Bu elə bir əməkdaşlıq sahəsidir ki, burada rəqabət məsələləri durur. Təbii ki, bu da təşkilatlar arasında müəyyən rəqabəti nəzərdə tutur. Amma bu, təbii haldır. Digər məsələni də qeyd etmək istəyirəm ki, cənab prezident Əliyevin qeyd etdiyi kimi, burada üç tərəf əməkdaşlıq etməlidir – hasilatçılar, tranzit ölkələr və istehlakçılar. Burada hər üç tərəfin hüquqları və maraqları vardır. Bu, əsas, müəyyənedici amildir. Bu amil Azərbaycan ilə Avropa İttifaqı arasında «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində olan əməkdaşlığa aiddir. Biz əməkdaşlığımıza məhz bu müstəvidən baxmalıyıq.

Azərbaycan ilə Avropa İttifaqı arasında digər sahələrdə də müvafiq sazişlər imzalanmalıdır. İnanıram ki, bu sazişlər fərdi xarakter daşımalı və Azərbaycanın xüsusi, spesifik iqtisadi imkanlarını nəzərə almalıdır. Digər aspektləri, digər sahələri nəzərə alaraq buraya yeni çalarlar gətirilməlidir.

Biz bilirik ki, Dağlıq Qarabağ münaqişəsi mühüm məsələdir. Əgər biz bu regionda fəal olmaq istəyiriksə, bu məsələ vacib məsələdir. Hətta biz Avropada ən böyük qüvvə olmasaq da, daha böyük gücə malik ölkə olmasaq da fəal işləməliyik. Çalışmalıyıq ki, münaqişə sülh yolu ilə həllini tapsın. Bir daha burada həmkarınız soruşdu ki, nikbinliyiniz haradan gəlir? Mən bu sualın cavabına əlavə edərdim ki, əslində 10 ildən artıqdır bu münaqişə ilə bağlı aparılan danışıqları izləmişəm. Mən əvvəllər Birləşmiş Millətlər Təşkilatı sistemində işləmişəm, indi isə Sloveniya Respublikasının Prezidentiyəm.

Üç əsas tərəf, iştirakçı – Ermənistan, Azərbaycan və Rusiya Federasiyası münaqişənin həlli prinsiplərini indi daha dəqiq formada müəyyən edə bilər. Bu şans əldən buraxılmalı deyil. Bu sahədə daha dəqiq olmalıyıq. Mən sizin sualınıza uzun cavab verdim. Əgər bu həll olunsa, əslində bu bizim Avropa İttifaqı ilə Azərbaycan arasında olan əməkdaşlığa xidmət edən bir məsələ ola bilər. Biz bir-birimizi dəstəkləməliyik. Biz sadəcə, nümunələri, modelləri bir-birimizə təqdim etməli deyilik. Biz çalışmalıyıq ki, əsl prioritetləri, əsl dəyərləri əməkdaşlığımızda əks etdirək.

## SLOVENİYA MİLLİ ASSAMBLEYASININ PREZİDENTİ PAVEL QANTAR İLƏ GÖRÜŞ

*Lyublyana*

*9 iyun 2011-ci il*

*İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniya Respublikası Milli Assambleyasının prezidenti Pavel Qantar ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Sloveniya Respublikasının Milli Assambleyasının Xatirə kitabını imzaladı.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. İqtisadi sahədə əlaqələrimizin inkişafı üçün yaxşı imkanların mövcud olduğu bildirildi.*

*Parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin genişlənməsi baxımından önəmli olduğunun qeyd edildiyi görüşdə Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın beynəlxalq təşkilatlar çərçivəsində də uğurla inkişaf etdiyi bildirildi.*

*Görüşdə Azərbaycan prezidenti İlham Əliyevin Sloveniyaya səfərinin ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

## LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞ

*Lyublyana*

*9 iyun 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Sloveniyaya rəsmi səfəri çərçivəsində iyunun 9-da Lyublyana şəhər meriyasında olmuşdur.*

*Dövlətimizin başçısını meriyanın qarşısında Lyublyananın meri Zoran Yankoviç qarşıladı.*

*Zoran Yankoviç prezident İlham Əliyevi salamlayaraq 7 il əvvəl iş adamı qismində Bakıda olduğunu məmnunluqla xatırlatdı. O, Bakı ilə Lyublyana arasında əməkdaşlığın daha da inkişafı üçün çalışacağını bildirdi.*

*Azərbaycanı «Eurovision–2011» mahnı müsabiqəsində qazandığı qələbəyə görə təbrik edən Lyublyana şəhərinin meri gələn il Sloveniyanın bir çox incəsənət adamının Azərbaycana səfər edəcəyini qeyd etdi.*

*Dövlətimizin başçısı Lyublyana şəhərinin inkişafı ilə bağlı görülən işləri yüksək qiymətləndirdiyini bildirdi.*

*Prezident İlham Əliyev son bir neçə il ərzində Lyublyananın daha da müasirləşdiyini, abadlaşdığını və çox gözəl Avropa şəhərinə çevrildiyini vurğuladı.*

**İlham Əliyev:** Mən görürəm ki, həm şəhər rəhbərliyi, həm də sakinlər öz şəhərlərinə çox böyük məhəbbətlə yanaşırlar. Burada abadlıq, quruculuq və bərpa işləri böyük zövqlə aparılmışdır. Bütövlükdə Sloveniya–Azərbaycan əlaqələrinin inkişafı üçün bu gün çox əlamətdar bir gündür. Bu gün keçirdiyim görüşlər, apardığım danışıqlar və sabah keçiriləcək tədbirlər ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaqdır. Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və bu əlaqələrimiz gündən-

günə güclənir. Sabah keçiriləcək birgə biznes-forum iqtisadi sahədə də əlaqələrin inkişafı üçün çox təsirli olacaqdır. Çünki qarşılıqlı maraq çox böyükdür və birgə iş görmək üçün bütün imkanlar vardır. Parlamentlərarası əlaqələr də yaxşı səviyyədədir. Mən burada köhnə dostumu görməkdən çox məmnunam. Biz Strasburqda birlikdə işləmişik və çox yaxşı günlərimiz, yaxşı söhbətlərimiz olub. Azərbaycan artıq 10 ildir ki, Avropa Şurasının üzvüdür. Amma görüşlərimizin baş tutduğu o vaxt biz Avropa Şurasına təzə üzv olmuşduq və bizim üçün hər şey orada təzə idi. Biz istəyirdik ki, tezliklə Avropa Şurasına inteqrasiya edək, öz yerimizi tutaq və cənab Yankoviç də bizə çox kömək göstərmişdi.

«Eurovision–2011» mahnı müsabiqəsində Azərbaycan gənclərinin qazandıqları qələbə münasibətilə təbrikinizə görə təşəkkür edirəm. Bir ildən sonra sloveniyalı qonaqları qəbul etməyə hazırıq, o cümlədən sizi, cənab mer. Amma ümid edirəm ki, siz ondan əvvəl Bakıya gələcəksiniz və biz əlaqələrimizi davam etdirəcəyik. Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

*Dövlətimizin başçısı meriyanın Xatirə kitabına ürək sözlərini yazdı.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*9 iyun 2011-ci il*

*İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri çərçivəsində prezident Danilo Tyurkun adından dövlətimizin başçısının şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Sloveniya prezidenti Danilo Tyurkun çıxışı

Cənab Prezident, bu mühüm səfəriniz çərçivəsində imzalanan mədəniyyət, təhsil, elm və digər sahələrdə əməkdaşlığa dair sazişlər əlaqələrimizin inkişafı üçün yeni imkanlar yaradacaq. Ölkələrimizin şirkətləri enerji, informasiya, ətraf mühit texnologiyası, mühəndis işi və əczaçılıq sahələrində təmaslar qurub, Azərbaycanda kiçik su elektrik stansiyalarının tikintisində Sloveniya şirkətləri ilə əməkdaşlığa dair plan qüvvəyə minib. Bunlar hamısı gələcək əməkdaşlığımızın genişlənməsinə xidmət edəcək.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəlincə, mən bu məsələnin həllinə yönəlmiş dialoqunuz sahəsindəki irəliləyişi və səylərinizi alqışlayıram. Danışıqlarda irəliləyişin hər bir əlamətini və bu sahədə vəziyyətin yaxşılaşdırılması məqsədi ilə atılan hər bir addımı görməkdən məmnunam. Dovildə mayın 26-da «Böyük səkkizlik» ölkələrinin sammiti çərçivəsində Rusiya, Fransa və ABŞ prezidentlərinin – ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin bəyanatını alqışlayıram. Həmin bəyanatda onlar məsələnin sülh yolu ilə həlli üçün prinsiplər üzərində razılığa çağırmışlar. Ümid edirəm ki, iyunda Kazanda keçi-

riləcək üçtərəfli görüşdə razılıq əldə olunacaqdır. Biz, demək olar ki, eyni fikirdəyik – nizamlanmaya yönəlmiş səylər status-kvonun daimi olmasının qarşısını almaq üçün sürətləndirilməlidir. Bu məsələnin həlli digər münaqişələrin həllinə də müsbət təsir göstərə bilər.

Avropa İttifaqının üzvü kimi, Sloveniya bu təşkilat ilə Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi üçün fəal çalışır. Avropa İttifaqı Azərbaycanı mühüm tərəfdaş hesab edir və Azərbaycan ilə daha fəal münasibətlər qurmaq arzusundadır. Buna görə Avropa İttifaqı Azərbaycanı özünə daha da yaxınlaşdırmaq məqsədi ilə yeni siyasət və proqramlar formalaşdırır. Bu baxımdan mən «Şərq Tərəfdaşlığı» layihəsini qeyd etmək istəyirəm. Sloveniya bu proqramın həyata keçirilməsində fəal iştirak edir.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm. Gözəl ölkənizi ikinci dəfə ziyarət etməyimdən çox məmnunam.

Bu gün əlaqələrimizin yeni mərhələsində ölkələrimiz arasında sənaye, energetika, nəqliyyat, informasiya texnologiyaları, turizm, ticarət, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər mövcuddur.

Etiraf etmək lazımdır ki, iqtisadi münasibətlərimizin göstəriciləri ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi arzu olunan səviyyədə deyildir. İnanıram ki, səfərim zamanı keçirdiyimiz görüşlər, apardığımız fikir mübadiləsi və müzakirələr ölkələrimiz arasında münasibətlərin yeni müstəviyə yüksəlməsinə təkan verəcəkdir.

Azərbaycan və Sloveniya xalqları çətin günlərdə bir-birinə dayaq olmuşlar. İkinci dünya müharibəsi illərində faşizmə qarşı mübarizədə burada qəhrəmancasına həlak olmuş «Mixaylo» təxəllüsü ilə tanınan Mehdi Hüseynzadə daim hər iki xalqın xatirələrində yaşayır.

Sloveniya xalqı bu gün də öz qəhrəmanlarını unutmur. Nova Qoritsa şəhərində müxtəlif ictimai qurumların nümayəndələrinin, xüsusilə Mehdi Hüseynzadənin silahdaşlarından ibarət 80-ə yaxın sloveniyalının yeni yaranmış Sloveniya–Azərbaycan Dostluq Cəmiyyətinə üzv olması xalqlarımızın bir-birinə olan hörmətini və diqqətini nümayiş etdirir.

Azərbaycan ilə Sloveniyanın beynəlxalq və regional təşkilatlarda – xüsusilə BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurasında əməkdaşlığı böyük məmnunluq doğurur. Azərbaycanın xarici siyasətində Avropa İttifaqı və Avroatlantik strukturlarla əlaqələr mühüm yer tutur. Azərbaycan ilə Avropa İttifaqı arasında 2006-cı ildə imzalanmış «Enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu», eləcə də bu ilin yanvar ayında imzalanan «Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə» bunun bariz nümunəsidir. Regionun əsas iqtisadi mərkəzinə çevrilmiş Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması üçün bundan sonra da öz töhfəsini verməyə hazırdır.

Biz enerji resurslarımızın bütün istiqamətlərdə dünya bazarlarına çıxarılmasında maraqlıyıq və istehsal etdiyimiz neftin və qazın Avropaya nəqli üçün irəli sürülən təşəbbüsləri nəzərdən keçirməyə hazırıq. Azərbaycanın həyata keçirdiyi irimiqyaslı neft-qaz layihələri bizim etibarlı tərəfdaş olduğumuzu sübut edir və bundan sonra da bütün maraqlı tərəflərlə əməkdaşlıq etməyə imkan verir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, regionun inkişafı üçün ən böyük təhlükə mənbəyi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapmamasıdır. Bildiyiniz kimi, Azərbaycanın Dağlıq Qarabağ regionu və 7 digər rayonu 20 ilə yaxındır ki, Ermənistan tərəfindən işğal olun-

muşdur. Bu, Azərbaycanın ümumi ərazisinin təxminən 20 faizini təşkil edir. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, İKT, ATƏT, Avropa Şurası, NATO və digər beynəlxalq təşkilatların qərar və qətnamələri vardır. Bu münaqişə ancaq beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, icazə verin, bu badələri Sizin şərəfinizə, Azərbaycan ilə Sloveniya arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

## AZƏRBAYCAN–SLOVENİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*Lyublyana*

*10 iyun 2011-ci il*

*İyunun 10-da Lyublyanada Azərbaycan–Sloveniya biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Sloveniya prezidenti Danilo Tyurk biznes-forumda iştirak etmişlər.*

*Forum iştirakçıları Azərbaycanın və Sloveniyanın dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Biznes-forumda hər iki ölkədən 200-ə yaxın iş adamı iştirak etmişdir.*

*Forumun keçirilməsində məqsəd Azərbaycan və Sloveniya iş adamları arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığı inkişaf etdirmək, hər iki ölkənin iqtisadi potensialından yararlanaraq, ticarət dövriyyəsinin səviyyəsini artırmaqdır.*

*Dövlət başçıları forumda çıxış etdilər.*

### Sloveniya prezidenti Danilo Tyurkun çıxışı

Hörmətli prezident İlham Əliyev, əziz dostum!

Hörmətli qonaqlar, hörmətli dostlar!

Bu gün Azərbaycan–Sloveniya biznes-forumunda çıxış etməkdən olduqca məmnunam. Əslində, prezidentliyim dövründə ikinci dəfədir ki, belə mötəbər iclasda çıxış etmək fürsəti mənə nəsib olur.

2 il əvvəl mən bir qrup sloveniyalı iş adamı ilə Bakıya səfər etmişdim. Bakıda işgüzar dairələrlə çox yaxşı, səmimi görüşümüz oldu. O vaxt biz lap başlanğıcdan olduqca perspektivli, yeni, mühüm təşəbbüsləri müzakirə etdik. Onlardan

bəziləri artıq öz bəhrəsini vermişdir. Həmin addım əslində başlanğıc nöqtəsi oldu. İnformasiya texnologiyaları və sığorta sahələrində əldə edilən irəliləyiş, bu yaxınlarda başlanmış su elektrik stansiyalarının tikintisi layihəsi bizi həvəsləndirdi. «Korona» şirkəti Azərbaycandakı tərəfdaşları ilə artıq texniki əsaslandırma işlərinə başlamışdır.

Bu bir daha onu göstərir ki, biz tərəqqini əldə etmişik. Həmin tərəqqi o faktla üst-üstə düşür ki, ticarət əlaqələrimizdə də böyük irəliləyişə nail olmuşuq. Ticarətimiz artır. Ötən il bu sahədəki artım 10 faiz olmuşdur. Bu, yaxşı haldır, çünki 2010-cu il hələ də böhran ili idi. Ümid edirik, ötən il qlobal böhranın son ili oldu. Həmin vaxtdan etibarən gözəçarpan artımı müşahidə etməyə başladıq. Burada dinlədiklərimiz göstərir ki, hər iki ölkənin şirkətləri arasında əməkdaşlıq ideyaları forumda səsləndirilir. Bunun üçün möhkəm bünövrə vardır. Planlarımız və ümidlərimiz böyükdür.

Bir-biri ilə əməkdaşlıq edən iki dost ölkənin – Azərbaycanın və Sloveniyanın həm biznes, həm siyasi dairələri arasında qurulmuş işbirliyi haqqında daha geniş mənada bir neçə kəlmə söyləmək istəyirəm.

Biz strateji düşünməliyik və uzunmüddətli perspektivlər haqqında danışmalıyıq. Bu faktı da nəzərə almalıyıq – Sloveniya Avropa İttifaqının üzvü və Azərbaycan Avropa İttifaqının tərəfdaşı kimi, bir çox səylər göstərməlidirlər ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin gələcəyi daha dəqiq formada müəyyən edilsin. Hələ ki, bu sahədə konkret təkliflər yoxdur.

Biz Avropa İttifaqında bu haqda az bilirik və bu, Avropa İttifaqının bütün üzvlərinə aiddir. Biz Azərbaycan haqqında bir çox məlumatları öyrənməliyik, ölkənizdəki imkanlarla tanış olmalıyıq. Anlamalıyıq ki, enerji və alternativ enerji mənbələri sahəsində əməkdaşlıqdan başqa, növbəti onilliklər haqqında düşünməliyik. Belə gələcək üçün möhkəm iqtisadi bünövrəni inkişaf etdirməliyik. Məhz bugünkü biznes-forum da bu məqsədlərə xidmət edir. Burada hər iki məsələ nəzərdə

tutulur: yaranan biznes imkanları və razılaşmalar, həmçinin uzun müddət ərzində bizi lazımi möhkəm əməkdaşlığa doğru aparacaq strategiya.

Sloveniya Avropa İttifaqının üzvləri arasında elə bir ölkə olacaq ki, Siz ona etibarlı dost və maraqları təmin edən tərəf kimi arxalana bilərsiniz. Zənnimcə, Avropa İttifaqının hər bir tərəfdaş ölkəsi lazımi şəkildə qavranılmalıdır və onunla əməkdaşlıq düşünülmüş formada olmalıdır. Əvvəlcədən müəyyən edilmiş modelləri tələsik həyata keçirmək olmaz. Biz yeni modellər üzərində işləməliyik. Ümid edirəm ki, bu biznes-forum irəliyə doğru addımların atılmasında uğurlu olacaq və səmimiyyətlə sizdən nəticələr gözləyirəm. Mən isə öz növbəmdə Sizə söz verirəm ki, biz Sloveniyada əldə etdiyiniz nəticələri çox diqqətlə öyrənəcəyik. Uzunmüddətli və möhkəm çərçivənin reallığa çevrilməsi üçün əlimizdən gələni etməyə çalışacağıq.

Diqqətinizə görə çox sağ olun. Sizə işinizdə böyük uğurlar arzulayıram.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar, əziz dostlar!

Əvvəlcə, cənab Prezident, gözəl ölkənizə səfər etmək üçün dəvətinizə və göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm. Əslində mən ikinci dəfədir ki, Sizin gözəl ölkənizə səfər edirəm və bir çox dəyişiklikləri görürəm. Bu münasibətlə sizin hökumətinizi və Lyublyana Şəhər Şurasını aparılmış bir çox abadlıq və şəhər infrastrukturu işlərinə görə təbrik etmək istəyirəm.

Ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Biz əsl dost və tərəfdaşıq. Bu tərəfdaşlığın yaxşı tarixi və çox perspektivli gələcəyi vardır. Çox şadam ki, biznes dairələrinin iqtisadi əlaqələrin gücləndirilməsinə istiqamətlənmiş birgə səyləri ölkələrimizin – Sloveniya ilə Azərbaycan arasında tərəfdaşlığın gülcəndirilməsinə yönəlmiş siyasi kursuna

uyğundur. Siyasi münasibətlərimiz çox yaxşıdır. Biz ölkələrimiz arasında yüksək səviyyədə və nazirliklər səviyyəsində mütəmadi qaydada məsləhətləşmələr prosesini davam etdiririk. Bizim həmçinin biznes təmaslarının da inkişaf etdirilməsi üçün yaxşı potensialımız vardır. Hesab edirəm ki, bu gün keçirilən biznes-forum sayəsində nəinki ideyalar, həmçinin praktiki nəticələr əldə olunacaqdır.

Biz xarici sərmayədarlara açıq ölkəyik və uzun illər ərzində bu istiqamətdə apardığımız siyasət çox müsbət olub. Son 15 il ərzində iqtisadiyyatımıza təxminən 100 milyard ABŞ dolları məbləğində sərmayə yatırılmışdır və onların əksər hissəsi qeyri-enerji sektoruna yönəldilmişdir. Mən bunu ona görə deyirəm ki, Azərbaycan neft ölkəsidir, neft, qaz hasilatçısı və ixracatçısıdır. Ölkəmiz bu baxımdan cəlbedicidir. Lakin məqsədimiz iqtisadiyyatı şaxələndirməkdir, Azərbaycanda güclü qeyri-enerji sektorunun və davamlı iqtisadiyyatın yaradılmasıdır.

Hesab edirəm ki, son bir neçə il ərzində iqtisadi inkişaf, liberallaşdırma və biznesin aparılması sahəsində ölkəmizin göstəriciləri məqsədlərimizi aydın şəkildə göstərir. Hətta iqtisadi böhran ilə yadda qalan ən çətin 2008–2009-cu illərdə iqtisadiyyatımız yenə də 14 faiz artmışdır. Həmin il neftin qiyməti 4-5 dəfə aşağı düşmüşdür. Ümumiyyətlə, son 7 il ərzində ÜDM 3 dəfə artıb, yoxsulluq səviyyəsi 5 dəfə – 49 faizdən 9,1 faizə qədər azalmışdır. İşsizliyin səviyyəsi 6 faiz olmuşdur. İnfrastruktura qoyulan sərmayələr və özəl sektora verilən dəstək hazırkı durumu yaratmışdır ki, iqtisadiyyatımız artıq enerji amilindən o qədər də asılı deyildir. Bizim üçün gələcək iqtisadi inkişaf qeyri-enerji sektorunun inkişafı deməkdir, çünki enerji sektorunda bütün əsas hədəflərimizə nail olmuşuq.

Bizim 7 ixrac neft və qaz boru kəmərindən ibarət şaxələndirilmiş şəbəkəmiz vardır. Enerji resurslarımızı müxtəlif istiqamətlərdə ixrac edirik. Avropa İttifaqı ilə gündəliyimizdə olan mühüm məsələlərdən biri enerji təhlükəsizliyidir.

Azərbaycan Avropa bazarlarında enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır. Bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub qaz dəhlizi haqqında mühüm bəyannamə imzalanmışdır. Hazırda fəal və səmərəli iş aparan müvafiq işçi qrupu formalaşdırılmışdır. Ümidvaram ki, gələn illər ərzində Avropa İttifaqı ilə Azərbaycan arasında enerji əməkdaşlığı sahəsində bir çox digər mühüm addımlar atılacaqdır. Bu bizim üçün imkanlar açır ki, maliyyə resurslarımızı formalaşdıraq, onları yenidən iqtisadiyyata, təhsilə, sosial infrastruktura və prioritet sahələrə sərmayə kimi yönəldək. Buna görə daxili prioritetlərimizin gündəliyində enerji sektoru böyük rol oynamır. Xüsusən xarici iqtisadi və siyasi münasibətlərdə mühüm əhəmiyyət kəsb edir. Ölkə daxilində əsas diqqət yetirdiyimiz sahə iqtisadiyyatın davamlı inkişafıdır.

Kənd təsərrüfatı və aqrar məhsulların emalı sahəsində yaxşı potensialımız vardır. Turizm sahəsini də qeyd etməliyik. Hazırda biz beynəlxalq turizm istirahət zonaları yaradırıq. Biz bu sahədə yaxşı təcrübəsi olan Sloveniya şirkətlərini ölkəmizdə həmin mühüm layihələrdə iştirak etmək üçün dəvət edirik. Yalnız bu il Bakıda və rayonlarda yeni müasir infrastruktura malik beşulduzlu 6 mehmanxana açılacaqdır. İnformasiya texnologiyaları sahəsi bizim üçün prioritetlərdən biridir. Kosmos sənayesini də inkişaf etdirməyə başlamışıq. Sloveniya şirkətləri ilə apardığımız əməkdaşlığın bir sahəsi də məhz informasiya texnologiyaları sektorudur. Əslində, bu sahədəki əməkdaşlıq Bakıda prezident Tyurkun iştirakı ilə keçirilmiş birinci biznes-forumda qeyd edilmişdir, biz də həmin təşəbbüsə dəstək verdik.

Azərbaycanda informasiya texnologiyalarının inkişafı çox sürətlə gedir. Biz bu sektora böyük diqqət yetiririk. Hazırda ölkə əhalisinin 50 faizi internetdən istifadə edir. Gələn illər ərzində bu sektor bizim üçün daxili iqtisadi prioritetlərimizdə çox mühüm rol oynayacaqdır. İqtisadiyyatın şaxələndirilməsi sərmayələrin cəlb edilməsi deməkdir. Xarici

sərmayələrin cəlb edilməsində yaxşı təcrübəmiz vardır. Bizim çox təfərrüatlı dövlət sərmayə proqramımız vardır və bu proqram əsasən infrastruktur layihələrini əhatə edir. Hər il biz infrastrukturun inkişaf etdirilməsinə kifayət qədər maliyyə resursları ayırırıq. Mən Sloveniya şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirəm. Bugünkü biznes-forumun bir hissəsi Azərbaycandakı konkret biznes sərmayə layihələrinin təqdim edilməsinə həsr olunubdur və yekun hesabat hazırlanıb. Orada bütün zəruri məlumatlar verilib.

Hesab edirəm ki, hökumətimiz tərəfindən maliyyələşdiriləcək layihələri də bilmək maraqlı olardı. Həmin layihələrdə Sloveniya şirkətləri podratçı kimi iştirak edə bilər. Onlar böyük sahələri əhatə edir: yolların, elektrik stansiyalarının tikilməsi, içməli suyun təmin edilməsi, kanalizasiya xətlərinin çəkilməsi, xəstəxanaların və məktəblərin inşası. Həmin layihələr həyatımızın bütün sahələrini əhatə edir. Məqsədimiz ən vacib infrastruktur və sosial infrastruktur layihələrini ikinci inkişaf proqramımızın başa çatdığı vaxtda, yəni 2013-cü ildə həyata keçirməkdən ibarətdir. Gələcəkdə isə ölkənin inkişafı və Azərbaycanda iqtisadiyyatın davamlı artımı növbəti iqtisadi islahatlarımızda əldə edəcəyimiz uğurlardan asılı olacaqdır. Bu gün iqtisadiyyatda liberallaşdırma səviyyəsi çox yüksəkdir.

Hər iki ölkə bu il müstəqilliyin iyirminci ildönümünü qeyd edəcəkdir. Azərbaycan müstəqilliyini bərpa etdiyi vaxt bazar iqtisadiyyatının ÜDM-dəki payı sıfır faiz idi. İndi isə Azərbaycanda ÜDM-in 80 faizdən çoxu özəl sektorda təmin edilir. Həmçinin nəzərə almalıyıq ki, ÜDM-i təşkil edən əsas mənbələr və enerji infrastrukturu dövlət nəzarəti altındadır. Bu o deməkdir ki, özəlləşdirmə, liberallaşdırma prosesi, yerli və xarici biznes dairələri üçün yaxşı şəraitin yaradılması işi düzgün istiqamətdə gedir.

Sloveniya bizim üçün bu regionda dost ölkə və mühüm tərəfdaşdır. Avropa İttifaqının üzvü kimi, Sloveniyanın bizim regionda rolu və mövqeyi hər zaman müsbət olub. Bizim üzv

dövlətlərlə ikitərəfli qaydada çox gözəl münasibətlərimiz vardır. Hesab edirəm ki, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin belə bir mühüm inkişaf mərhələsində ən vacib məsələ qarşımızda qoyduğumuz hədəfləri və məqsədləri müəyyən etmək, onlara nail olmaq üçün yol xəritəsini hazırlamaq, qarşılıqlı maraq və hörmətə əsaslanan əsl tərəfdaşlıq münasibətlərini qurmaqdır. Bu baxımdan bu proses uğurla davam edəcəkdir.

Regionlarımızın bir-birinə daha da yaxın olması üçün göstərdiyi səylərə görə biz Sloveniya tərəfinə və prezident Tyurka olduqca minnətdarıq. Biz Avropa İttifaqı ilə qonşuyuq və tərəfdaşıq. Tərəfdaşlığımız artacaq, siyasi münasibətlər inkişaf edəcək və enerji təhlükəsizliyi məsələləri – mən nitqimin əvvəlində bunu qeyd etdim – daha möhkəm rol oynayacaq, çünki bizim resurslarımız vardır. Avropaya alternativ mənbə lazımdır. Biz artıq müəyyən mənada böyük daşıma infrastrukturuna malikik və bu imkanlar daha da artırılmalı və genişləndirilməlidir.

Cənab Prezident və hörmətli dostlar, mən sizin hamınıza bizə göstərilmiş qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Mən dünən keçirilmiş danışıqların nəticələrindən və bu gün imzalanmış sənədlərdən məmnunluğumu bildirirəm. Səfərim davam edir. Əminəm ki, səfər və onun nəticələri münasibətlərimizin gələcək inkişafında mühüm rol oynayacaqdır.

Çox sağ olun.

* * *

*Sonra dövlət başçıları Azərbaycan və Sloveniya şirkətlərini təmsil edən iş adamları ilə görüşdülər.*

*Sloveniyanın biznes dairələrinin nümayəndələri Azərbaycan prezidenti İlham Əliyev ilə söhbətlərində ölkəmizdə baş verən iqtisadi inkişaf prosesləri, biznes və sərmayə mühiti barədə ətraflı məlumat aldılar.*

## SLOVENİYANIN BAŞ NAZİRİ BORUT PAHOR İLƏ GÖRÜŞ

*Lyublyana*

*10 iyun 2011-ci il*

*İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Borut Pahor ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını Baş nazir Borut Pahor qarşıladı.*

*Görüşdə ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, ikitərəfli münasibətlərimizin Azərbaycan–Avropa İttifaqı çərçivəsində önəmi vurğulandı.*

*Prezident İlham Əliyevin Sloveniyaya səfərinin ölkələrimiz arasında iqtisadiyyatın konkret sahələrinin perspektivlərinin nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığının qeyd edildiyi görüşdə Azərbaycan–Sloveniya biznes-forumunun əhəmiyyəti vurğulandı.*

## SLOVENİYANIN NOVA QORİTSA ŞƏHƏRİNDƏ SOVET İTTİFAQI QƏHRƏMANI MEHDİ HÜSEYNZADƏNİN MEMORİAL MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*Nova Qoritsa*

*10 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Sloveniya Respublikasının Prezidenti Danilo Tyurk iyunun 10-da Nova Qoritsa şəhərində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan xalqının igid oğlu Mehdi Hüseynzadənin memorialını ziyarət etmişlər. Dövlət başçıları əfsanəvi qəhrəmanın memorial muzeyinin açılışında iştirak etmişlər.*

*Azərbaycan prezidenti İlham Əliyev qəhrəmanın abidəsi önünə əklil qoydu.*

*Mehdi Hüseynzadənin memorialı önündə təşkil olunan mərasimdə çıxış edən Nova Qoritsa şəhərinin meri Matej Arkon Azərbaycan prezidentini bu şəhərdə görməkdən məmnun olduğunu bildirdi.*

*«Mehdi Hüseynzadə bizi birləşdirən şəxs idi və onun qəhrəmanlığı bütün ətraf kəndlərin əhalisi tərəfindən ehtiramla yad olunur, o hər birimizin qəlbində yaşayır» – deyən mer alman faşizminin Mehdi Hüseynzadənin arzularını yarımçıq qoyduğunu, lakin bu yerlərin insanlarının azadlıq əzmini qıra bilmədiyini vurğuladı.*

*Sloveniya–Azərbaycan Dostluq Cəmiyyətinin sədri İvan Başin də Mehdi Hüseynzadənin xatirəsini anaraq, Mixaylonun əfsanəvi qəhrəmanlığından danışdı.*

*İkinci dünya müharibəsi gedişində Azərbaycan əsgərlərinin sloven partizanlarının 9-cu korpusu tərkibində düşmənə qarşı*

*birgə mübarizə apardıqlarını qeyd edən İvan Başin vurğuladı ki, yerli sakinlər Mixayloya hər zaman böyük hörmətlə yanaşırdılar.*

*Rəhbərlik etdiyi cəmiyyətin fəaliyyətinə toxunan Başin əsas məqsədin Azərbaycan təşkilatları ilə elm, təhsil, mədəniyyət və iqtisadiyyat sahələrində əlaqələri genişləndirmək və ikitərəfli əməkdaşlığa yeni töhfələr vermək olduğunu bildirdi.*

*Sonra xor kapellasının çıxışı oldu.*

**D a n i l o  T y u r k:** Hörmətli cənab İlham Əliyev!

Azərbaycandan gəlmiş hörmətli qonaqlar!

Hörmətli dostlar, hörmətli vətəndaşlarımız, mərasim iştirakçıları!

Əvvəlcə bu tədbirə gəldiyinizə görə sizə dərin təşəkkürümüzü bildiririk. Biz bu günü böyük iftixar hissi ilə qeyd edirik. Əslində bu, ölkələrimizin nə qədər yaxın olduğunu bir daha nümayiş etdirir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu gün aramızda mövcud olan tarixi əlaqələr daha da möhkəmləndirilməlidir. Çünki tarixdə bizi bağlayan ümumi məqamlar vardır.

Biz gözəl bilirik ki, İkinci dünya müharibəsində həm Sloveniya, həm Azərbaycan, həm də digər ölkələrin əsgərləri böyük şücaət göstərib və düşmənə cəsarətlə sinə gəriblər. Daha bir sevindirici məqam ondan ibarətdir ki, Sloveniya və Azərbaycan müstəqil ölkələrdir. Demək olar ki, onlar müstəqilliyi eyni vaxtda əldə ediblər. Bu il biz müstəqilliyimizin 20-ci ildönümünü qeyd edirik. Əslində, bizim oxşar tariximizi yaşamış ölkələr də öz müstəqilliklərini, demək olar ki, həmin vaxt baş vermiş tarixi hadisələr nəticəsində əldə ediblər. Biz bu gün ümumi tariximizlə, keçmişimizlə fəxr edə bilərik. Çünki xalqlarımızın nümayəndələri faşizm və nasizmə qarşı böyük mücadilə və mübarizə aparıblar. Bu bizi birləşdirən ümumi irsimizdir. Əslində, bu mübarizə olmasaydı, bu gün biz ümumi Avropa haqqında danışa bilməzdik. Onlar öz həyatlarını qurban verib və bizim gələcək nəsillərimiz üçün sülh şəraitində ümumi məkanın qurulması uğrunda mübarizə

aparıblar. Beləliklə, bu gün biz ümumi irsimizin, ortaq tariximizin oxşar məqamları haqqında danışa bildiyimiz üçün çox şadıq. Əslində, bu gün biz çalışmalıyıq ki, hər hansı ziddiyyətlər, mövcud münaqişələr və baş verən müharibələr zamanı pozulmuş hüquqların bərpası təmin edilsin. Bu baxımdan biz hesab edirik ki, bu gün bu tədbirin burada keçirilməsi mühüm mədəni mesajı özündə əks etdirir. Bu, xoşməramlı mesajdır. Bu mərasimin keçirilməsi ilə bir daha onu qeyd edirik ki, biz birbirimizə yaxın olmalıyıq. Biz keçmişimizi yaddan çıxarmamalı və onu daim qəlbimizdə yaşatmalıyıq.

Mən bu gün Sloveniya Respublikasının Prezidenti kimi, bu tədbirdə iştirak etməkdən olduqca məmnunam. Bu gün biz vacib bir mərasimdə iştirak edirik. Cənab prezident İlham Əliyevə xüsusi təşəkkürümü bildirirəm ki, öz nümayəndə heyəti ilə şəxsən bu mərasimdə iştirak edir. Bu bizim birliyimizin rəmzidir. Ümidvaram ki, bundan sonra da birgə tədbirlərimizi davam etdirəcəyik. Qeyd edim ki, atdığımız birgə addımların artıq yaxşı bünövrəsi vardır. Mən bu gün səmimi-qəlbdən bu bünövrəyə əsaslanan əlaqələrin gələcəkdə də daha böyük nəticələr verməsini arzulayıram. Sonda bir daha Sizə və bütün mərasim iştirakçılarına dərin təşəkkürümü bildirirəm. Sağ olun.

**İlham Əliyev:** Hörmətli cənab prezident Danilo Tyurk!

Hörmətli Şampos və Nova Qoritsanın sakinləri, əziz dostlar!

Bu gün Sloveniya–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar və unudulmaz bir gündür. Bu gün biz Azərbaycan xalqının böyük oğlu qəhrəman Mehdi Hüseynzadənin – Mixaylonun memorial muzeyinin açılışına toplaşmışıq.

İlk növbədə prezident cənab Danilo Tyurka, Sloveniya dövlətinə, Sloveniya xalqına Mehdi Hüseynzadənin xatirəsinə göstərdikləri böyük hörmətə görə Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm.

Mehdi Hüseynzadə burada sloveniyalı dostları ilə bərabər partizan dəstəsində faşistlərə qarşı döyüşmüş və qəhrəmancasına həlak olmuşdur. Bu mübarizə və xalqları-

mızın birgə səyləri nəticəsində faşizm kimi bəla üzərində hamımız birlikdə qələbə qazanmışıq. Qəhrəmanlarımızın əziz xatirəsi xalqlarımızın qəlbində daim yaşayır və bugünkü mərasim bu sözlərin ən gözəl təsdiqidir.

İkinci dünya müharibəsində 600 min Azərbaycan vətəndaşı döyüşmüşdür. Onların yarısı – 300 mini həlak olmuş, müharibədən qayıtmamışdır. Müharibə zamanı sovet ordusunun yanacağının 90 faizini Azərbaycan neftçiləri təmin etmişlər.

Bu gün Sloveniya–Azərbaycan əlaqələrinin inkişafında çox əlamətdar bir gündür. Bu əlaqələrin gələcək inkişafı üçün bu gün yeni imkanlar açılır. Bizi çox gözəl dostluq əlaqələri bağlayır. Bizim qarşılıqlı iqtisadi təşəbbüslərimiz müzakirə edilir. Əməkdaşlığımızın perspektivləri haqqında aramızda fikir ayrılığı yoxdur.

Qəhrəmanlarımıza, onların xatirəsinə olan hörmət və xoş münasibət əlaqələrimizi daha da gücləndirir. Sloveniya dövlətinə, şəxsən Sloveniya Respublikasının Prezidentinə bu xoş münasibətə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan tərəfi də öz növbəsində ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəkdir.

Mənim Sloveniyaya rəsmi səfərim bu gün burada başa çatır. İkigünlük səfər çox məhsuldar olmuşdur. Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. Bir daha məni Sloveniyaya dəvət etdiyiniz üçün, mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə sizin hamınıza minnətdarlığımı bildirmək istəyirəm.

Çıxışımın sonunda Mehdi Hüseynzadənin büstü önündə demək istəyirəm: Yaşasın Sloveniya–Azərbaycan dostluğu!

* * *

*Sonra Azərbaycan və Sloveniya prezidentləri Mehdi Hüseynzadənin memorial muzeyinin açılışında iştirak etdilər.*

*Dövlət başçıları xatirə lövhəsinin üzərindən örtüyü götürdülər.*

*Prezident İlham Əliyev və prezident Danilo Tyurk muzeylə tanış oldular.*

*Məlumat verildi ki, xalqımızın qəhrəmanlıq tarixində mühüm yeri olan Mehdi Hüseynzadənin memorial muzeyindəki bütün eksponatlar onun adı ilə bağlıdır. Burada qəhrəmanın keçdiyi döyüş yolu bütün təfərrüatları ilə əks olunmuşdur. O dövrə aid fotolar, Mehdi Hüseynzadənin döyüş yoldaşlarının təqdim etdikləri qiymətli eksponatlar bu muzeyə gələnlərdə Mixaylonun qəhrəmanlığı haqqında dolğun təəssürat yaradır.*

*Muzeydə Mixaylonun abidəsi qoyulmuşdur. Vaxtilə ona məxsus olan döyüş sursatları, şəxsi əşyalar da muzeydə nümayiş etdirilir. Mehdi Hüseynzadə haqqında çəkilmiş «Uzaq sahillərdə» filmindən fotolar buraya gələnlərə xalqımızın igid oğlunun xatirəsinin hər zaman soydaşlarımızın qəlbində yaşadığını bir daha nümayiş etdirir. Bir sözlə, memorial muzeyin yaradılması bu torpaqların faşizm təhlükəsindən azad olunması yolunda öz canından keçmiş Mehdi Hüseynzadənin xatirəsinə həm Azərbaycan, həm də Sloveniya hökumətlərinin ehtiramını göstərir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Sloveniya prezidenti DaniloTyurk muzeyin Xatirə kitabına ürək sözlərini yazdılar.*

*Mərasimdə iştirak edən yerli sakinlər dövlət başçıları ilə söhbətlərində bir daha vurğuladılar ki, Mehdi Hüseynzadənin əziz xatirəsi hər zaman onların qəlbində yaşayacaqdır.*

*Prezidentlər İlham Əliyev və Danilo Tyurk Mehdi Hüseynzadənin büstü önündə xatirə şəkli çəkdirdilər.*

## Səfər başa çatdı

*İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Lyub-lyananın «Joze Puçnik» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Sloveniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Vətənə qayıtmışdır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

12 iyun 2011-ci ildə Türkiyə Böyük Millət Məclisinə keçirilən seçkilərdə rəhbərlik etdiyiniz Ədalət və İnkişaf Partiyasının inamlı qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Heç şübhə yoxdur ki, bu qələbə hakimiyyətdə olduğunuz illər ərzində gördüyünüz işlərin nəticəsi, xalq tərəfindən fəaliyyətinizə verilən yüksək qiymətdir.

Azərbaycanla Türkiyə arasında əlaqələr dərin tarixi köklər üzərində qurulub və strateji tərəfdaşlıq münasibətləridir. Bu çoxşaxəli münasibətlər siyasi, iqtisadi, enerji, mədəni, humanitar və digər sahələrdə ildən-ilə daha da güclənir və inkişaf edir. Beynəlxalq aləmdə ölkələrimizin daim bir-birini dəstəkləməsi mühüm əhəmiyyət daşıyır və böyük məmnunluq doğurur.

İnanıram ki, Azərbaycanla Türkiyənin dost, qardaş və strateji tərəfdaş münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da genişlənəcək və dərinləşəcəkdir. Fürsətdən istifadə edərək, gələcək əməkdaşlıq imkanlarını birlikdə nəzərdən keçirərək daha da inkişaf etdirmək üçün Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm.

Hörmətli cənab Baş nazir, əziz qardaşım, Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı və yeni nailiyyətlər, dost və qardaş Türkiyə xalqına daim firavanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyun 2011-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Petrozavodsk yaxınlığında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 iyun 2011-ci il*

## BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*Brüssel*

*21 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Belçika Krallığına işgüzar səfərə gəlmişdir.*

### Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə birgə mətbuat konfransında bəyanatlarla çıxışlar

*İyunun 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun birgə mətbuat konfransı olmuşdur.*

*Xose Manuel Barrozu və prezident İlham Əliyev əvvəlcə mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun bəyanatı

Hər vaxtınız xeyir, xanımlar və cənablar!

İlk növbədə bildirmək istəyirəm ki, Azərbaycan prezidenti İlham Əliyevi bu gün Brüsseldə salamlamaqdan böyük məmnunluq duyuram. Mənim Bakıya səfərim xatirimdədir. Bu səfər zamanı mən böyük qonaqpərvərliyin şahidi oldum. Prezident Əliyev ilə çox yaxşı fikir mübadiləmiz oldu.

Bu gün Siz Brüsselə gəldiyiniz üçün çox məmnunam. Çünki bizim çox açıq və səmərəli danışıqlarımız oldu. Bu ilin yanvarında Bakıya səfərim zamanı müzakirə etdiyimiz müxtəlif məsələləri yenidən nəzərdən keçirdik. Bu gün biz əlaqə-

lərimizin müxtəlif istiqamətlərində əldə etdiyimiz nailiyyətləri qeyd etdik, o cümlədən Assosiativ razılaşmaya dair danışıqların ötən il başlanmasını. İnanıram ki, biz bu danışıqları sürətləndirə və güclü razılaşmanın əldə olunmasına doğru irəliləyə bilərik. Onu da deyə bilərəm ki, bu il biz viza rejiminin sadələşdirilməsi və yenidən qoşulma razılaşmaları ətrafında müzakirələrə başlaya bilərik. Bizim üçün tərəfdaş ölkələrlə əməkdaşlıq «Şərq Tərəfdaşlığı» Proqramının vacib məqsədi kimi qalmaqdadır.

Sentyabrda Varşavada keçiriləcək «Şərq Tərəfdaşlığı» sammitinə hazırlıq işləri davam etdirilir. Bu gün biz son 2 il ərzində bu tərəfdaşlığın icrasına və gələcəkdə onun gücləndirilməsinə dair fikir mübadiləsi apardıq. Bizim qonşularla keçirilən tədbirlər Avropanın daxili təhlükəsizliyinin və çiçəklənməsinin qonşu ölkələrin eyni məsələləri ilə nə qədər bağlı olduğunu göstərir. Bu səbəbdən strateji vəzifəmiz demokratiyanı gücləndirmək, həm Şərqdə, həm Cənubda inkişafı təmin etməkdir. Bu mənada mən siyasi sahədə modernləşdirilmənin, siyasi islahatların aparılmasının, qanunun aliliyinə hörmət edilməsinin əlaqələrimiz üçün nə qədər vacib olduğunu vurğuladım. İnanırıq ki, söz və sərbəst toplaşma azadlığı xüsusi əhəmiyyət kəsb edir və onlara əlaqələrimizin bu konteksti çərçivəsində baxılmalıdır. Mən bu həssas, lakin vacib məsələləri açıq və səmimi şəkildə müzakirə etdiyimiz üçün prezident İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Ümumi dəyərlərə dair bölüşdüyümüz öhdəliklər – demokratiya, qanunun aliliyi, insan haqları əlaqələrimizin əsas hissəsini təşkil edir və bu, nailiyyət üçün vacibdir.

Xanımlar və cənablar, enerji məsələsi danışıqlarımızın digər əsas bir mövzusu idi. Bildiyiniz kimi, bu ilin yanvarında mən prezident Əliyev ilə birgə Cənub qaz dəhlizinin yaradılmasına dair Birgə Bəyannamə imzaladıq. Bu, enerji təchizatı və tələbatımızın təhlükəsizliyi və şaxələndirilməsi üçün çox vacibdir. Bu dəhliz strateji məqsədimizdir, Azərbaycan üçün strateji məsələdir. Çünki bu, dünyanın ən iri və etibarlı Avropa bazarına ölkənin birbaşa çıxışını təmin

edəcəkdir. Bu, Avropa İttifaqı üçün də strateji məsələdir. Çünki bununla biz Xəzər hövzəsindən alternativ təchizat marşrutu əldə etməyə imkan yaradacağıq.

Nəhayət, biz qonşu regiondakı və Cənubi Qafqazdakı vəziyyəti də müzakirə etdik. Mən vurğuladım ki, Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını dəstəkləyir. «Əsas prinsiplər» adlandırılan razılaşmanın yekunlaşdırılması üçün əlavə səylərin göstərilməsinin vaxtıdır. Münaqişənin həlli istiqamətində danışıqlar iki gündən sonra davam etdiriləcəkdir. Ümid edirəm ki, hər iki tərəf irəliyə doğru gedə biləcəkdir. Öncə qeyd etdiyim kimi, status-kvo bir variant deyildir.

Cənab Prezident, Brüsselə gəldiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Avropa İttifaqı ilə Azərbaycanın daha da yaxınlaşması üçün əməkdaşlığımızı davam etdirəcəyimizə ümid edirəm. Düşünürəm ki, ötən ay Azərbaycanın «Eurovision» mahnı müsabiqəsindəki parlaq qələbəsi bu istiqamətdə ilk addım oldu. Əksər avropalıların bu Avropa müsabiqəsində Azərbaycana səs verməsi faktı Avropanın Azərbaycana dair nə qədər səmimi olduğunu nümayiş etdirdi. Bilirəm ki, bir ildən sonra bu mötəbər beynəlxalq tədbir ölkənizdə keçiriləcəkdir. Əminəm ki, Siz bu fürsətdən istifadə edərək ölkənizin modernləşməyə və Avropanın ümumi dəyərlərinə nə qədər sadiq olduğunu nümayiş etdirəcəksiniz.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Təşəkkür edirəm, cənab Sədr!

Xanımlar və cənablar!

İlk növbədə cənab Sədrə məni Brüsselə dəvət etdiyinə və fəal dialoqumuzu davam etdirmək imkanına görə minnətdarlığımı bildirirəm. Bizim görüşlərimiz Avropa təsisatları ilə Azərbaycanın əlaqələrinin gələcək inkişafı üçün çox vacibdir. Təbriklərinizə görə minnətdarlığımı bildirirəm və burada, Avropanın mərkəzində dünyanın ən mötəbər musiqi

yarışmasında avropalıların gənc müğənnilərimizə qələbəni bəxş etdiklərinə görə azərbaycanlıların onlara nə qədər minnətdar olduqlarını bildirmək istəyirəm. Bu, Azərbaycanda sevincli və qürurlu bir gün idi. Bəlkə də ən önəmlisi o idi ki, bu, avropalıların, Avropa cəmiyyətinin, Avropanın müxtəlif hissələrindən olan insanların ölkəmizə, mədəniyyətimizə münasibəti idi. Hesab edirəm ki, bizim üçün bu vacib qələbə bir-birimizə nə qədər yaxın olduğumuzu bir daha nümayiş etdirdi.

Bu gün Brüsseldə ikitərəfli gündəliyimizin mühüm məsələlərini müzakirə edərkən biz nə qədər yaxın olduğumuzu bir daha görürük. Üzərində birgə işlədiyimiz sənədlər imzalandıqdan sonra Avropa təsisatları ilə Azərbaycan arasında əlaqələrin daha da yaxınlaşmasına gətirib çıxaracaqdır. Əlaqələrimizin çox geniş gündəliyi vardır. Təbii ki, siyasi dialoq, modernləşdirmə siyasəti və Azərbaycanda demokratik islahatlar daim danışıqlarımızın bir hissəsidir. Biz Azərbaycanda demokratikləşdirmə prosesinin davam etdirilməsinə, qanunun aliliyinin və bütün demokratik azadlıqların təmin edilməsinə sadiqik. Azərbaycan müstəqillik dövründə çox böyük səylər göstərmiş və ölkədə demokratikləşdirmə prosesində uğurlara imza atmışdır. Avropanın ən inkişaf etmiş ölkələrinin ən gözəl təcrübəsi, təbii ki, bizə iqtisadi islahatlara söykənən siyasi islahatları davam etdirmək üçün yeni imkanlar açır. Son illər Azərbaycanın iqtisadi göstəriciləri çox böyük təsir bağışlayır. Biz artıq iqtisadiyyatımızı şaxələndirməyə və sahibkarlığa dəstək verməyə nail ola bilmişik. Bu gün ümumi daxili məhsulun 80 faizdən çoxu özəl sektorun payına düşür. Bu onu göstərir ki, iqtisadi sahədə aparılan liberal islahatlar bu nəticəyə gətirib çıxarır. Təbii ki, siyasi islahatlar olmadan iqtisadi sahə qaneedici ola bilməz. Biz bu islahatlar prosesini irəliyə doğru aparırıq. Əminəm ki, Avropa təsisatları ilə sıx əlaqələr bizə bu istiqamətlərdə daha çox uğur qazanmağa kömək edəcəkdir.

Bu gün biz cənab Sədrin qeyd etdiyi kimi, regional təhlükəsizlik məsələlərini də müzakirə etdik. Bizim üçün ən

önəmlisi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ərazilərimizin işğalına son qoymaq istəyirik. Cənab Barrozunun bu gün səsləndirdiyi bəyanatlar bizi daha da ürəkləndirir və bu yaxınlarda ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin – ABŞ, Rusiya və Fransa rəhbərlərinin bəyanatları status-kvonun qəbuledilməz olduğunu göstərir. Status-kvo dəyişilməlidir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü bərpa olunmalıdır. Əsas prinsiplərin qəbul edilməsi və danışıqlar prosesi zamanı səmimi münasibətin göstərilməsi münaqişənin tezliklə həll olunmasına gətirib çıxaracaqdır. 20 ildir ki, torpaqlarımız işğal altındadır. Biz istəyirik ki, insanlarımız öz doğma torpaqlarına qayıda bilsinlər.

Enerji təhlükəsizliyi daim əlaqələrimizin gündəliyində duran məsələdir. Cənab Barrozunun bu ilin yanvarında Bakı səfərindən sonra biz bu istiqamətdə daha sürətlə irəliyə doğru gedirik. Səfərdən əvvəl də bizim yaxşı ünsiyyətimiz olub. Lakin səfər və Cənub qaz dəhlizi ilə bağlı imzalanan Birgə Bəyannamə bu məsələdə böyük bir təməl daşı idi.

Cənab Barrozunun Bakıya səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında birgə işçi qrupu yaradılmışdır. Bu qrup səmərəli fəaliyyət göstərir və mühüm məsələləri müzakirə edir. Biz Cənub qaz dəhlizini dəstəkləyirik və ümid edirəm ki, ilin sonunadək bütün tranzit ölkələr və potensial istehlakçılarla danışıqlar yekunlaşacaq ki, bu nəhəng qaz layihəsinin icrasına start verilsin. Bu layihə Avropa istehlakçıları üçün alternativ və etibarlı bir təchizat marşrutu olacaqdır. Bizim külli miqdarda qaz ehtiyatlarımız vardır. Bu bizə və istehlakçılarımıza 100 ildən artıq bir müddətə kifayətdir. Bu gün biz bu istiqamətdə vacib qərarların verilməsi ərəfəsindəyik.

Mən bir daha Sizə, cənab Sədr, göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək Sizi bir daha gələcəkdə ölkəmizə dəvət etmək istəyirəm. Avropalılara ən xoş arzularımı çatdırıram. Çıxışımın

əvvəlində toxunduğum məsələyə qayıtmaq istərdim. «Eurovision» mahnı müsabiqəsindəki dəstəyə görə bütün avropalılara təşəkkürümü bildirirəm.

* * *

*Sonra jurnalistlərin sualları cavablandırıldı.*

**N ə s i b  M u x t a r o v (*Azərbaycan Televiziyası*): Sualım prezident Əliyevə və cənab Barrozuyadır. Bugünkü görüş zamanı viza rejiminin sadələşdirilməsi məsələlərini müzakirə etmisinizmi?**

**İ l h a m  Ə l i y e v:** Bəli, müzakirə olundu və cənab Sədr bu haqda artıq dedi. Ümid edirik ki, bu məsələ ilə bağlı aparılan danışıqlar bir sıra kateqoriyalardan olan Azərbaycan vətəndaşlarının Avropa ölkələrinə daha asan çıxış əldə etməsinə gətirib çıxaracaqdır. Yeri gəlmişkən, Avropa İttifaqına üzv ölkələrlə çox fəal ikitərəfli əlaqələrimiz vardır və təbii ki, Azərbaycan vətəndaşlarının Avropa ölkələrinə asanlıqla səyahət etmək imkanı da Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin yaxınlaşmasına səbəb olacaqdır.

**X o s e  M a n u e l  B a r r o z u**: Cənab Prezident dediyi kimi, bu məsələ müzakirə olundu və hazırda komissiya razılaşma üçün danışıqların əsaslanması üzərində çalışır. Həmin razılaşmanın sentyabrın əvvəllərində qəbul edilməsi gözlənilir. İnanıram ki, bu qərar Avropa İttifaqı ilə Azərbaycanı indikindən də daha yaxın edəcəkdir.

**R i ç a r d  Y o z y e k (*Avropa radiosu*): Sualım prezident Əliyevədir. Cənab Prezident, Ermənistandan olan həmkarınız bu gün Avropa Şurasına müraciət edərək bəyan etmişdir ki, Azərbaycanda ermənifobiyanın artması və Azərbaycanın Madrid prinsiplərinə müəmmalı yanaşması iki gün sonra Kazanda keçiriləcək görüşdə problem yarada bilər. Bu məsələ ilə bağlı mövqenizi bilmək maraqlı olardı.**

**İ l h a m  Ə l i y e v:** Mən bu barədə eşitməmişdim. Bunu sizdən eşidirəm. Əgər belə deyilibsə, çox təəssüf. Xocalı şə-

hərində dinc azərbaycanlılara qarşı hərbi əməliyyatlarda şəxsən iştirak edən bir şəxs Azərbaycanda ermənifobiyadan danışırsa, bu çox gülməlidir. Azərbaycanlılar təcavüzün qurbanlarıdır. Torpaqlarımız işğal altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini yürüdür, 700 min azərbaycanlı Dağlıq Qarabağın inzibati sərhədlərindən kənar torpaqlardan didərgin salınıb. Təbii ki, bu insanlar öz torpaqlarına qayıtmaq istəyir və bu onların fundamental hüququdur. Azərbaycanın ərazi bütövlüyü heç bir ölkə tərəfindən sual altına qoyulmur. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Təbii ki, Ermənistanın və Azərbaycanın münaqişəyə münasibəti fərqlidir. Çünki ərazisinin 20 faizi işğal altında olan Azərbaycan Ermənistanın heç bir santimetr belə, ərazisini zəbt etməyib. Biz bu təcavüzün qurbanıyıq. Biz həm cənab Barrozudan, həm həmsədr ölkələrin rəhbərlərindən «status-kvo dəyişdirilməlidir» – bəyanatlarını eşidəndə ruhlanırıq. Status-kvonun dəyişdirilməsi vəziyyətin dəyişməsi, işğala son qoyulması deməkdir.

Madrid prinsiplərinə gəldikdə isə 2 il əvvəl Azərbaycan bəyan etdi ki, Madrid prinsiplərini danışıqların əsası kimi qəbul edir. Bu prinsiplər bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını, digər tərəfdən də Dağlıq Qarabağda yaşayan insanlara ən yüksək səviyyədə özünüidarəetmə statusunun verilməsini nəzərdə tutur. Əgər qəbul olunarsa bu, sülhə aparan yol ola bilər. Biz regionumuzda sülh istəyirik. İnsanlarımızın fundamental hüquqlarından istifadə edərək doğma yurdlarına qayıda bilməsini istəyirik. Yalnız bundan sonra Cənubi Qafqazda vəziyyət dəyişəcək, tamamilə müsbət, dinamik vəziyyət yaranacaq.

## AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ GÖRÜŞ

*Brüssel*

*22 iyun 2011-ci il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə Avropa parlamentinin sədri Yeji Buzek ilə görüşmüşdür.*

*Avropa parlamentinin sədri Yeji Buzek dövlətimizin başçısı İlham Əliyevi səmimiyyətlə qarşıladı.*

*Prezident İlham Əliyev və Yeji Buzek Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqları önündə xatirə şəkli çəkdirdilər.*

*Dövlətimizin başçısı Avropa parlamentinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycan ilə Avropa İttifaqı arasında parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi, «Şərq Tərəfdaşlığı» Proqramı, Avronest Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu.*

*Görüşdə, həmçinin Assosiativ saziş, Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*22 iyun 2011-ci il*

*İyunun 22-də Brüsseldə Azərbaycan prezidenti İlham Əliyevin və Avropa parlamentinin sədri Yeji Buzekin birgə mətbuat konfransı olmuşdur.*

*Avropa parlamentinin sədri Yeji Buzek və Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə mətbuat üçün bəyanatlarla çıxış etdilər.*

### Avropa parlamentinin sədri Yeji Buzekin bəyanatı

Prezident İlham Əliyevi ölkə prezidenti olaraq. Avropa parlamentinə ilk dəfə gəlişi münasibətilə ürəkdən salamlayıram. Bu bizim Bakı görüşümüzün davamıdır. Hesab edirəm ki, həmin görüş qarşılıqlı anlaşma nöqteyi-nəzərindən çox maraqlı və səmərəli olmuşdur. Bu çox əhəmiyyətlidir. Birincisi, ona görə ki, Brüsseldən Bakıyadək 3 min kilometr məsafə vardır. Bu çox böyük məsafədir. Lakin düşünürəm ki, bizim eyni dəyərlərimiz vardır. Biz eyni düşünürük. Bizim həqiqətən də bəzi problemlərimiz vardır.

Bizim Assosiativ razılaşmalara, azad ticarət müqavilələrinə ehtiyacımız vardır. Bizim viza rejiminin sadələşdirilməsinə ehtiyacımız vardır. Əlbəttə ki, biz parlamentlərimiz arasında əlaqələri inkişaf etdirməliyik. Həmkarım bizimlə buradadır. O, Cənubi Qafqaz üzrə nümayəndə heyətinin rəhbəridir. Bilirsiniz ki,

«Şərq Tərəfdaşlığı» Proqramı çox əhəmiyyətlidir və düşünürük ki, gələcəkdə də çox əhəmiyyətli olacaqdır.

Azərbaycan prezidentinin məhbusları azad etməsini alqışlayıram. Bu bizim Azərbaycana səfərimizdən bir neçə gün sonra baş vermişdi və onların sayı çox idi. Mən Prezidentə izah etdim ki, demokratiyanı və media hüquqlarını nəzərə alaraq biz çox vaxt Avropa İttifaqının xaricindəki və hətta bəzi hallarda daxilindəki ölkələri tənqid edirik. Biz necə ki, Avropa daxilində, eynilə də onun xaricində sərtik. Bizim əlaqələrimiz baxımından bu çox böyük inkişafdır.

Enerji sahəsində əməkdaşlığımız, xüsusilə də qaz layihələri, eynilə də Bakı–Tbilisi–Ceyhan neft boru kəməri regionda vəziyyəti tamamilə dəyişdi.

Sonda onu da demək istəyirəm ki, Avropa İttifaqı və Avropa parlamenti dünyanın bu regionunda dondurulmuş Dağlıq Qarabağ probleminin həllinə böyük önəm verir. Biz ATƏT-in Minsk qrupunun fəaliyyətinə, Rusiya, Fransa və ABŞ-ın fəaliyyətinə çox ciddi yanaşırıq. Başqa çox vacib bir məqam Madrid prinsipləridir. Mən bütün bu məqamları bir daha cənab Prezidentin diqqətinə çatdırdım. Biz bu məsələdə dəstək verməyə, kömək etməyə hazırıq.

Cənab Prezident, Sizə bir daha minnətdarlığımı bildirirəm. Biz gözlənildiyindən artıq müzakirələr apardıq və jurnalistlər bizi gözləməli oldular. Buna görə onlardan üzr istəyirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Təşəkkür edirəm, cənab Sədr!

Sizi bir daha görməkdən şadam. Avropa İttifaqına gəlmək üçün göndərdiyiniz dəvətə və bu müstəvidə danışıqlarımızı davam etdirmək imkanına görə minnətdaram.

Biz bu yaxınlarda Sizin Azərbaycana səfəriniz zamanı görüşdük. Bizim çox maraqlı və səmərəli danışıqlarımız oldu. Bu həmçinin Sizin üçün ölkəmizi daha yaxından tanımağa imkan verdi. Bu gün biz bu dialoqu – tərəfdaşların,

dostların dialoqunu davam etdiririk. Əminəm ki, mənim Avropa parlamentinə, Avropa İttifaqına və Avropa Komissiyasına səfərim gələcək əlaqələrimizin inkişafında çox mühüm rol oynayacaqdır. Biz bir məsələdə birləşmişik və bu bir-birimizə yaxınlaşmaq və Avropa təsisatları ilə Azərbaycan arasında mümkün qədər çox sahələri əhatə edəcək uzunmüddətli strateji tərəfdaşlıq qurmaqdır.

Bugünkü danışıqlarımız zamanı daha çox diqqət Azərbaycanda siyasi islahatların davam etdirilməsinə, demokratik sistemin gücləndirilməsinə və Azərbaycanın siyasi sisteminin Avropa İttifaqı ölkələrinin siyasi sisteminə yaxınlaşdırılmasına yönəldi. Həmçinin Azərbaycanda iqtisadi islahatlar yalnız o zaman uğurlu ola bilər ki, bu islahatlar siyasi islahatlarla birgə aparılsın. Bizim çox liberal iqtisadi qanunvericiliyimiz vardır. Bu bizə xarici sərmayədarları cəlb etməyə kömək edir. İnvestorlar, adətən, siyasi vəziyyəti proqnozlaşdırıla bilən və sərmayələrin qorunduğu ölkələrə sərmayə yatırırlar.

Biz bu gün, həmçinin regional təhlükəsizlik məsələlərini də müzakirə etdik. Cənab Sədrin qeyd etdiyi kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təkcə Azərbaycan üçün deyil, həm də regional inkişaf və təhlükəsizlik üçün çox vacibdir. Çünki bu, regional sabitlik və təhlükəsizlik üçün ən böyük təhlükədir. Biz ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin rəhbərlərinin və bu gün cənab Barrozunun bəyanatlarından ruhlanırıq ki, status-kvo qəbuledilməzdir.

Bu gün biz eyni fikri cənab Buzek ilə də bölüşdük. Bu çox vacib bəyanatlardır. Çünki biz bu münasibətləri illərdir ki, gözləyirdik. Bildiyiniz kimi, bizim torpaqlarımız artıq 20 ilə yaxındır ki, işğal altındadır və yüz minlərlə azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün kimi yaşayır. Status-kvonun dəyişdirilməsi Azərbaycan torpaqlarının azad olunmasına, Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin əldə edilməsinə, bütün kommunikasiyaların açılma-

sına, qaçqın və köçkünlərin öz doğma yurdlarına qayıtmasına gətirib çıxaracaqdır. Bu isə öz növbəsində Cənubi Qafqaz regionunda tamamilə yeni bir vəziyyət yaradacaqdır. Ondan sonra isə üç Cənubi Qafqaz ölkəsi siyasi islahatları birgə aparmağa və Avropa təsisatları ilə daha sıx əlaqələr qurmağa başlaya bilər.

Avronestin yaradılması yaxın tarixin ən mühüm hadisələrindəndir. Bu isə Avropa ilə Qafqaz ölkələri arasındakı əlaqələrə uyğundur. «Şərq Tərəfdaşlığı», Avronest, Assosiativ razılaşmaya dair danışıqlar – bütün bunlar əməkdaşlığımızın mühüm elementlərindəndir və bizə Avropaya daha yaxın olmağa imkan verəcəkdir.

Bu gün həmçinin enerji təhlükəsizliyi məsələlərini də müzakirə etdik və bir qədər əvvəl sədr Buzek düzgün qeyd etdi ki, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisi regiondakı vəziyyəti tamamilə dəyişdi, yeni dəhliz açdı. Artıq bu gün bu dəhliz vasitəsilə Azərbaycandan dünya bazarlarına yanacaq ixracatı həyata keçirilir və Avropa ilə Azərbaycan arasında enerji əməkdaşlığının davam etdirilməsinə yaxşı bir şərait yaradır. Bu ilin yanvarında Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri zamanı biz Cənub qaz dəhlizi ilə bağlı bəyannamə imzaladıq. Bu isə bəyannamədən də artıqdır. Bu bəyannamədə çox mühüm məqamlar vardır. Biz birgə işçi qrupu yaratdıq. Bu qrup artıq fəaliyyətdədir və yaxşı nəticələr verməkdədir.

Azərbaycan böyük enerji ehtiyatlarına malik olan bir ölkə kimi, potensialını reallaşdırmaq istəyir ki, özünün enerji resurslarını dünya bazarlarına nəql edə bilsin. Avropanın isə şaxələndirməyə, yeni təchizat marşrutlarının yaranmasına ehtiyacı vardır. Bu məsələdə bizim maraqlarımız üst-üstə düşür. Bu səbəbdən əməkdaşlığımız, onun gündəliyi çox genişdir. Bu gün Avropa parlamentini ziyarətim bu münasibətlərin hər iki tərəf üçün nə qədər vacib olduğunu göstərir.

Cənab Sədr, qonaqpərvərliyə, dəvətə və bugünkü danışıqlarımıza görə bir daha minnətdaram.

* * *

*Sonra jurnalistin sualı cavablandırıldı.*

**Ş a i q   M ə m m ə d o v (*Azərbaycan Televiziyası*): Sualım Avropa parlamentinin sədrinədir. Cənab Sədr, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması bir milyondan çox insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə gətirib çıxarıb. Burada insan hüquqlarının kobud şəkildə pozulması faktı mövcuddur. Məsələ ilə bağlı Avropa parlamentinin müvafiq qərar qəbul etməsinin vaxtı çatmayıbmı?**

**Y e j i   B u z e k**: Bu sual bizim bu məsələnin həllində yaxın gələcəkdə iştirakımız və yardım göstərməyimizlə bağlıdır. Çünki burada iki mühüm bəyanatın olması zəruridir. Bütün əsas tələblər yerinə yetirilməlidir. Bu məsələdə Azərbaycanın ərazi bütövlüyü çox mühüm əhəmiyyət kəsb edir və Avropa parlamenti belə bir yanaşmanı tam dəstəkləyir. Bu, istənilən danışığın yaxşı bir başlanğıcıdır. Bildiyiniz kimi, bu yaxınlarda ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiya tərəfindən təşkil edilən Azərbaycan və Ermənistan arasında Kazan görüşünün keçirilməsi nəzərdə tutulur. Bu çox yaxşı bir işarədir. Avronestdə isə hər iki ölkənin parlamentinin 10 nəfərdən ibarət nümayəndə heyəti bir araya gələrək bütün bu problemləri müzakirə edə bilər. Avronest Assambleyasının iki üzvünün namizədliyi həmin işçi komitənin həmsədr vəzifələrinə irəli sürülüb. Avronestdə gündəlik iş fəaliyyəti nəticə verir. Münaqişənin həlli üçün biz Azərbaycanı və Ermənistanı yaxınlaşmağa çağırırıq. Danışıqların parlamentlər səviyyəsində aparılması da çox vacibdir və bunu Avronest daxilində etmək asan ola bilər. Ermənistan və Azərbaycan parlament rəhbərlərinin qərarı nəticəsində biz bunu Avronestdə mayın əvvəlində başlaya bildik.

## AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY İLƏ GÖRÜŞ

*Brüssel*

*22 iyun 2011-ci il*

*İyunun 22-də Brüsseldə Azərbaycan prezidenti İlham Əliyevin və Avropa İttifaqının prezidenti Herman Van Rompeyin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, «Şərq Tərəfdaşlığı» Proqramı, energetika sahəsində əməkdaşlıq, Azərbaycan–Avropa İttifaqı münasibətlərinin genişləndirilməsi perspektivləri və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*Brüssel*

*22 iyun 2011-ci il*

*İyunun 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqının prezidenti Herman Van Rompey görüşdən sonra mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Avropa İttifaqının prezidenti Herman Van Rompeyin bəyanatı

Cənab Prezident, Brüsselə xoş gəlmisiniz!

Əvvəlcə Sizi «Eurovision» mahnı müsabiqəsindəki qələbəniz münasibətilə təbrik etmək istəyirəm. Avropanın bütün dairələri gələn il Bakıya toplaşacaq və Azərbaycanı diqqət mərkəzinə çevirəcəkdir. Səfərinizin qısa olmasına baxmayaraq, əhəmiyyətli və zamanında olan səfərdir. Bu, Avropa İttifaqı–Azərbaycan münasibətlərinin əhəmiyyətini göstərir.

Siz həmçinin əmin olmalısınız ki, ölkəniz ilə əlaqələrin güclənməsinə sadiqik. Buna görə də biz Assosiativ saziş ilə bağlı danışıqların inkişafından razıyıq. Bizim Azərbaycan və Şərq tərəfdaşlarımız ilə münasibətlərimizə sadiqliyimiz sentyabrda Varşavada keçiriləcək «Şərq Tərəfdaşlığı» sammitinə hazırlığımızda və gözləntilərimizdə də öz əksini tapmışdır.

Bu gün də müzakirə etdiyimiz kimi, Varşava sammiti həm Avropa İttifaqı, həm də onun tərəfdaşlarının məqsədlərinə sadiqliklərini yeniləmək üçün bir imkan olacaqdır. Buraya

«Şərq Tərəfdaşlığı»nı möhkəmləndirən dəyər və prinsiplərə birgə sadiqlik, xüsusilə demokratik prinsiplər və təcrübələr, insan hüquqlarına hörmət, yaxşı idarəçilik və qanunun aliliyi aiddir. Həmçinin ümidvaram ki, bu sammit siyasi əməkdaşlığın və dialoqun inkişafı yollarının, regional təhlükəsizliyin gücləndirilməsi və münaqişələrin həlli yollarının araşdırılması, ümumi maraq doğuran müəyyən qlobal və regional məsələlərin müzakirəsi üçün yaxşı imkan olacaqdır. Bu baxımdan və Sizin Rusiya prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə bu həftə Dağlıq Qarabağ münaqişəsinə dair keçiriləcək yüksək səviyyəli görüşdə iştirak etmək üçün Kazan şəhərinə səfəriniz işığında, mən Avropa İttifaqının öz qonşuluğunda uzun müddət davam edən bu münaqişənin sülh yolu ilə nizamlanmasına güclü dəstəyini vurğulamışam. Əsas Prinsiplərə əsaslanan sənədi tamamlamaq üçün əlavə cəhdlər göstərməyin vaxtı çatmışdır. Nəhayət, Avropa İttifaqı–Azərbaycan əlaqələrinin digər əsas elementi enerji sahəsidir. Şadam ki, prezident İlham Əliyev Azərbaycanın sadiq tərəfdaş olduğunu bu gün təsdiqlədi. Əminəm ki, Azərbaycan Avropa bazarlarını gələcəkdə də enerji ilə təmin etməyə davam edəcəkdir.

Cənab Prezident, bir daha Brüsselə gəldiyiniz üçün çox minnətdaram. Avropalı həmkarlarım ilə birlikdə Sizinlə Varşavada «Şərq Tərəfdaşlığı» sammitində görüşümüzü səbirsizliklə gözləyirəm.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Əvvəlcə dəvətinizə görə Sizə təşəkkür etmək istəyirəm.

Münasibətlərimizin gələcək inkişafı baxımından Brüsselə səfərim böyük əhəmiyyət kəsb edir. Bundan başqa, müğənnilərimizin «Eurovision» mahnı müsabiqəsindəki qələbəsi ilə bağlı təbriklərinizə görə minnətdaram. Bu, böyük qələbə idi. Bu, Avropa və avropalılardan dəstəyin əlaməti idi. Mən azərbaycanlı müğənnilərə səs verən, bu mükafatı onlara layiq görən Avropadakı bütün dostlarımıza təşəkkür edirəm. Mən

əminəm ki, çoxsaylı avropalı dostlarımızın iştirakı ilə gələn il Bakıda keçiriləcək müsabiqə bizə, həmçinin ölkəmizi, tariximizi və mədəniyyətimizi nümayiş etdirməyə yaxşı imkan verəcəkdir. Avropa İttifaqı və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Bu əlaqələrimizin uzun tarixi vardır və bu gün bu münasibətlər yeni bir mərhələyə daxil olur.

Cənab Prezidentin də qeyd etdiyi kimi, «Şərq Tərəfdaşlığı» Proqramı fəal dialoq üçün yeni imkanlar yaradır. Biz Assosiativ saziş üzərində işləyirik. Ümid edirik ki, bu saziş bir çox sahələri əhatə edən və bizi Avropaya daha da yaxınlaşdıran uzunmüddətli əməkdaşlıq üçün çərçivə yaratmağa imkan verəcəkdir. Azərbaycanda siyasi, iqtisadi islahatlar davam edir. Bu islahatların aparılmasında nə qədər çox uğur əldə etsək, biz bir o qədər də Avropaya yaxın olarıq. Bu gün mənim Brüsseldə keçirdiyim görüşlərdə bütün sahələrdə daha da güclü əlaqələr qurmaq üçün qarşılıqlı maraqları bir daha açıq-aydın görə bilərik.

Cənab Prezident, Siz münaqişənin həllinə toxundunuz. Biz avropalı dostlarımıza Minsk prosesini dəstəklədiklərinə görə çox minnətdarıq. ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin münaqişənin həlli prinsipləri ilə bağlı bu yaxınlarda verdikləri bəyanat həvəsləndiricidir. Xüsusilə, Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin «status-kvo qəbuledilməzdir, dəyişilməlidir və münaqişə özündə ərazi bütövlüyü və xalqların öz müqəddəratını ehtiva edən Helsinki Yekun Aktı sənədləri əsasında həll edilməlidir» bəyanatı bizi olduqca həvəsləndirdi. Bu iki prinsip ziddiyyət təşkil etmir. Bizə elə bir saziş lazımdır ki, burada Azərbaycanın ərazi bütövlüyü qorunsun və regionun bütün sakinləri azad və sülh şəraitində yaşasınlar. Düşünürəm ki, Minsk qrupunun təklifi belə bir çərçivəni yaradır. Biz erməni həmkarlarımızdan danışıqlara konstruktiv yanaşma gözləyirik. Ərazilərimizin işğaldan azad olunmasından sonra yüz minlərlə azərbaycanlının öz yurd-yuvalarına qayıtmaları üçün biz münaqişənin tez bir zamanda həllini istəyirik.

Avropa ilə Azərbaycan arasında enerji əməkdaşlığının artıq yaxşı tarixi vardır. Bir neçə il əvvəl bizə Xəzərin neft ehtiyatlarını beynəlxalq və Avropa bazarlarına çıxarmağa imkan verən Bakıdan Aralıq dənizi sahillərinə böyük neft boru kəməri inşa edildi. Bizim artıq əməkdaşlıqda yaxşı təcrübəmiz vardır. Bu gün Avropa bizim enerji resurslarımızın əsas istehlakçısıdır. Avropa bizim ən böyük ticarət tərəfdaşımızdır. Əminəm ki, bu dəhlizdən qaz resurslarının nəqli üçün istifadə bizə avropalı istehlakçıların etibarlı təbii qaz təminatçısı olmağa imkan verəcəkdir. Yanvarda xüsusi işçi qrupu yaradılıb. Cənab Barrozunun bu ilin yanvarında Bakıya səfəri zamanı Cənub qaz dəhlizi ilə bağlı bəyannamə imzalanıb. İndi gələcək əməkdaşlıq üçün bizim çərçivəmiz vardır. Ümid edirik ki, bu ilin sonunadək biz bununla bağlı bütün lazımi işləri yekunlaşdıracağıq. Bu bizə qaz potensialımızdan vətəndaşlarımızın rifahı naminə istifadə etmək, Avropaya isə gələcəkdə alternativ, etibarlı və böyük qaz resursları əldə etmək imkanı verəcəkdir. Bizim maraqlarımız təkcə enerji məsələsində deyil, həm də bu gün toxunduğumuz məsələlərdə üst-üstə düşür. Əminəm ki, Avropa İttifaqı və Azərbaycan arasında dostluq, tərəfdaşlıq münasibətləri gələcəkdə də uğurla davam edəcəkdir.

Bir daha, cənab Prezident, dəvətinizə görə təşəkkür edirəm.

## AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLEN İLƏ GÖRÜŞ

*Brüssel*

*22 iyun 2011-ci il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə Avropa İttifaqının genişləndirilməsi və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, o cümlədən «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində həyata keçirilən layihələr və atılan addımlar ətrafında fikir mübadiləsi aparıldı.*

*Əməkdaşlığın genişləndirilməsinin yeni imkanlarının nəzərdən keçirildiyi görüşdə, həmçinin Assosiativ saziş üzrə aparılan danışıqların hazırkı vəziyyəti, viza rejiminin sadələşdirilməsi və digər məsələlər müzakirə olundu.*

## «EURONEWS» TELEKANALINA MÜSAHİBƏ

*Brüssel*

*22 iyun 2011-ci il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Brüsseldə «Euronews» telekanalına müsahibə vermişdir.*

**S u a l: Azərbaycan prezidenti İlham Əliyev, «Euronews»a xoş gəlmisiniz! Ayın 24-də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mühüm bir görüş keçiriləcəkdir. Bu məsələdə Rusiyanın vasitəçiliyi ilə bağlı nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz prezident Medvedevin müsbət inkişafa aparan səylərini dəstəkləyirik. Ayın 24-də keçiriləcək görüş son 2 il ərzində keçirilən görüşlərdən biri olacaqdır. Prezident Medvedevin iştirakı tərəflərə razılığa nail olmaqda kömək edir. Buna görə də biz daha çox nikbin əhval-ruhiyyədəyik. Düşünürük ki, Ermənistan tərəfi irəliyə addım atmaq üçün konstruktiv yanaşma və siyasi iradə nümayiş etdirərsə, münaqişə çox tez bir zamanda həll edilər.

**S u a l: Ermənistan tərəfi, Sizin dediyiniz kimi, konstruktiv görünmək üçün nə etməlidir?**

**İ l h a m Ə l i y e v:** İlk növbədə BMT Təhlükəsizlik Şurasının bir neçə il əvvəl qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirməlidir. Artıq heç kimə sirr deyil ki, torpaqlarımız 20 ilə yaxındır ki, işğal altındadır. Nəinki Dağlıq Qarabağ, hətta onun ətrafında yerləşən və ermənilərin heç vaxt yaşamadıqları digər 7 rayon da işğal altındadır. Biz etnik təmizləmə siyasətinə və işğala məruz qalmışıq. Bu səbəbdən məsələyə beynəlxalq

hüquq normaları baxımından yanaşmaq çox vacibdir. Danışıqlar prosesinə gəldikdə isə vasitəçilər tərəfindən hər iki tərəfə təklif olunan baza prinsipləri beynəlxalq hüquq normalarına tam cavab verir. Bunlar ölkələrin ərazi bütövlüyü və xalqların özünüidarəetmə hüququ prinsipləridir. Bu prinsiplər bir-birinə zidd deyildir. Onların hər ikisi vacibdir və sülh sazişində əks oluna bilər.

**S u a l: Erməni qüvvələrinin Dağlıq Qarabağdan çıxarıldığı təqdirdə Azərbaycan tərəfi nə təklif edə bilər? Azərbaycan nəsə təklif edirmi?**

**İ l h a m Ə l i y e v:** Əslində elə bir şey yoxdur ki, bizə məxsus olmasın və biz onu qaytarmalı olaq. Dağlıq Qarabağ Azərbaycanın tarixi və beynəlxalq səviyyədə tanınan ərazisidir.

**S u a l: Bəli, amma Ermənistan qoşunlarını yalnız müəyyən şərtlər müqabilində çıxarmağa razı ola bilər. Məsələn, mənim güman etdiyim kimi, müqəddəratını təyin etmək, yaxud geniş muxtariyyət veriləcəyi təqdirdə.**

**İ l h a m Ə l i y e v:** Uzun illərdir ki, bizim mövqemiz tamamilə aydındır. Şəxsən mən dəfələrlə açıq şəkildə bəyan etmişəm ki, biz Dağlıq Qarabağda yaşayan insanlara və Dağlıq Qarabağa qayıdanlara dünyada mümkün olan ən geniş muxtariyyəti təmin etməyə hazırıq.

**S u a l: Bu muxtariyyət sizcə necə olmalıdır?**

**İ l h a m Ə l i y e v:** Bu bizim növbəti danışıqlarımızın mövzusu olacaq və hesab edirəm ki, bu, geniş muxtariyyət ola bilər. Düşünürəm ki, Avropada mövcud olan muxtariyyət təcrübəsi bizə kömək edəcəkdir. Belə ki, yeni nəsə düşünüb tapmaq çətin olardı. Bizim üçün isə Avropa ölkələrində yaxşı nümunələr vardır.

**S u a l: Məsələn?**

**İ l h a m Ə l i y e v:** Məsələn, İtaliya və Tirol, həmçinin digər yerlər. Həmin yerlərdə mərkəzi hakimiyyət onların xalqlarının həyat şəraitini daha da yaxşılaşdırmaq üçün muxtariyyətlərə və onların maliyyə məsələlərinə çox böyük,

bəlkə də daha artıq diqqət yetirir. Biz də bu cür edə bilərik. Azərbaycan böyük maliyyə imkanlarına malikdir və bizim üçün Dağlıq Qarabağda ciddi iqtisadi və sosial inkişaf proqramlarına başlamaq heç bir çətinlik yarada bilməz.

**S u a l: Ermənistanın Azərbaycanın ehtiyatlarına ehtiyacı varmı? Xüsusilə söhbət xammaldan gedirsə?**

**İ l h a m  Ə l i y e v:** Onların nəyə ehtiyacı olduğunu demək mənim üçün çətindir. Təbii ki, Ermənistanın iqtisadi vəziyyəti ilə bağlı sizin məlumatınız vardır. Bəlkə də bu məsələ ilə bağlı şərh vermək mənim üçün düzgün olmazdı. Təbii ki, Azərbaycan ilə dost, qonşu olmaq istənilən ölkə üçün fayda verə bilər, ermənilərin uzun illər saxlamağa çalışdığı status-kvo vəziyyəti kimi yox.

**S u a l: İndiki Ermənistan rəhbərlərinin problemə siyasi yanaşması Sizdə hansı təəssürat yaradır? Sizə elə gəlmirmi ki, onların problemə yanaşması əvvəlkindən daha açıqdır? Sizcə, onlar irəliyə doğru addım atıblarmı?**

**İ l h a m  Ə l i y e v:** Onu deyə bilərəm ki, mən 2004-cü ildən bu danışıqlar prosesində iştirak edirəm. Bu müddət ərzində danışıqlar prosesinin müsbət dinamikası, lakin sıfır nəticəsi olmuşdur. Ermənistanın keçmiş və indiki hökuməti və rəhbərliyi bu danışıqlar prosesində bir tərəf kimi çıxış edir. 2008-ci ilədək biz mühüm bir irəliləyişə nail ola bildik. 2008-ci ildən bu tərəfə isə irəliləyiş o qədər də görünmürdü, lakin bizim ümidlərimiz var idi. Bu səbəbdən düşünürəm ki, münaqişənin tezliklə həlli hər iki ölkənin marağındadır. Ümid edirəm ki, Ermənistan rəhbərliyi, nəhayət, anlayacaq ki, birincisi, status-kvo vəziyyətinin saxlanması mümkün deyil və ikincisi, bu onların heç də xeyrinə işləmir. Onların hazırda nəzarət etdikləri ərazi ölü zonadır. Orada hər şey dağıdılıb, məhv edilib, orada nə həyat var, nə də insanlar yaşayır. Onlar bundan nə əldə etdilər? Düşünürəm ki, heç nə. Əgər onlar güclü siyasi iradə və xoş niyyətlə münaqişənin həllinə doğru gəlsəydilər və münaqişə öz həllini tapsaydı, o zaman regiondakı vəziyyət daha yaxşı olardı.

**S u a l: Sizcə Dağlıq Qarabağdakı hazırkı vəziyyət sıfır səviyyəsindədir?**

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, münaqişənin həllində Azərbaycan ən çox maraqlı olan tərəfdir, çünki torpaqlarımız işğal altındadır, bizim yüz minlərlə məcburi köçkünümüz vardır. Müəyyən vaxta qədər Ermənistanda belə bir fikir hakim idi ki, onlar status-kvonu istədikləri qədər saxlaya biləcəklər və onlar buna müvəffəq olacaqlarını düşünürdülər. Amma son aylar ərzində hadisələrin inkişafı göstərdi ki, beynəlxalq birlik, ATƏT-in Minsk qrupunun həmsədrləri – ABŞ, Rusiya, Fransa, bu ölkələrin rəhbərləri birbaşa bəyanatla çıxış edərək bildirdilər ki, status-kvo məqbul deyildir. Son ayların hadisələri belədir.

**S u a l: Dediyiniz kimi, Minsk qrupu – ABŞ, Fransa və Rusiya son ay və illər ərzində prosesi sürətləndiriblər. Sizcə, onların marağı nədir?**

**İ l h a m  Ə l i y e v:** Minsk qrupu 1992-ci ildə yaranıb və 20 ilə yaxındır ki, heç bir irəliləyiş yoxdur.

**S u a l: Belə çıxır ki, 20 il ərzindəki fəaliyyəti zamanı əsl irəliləyiş son iki ilə təsadüf edir?**

**İ l h a m  Ə l i y e v:** Bu, uzun bir proses idi. Keçmişdə bəzən vədedici, bəzən isə təəssüfedici məqamlar olmuşdur. 2004-cü ildən bəri isə biz yeni bir prosesdəyik. Münaqişənin həllinin məzmunu keçmişdəkindən tamamilə fərqlidir. İndi müzakirə olunan prinsiplər son 5-6 il ərzində müzakirə olunur. Bu, birinci. Yəni bu proses idi. Bizim yaxınlaşmağımız birdənbirə baş vermədi. İkincisi və ən önəmlisi isə hesab edirəm ki, dünyada artıq aydın şəkildə başa düşürlər ki, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Atəşkəs isə çox həssas bir məsələdir. Təmas xəttində atəşkəsin davamlı olaraq pozulması, hesab edirəm ki, bizim hamımızı – Azərbaycanı, Ermənistanı, dünya ictimaiyyətini ciddi şəkildə narahat edir. Digər mühüm bir məsələ odur ki, son bir neçə il ərzində Azərbaycan və Ermənistan arasında güc balansı kəskin şəkildə dəyişmişdir. Məsələn, Azərbaycanın bugünkü büdcə xərcləri

Ermənistanın büdcə xərclərindən 10 dəfə artıqdır. Təkcə Azərbaycanın müdafiə büdcəsi Ermənistanın bütün büdcəsini üstələyir. Reallıq belədir. Zaman keçdikcə də iki ölkə arasındakı bu fərq yalnız artacaqdır. Düşünürəm ki, bu da «münaqişə həll olunmalıdır» anlayışının yaranması üçün mühüm rol oynayır. Status-kvo bundan sonrakı illər ərzində davam edə bilməz.

**S u a l: Təmas xəttində vaxtaşırı olaraq snayperlər tərəfindən atəşkəsin pozulmasını eşidirik.**

**İ l h a m Ə l i y e v:** Bu haqda biz arabir eşidirik. Lakin təmas xəttində snayperlərin olmasına ehtiyac yoxdur. Bəzən səngərlər arasındakı məsafə 40–50 metr olur. Kimisə öldürmək üçün burada snayperlərə ehtiyac qalmır. Təhlükə odur ki, bu ərazilərdə sülhməramlı qüvvələr yoxdur. Orada yalnız Ermənistan və Azərbaycan əsgərləridir. Sülhə hər iki tərəf riayət etməlidir. Bəli, bəzən atışma olur, atəşkəs pozulur, dinc insanlar arasında həlak olanlar vardır. Məsələn, mart ayında erməni əsgərləri tərəfindən 9 yaşlı azərbaycanlının öldürülməsi. Bu isə müharibə reallığıdır. Müharibə hələ başa çatmayıb. Atəşkəs o demək deyil ki, sülh vardır. Düşünürəm ki, bu məqamın ən önəmlisi odur ki, müharibənin davam etdiyini beynəlxalq ictimaiyyət, vasitəçilər dərk etsinlər. Bu müharibəyə, düşmənçiliyə son qoyulmalıdır. Status-kvo dəyişilməlidir. Azərbaycan torpaqları azad edilməlidir. İnsanlarımızın öz doğma yurdlarına qayıtmaq hüququ vardır. Bu onların haqlarıdır və onlara bunu etməyə imkan verməlidirlər.

**J u r n a l a l i s t: Təşəkkür edirəm, cənab Prezident.**

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA**

Hörmətli cənab Baş katib!

Birləşmiş Millətlər Təşkilatının Baş katibi vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə BMT arasındakı əməkdaşlığa böyük əhəmiyyət verir, başçılıq etdiyiniz təşkilatın mövcud qlobal çağırışlara qarşı mübarizəsini, dünya ictimaiyyətini narahat edən bütün məsələlərdə fəal mövqeyini hər cür dəstəkləyirik.

Ümidvaram ki, «Minilliyin inkişaf məqsədləri»nə, dünyada sülhün, təhlükəsizliyin və əmin-amanlığın bərqərar edilməsinə, insanların hüquq və azadlıqlarının təmin edilməsinə nail olmaq yolunda qarşıda duran vəzifələrin həlli istiqamətində birgə işimizi və səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli cənab Baş katib!

Bir daha Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2011-ci il*

## BRÜSSELDƏ KRANS MONTANA FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*Brüssel*

*23 iyun 2011-ci il*

*İyunun 23-də Brüsseldə Krans Montana Forumunun rəsmi açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva forumun «Azərbaycan: Şərqə doğru Avropanın qabaqcıl mayakı» sessiyasında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə ölkəmizlə bağlı təqdim edilən sərgi ilə tanış oldular.*

*Sərgidə Azərbaycanda gedən sürətli iqtisadi inkişaf prosesləri barədə ətraflı məlumat verildi. Burada ölkəmizdə enerji, turizm, mədəniyyət, infrastruktur sahələri barədə forum iştirakçılarının diqqətinə zəngin məlumat çatdırılmaqla Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf dinamikası barədə də informasiyalar yer almışdır. Bu da Azərbaycan ilə tanışlıq, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri barədə məlumat almaq üçün forum iştirakçılarına geniş imkanlar yaratdı.*

*Qeyd edək ki, bu forum 1986-cı ildə İsveçrə rəsmilərinin dəstəyi ilə yaradılan beynəlxalq təşkilatdır. Qurum beynəlxalq əməkdaşlıq və dialoqa yardımı özünün əsas məqsədi elan etmişdir. Gələn ilin iyununda Krans Montana Forumu Bakıda keçiriləcəkdir.*

*Mərasimi açan Krans Montana Forumunun təsisçisi və prezidenti Jan Pol Karteron prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı, o cümlədən digər qonaqları salamladı, tədbir iştirakçılarına Azərbaycan haqqında məlumat verdi.*

*Belçika Krallığı Baş nazirinin müavini, Maliyyə naziri Didier Reynders Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, enerji sektorunda əldə olunan uğurlar, sərmayə mühiti barədə danışdı. Bu sahədə prezident İlham Əliyevin xidmətlərini xatırlatdı və Avropa üçün Azərbaycanın Asiyaya açılan qapı olduğunu diqqətə çatdırdı. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger çıxışında diqqəti Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurlara yönəltdi. Komissar Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun Bakıya səfəri zamanı enerji sahəsində əməkdaşlığa dair imzalanan Birgə Bəyannamənin əhəmiyyətinə də toxundu.*

*Albaniyanın Baş naziri Sali Berişa da neft-qaz sektorunda əldə olunan uğurlar münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

*İSESKO-nun Baş direktoru rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında yaranan səmərəli əməkdaşlıqdan danışdı. Vurğuladı ki, Azərbaycan həm İSESKO, həm də YUNESKO və digər beynəlxalq təşkilatların dəstəyi ilə keçirilən tədbirləri təşkil etməklə özünün mədəni dəyərlərə sadiqliyini təsdiq edib. O, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın fəaliyyətini vurğuladı və onun Xoşməramlı səfir kimi, mədəniyyət, elm, təhsil və digər sahələrdə həyata keçirdiyi layihələri yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı forumda nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Xanımlar və cənablar, hörmətli dostlar!

Əvvəlcə mən dəvətə görə bu forumun sədrinə dərin təşəkkürümü bildirirəm. Bu əslində ölkəmizin müstəqilliyinin 20-ci ildönümünü qeyd etdiyi tarixə təsadüf edir. Belə bir mötəbər beynəlxalq forumda iştirak etməkdən şərəf hissi duyuram.

Bizim müstəqillik tariximiz o qədər də uzun deyildir. 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra əslində bu

məhz bizim cəsarətimiz, baxışlarımız və istəklərimizdən irəli gəlirdi ki, müstəqilliyimizi əldə edəndən sonra hədəflərimiz hansılar olacaqdır?!

Bu gün biz fərəh hissi ilə deyə bilərik ki, bütün əsas məqsədlərə nail olduq. Azərbaycan 100 faiz planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçmiş bir ölkəyə çevrildi və iqtisadiyyatımızın 80 faizindən çoxunu özəl sektor təmin edir. Ölkəmiz demokratik prinsiplər əsasında inkişaf edir, müstəqil siyasi sistemini qurur, beynəlxalq təşkilatlara üzv olur və siyasi islahatları böyük siyasi iradə ilə davam etdirir. Həyatımızın hər bir sahəsində biz tərəqqini görürük. Lakin bu o demək deyildir ki, biz indi istirahət etməliyik və məqsədlərimizdən bəhrələnməliyik. Əksinə, çalışmalıyıq ki, Azərbaycanı müasir, demokratik, çiçəklənən dövlətə çevirək.

Bizim güclü iradəmiz var ki, ölkəmizin inkişafı təmin edilsin və müasir cəmiyyət qurulsun. Siyasi islahatlar olduqca vacibdir. Artıq 10 ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür və biz bu təşkilata üzvlüyə qəbul olunandan təşkilat qarşısında götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk. İndi isə Avropa İttifaqı ilə münasibətlərimiz yeni mərhələyə qədəm qoyur. Bu da əlavə islahatlar və demokratik proseslər tələb edir. Dünən mənim Avropa təsisatlarının rəhbərləri ilə olduqca konstruktiv, məhsuldar və dostluq mühitində keçən görüşlərim oldu. Mənim Avropa Komissiyasının sədri cənab Barrozu ilə, Avropa İttifaqının prezidenti cənab Herman Van Rompeylə, Avropa parlamentinin sədri cənab Yeji Buzeklə və digər Avropa komissarları ilə görüşlərim oldu.

Bizim böyük gözləntilərimiz var ki, «Şərq Tərəfdaşlığı» Proqramı Azərbaycan ilə Avropa arasında daha sıx əlaqələrin qurulmasına imkan yaradacaq və nəticədə biz Avropa İttifaqının müsbət təcrübəsindən ölkəmizdə istifadə edəcəyik, həyatımızın meyarlarını Avropa İttifaqının meyarlarına yaxınlaşdıracağıq. Azərbaycanın Avropanın bir hissəsi olmasını, Avropa qitəsinin sərhədində yerləşməsini nəzərə alaraq ölkəmiz bu sahədə öz rolunu oynamağa hazırdır.

Biz siyasi sahə ilə yanaşı, iqtisadi sahəyə də xüsusi diqqət yetiririk. Çünki qarşımızda duran böyük məsələlər vardır. Bizə şaxələndirilmiş iqtisadiyyat lazımdır, sərmayələr qoymalıyıq və ölkədə canlanma yaratmalıyıq. Əslində müstəqilliyimizin ilk illərindən – 1993-cü ildən etibarən əsas məqsədimiz ondan ibarət idi ki, yaxşı, münbit sərmayə mühiti yaradaq və potensial sərmayədarlara nümayiş etdirək ki, Azərbaycan sərmayə üçün müvafiq yerdir.

1995-ci ildən etibarən xarici sərmayələr ölkə iqtisadiyyatına qoyulduqdan sonra bu gün, demək olar ki, 100 milyard dollara yaxın vəsait Azərbaycan iqtisadiyyatına yatırılıbdır. Bu sərmayələrin aparıcı qüvvəsi Azərbaycanın enerji sektorudur. Təbii sərvətlərimizdən istifadə edərək Azərbaycan iqtisadiyyatını şaxələndirməyə başladıq və enerji sektorundan asılılığımızı azaltdıq. Hətta böhran illərində – 2008-ci, 2009-cu illərdə neftin qiymətinin 4-5 dəfə azalmasına baxmayaraq, Azərbaycan iqtisadiyyatı yenə də artmaqda davam etmişdir.

Son illər Azərbaycanın iqtisadiyyatı 3 dəfə, ÜDM 300 faiz, sənaye istehsalı, demək olar ki, 3 dəfə artmışdır. Əldə etdiyimiz ən mühüm nailiyyətlərdən biri də 900 mindən artıq iş yerinin, xüsusən də rayonlarda açılmasıdır. Bu o deməkdir ki, rayonlara kapital qoyuluşu davam etmişdir. Təbii ki, yoxsulluğun 2003-cü ildə 49 faizdən 2010-cu ildə 9 faizə qədər azalması onu göstərir ki, islahatlarımızın nəticələri vardır. Gələn illər ərzində Azərbaycanın iqtisadi inkişafı əsasən qeyri-neft sektoruna yönələcəkdir. Bu da ölkəmizin iqtisadi inkişafını təmin edəcəkdir. Bu, Azərbaycanda əsasən kənd təsərrüfatının, informasiya texnologiyalarının inkişafı sayəsində olacaqdır. Hazırda biz kosmik sənayemizi yaradırıq. Gələn il Azərbaycan telekommunikasiya sahəsində böyük addımlar atacaq, öz peykini buraxacaq və bu, artıq kosmik sənayenin başlanğıcı olacaqdır.

Təhsilə çox sərmayələr yatırırıq, səhiyyə sahəsinə diqqət yetiririk, sosial infrastrukturu yaradırıq. Xüsusi proqram-

larımız vardır ki, gənc azərbaycanlılar dünyanın aparıcı universitetlərində, tədris ocaqlarında təhsil alırlar. Onların təhsili dövlət tərəfindən maliyyələşdirilir.

Ölkəmizin müasirləşdirilməsinə gəldikdə, bu, sırf iqtisadi dəyişikliklərlə baş tutmur. Biz həyatımızın hər bir aspektini müasirləşdirməliyik və müasir, dinamik ölkəyə çevrilməliyik. Buna görə də bir daha qeyd etmək istəyirəm ki, Avropa təsisatları ilə sıx əlaqələrimiz, Avropa İttifaqı ilə bütün sahələrdə əməkdaşlıq bizim üçün cəlbedicidir.

Azərbaycan mədəniyyətlərarası dialoqda öz rolunu oynamaqdadır. Əsrlər boyu ölkəmiz elə bir məkan olub ki, orada müxtəlif etnik, dini köklərə malik xalqlar yan-yana, mehribanlıq şəraitində yaşayıblar. Çox şadıq ki, bu müsbət meyillər müstəqillikdən sonra hətta daha da güclənib. Azərbaycan cəmiyyəti çoxmədəniyyətli cəmiyyətdir, çoxetnik cəmiyyətdir. Müxtəlif millətlərin və dinlərin nümayəndələri mehriban şəraitdə yaşayırlar.

Biz eyni zamanda, müxtəlif beynəlxalq tədbirlərin keçirildiyi məkanıq. Dialoq sahəsində xüsusi rol oynayırıq. Bu il ölkəmizdə mədəniyyətlərarası dialoq mövzusunda çox mühüm beynəlxalq konfrans keçirildi. Çox tanınmış şəxslər, dostlarımız Karteron, cənab əl-Tüveycri iştirakları ilə həmin konfransa töhfə verdilər. Ötən il biz dünya dini liderlərinin beynəlxalq konfransını keçirdik. Biz bu tədbirləri davam etdirmək fikrindəyik. Hesab edirəm ki, hazırda bunun mühüm əhəmiyyəti vardır. Çoxmədəniyyətlilik bəşəriyyətin inkişafa aparan yeganə yoludur. Keçmişimizdən irəli gələn təcrübəmizə əsasən deyə bilərəm ki, bu işləyə bilər. Bu, uğurla baş tuta bilər.

Azərbaycan mühüm coğrafi mövqedə – sivilizasiyaların kəsişdiyi məkanda yerləşir. Ölkəmiz Avropa Şurasının, İslam Konfransı Təşkilatının üzvüdür. Əslində bu, ölkəmizdə xüsusi bir ab-hava yaradır. Biz səylərimizi davam etdirəcəyik ki, beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqa töhfəmizi verək.

Regional təhlükəsizlik məsələlərinə də xüsusi diqqət yetiririk. Ən böyük problemlərdən, ən böyük çətinliklərdən və əslində ən böyük hədələrdən biri bu regionda nə hərb, nə sülh vəziyyətidir, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Uzun illərdir ki, Azərbaycan əraziləri işğal altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini həyata keçirib və nəticədə bir milyondan artıq azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün kimi yaşamağa məcbur olub. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri işğal altındadır. Əfsuslar olsun ki, artıq iki onillikdir ki, bu vəziyyət davam edir. Dağlıq Qarabağ münaqişəsi nəinki ən böyük ədalətsizlik, o cümlədən regional təhlükəsizliyə, sabitliyə böyük hədədir. Buna görə münaqişənin həlli, beynəlxalq hüquq normaları əsasında nizamlanması nəinki bizim üçün, bütövlükdə bütün region üçün vacibdir. Beynəlxalq təşkilatlar, BMT-nin Təhlükəsizlik Şurası və digər təşkilatlar bir neçə qətnamə və qərar qəbul ediblər. Həmin qərarlarda erməni işğalçı qüvvələrinin ərazimizdən qeyd-şərtsiz, dərhal çıxarılması tələb edilir. Əfsuslar olsun ki, bu günə qədər Ermənistan bu qətnamələrə heç bir diqqət yetirmir, məhəl qoymur və beynəlxalq hüquq normalarını pozur. Dağlıq Qarabağ münaqişəsinin həlli regionun bütün ölkələrinin marağındadır.

Son vaxtlar ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin rəhbərlərinin verdikləri bəyanatlar bizi ruhlandırır. Fransa, Rusiya Federasiyası, Birləşmiş Ştatların rəhbərləri qeyd etmişlər ki, status-kvo dəyişdirilməlidir, bu saxlanıla bilməz. Sədr Barrozu ilə görüşümüz zamanı da xüsusilə qeyd edildi ki, status-kvo dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi isə öz növbəsində artıq işğal olunmuş ərazilərin azad edilməsi deməkdir. Biz bunun tərəfdarıyıq, biz buna çalışırıq. Ermənistan isə əksinə, status-kvonu mümkün qədər uzun müddətdə saxlamağa çalışır. Status-kvonun dəyişdirilməsindən söhbət gedirsə, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi və sülhün bərqərar olunması vaxtıdır, bu

vaxt artıq yetişib. Bu problem olmasaydı, təsəvvür edin ki, Azərbaycan necə inkişaf edə bilərdi. Qaçqınlar və məcburi köçkünlərin sayına görə Azərbaycanın dünyada ən böyük göstəricilərdən birinə malik olmasına baxmayaraq, yenə də özümüzə arxalanan ölkəyik. Biz dinamik ölkəyik, güclü imkanlarımız var, şaxələndirilmiş inkişaf edən iqtisadiyyatımız, siyasi sistemimiz mövcuddur və gələcəyimiz üçün çox aydın planlar vardır. Buna görə də bu münaqişə nə qədər tez həll olunsa, bu, regional əməkdaşlığa, sabitliyə və proqnozlaşdırmaya apara bilər.

İnkişafımızın ən vacib elementlərindən biri, əlbəttə ki, enerji sektoru ilə bağlıdır. Biz enerji layihələrindən əldə edilmiş gəlirlərin ədalətli şəkildə bölüşdürülməsinə nail olduq. Bu gün Azərbaycanın Dövlət Neft Fondu ola bilsin ki, dünyada ən şəffaf, suveren fondlardan biridir. Bu, beynəlxalq təşkilatların qiymətləndirilməsində də qeyd edilir. Əsas səbəblərdən biri odur ki, iqtisadiyyatımızı şaxələndirdik. Çünki bu fond beynəlxalq səviyyədə auditdən keçir, daxil olan bütün vəsaitlər şəffaf şəkildə istifadə olunur. Vəsaitlər haqqında informasiya dövri olaraq açıqlanır və biz heç vaxt bunu sirr kimi saxlamırıq ki, fondumuza nə qədər vəsait toplanıb və bu, açıq məlumatdır. Azərbaycanın ümumi ehtiyatları 35 milyard dollardan artıqdır. Bu bizim üçün əlavə imkanlar yaradır ki, ölkəmizi inkişaf etdirək, sosial infrastruktura sərmayə qoyaq, ölkəmizi daha da müasirləşdirək. Bu vəsaitləri xalqın rifahı üçün sərf edək və təbii ki, əhalimizin yaşayış səviyyəsini daha da yaxşılaşdıraq. 7 il ərzində yoxsulluğun 5 dəfə azalması atdığımız addımların düzgünlüyünü göstərir. Enerji siyasətimiz regionda və Avropada enerji təhlükəsizliyi məsələsində mühüm rol oynayıb və oynamaqdadır.

2000-ci illərin əvvəllərində başlayanda və 2006-cı ildə boru kəmərlərini istismara verəndə o vaxt hələ böyük həcmdə resurslar ixrac olunmurdu. Bu bir başlanğıc idi və bir növ enerji dəhlizinin tikilməsi idi. Əslində bu, enerji resurslarının dünya bazarlarına çıxarılması idi ki, Bakı–

Tbilisi–Ceyhan 2005-ci ildə istismara verildi. 2007-ci ildə, həmçinin qaz boru kəməri tikildi.

Azərbaycan tarixdə ilk dəfə olaraq Xəzər dənizinin resurslarını beynəlxalq bazara çıxartdı. Bu gün isə neft və qaz sahəsində şaxələndirilmiş təchizat şəbəkəsini yaratmağa nail olmuşuq. Hazırda 7 neft və qaz boru kəməri mövcuddur ki, onlar enerji resurslarını bütün istiqamətlərdə çatdırır. Bütün karbohidrogen resurslarımız ətrafda olan ölkələrə çatdırılır. Zənnimcə, bu sahə gələcəkdə daha çox vəsaitlərin əldə edilməsinə imkan yaradacaqdır. Təbii ki, biz hazırda müzakirələr aparırıq ki, daha geniş regional əməkdaşlıq edək. Cənab Ottingerin bu gün dediyi kimi, biz Cənub qaz dəhlizini ciddi şəkildə müzakirə etdik. Barrozunun Azərbaycana səfəri zamanı bu haqda Birgə Bəyannamə imzalandı. Bunun əsasında işçi qrupu yaradıldı və olduqca qısa müddət ərzində – 6 aydan az vaxtda artıq yaxşı nəticələr verir. Biz ilin sonuna qədər fəal şəkildə işləməyi planlaşdırırıq ki, bütün məsələləri həll edək, tranzit sazişlər öz həllini tapsın və Azərbaycanın böyük neft-qaz ehtiyatlarının işlənilməsinə nail olaq.

Təbii ki, neftin nəqli məqsədi ilə yaradılmış bu dəhliz indi qazın çatdırılması üçün şərait yaradır. Bu həmçinin ünsiyyət alətidir. Hazırda biz dəmiryol xəttini çəkirik. Bu, Asiya qitəsini Azərbaycandan keçərək Avropa ilə birləşdirəcəkdir. Gələn ilin sonunadək bu dəmir yolunun artıq istismara verilməsi baş tutmalıdır. Bu dəmir yolunun tikintisi nəticəsində bizim malların, on milyonlarla ton yükün Şərqdən Qərbə və geriyə daşınması mümkün olacaqdır.

Azərbaycan şaxələndirmə siyasətinə dəstək verə bilər. Şaxələndirmə siyasəti həm hasilatçılar, həm də istehlakçılar üçün vacibdir. Hasilatçı kimi, biz artıq bütün mümkün işləri görmüşük. İndi isə istehlakçılara dəstək vermək istəyirik ki, onların da şaxələndirilmiş təchizat marşrutları olsun.

Şaxələndirmə təkcə yeni təchizat yolları demək deyil, yeni mənbələrin olması deməkdir. Bu baxımdan Xəzər dənizi, Azərbaycanın Xəzər dənizindəki resursları şaxələndirmə

üçün yeni mənbə rolunu oynayır. Çünki Xəzər dənizinin Azərbaycan sektorunda olan ehtiyatları, xüsusən də qaz ehtiyatları hələ ki, tam işlənilməyibdir. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları minimum 2,2 trilyon kubmetrə bərabərdir. Bu rəqəm daha da artacaqdır. Bu o deməkdir ki, cənab Ottingerin qeyd etdiyi kimi, Azərbaycan mühüm təchizatçıya çevriləcəkdir ki, biz öz qonşularımıza, dostlarımıza bu prosesdə dəstək verməyə hazırıq.

Ölkəm haqqında, onun tarixi və mədəniyyəti haqqında daha çox danışa bilərəm. Təbii ki, qeyri-neft sektorunda olan nailiyyətlər burada fotoşəkillərdə öz əksini tapıbdır. Turizm infrastrukturu sahəsində nailiyyətlər vardır. Yalnız bu il Bakıda beşulduzlu altı mehmanxana açılacaqdır. Bu da əslində bizim açıq qapı siyasətimizin, sərmayə mühitimizin təzahürüdür. Azərbaycanın özü də artıq sərmayədar ölkəyə çevrilir. Ölkə hüdudlarından kənarda qoyulan sərmayələr artıq 3-4 milyard dollara bərabərdir və Azərbaycan artıq bu baxımdan yaxşı nüfuza malikdir.

Mən nitqimi yekunlaşdıraraq burada – Avropanın ürəyində, mərkəzində çalışan, yaşayan işçilərə, əməkdaşlara təşəkkürümü bildirirəm ki, onlar bizim müğənnilərə dəstək vermişlər. Bu əslində dostluq rəmzidir. Bu, avropalıların bizə olan münasibətidir. Çünki bu mahnı onların xoşuna gəldi, onlar müğənnilərin çıxışını bəyəndilər. Bu, Avropadan Azərbaycana olan münasibət idi, Avropanın ictimai rəyini əks etdirdi. Avropadakı müxtəlif ölkələr Azərbaycanı Avropanın bir hissəsi hesab edirlər. Biz daha ürəkdən işləməliyik və dünən Avropa təsisatlarının rəhbərləri ilə görüşlər bir daha onu nümayiş etdirdi ki, tərəfdaşlığımızı inkişaf və dostluq münasibətlərimizi davam etdirmək üçün bizim güclü iradəmiz vardır.

Çox sağ olun. Mən fürsətdən istifadə edərək sizin hamınızı gələn il Bakıya dəvət edirəm. Biz bu forumu Azərbaycanda keçirəcəyik. «Eurovision» mahnı müsabiqəsi Azər-

baycanda olacaqdır. Çox şad olardıq ki, sizin hamınızı Bakıda görək. Diqqətinizə görə çox sağ olun.

* * *

*Sonra forumun ən ali mükafatı* «PRIX DE LA FONDATION» *prezident İlham Əliyevə təqdim olundu.*

**İlham Əliyev:** Cənab Sədr, mükafata görə çox sağ olun. Mənim üçün bu mükafatı almaq böyük şərəfdir və Azərbaycan haqqında söylədiyiniz xoş sözlərə görə təşəkkürümü bildirirəm. Mən Sizə ölkəmiz haqqında söylədiyiniz sözlərə və planlarımız haqqındakı fikirlərinizə görə təşəkkürümü bildirirəm. İşimizi hələ tam bitmiş hesab etmirik, o vaxta qədər ki, öz hədəfimizə yaxınlaşacağıq. Hədəf müasir Azərbaycandır, sülhdür, bütün ölkələrlə sülh münasibətləri və Avropa ölkələri ilə yaxşı münasibətlərdir.

Ola bilsin ki, mən indi ölkənin ideal panoramını təsvir etdim. Hesab edirəm ki, buna nail olmaq mümkündür. Çünki son 20 il ərzində işğalla yanaşı, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, inflyasiyanın yüksək səviyyəsindən sonra biz ölkəni yeni dirçəliş yoluna çıxara bildik. Bu dirçəliş çox qısa müddətdə baş verdi.

Mən çox şadam ki, regional və qlobal məsələlərdə bizim mövqemiz, Azərbaycanın yanaşması avropalı tərəfdaşlarımızın mövqeyi ilə üst-üstə düşür. Avropa İttifaqının rəhbərləri ilə keçirdiyimiz görüşlər bunu bir daha nümayiş etdirir. Mən bu mükafatı ölkəmə verilən mükafat kimi qəbul edirəm. Müstəqil Azərbaycanın həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə əldə etdiyi uğurlar Avropaya olan münasibətinin təcəssümüdür.

Cənab Sədr, bir daha şəxsən Sizə və Sizin həmkarlarınıza, bu qərarın qəbul edilməsində iştirak etmiş şəxslərə təşəkkürümü bildirirəm və hamınızı Azərbaycana səfərə dəvət edirəm.

## ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*Brüssel*

*23 iyun 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Albaniyanın Baş naziri Sali Berişa ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsinin xüsusi əhəmiyyəti vurğulandı, Albaniyanın Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdiyi qeyd edildi.*

*Həmçinin görüşdə Azərbaycanın Albaniyaya sərmayə yatırması, turizm, özəlləşdirmə və digər sahələrdə əməkdaşlıq imkanlarının yaradılması ilə bağlı fikir mübadiləsi aparıldı. Bu məsələlərin müzakirəsi üçün qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyəti vurğulandı.*

## BELÇİKA KRALLIĞI BAŞ NAZİRİNİN MÜAVİNİ, MALİYYƏ NAZİRİ DİDİER REYNDERS İLƏ GÖRÜŞ

*Brüssel*

*23 iyun 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Belçika Krallığı Baş nazirinin müavini, Maliyyə naziri Didier Reynders ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsi, siyasi və iqtisadi əlaqələr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## OMV VƏ RWE ŞİRKƏTLƏRİNİN İDARƏ HEYƏTLƏRİNİN SƏDRLƏRİ GERHARD ROİSSİ VƏ YURGEN QROSMAN İLƏ GÖRÜŞ

*Brüssel*

*23 iyun 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Avstriyanın OMV və Almaniyanın RWE şirkətlərinin idarə heyətlərinin sədrləri Gerhard Roissi və Yurgen Qrosman ilə görüşmüşdür.*

*Görüşdə ölkəmiz ilə OMV və RWE şirkətləri arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olundu, Azərbaycan qazının Avropaya nəqli və Nabukko layihəsinin həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## FRANSA PREZİDENTİNİN TERRORİZMLƏ MÜBARİZƏ ÜZRƏ XÜSUSİ VƏ ŞƏXSİ MÜŞAVİRİ JAN-LUİ BRUQUYE İLƏ GÖRÜŞ

*Brüssel*

*23 iyun 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 23-də Brüsseldə Fransa prezidentinin terrorizmlə mübarizə üzrə xüsusi və şəxsi müşaviri Jan-Lui Bruquye ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən təhlükəsizlik məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## KRANS MONTANA FORUMUNUN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*Brüssel*

*23 iyun 2011-ci il*

*İyunun 23-də Brüsseldə Azərbaycan prezidenti İlham Əliyevin adından Krans Montana Forumunun iştirakçılarının şərəfinə nahar verilmişdir.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva naharda iştirak etmişlər.*

### Səfər başa çatdı

*İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatmışdır.*

## RUSİYA FEDERASİYASININ TATARİSTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Kazan*

*23 iyun 2011-ci il*

*İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Tatarıstan Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Kazanın Beynəlxalq aeroportunda Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanov və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli qızlar prezident İlham Əliyevə duz-çörək təqdim etdilər.*

## «KAZAN VERTOLYOT ZAVODU» ASC İLƏ TANIŞLIQ

*Kazan*

*24 iyun 2011-ci il*

*İyunun 24-də Azərbaycan prezidenti İlham Əliyev Tatarıstan prezidenti Rustam Minnixanovun müşayiəti ilə «Kazan Vertolyot Zavodu» Açıq Səhmdar Cəmiyyəti ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, zavod 1940-cı ildən fəaliyyət göstərir. Burada müxtəlif təyinatlı, o cümlədən səhiyyədə, idman yarışlarında, mülki aviasiyada, yükdaşımada, eləcə də müdafiə sahəsində istifadə olunan helekopterlər, «KamAZ» avtotexnikası, avtobuslar və s. istehsal edilir.*

*Dövlətimizin başçısı zavodun ayrı-ayrı sexlərini gəzdi, məşhur Mi-17, Mi-38 helekopterlərinə baxdı, müasir tipli «Aktay», «Kazan», «Ansat», «Ansat-U» helekopterlərinin texniki göstəriciləri ilə tanış oldu. Bildirildi ki, zavodun istehsal etdiyi bu helekopterlərin əsas xüsusiyyətləri yüksək etibarlılıq və təhlükəsizlikdir.*

*Prezident İlham Əliyev zavodun istehsal etdiyi metan mühərrikli «KamAZ», kommunal təsərrüfatı, inşaat avtotexnikası, «Nefaz» avtobusu ilə də tanış oldu. Azərbaycan prezidenti bu texnikanın qaz mühərrikinin qidalanma sisteminə baxdı, onun ekoloji parametrləri ilə maraqlandı.*

*Sonda dövlətimizin başçısına Mi-17 helekopterinin və «KamAZ»ın maketləri hədiyyə olundu.*

## 2013-cü İLDƏ KAZANDA KEÇİRİLƏCƏK XXVII ÜMUMDÜNYA UNİVERSİADASININ KƏNDİ İLƏ TANIŞLIQ

*Kazan*

*24 iyun 2011-ci il*

*İyunun 24-də Azərbaycan prezidenti İlham Əliyev Tatarıstan prezidenti Rustam Minnixanovun müşayiəti ilə 2013-cü ildə Kazanda keçiriləcək XXVII Ümumdünya Universiadasının kəndi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, XXVII Ümumdünya Universiadasının Kazanda keçirilməsi 2008-ci ildə Beynəlxalq Tələbə İdmanı Federasiyasında səsvermənin nəticəsinə əsasən qərara alınmışdır. Kazanla yanaşı, İspaniyanın Viqo və Koreya Respublikasının Kvanju şəhərləri də Universiadaya ev sahibliyi etmək iddiasında olmuşlar.*

*Prezident İlham Əliyev otaqlarda yaradılan şəraitlə tanış oldu, tibb otağına baxdı. Bildirildi ki, XXVII Universiadada dünyanın hər yerindən gələn tələbə idmançılar 300-dən çox medal uğrunda mübarizə aparacaqlar. Bu, indiyədək keçirilmiş universiadalar arasında rekord göstərici olacaqdır.*

*Dövlətimizin başçısı videozalda Universiadanın idman proqramı ilə bağlı təqdimata baxdı.*

*Azərbaycan prezidenti Ümumdünya Universiadası kəndinin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonda dövlətimizin başçısına Universiada kəndinin tarixi barədə kitab təqdim edildi.*

## «İT-PARK» – YÜKSƏK TEXNOLOGİYALAR PARKI İLƏ TANIŞLIQ

*Kazan*

*24 iyun 2011-ci il*

*İyunun 24-də Azərbaycan prezidenti İlham Əliyev Kazanda Tatarıstan prezidenti Rustam Minnixanovun müşayiəti ilə «İT-Park» – yüksək texnologiyalar parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına Tatarıstanda müasir informasiya texnologiyalarının tətbiqi ilə yaradılmış ən böyük Məlumatların Emalı Mərkəzi barədə məlumat verildi. Bildirildi ki, 2009-cu ildən fəaliyyət göstərən «İT-Park» Rusiyada informasiya texnologiyaları sahəsində şirkətlərin inkişafı ilə məşğul olan ilk texnoparkdır.*

*Texnoparkda prezident İlham Əliyevə Tatarıstanın «elektron hökumət» sahəsindəki layihələri və qurumlararası vahid elektron sənəd mübadiləsi sisteminin imkanları nümayiş etdirildi. Azərbaycan prezidenti, həmçinin xəsarət alanların xilas edilməsinin əlaqələndirilməsi sistemi – «Qlonass+112»nin işi ilə tanış oldu və «İT-Park»ın biznes-inkubatoruna da baxdı. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, «İT-Park» biznes-inkubatoru informasiya texnologiyaları layihələrinin dəstəklənməsi və inkişafı, həmçinin onların gələcəkdə xarici bazara çıxarılması platformasıdır.*

*Prezident İlham Əliyev texnoparkdakı xatirə divarında ürək sözlərini yazdı.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Kazan*

*24 iyun 2011-ci il*

*İyunun 24-də Kazan Kremlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.*

*Kazan Kremlinin önündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev qarşıladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər müzakirə edildi.*

*Görüşün yekunlarına dair birgə bəyanat qəbul olundu.*

## AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANATLARI

*Kazan*

*24 iyun 2011-ci il*

*İyunun 24-də Kazanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekunlarına əsasən birgə bəyanat qəbul etmişlər.*

*Bəyanatda deyilir: «2011-ci il iyunun 24-də Azərbaycan, Ermənistan və Rusiya Federasiyasının prezidentləri Kazanda görüşmüş və onların tapşırığına əsasən, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsipləri layihəsinin razılaşdırılması məqsədilə aparılan işin gedişini nəzərdən keçirmişlər.*

*Dövlət başçıları bir sıra məsələlərə dair qarşılıqlı anlaşma əldə edilməsini, bu məsələlərin həllinin Əsas Prinsiplərin bəyanılməsi üçün şərait yaradılmasına kömək etdiyini bildirmişlər.*

*Azərbaycan və Ermənistan prezidentləri ATƏT-in Minsk qrupunun həmsədr ölkələri kimi, Rusiya, ABŞ və Fransa liderlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi probleminə daimi diqqətinə görə onlara minnətdarlıq bildirmiş və Rusiya Federasiyası Prezidentinin razılaşma əldə edilməsinə kömək üçün göstərdiyi şəxsi səylərini yüksək qiymətləndirmişlər».*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Kazan*

*24 iyun 2011-ci il*

*İyunun 24-də Kazan Kremlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşik ilə görüşü olmuşdur.*

## Səfər başa çatdı

*İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Kazanın Beynəlxalq aeroportunda Tatarıstan Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Bakıya qayıtmışdır.*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Belarus Respublikasının milli bayramı – Respublika günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Əminəm ki, Azərbaycan ilə Belarus arasında ənənəvi dostluq münasibətləri və çoxtərəfli əməkdaşlıq xalqlarımızın və ölkələrimizin firavanlığı naminə bundan sonra da dinamik şəkildə və sürətlə inkişaf edəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Belarus xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2011-ci il*

**MALAVİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BİNQU VA MUTARİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Malavi arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malavi xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2011-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında müvəffəqiyyətlə inkişaf edərək tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Enerji təhlükəsizliyinin təmin edilməsi, qlobal təhdidlərə və çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, eləcə də regional sabitliyin gücləndirilməsi sahəsində birgə fəaliyyətimiz əməkdaşlığımızın mühüm istiqamətlərindəndir.

Əminəm ki, dostluq münasibətlərimizin daim möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı işbirliyimizin dərinləşdirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Biz həmçinin xalqımızın ən ağrılı probleminin – ölkəmizin ərazi bütövlüyünün pozulmasına və torpaqlarımızın işğalına səbəb olmuş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə, tezliklə və ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, ABŞ-ın səylərinə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə, cənab Prezident, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,* **İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2011-ci il*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DEVİD CONSTONA**

Hörmətli cənab General-qubernator!

Milli bayramınız – Kanada günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Kanada dövlətlərarası münasibətləri, dostluq əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kanada xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2011-ci il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NIKOLA SARKOZİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz dost ölkələrimiz arasında bərqərar olmuş çoxşaxəli əlaqələrin inkişafına böyük əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sıx əməkdaşlığımız ilə müşayiət olunur.

Bu gün Azərbaycan–Fransa əməkdaşlığı, həmçinin çoxtərəfli qaydada inkişaf etməkdədir. Beynəlxalq qurumlar, Avropa strukturları çərçivəsində birgə işimiz ölkələrimiz arasındakı münasibətlərin dolğunluğunu təmin edən amillərdəndir.

Biz eyni zamanda, xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə, tezliklə və ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Fransa xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2011-ci il*

**MONTENEQRO PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monteneqro arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2011-ci il*

**MONQOLUSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Monqolustan dostluğu və əməkdaşlığının möhkəmlənməsi və inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2011-ci il*

## MİLANIN «İNTER» FUTBOL KLUBUNUN PREZİDENTİ VƏ SAHİBİ MASSİMO MORATTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Milanın «İnter» futbol klubunun prezidenti və sahibi Massimo Morattini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda idmanın inkişafı sahəsində görülən işlərdən danışılmış, ölkəmizin beynəlxalq səviyyədə idmanla bağlı əldə etdiyi uğurlar qeyd edilmiş və Azərbaycanın beynəlxalq idman əlaqələrinin genişləndirilməsi işinə töhfə verdiyi vurğulanmışdır.*

## AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN 20-ci VƏ SİLAHLI QÜVVƏLƏRİN 93-cü İLDÖNÜMLƏRİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ HƏRBİ PARADDA İŞTİRAK

*Azadlıq meydanı*

*26 iyun 2011-ci il*

*İyunun 26-da Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda olmuşdur.*

*Dövlət və hökumət rəsmiləri, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, deputatlar, xarici ölkələrin respublikamızdakı səfirləri, dini icmaların başçıları, beynəlxalq təşkilatların əməkdaşları, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izləmişlər.*

*Hərbi paradda Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrin, hərbi tədris müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin 6 min nəfərlik şəxsi heyəti, 400-dək hərbi texnika və silah sistemləri, o cümlədən 50-yə yaxın modernləşdirilmiş hərbi döyüş texnikası, Azərbaycanda istehsal olunan və modernləşdirilən 60-dək silah, döyüş helekopterləri, təyyarələri, gəmiləri və qayıqları iştirak edirdi.*

*Azərbaycan Respublikasının dövlət müstəqilliyinin, Silahlı Qüvvələr gününün tarixləşməsi ümummilli liderimizin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin 1998-ci il mayın 22-də*

*imzaladığı Fərmana əsasən, artıq 13 ildir ki, 26 iyun – Silahlı Qüvvələr günü Azərbaycanda ümumxalq bayramı kimi qeyd edilir.*

*1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ölkəmizdə ilk nizami hərbi hissə – Əlahiddə Korpus yaradılmışdır. Ümummilli lider Heydər Əliyev imzaladığı fərmanla tarixi həqiqətin və Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası ilə bağlı çox böyük əhəmiyyətə malik bir addım atmışdır.*

*1993-cü il noyabrın 1-də Azərbaycanda Müdafiə Şurası yaradılmış, noyabrın 2-də isə prezident Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı televiziya ilə xalqa müraciət etmişdir. Bu müraciət Azərbaycan Silahlı Qüvvələri quruculuğunda yeni mərhələnin – Heydər Əliyev mərhələsinin başlanğıcı olmuşdur.*

*Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilmiş, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik bir quruma çevrilmişdir. Ordu quruculuğu prosesi Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.*

*Meydana toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.*

*Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əsgərləri salamladı.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycanın Dövlət himnini ifa etdi.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev nitq söylədi.*

## AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN 20-ci VƏ SİLAHLI QÜVVƏLƏRİN 93-cü İLDÖNÜMLƏRİ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLMİŞ TƏNTƏNƏLİ HƏRBİ PARADDA NİTQ

Əziz əsgərlər, zabitlər, generallar!

Əziz hərbçilər, əziz dostlar!

Sizi və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə yeni uğurlar arzulayıram!

Bugünkü hərbi parad müstəqilliyimizin 20-ci ildönümünə həsr edilibdir. 20 il ərzində Azərbaycan müstəqil dövlət kimi, böyük və şərəfli yol keçmişdir. 20 il ərzində ölkəmiz sürətlə inkişaf etmişdir və bu gün bölgədə çox güclü mövqelərə malikdir. Ölkəmizdə bütün istiqamətlərdə – iqtisadi sahədə, sosial məsələlərin həllində böyük uğurlar əldə edilmişdir. O cümlədən, ölkəmizdə ordu quruculuğu prosesi uğurla getmişdir.

Bu gün Azərbaycanda nizami ordu vardır. Mən hərbi hissələrə tez-tez gedirəm, vəziyyətlə tanış oluram. Tam məsuliyyətlə deyə bilərəm ki, bu gün Azərbaycan Ordusu çox yüksək səviyyədədir. Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir. Ordumuz ölkə qarşısında duran vəzifələri icra etmək üçün bütün imkanlara malikdir. Azərbaycanda ordunun maddi-texniki bazasının gücləndirilməsi işində böyük məsələlər öz həllini tapmışdır. Sosial məsələlərə gəldikdə, Azərbaycan dövləti bu məsələni daim diqqət mərkəzində saxlayır, hərbçilərin sosial-məişət problemləri öz həllini tapır, əməkhaqları qaldırılır. Dünən imzaladığım sərəncama əsasən Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki

işçilərinin vəzifə maaşları müvafiq olaraq 25 və 10 faiz artırılmışdır.

Ordumuzda xidmət edənlərin əksəriyyəti gənclərdir. Mən çox şadam ki, gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alırlar. Gələcəkdə ölkəmizi onlar idarə edəcəklər. Mən çox şadam ki, orduda xidmət edən gənclər Vətənə bağlı olan insanlardır.

Biz müharibə və atəşkəs dövrlərində itkilər vermişik, şəhidlərimiz olubdur. Vətən, torpaq uğrunda həlak olmuş bütün şəhidlərin ruhu qarşısında baş əyirik. Allah onlara rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq və yerdə qalmır. Şəhidlər ölmür, onlar qəlbimizdə əbədi yaşayırlar!

Ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində böyük işlər görülmüşdür. Bu gün keçirilən paradda hərbi potensialımızın kiçik bir hissəsi nümayiş etdiriləcəkdir. Biz müasir silahlar, sursatlar, hərbi texnika alırıq və bu proses davam etdiriləcəkdir. Müasir tipli döyüş təyyarələri, döyüş və hərbi nəqliyyat helikopterləri alırıq. Artilleriya qurğuları, zirehli texnika, rabitə vasitələri, pilotsuz təyyarələr alınır və ordumuzun hərbi gücü artır.

6 il əvvəl yaradılmış Müdafiə Sənayesi Nazirliyinin xətti ilə hərbi təyinatlı məhsulların buraxılması prosesi uğurla gedir və biz bu sahədə də böyük nailiyyətlərə çata bilmişik.

Bu gün Azərbaycan Ordusunun təchizatı, o cümlədən daxildə istehsal olunan məhsullar hesabına formalaşır. Müxtəlif növ silahlar, sursatlar, hərbi texnika istehsal olunur və bu nailiyyətlər bu gün bu paradda göstəriləcəkdir. Patronlar, silahlar, mərmilər, tapançalar, avtomatlar, pulemyotlar, minaatanlar, snayper tüfəngləri, zirehli texnika, pilotsuz təyyarələr – bütün bunlar Azərbaycanda istehsal olunur. Beynəlxalq sərgilərdə nümayiş etdirilən Azərbaycan hərbi texnikası dünya miqyasında da böyük qiymətə malikdir. Bir sözlə, ordumuzun hərbi imkanlarını, potensialını gücləndirmək üçün nə lazımdırsa, Azərbaycan dövləti onu edir.

Hərbi xərclərimiz ildən-ilə artır. 2003-cü ildə hərbi büdcəmiz 160 milyon dollar idisə, 2010-cu ildə bu rəqəm 2 milyard 150 milyon dollara, bu il isə 3 milyard 300 milyon dollara çatmışdır. Bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə – yəni ki, Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün xərclərinə bərabər olsun – artıq reallaşıb. Bu gün Azərbaycanda hərbi xərclərə sərf olunan vəsait Ermənistanın bütün büdcəsindən 50 faiz artıqdır. Biz müharibə şəraitində yaşayırıq, müharibənin birinci mərhələsi başa çatıbdır və müharibə şəraitində yaşayan ölkə, ilk növbədə ordu quruculuğuna diqqət göstərməlidir. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi təyinatlı xərclər birinci yerdədir və torpaqlarımız işğaldan azad olunana qədər bu belə olacaqdır. Sülh müqaviləsi bağlanarsa, işğala son qoyulandan sonra bu qədər xərcə bəlkə də ehtiyac olmayacaqdır. Ancaq ondan sonra da istənilən şəraitdə ordumuz daim yüksək hazırlıq nümayiş etdirməlidir.

Ölkəmiz üçün ən ağrılı problemin – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli üçün çalışırıq. Torpaqlarımızın 20 faizi uzun illərdir ki, işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bir milyondan artıq soydaşımız doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Əfsuslar olsun ki, bu ədalətsizlik hələ də davam edir. Halbuki Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır və son zamanlar verilən yeni bəyanatlar, mötəbər beynəlxalq təşkilatlar tərəfindən verilən qərarlar, qəbul edilmiş qətnamələr bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Buna baxmayaraq, məsələ öz həllini hələ ki, tapmır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının – dünyanın ən mötəbər qurumunun 4 qətnaməsi, digər beynəlxalq təşkilatların oxşar qərar və qətnamələri icra edilmir.

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıbdır və olmayacaqdır. Biz çalışırıq ki, məsələ tezliklə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütöv-

lüyü bərpa edilsin. Bunun üçün biz diplomatik səylərimizi davam etdirəcəyik. Biz heç bir başqa ölkənin torpağını zəbt etməmişik, heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur, baxmayaraq ki, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Mən tam əminəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən yolla bərpa ediləcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar, ölkəmizin inkişafı, bölgədəki mövqelərinin möhkəmləndirilməsi nəticəsində istədiyimizə nail ola biləcəyik.

Biz 20 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycan xalqı öz taleyinin sahibidir. 20 il ərzində Azərbaycan xalqı dünyaya sübut edə bilib ki, biz müstəqil dövlət kimi yaşaya və inkişaf edə bilərik. İqtisadi inkişaf templərinə görə Azərbaycan dünya miqyasında lider dövlətdir. Son illər dünya miqyasında heç bir ölkədə Azərbaycandakı qədər görülən işlər və əldə edilmiş nailiyyətlər olmamışdır. Son 7 ildə dövlət büdcəmiz 16 dəfə artmışdır və Ermənistanın dövlət büdcəsindən 10 dəfə çoxdur. Hərbi xərclərimiz 20 dəfə artmışdır, yoxsulluq 5 dəfə azalmışdır, bir milyona yaxın yeni iş yeri açılmışdır. Ölkədə böyük sənaye müəssisələri yaradılmışdır. Aparılan iqtisadi islahatlar nəticəsində iqtisadiyyatın şaxələndirilməsi prosesi uğurla gedir və bu gün Azərbaycanda dayanıqlı iqtisadiyyat formalaşır.

Sosial müdafiə məsələlərinin həlli üçün imkanlarımız və iradəmiz vardır. İldən-ilə artırılan maaşlar, pensiyalar, sosial ödəmələr, sosial infrastrukturun yaradılması, iki mindən artıq məktəbin, yüzlərlə tibb ocağının, onlarla Olimpiya İdman Kompleksinin tikilməsi bu gün Azərbaycanın reallıqlarıdır.

Ölkəmiz 20 il ərzində böyük yol keçmişdir. Əhalinin maddi rifahı yüksəlmişdir, ölkə iqtisadiyyatı inkişaf etmişdir, beynəlxalq mövqelər möhkəmlənmişdir. Bu gün Azərbaycan dünya birliyi tərəfindən bərabərhüquqlu və etibarlı tərəfdaş

kimi tanınır. Bizim mövqemiz regional məsələlərdə bir çox hallarda həlledici rol oynayır. Bizim təşəbbüslərimiz nəinki iqtisadi və infrastruktur layihələrinin həyata keçirilməsi üçün həlledicidir, həm də geniş mənada qitədə olan təsirimiz artmaqdadır. Qonşularla mehriban münasibətlərdə yaşamaq istəyirik və buna nail ola bilmişik.

Paytaxtımız – qədim Bakımız bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bölgələrimiz canlanır, inkişaf edir. Hər yerdə tikinti, hər yerdə quruculuq, hər yerdə abadlıq, cəmiyyətdə ruh yüksəkliyi vardır. Nəinki Azərbaycanın daxilində, bizimlə əməkdaşlıq edən ölkələr də Azərbaycanın parlaq gələcəyinə inanır. İqtisadi güc bizə imkan verir ki, istənilən məsələ ilə bağlı mövqemizi ortaya qoyaq.

Azərbaycan 20 ildir müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının iradəsinə əsaslanır. Biz elə etməliyik ki, ölkəmizdə bütün istiqamətlərdə müşahidə olunan müsbət meyillər bundan sonra daha da güclənsin. Bundan sonrakı illər ərzində görüləcək işlər çoxdur. 20 il ərzində əldə edilmiş nailiyyətlər, siyasətimizin düzgün olması və artıq yaradılmış möhkəm təməl imkan verir ki, biz bundan sonra da onilliklər, yüzilliklər ərzində müstəqil, güclü dövlət kimi yaşayaq, siyasətimizi aparaq, Azərbaycan xalqının maddi rifahını yüksəldək və ölkəmizin dünyadakı mövqelərini daha da gücləndirək. Mən əminəm ki, belə də olacaq və biz qarşıda gördüyümüz və qarşıya qoyduğumuz bütün hədəflərə çatacağıq. Hər halda, 20 illik təcrübə onu göstərir ki, biz istədiyimizə həmişə nail olmuşuq və bundan sonra da nail olacağıq.

Bu gün böyük bayramdır. Azərbaycanda Ordu günü qeyd edilir. Bir daha demək istəyirəm ki, builki hərbi parad müstəqilliyimizin 20-ci ildönümünə həsr edilibdir. Güclü dövlətin güclü ordusu olmalıdır. Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu vardır! Azərbaycan ordusuna eşq olsun! Yaşasın Azərbaycan!

* * *

*Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başladı.*

*Meydana əvvəlcə Azərbaycan Respublikasının Dövlət bayrağı gətirildi.*

*Dövlət bayrağının ardınca ümummilli lider Heydər Əliyevin 40 il öncə yaratdığı və Azərbaycanın hərb tarixində xüsusi yeri olan Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantları, quru qoşunlarının, hərbi hava və hərbi dəniz qüvvələrinin zabit bölükləri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Ali Hərbi Dənizçilik, Ali Hərbi Təyyarəçilik məktəblərinin kursantları mətin addımlarla tribunanın önündən keçdilər.*

*Onların ardınca doğma Azərbaycanımızın qorxmaz, igid övladları – beynəlxalq təhlükəsizliyin qorunmasında fəal iştirak edən Silahlı Qüvvələrimizin sülhməramlıları, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının, Milli Təhlükəsizlik Nazirliyinin, Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunlarının bölmələri, Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının çevik hərəkət qüvvələri, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlıları, Silahlı Qüvvələrin dəniz piyadaları, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları da nizami addımlarla tribunanın önündən keçdilər.*

*Daha sonra hərbi texnikanın keçidi başladı. Azadlıq meydanına əvvəlcə üzərində Azərbaycanın istehsalı olan pulemyotlar quraşdırılmış yüksək sürət və manevr qabiliyyətinə malik motosikletlər daxil oldu. Onların arxasınca tribunanın önündən «Tütək» raket kompleksləri, «Qırğı» tank əleyhinə raket kompleksləri quraşdırılmış «Əqrəb» markalı xüsusi zirehli avtomobillər, Daxili Qoşunların «Sofa», Dövlət Sərhəd Xidmətinin «Kobra» zirehli maşınları, xüsusi təyinatlı bölmələrin «Land Rover» və «Mercedes» maşınları, Daxili Qoşunların «Cardom» tipli minaatanları keçdi.*

*Ölkəmizdə istehsal olunan «Qaranquş» və «Şahin» pilotsuz uçuş aparatlarının nümayişi hərbi parada tamaşa edənlərdə daha böyük maraq doğurdu. Bu aparatlar düşmənin taktiki dərinliklərində kəşfiyyat aparılması üçün istifadə edilən ən müasir və səmərəli texnikadır.*

*Növbə zenit-raket komplekslərinə çatdı. Azərbaycanda yüksək dəqiqliklə aparılmış modernləşdirmə nəticəsində «Kaman» zenit-raket kompleksinin maksimal vurma qabiliyyəti 35 kilometrə çatdırılmışdır. Yüksək hündürlükdə uçan sürətli təyyarələri, qanadlı raketləri vurmaq üçün təyin edilmiş «Qalxan» zenit-raket kompleksinin hədəfi məhvetmə imkanları üfüqi və şaquli məsafələrə müvafiq olaraq 255 və 40 kilometrə çatdırılmışdır. «Favorit» zenit-raket sistemi isə eyni anda saniyədə 2800 metr sürətlə uçan 6 müxtəlif hədəfə qarşı atəş əməliyyatı aparır və 27 min metrədək hündürlükdə hədəfləri məhv edir. «ARI-1T» mobil avtonom zenit-raket kompleksinin ölkəmizdə modernləşdirilməsi nəticəsində ordumuz 12 kilometr məsafədə və 7 kilometr hündürlükdə hədəfi məhv etmək imkanına malik olmuşdur.*

*Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan «Matador» və «Marauder» zirehli döyüş maşınları tribuna önündən keçdi. Yüksək manevr imkanına malik olan bu maşınlar tank əleyhinə minaların təsirinə davamlılığı ilə seçilir və iriçaplı müasir silahlarla komplektləşdirilmişdir.*

*Müxtəlif markalı özüyeriyən artilleriya qurğuları, piyadaların döyüş maşınları, modernləşdirilmiş «T-72» tankları tribunanın önündən keçdi. Özüyeriyən «Nərgiz» topları xüsusi mərmilərdən istifadə edilməklə 47,5 kilometr dərinlikdə olan hərbi təyinatlı strateji obyektlərə zərbələr endirməyə qadirdir.*

*Qısa müddətdə rəqabətədavamlı müdafiə sənayesini formalaşdıran Azərbaycan artıq NATO standartları səviyyəsində məhsullar istehsalını qaydaya salır və beynəlxalq müdafiə sənayesi sərgilərində uğurla təmsil olunur.*

*Xəzər dənizinin sahilində, paradın keçirildiyi Azadlıq meydanının yaxınlığında Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrinə məxsus 28 gəmi, kater və qayıq, Dövlət Sərhəd Xidmətinin 4 sərhəd-gözətçi gəmisi, Fövqəladə Hallar Nazirliyinin 2 yanğınsöndürən gəmisi və 3 xilasetmə kateri hərbi reyddə sıralanmışdı.*

*Sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələri döyüş təyyarələrinin və helekopterlərinin uçuşu hərbi paraddakı xüsusi əhval-ruhiyyəni daha da gücləndirdi. Hərbi paradda 22 döyüş və 8 təlim-məşq təyyarəsi, həmçinin 35 döyüş helekopterləri iştirak edirdi.*

*Hərbi Hava Qüvvələrinin uçuş nümayişi Mi-8 tipli helekopterin Azərbaycanın Dövlət bayrağını aparması ilə açıldı. Uçuş nümayişini Mi-17-1V və Mi-8 helekopterlərinin dəstəsi davam etdirdi.*

*Milli şahinlərimiz Mi-8 və Mi-17-1V, Mi-24, Mi-171, Mi-172, KA-32 helekopterlərini, MİQ-29 qırıcı-bombardmançı, SU-25 hücumçu, L-39 təlim-məşq təyyarələrini məharətlə idarə edərək, yüksək peşəkarlıq və döyüş qabiliyyətinə malik olduqlarını bir daha təsdiqlədilər.*

*Azərbaycanın milli şahinlərinin məharətlə idarə etdikləri SU-25 tipli təyyarə dördlüyü səmada Azərbaycan bayrağının üzərindəki üç rəngin təsvirini yaratdı.*

*Azərbaycanın müstəqilliyinin 20-ci, Silahlı Qüvvələrin 93-cü ildönümlərinə həsr olunmuş təntənəli hərbi paradın bu cür rəmzi sonluqla başa çatması müqəddəs bayrağımızın tezliklə işğaldan azad ediləcək Vətən torpaqlarında əzəmətlə dalğalanacağına olan ümidlərimizi daha da artırdı, xalqımızın bu yolda dönməzliyini və qətiyyətini növbəti dəfə təcəssüm etdirdi.*

## RUSİYANIN DAXİLİ İŞLƏR NAZİRİ RAŞİD NURQALİYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Rusiya Federasiyasının Daxili İşlər naziri Raşid Nurqaliyevi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, həmçinin daxili işlər orqanları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bölgədə sabitliyin önəmi qeyd olunaraq ölkələrimizin əlaqələrinin möhkəmlənməsinin bu işə töhfə verdiyi bildirildi. Rusiya Federasiyasının Daxili İşlər naziri Raşid Nurqaliyevin Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi və ölkələrimizin müvafiq strukturları arasında birgə əməkdaşlığın bundan sonra da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

## FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 iyun 2011-ci il*

*İyunun 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Fələstin prezidenti Mahmud Abbası qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Fələstin Dövlətinin Prezidentinə raport verdi.*

*Fələstinin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Fələstin Dövlətinin Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Mahmud Abbasa, Fələstin nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBAS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2011-ci il*

*İyunun 28-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın təkbətək görüşü olmuşdur.*

*Görüşdə siyasi, humanitar və digər sahələrdə ikitərəfli münasibətlərin vəziyyəti və inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2011-ci il*

*İyunun 28-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Fələstin prezidenti Mahmud Abbasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Prezident!

Sizi bir daha Azərbaycanda salamlamaq və dəvətimi qəbul edib ölkəmizə səfər etdiyinizə görə təşəkkür etmək istəyirəm. Bu, Fələstin Dövlətinin Prezidentinin Azərbaycana ilk səfəridir. Sizi Azərbaycanda görməyimə çox şadam. Bizim indi regional vəziyyətlə, Fələstin–İsrail münaqişəsi ilə bağlı çox səmimi, açıq və konstruktiv danışıqlarımız oldu. Biz Sizi beynəlxalq təşkilatlarda dəstəkləməkdə davam edəcəyik və üzərimizə düşən nədirsə onu edəcəyik, eyni zamanda, ikitərəfli əlaqələrimizi genişləndirməyə ümid edirik və ona yeni miqyas vermək niyyətindəyik. Əminəm ki, səfəriniz zamanı müxtəlif sahələrdə əməkdaşlıq perspektivlərini geniş müzakirə etmək və əlaqələrimizin sürətlə inkişafını görmək üçün daha çox imkanımız olacaqdır. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Mahmud Abbas:** Təşəkkür edirəm, cənab Prezident!

Biz Bakıda – Azərbaycanda olmağımızdan böyük şərəf hissi duyuruq. Bu bizim üçün ilk səfərdir. Lakin gələcəkdə çalışacağıq ki, bu səfərlərin sayı artsın.

Cənab Prezident! Öncə qeyd etdiyiniz kimi, biz bütün məsələləri, xüsusilə də ölkəmizin BMT-yə tamhüquqlu üzv dövlət olması ilə bağlı apardığımız fəaliyyəti və danışıqları müzakirə etdik.

## FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBAS İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*28 iyun 2011-ci il*

*İyunun 28-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Sizin səfəriniz tarixi xarakter daşıyır. İlk dəfə olaraq Fələstin Dövlətinin Prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdir. Mən dəvətimi qəbul etdiyinizə və Azərbaycana gəldiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır.

Əlaqələrimiz inkişaf edir. Xalqlarımız arasında əlaqələrin böyük tarixi vardır. Əsrlər boyu xalqlarımız bir-birinə böyük rəğbətlə yanaşıblar. Münasibətlərimizin indiki mərhələsində ikitərəfli əlaqələrin inkişafı üçün çox yaxşı imkanlar vardır. Biz istəyirik ki, bütün sahələrdə əlaqələrimiz inkişaf etsin və bu inkişaf hər bir istiqamətdə özünü göstərsin.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Sizin Azərbaycana səfəriniz bunun bariz nümunəsidir. Bir neçə ay bundan əvvəl Fələstin Dövlətinin Azərbaycandakı səfirliyi öz işinə başlamışdır. Bu da çox mühüm hadisədir. Əminəm

ki, səfirliyin fəaliyyəti nəticəsində ikitərəfli əlaqələrimizin inkişafı üçün yeni imkanlar müəyyən ediləcəkdir.

Biz çox istəyirik ki, iqtisadi sahədə də yaxşı əməkdaşlıq edək və əminəm ki, səfər zamanı bu məsələlər də nəzərdən keçiriləcəkdir. Hesab edirəm ki, səfər zamanı iqtisadi əməkdaşlığın dərinləşməsi və investisiya qoyuluşunun təşkili üçün konkret təkliflər irəli sürüləcəkdir. Mədəniyyət sahəsində, təbii ki, ənənəvi əlaqələrin yeni formaları haqqında düşünmək olar. Sizin səfəriniz zamanı ikitərəfli əlaqələrin bütün istiqamətləri müzakirə mövzusu olacaq və biz yaxşı nəticələrə nail olacağıq.

Bu gün biz regional məsələlər və dünyada gedən proseslər haqqında, Fələstin–İsrail danışıqlarının indiki mərhələsi ilə əlaqədar fikir mübadiləsi apardıq. Bir daha demək istəyirəm ki, Azərbaycan bütün beynəlxalq təşkilatlarda Fələstin Dövlətini dəstəkləyir. İslam Konfransı Təşkilatında, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində aparılan bütün müzakirələr zamanı Azərbaycan Fələstinin yanındadır və bundan sonra da belə olacaqdır. Hesab edirik ki, tezliklə müstəqil, suveren Fələstin Dövləti yaradılmalıdır və onun paytaxtı Şərqi Qüds şəhəri olmalıdır. Bu bizim mövqemizdir və bütün beynəlxalq təşkilatlarda biz bu mövqeni müdafiə edirik və müdafiə edəcəyik. Bu bir tərəfdən, bizim qardaşlıq borcumuzdur, digər tərəfdən, bu mövqe beynəlxalq hüquq normaları əsasında formalaşıbdır.

Bu gün regionda baş verən hadisələr haqqında fikir mübadiləsi apardıq. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların son mərhələsi haqqında Sizə məlumat verdim. Uzun illərdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü pozulubdur. Bir milyondan artıq qaçqınımız, köçkünümüz vardır. Torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycanlılar doğma torpaqlarında etnik təmizləmə siyasətinə məruz qalmışlar. İşğal edilmiş torpaqlarda bütün binalar, məktəblər,

xəstəxanalar, muzeylər, tarixi abidələrimiz, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb.

Beynəlxalq aləm bizim mövqemizi dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası məsələ ilə bağlı dörd qətnamə qəbul etmişdir. Qətnamələrdə göstərilir ki, Ermənistanın işğalçı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, bu günə qədər Ermənistan tərəfi bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatların mövqeyi də oxşardır. İslam Konfransı Təşkilatı, Avropa parlamenti, Avropa Şurası, ATƏT buna oxşar qərar və qətnamələr qəbul etmişdir. Məsələnin həlli üçün hüquqi əsaslar kifayət qədər möhkəmdir. Əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. İstəyirik ki, bunu tezliklə və sülh yolu ilə həll edək.

Cənab Prezident, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Bu səfər ölkələrimizin tarixində birinci səfər kimi qalacaqdır. Amma bundan sonra da səfərlər olmalıdır, həm nazirlər səviyyəsində, həm də biznes qurumları bir-biri ilə daha da yaxşı işləməlidirlər. Əminəm ki, biz Sizinlə bundan sonra görüşəcəyik. Bir daha xoş gəlmisiniz!

## Fələstin prezidenti Mahmud Abbasın bəyanatı

Çox sağ olun, cənab prezident İlham Əliyev! Təşəkkür edirəm! Bu qardaş ölkənin ziyarətinə dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Hökumətinizə, xalqınıza, ölkənizə Fələstin probleminin həllinə, onun öz istiqlaliyyətini, azadlığını əldə etməsi və müstəqil dövlət yaratması üçün göstərdiyiniz dəstəyə, yardıma görə təşəkkür edirəm. Paytaxtı müqəddəs Qüds olan Fələstin Dövləti. O Qüds ki, biz onu islamın üç müqəddəs yerlərindən biri hesab edirik. Onlardan birincisi – Qüds, ikincisi – Mədinə, üçüncüsü – Məkkədir.

Cənab Prezident! Biz Sizin hökumətlə hazırda əlaqələrin qurulmasının başlanğıcındayıq. Bütün sahələrdə əməkdaşlığın qurulmasının başlanğıcındayıq. Ümid edirəm ki, gələcəkdə bu əlaqələri inkişaf etdirmək üçün Sizin yardımınızı görəcəyik.

Cənab Prezident, bizə göstərdiyiniz yardıma görə, Fələstin səfirliyi üçün binanın verilməsinə və lazımi dəstəyə görə təşəkkürümü bildirirəm.

Cənab Prezident ilə danışıqlar zamanı əmin etdim ki, birinci, ikinci və üçüncü yolumuz sülh yoludur, sülh danışığından keçir. Biz deyirik ki, bütün yollar sülhə aparır. Dünya bu məsələdə bizimlə razılaşır. Əgər İsrail hökuməti beynəlxalq səviyyədə 1967-ci il sərhədlərinə qayıtsa, biz onlarla sülhə gəlmək üçün danışıqlara getməyə hazırıq. Amma çox təəssüflər olsun ki, bunu bacarmadıq. Ona görə də dedik ki, gəlin BMT-yə müraciət edək. Qoy onlar bizə desin ki, 63 ildən artıq işğal altında yaşayan xalq nə etməlidir?! Burada müştərək problemlər vardır. Sizdə də, bizdə də. Sizin də torpaqlarınız işğal altındadır. Sizdə də, bizdə də qaçqınlar vardır. Sizin haqqınızda BMT-nin məlum dörd qətnaməsi vardır – 822, 853, 874 və 884 saylı qətnamələr. BMT-nin bu dörd qətnaməsinin hamısı sülhə çağırır. Bizim haqqımızda isə BMT-nin 15 və daha artıq qərarı vardır. Bu qətnamələr də sülhə çağırır. Amma biz səbir edirik ki, bu problemlərə sülh vasitəsilə son qoyulsun. Biz bu sülhün səmərəsindən istifadə edə bilək.

Arzu edirik ki, Dağlıq Qarabağ problemi, qaçqınlar problemi həll olunsun. Biz beynəlxalq qanunlardan artıq heç nə tələb etmirik. Arzu edirik ki, onlar həll olunsun, sülh bu torpaqlarda bərqərar olsun. Dünya xalqları sülh və əmin-amanlıq şəraitində yaşasınlar.

Qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Ümid edirik ki, cənab Prezident onun üçün münasib olan vaxtda Fələstini ziyarət edəcəkdir. Arzu edirik ki, bu ziyarətlər, bu səfərlər təkrar olunsun.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*29 iyun 2011-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas iyunun 29-da Heydər Əliyev Fondunda olmuşdur.*

*Fələstin Dövlətinin başçısını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər.*

*Bildirildi ki, fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Ali qonaq fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu.*

*Prezident Mahmud Abbas fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Fələstin Dövlətinin Prezidentinə xatirə hədiyyəsi və fondun fəaliyyətindən bəhs edən kitab təqdim etdi.*

## BAKI METROPOLİTENİNİN «DƏRNƏGÜL» STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*29 iyun 2011-ci il*

*İyunun 29-da Bakının 7-ci mikrorayonu ərazisində Bakı Metropoliteninin növbəti – «Dərnəgül» stansiyasının açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Paytaxt ictimaiyyətinin nümayəndələri, Bakı Metropoliteninin əməkdaşları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev stansiyanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Baş nazirin müavini Abid Şərifov, Bakı Metropoliteninin rəisi Tağı Əhmədov və «Azərtunelmetrotikinti» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Şaiq Əfəndiyev dövlətimizin başçısına məlumat verdilər ki, Bakı Metropoliteni fəaliyyət göstərdiyi 44 il ərzində böyük inkişaf yolu keçərək 22 stansiya və 32,9 kilometr yeraltı polad yolları əhatə edən geniş şəbəkəyə çevrilmişdir. Metropolitenin inkişafı ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir. Ulu öndərin ölkəyə ilk dəfə rəhbərlik etdiyi dövrədək Bakı Metropolitenində cəmi 6 stansiya və 8,8 kilometr metro xətti var idi. 1969-cu ildən sonra isə metropolitenin 14 stansiyası və 21,1 kilometr metro xətti inşa edilərək istismara verilmişdir.*

*Bildirildi ki, prezident İlham Əliyevin qayğı və diqqəti nəticəsində son illərdə metro tikintisinə ayrılmış 600 milyon manata yaxın vəsait hesabına metropoliten xətləri inkişaf etdiril-*

*miş, «Nəsimi», «Azadlıq prospekti» stansiyaları və «28 May» stansiyasının ikinci çıxışı istismara verilmişdir. «İçərişəhər» stansiyası tamamilə yenidən qurulmuşdur. Metronun «Avtovağzal» və «Memar Əcəmi-2» stansiyalarında da inşaat işləri davam etdirilir. İctimai sərnişindaşımada müstəsna rolu olan Bakı Metropoliteninin davamlı inkişafı prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Bakı Metropoliteninin 20 illik inkişafının Dövlət Proqramı» əsasında reallaşır.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, «Dərnəgül» stansiyası paytaxt metrosunun sayca 23-cü stansiyasıdır. Metronun «Dərnəgül» də daxil olmaqla, üç stansiya və bir depodan ibarət olan üçüncü növbəsinin şimal sahəsinin tikintisinə 1989-cu ildən başlanılmışdır.*

*Dövlətimizin başçısı və xanımı Bakı Metropoliteninin inkişafına ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin diqqət və qayğısını əks etdirən filmə baxdılar. Filmdə ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Bakı Metropoliteninin keçdiyi əsaslı inkişaf yolu barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, prezident İlham Əliyev Bakı Metropoliteninin yeni inkişaf mərhələsinə təkan vermişdir. Filmdə həmçinin bu ilin avqustundan metro tikintisində ilk dəfə yeni tunellərin qazılmasında və inşasında istifadə ediləcək Almaniya istehsalı olan ən müasir tunelqazma maşınları barədə də ətraflı söhbət açıldı. Qeyd olundu ki, bu, işin keyfiyyətlə və daha sürətlə yerinə yetirilməsinə imkan yaradacaqdır.*

*Məlumat verildi ki, ilk dəfə olaraq Bakı Metropolitenində «SOS» həyəcan sistemi tətbiq edilmişdir. Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Bakı Metropoliteninin və sərnişinlərin təhlükəsizliyi üçün quraşdırılan yeni sistem barədə də ətraflı məlumat verildi.*

*Dövlətimizin başçısı mərasim iştirakçılarını yeni stansiyanın açılışı münasibətilə təbrik etdi.*

**İlham Əliyev:** «Dərnəgül» stansiyasının açılışı əlamətdar hadisədir. Bakıda yeni növbəti metro stansiyası istismara

verilir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox gözəl, yaraşıqlı, rahat stansiyadır. Burada ən qabaqcıl texnologiyalar tətbiq olunub. Təhlükəsizlik məsələləri tam şəkildə həllini tapıb, dizayn da gözəldir. Stansiya qısa müddət ərzində tikilib istifadəyə verilib. Bakıda metro stansiyalarının sayı 23-ə çatıbdır. Son illər şəhərimizdə metro tikintisi çox sürətlə gedir. 2 il əvvəl «Azadlıq prospekti» stansiyasının açılışını qeyd etmişik. «Dərnəgül» stansiyası o işlərin məntiqi davamıdır. 2008-ci ildə «Nəsimi» stansiyası tikilibdir. Növbəti illər ərzində yeni stansiyaların tikintisi də nəzərdə tutulur.

Qəbul edilmiş proqrama uyğun olaraq, 2015-ci ilə qədər Bakıda əlavə 6 metro stansiyası tikilməlidir. Çox böyük proqramdır. Qısa müddət ərzində əlavə 6 stansiyanın tikilməsi, əlbəttə ki, böyük peşəkarlıq, maliyyə resursları tələb edir. Hesab edirəm ki, yeni alınmış avadanlıqdan istifadə olunması nəticəsində biz bu proqramı icra edəcəyik.

2015-ci ildən sonra proqramımızın ikinci mərhələsi, yeni stansiyaların tikintisi başlanacaqdır. Bu proqramı hissələrə böldük ki, daha da real, konkret və qısamüddətli olsun. Ancaq metro tikintisi üzrə böyük proqram əlavə, bəlkə onlarla stansiyanın tikintisini nəzərdə tutur. Bu proqram 2030-cu ilə qədər icra edilməlidir və şəhərimizin hər bir yerində gözəl metro stansiyası tikilməlidir. Bunun böyük əhəmiyyəti vardır. Çünki metro ən rahat və ucuz nəqliyyat növüdür.

Metro tikintisi çox çətin məsələdir, çox böyük texniki imkanlar, peşəkarlıq və maliyyə resursları tələb edir. Biz isə bu işi görməklə şəhər sakinlərinin rahatlığını təmin etmək istəyirik. Metro tikintisi elə sahədir ki, oraya qoyulan vəsait, demək olar, geri qayıtmır. Birincisi, ona görə ki, metro tarifləri, yəni gedişhaqqı çox aşağıdır. Dünyada ən ucuz tariflər bizdədir. Digər tərəfdən, ona görə ki, metro tikintisi, demək olar, həmişə daha çox sosial xarakter daşıyır. Ona görə ki, buraya qoyulan vəsait və növbəti illərdə yeni stansiyaların tikilməsinə qoyulacaq vəsait insanların rahatlığı üçündür.

Azərbaycanda sosial məsələlər uğurla həll edilir. O cümlədən şəhər nəqliyyatı məsələləri həll olunur. Yeni gözəl yollar tikilir, avtobuslar alınır. İndi gözəl və çox rahat taksi maşınları alınıbdır. Dünyanın ən inkişaf etmiş şəhərlərində belə taksi maşınlarına rast gəlmək olar. İstəyirəm tezliklə onların sayı artsın ki, şəhər sakinləri keyfiyyətli nəqliyyat vasitələri ilə təmin edilsinlər.

Bu gün burada nümayiş etdirilən, metro tikintisi üçün nəzərdə tutulan yeni avadanlıq dünyada ən birinci, ən yüksək keyfiyyətə malik olan avadanlıqlardır. Bu avadanlıqdan istifadə imkan verəcəkdir ki, biz tunel işlərini daha da sürətlə, yüksək keyfiyyətlə və zövqlə aparaq. Hesab edirəm ki, bugünkü açılış onu göstərir ki, son bir neçə il ərzində tikilmiş stansiyalar və görülmüş işlər artıq sistemli xarakter daşıyır.

Növbəti stansiyaların açılışı 2013-cü ildə nəzərdə tutulur. 2013-cü ildə – bir ildə iki stansiya istismara veriləcəkdir və ondan sonra hər il biz yeni stansiyaların tikintisinə də nail olacağıq. Dövlət büdcəsində kifayət qədər vəsait nəzərdə tutulub. Peşəkarlıq vardır. Çox şadam ki, metro tikintisini Azərbaycan inşaatçıları aparırlar. Bu da yaxşı göstəricidir. Bu çox çətin işdir. Metro tikmək – burada metro inşaatçıları bunu təsdiq edə bilərlər – bəlkə də ən çətin məsələdir.

Bizdə olan məktəb və peşəkar kadrlar, bu kadrların yenidən hazırlanması, onların peşə qabiliyyətinin təkmilləşdirilməsi prosesi də uğurla gedir. Biz gərək addımlarımızı dünyada gedən proseslərə uyğun şəkildə ataq. O cümlədən dünyanın ən qabaqcıl texnologiyalarını Azərbaycana gətirməliyik və gətiririk.

Sizi bu hadisə münasibətilə təbrik edirəm. Bu stansiyanın tikintisində iştirak etmiş bütün vətəndaşlara minnətdarlığımı bildirmək istəyirəm. Bu ərazidə yaşayan sakinləri də təbrik edirəm ki, artıq onlar üçün yaxşı, gözəl şərait yaradılıb. Bilin ki, bundan sonra da işlər davam edəcəkdir. Bir daha təbrik edirəm.

**Z ə r i ş  M ə l i k o v a** *(Əməkdar müəllim)*: Hörmətli, əziz prezidentimiz İlham Əliyev! Biz Sizi Binəqədi rayonuna gəlməyiniz münasibətilə bir daha təbrik edirik, rayonumuzun bütün sakinləri adından, sadə xalqın adından, gənclərin adından salamlayırıq. Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. İşinin gərgin olmasına baxmayaraq, vaxtından bir qədər Binəqədi rayonunun sakinlərinə – bizə ayırdığına görə ona da minnətdarlığımızı bildiririk.

Siz prezident seçiləndən hər dəfə Binəqədiyə gəlişinizi böyük bayram kimi gözləyirik və qarşılayırıq. Hər gəlişinizlə bizə böyük sevinc bəxş edirsiniz. Siz Binəqədi rayonunda 12 məktəb binasını əsaslı təmir etdirdiniz. 4 məktəb binası, 14 əlavə korpus tikdirib övladlarımızın ixtiyarına verdiniz. Bunlar böyük uğurlardır. Buna görə biz Sizi həmişə dəstəkləyirik, arzulayırıq, təbrik edirik.

Bu gəlişiniz də bizə bayramdır. Bu gəlişinizlə görün bizə nə böyük töhfə verirsiniz. Metronun «Azadlıq prospekti» stansiyasının ardınca «Dərnəgül» stansiyası açılır. Bütün bunlara görə Sizə minnətdarıq.

Mehriban xanımın da respublikamız üçün gördüyü işlər əvəzsizdir. Bütün qadınlar ona bir xanımlıq nümunəsi kimi baxır, örnək götürməyə çalışır. Respublikada iki mindən çox məktəbin tikilməsində Heydər Əliyev Fondunun böyük, əvəzsiz rolu vardır. Siz böyük öndərin layiqli davamçılarısınız. Bu münasibətlə Sizə işlərinizdə böyük uğurlar arzulayıram.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun. Binəqədi rayonunun və Binəqədi qəsəbəsinin sosial-iqtisadi inkişafı ilə bağlı əlavə proqramlar icra edilir, burada yollar, su xətləri çəkilir. Ona görə açılışlar hələ çox olacaq, hələ çox görüşəcəyik.

**N i z a m i  M e h d i z a d ə** *(M.Əfəndiyev adına 2 nömrəli şəhər klinik xəstəxanasının şöbə müdiri):* Cənab Prezident, hörmətli Mehriban xanım! Sizin hər gəlişiniz rayonumuzun ərazisindəki problemlərin həll edilməsi ilə nəticələnir. Bu, insanların maddi rifahının, sosial şəraitinin yaxşılaşdırılması yolunda atılan addımlardır. Sizin verdiyiniz bütün fərman və

sərəncamlar həmişə sosialyönümlü olmuşdur. Dünən «2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011–2015-ci illər) təsdiqi bunun bariz nümunəsidir.

Sizin bizim rayonla bağlı verdiyiniz göstərişlər, gəlişləriniz zamanı qaldırılan problemlər çox yüksək səviyyədə yerinə yetirilmişdir.

Mən bir neçə kəlmə də Mehriban xanımın gördüyü işlər barədə danışmaq istəyirəm. Mehriban xanım Azərbaycan muğamının inkişafı üçün çox əvəzsiz işlər görüb. Ucqar rayonlardan istedadlı uşaqların tapılıb üzə çıxarılmasında, qısa müddət ərzində peşəkar xanəndə kimi yetişməsində və klassik muğamımızın yaşamasında Mehriban xanımın xidmətləri ölçüyəgəlməzdir. Buna görə, Mehriban xanım, Sizə ürəkdən «sağ olun» – deyirəm. Allah Sizi qorusun! Mən əminəm ki, hələ Sizinlə çox qələbələrə bir yerdə imza atacağıq. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Qabaqda hələ işlər çoxdur. Amma bütün sahələrdə çox sürətli inkişaf vardır. Bizim ordumuz, nəinki bu bölgədə, nəinki Cənubi Qafqazda, dünya miqyasında güclü orduların sırasındadır. Həm peşəkarlıq baxımından, həm döyüş qabiliyyəti, döyüş potensialı, texnika baxımından dünya miqyasında güclü orduların sırasındayıq. Biz buna qısa müddət ərzində nail olmuşuq.

İndi bəzi hallarda məsələ ilə yaxından tanış olmayan xarici dairələr bizi günahlandırırlar ki, Azərbaycan silahlanma siyasəti aparır, orduya böyük diqqət göstərir. Bütün ölkələr orduya diqqət göstərməlidir. Bu yaxınlarda Avropa qitəsində baş verən hadisələrlə əlaqədar belə fikirlər səsləndi ki, Avropa ölkələri hərbi büdcələrini daha da çox inkişaf etdirməlidir. Biz də bunu edirik. Bu bizim suveren hüququmuzdur. Əgər biz sadəcə olaraq, ordu quruculuğuna vəsait qoysaydıq, sual yarana bilərdi ki, nə üçün? Amma Azərbaycanın dövlət büdcəsi 16–20 dəfə artan zaman, əlbəttə ki, ordu quruculuğuna da, metro tikin-

tisinə də, mədəniyyət obyektlərinin tikintisinə də vəsait ayırırıq. Bu onu göstərir ki, ölkəmiz inkişaf edir və maliyyə imkanları artır.

Mən bu imkanın yaranmasında Azərbaycan xalqının zəhmətini, istedadını qeyd etmək istəyirəm. 20 ildir ki, biz müstəqil xalq kimi yaşayırıq. Özümüzə və dünyaya sübut edə bilmişik ki, biz müstəqil xalq kimi yaşaya bilərik, yaxşı yaşaya bilərik. Dünyanın ən sürətli inkişaf templərinə nail ola bilərik və dünyanın ən müasir texnologiyalarını ölkəmizə gətirə bilərik.

Baxın, bizdə nəqliyyat sahəsində ən qabaqcıl təcrübə tətbiq olunur. Şəhər nəqliyyatı, metro tikintisi. Metro tikintisi onu göstərir ki, ölkə sürətlə inkişaf edir. İnkişaf etməyən ölkədə metroya pul qoyulmur. Metroya ancaq o ölkələrdə pul qoyulur ki, orada sürətli inkişaf vardır. Müstəqilliyimizin ilk illərində daha çox iqtisadi məsələlərə fikir verirdik. Gəlir gətirən sahələrə vəsait qoyulurdu. İndi bizdə imkan və iradə var ki, bütün sahələr inkişaf etdirilsin, o cümlədən sosial məsələlər də.

Problemlər çoxdur, hələ həllini gözləyən məsələlər vardır. Ən önəmlisi odur ki, hər bir istiqamət üzrə bizdə konkret proqramlar vardır. İstər ordu quruculuğu olsun, istər mədəniyyət sahəsi, metro tikintisi, nəqliyyat, sosial məsələlər, sahibkarlıq, iqtisadi inkişaf, yoxsulluğun azaldılması – hər bir istiqamətdə nəticələr vardır. Bu reallıqdır. Bu, söz deyil, niyyət deyil, kağızda olan proqram deyildir. Bu reallıqdır. Bu reallıqları biz yaratmışıq, siz yaradırsınız. Hələ görüləsi işlər çoxdur.

Bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

## BAKI TENNİS AKADEMİYASININ MƏRKƏZİ KORTUNUN AÇILIŞI MƏRASİMİ

*29 iyun 2011-ci il*

*İyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Tennis Akademiyasının mərkəzi kortunun açılışında iştirak etmişlər.*

*İnşaatçılar və Tennis Akademiyasının əməkdaşları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev mərkəzi kortun açılışını bildirən rəmzi lenti kəsdi.*

*Azərbaycan Tennis Federasiyasının prezidenti, Milli Məclisin sədri Oqtay Əsədov dövlətimizin başçısına məlumat verdi ki, tikintisinə ötən ilin fevralında başlanılan və 5500 kvadratmetr ərazini əhatə edən mərkəzi kortda tennislə yanaşı, voleybol, həndbol, mini futbol yarışlarının keçirilməsi, eləcə də konsert proqramlarının təşkil edilməsi üçün hər cür şərait yaradılmışdır.*

*Böyük zövq və ustalıqla qurulan mərkəzi kortda beynəlxalq yarışların təşkili, o cümlədən yeniyetmə və gənc idmançıların tennislə məşğul olmaları üçün bütün imkanlar vardır.*

*Qeyd edildi ki, 3 min tamaşaçı yeri olan mərkəzi kortun tikintisi zamanı müasir materiallardan, kompakt laminatlardan istifadə olunmuşdur.*

*Mərkəzi kortla tanışlıq zamanı gənc tennisçilərin oyununu izləyən prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva idmançılarla görüşərək söhbət etdilər. Bildirildi ki, Tennis Akademiyasına maraq böyükdür. Bu idman ocağına müraciət edənlərin sayı getdikcə çoxalır. Artıq burada beynəlxalq miqyaslı yarışlar da təşkil olunur. Bu il Bakı Tennis Akademiya-*

*sında yeniyetmə və gənclər arasında Avropa tennis turniri keçirilmişdir. Bununla yanaşı, Heydər Əliyev Fondunun dəstəyi ilə iyunun 16-dan 24-dək qadınlar arasında keçirilən «Baku Cup» beynəlxalq turniri də uğurla başa çatmışdır.*

*Dövlətimizin başçısı inşaatçıları və Tennis Akademiyasının kollektivini təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Azərbaycan Tennis Akademiyasında yeni gözəl işlər görülübdür. 2 il əvvəl akademiyanın açılışında olarkən mənə bu yeni kortun tikintisi ilə bağlı məlumat verilmişdi. Çox şadam ki, 2 il keçəndən sonra ölkəmizdə ən böyük və müasir tennis kortu artıq istismara verilib. Artıq bu akademiya ən mötəbər yarışları keçirmək üçün hazırdır.

Azərbaycanda idmanın bütün növləri inkişaf edir. Ancaq idmanın tennis növünün xüsusiyyəti ondan ibarətdir ki, dünya miqyasında çox böyük marağa layiq olan bir idman növüdür. Beynəlxalq yarışlar, müxtəlif ölkələrdə keçirilən yarışlar geniş auditoriyaya malikdir. Milyonlarla insan bu yarışlara baxır.

Əminəm ki, bir neçə ildən sonra tennisçilərimiz dünyada öz sözlərini deyəcəklər. Buna şərait vardır. Burada bir neçə kort tikilibdir. Mərkəzi kort ən böyük kortdur və bundan sonrakı dövrdə təlim-məşq prosesi düzgün qurulmalıdır.

Mənə verilən məlumata görə, yaxın vaxtlarda Bakıda dünya səviyyəli beynəlxalq turnir keçiriləcəkdir. Bu da tennisin Azərbaycanda yayılmasına, populyarlaşmasına xidmət göstərəcəkdir. Bu idman növünün Azərbaycanda böyük və gözəl gələcəyi olacaqdır.

Bu akademiyanın tikintisində iştirak etmiş insanlara da minnətdarlığımı bildirmək istəyirəm, böyük zövqlə tikilibdir. Əminəm ki, həm Binəqədi rayon sakinləri, həm də, ümumiyyətlə, Bakı sakinləri burada yaradılmış imkanlardan istifadə edəcəklər.

Sizi bir daha təbrik edirəm və yeni uğurlar arzulayıram.

## HEYDƏR ƏLİYEV PARKINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*29 iyun 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Binəqədi rayonunda Heydər Əliyev adına parkda aparılmış yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 2001-ci ildə istifadəyə verilmiş parkda ötən ilin dekabr ayından yenidənqurma işlərinə başlanılmışdır. Bu ilin sonlarında istifadəyə verilməsi nəzərdə tutulan Heydər Əliyev adına parkın giriş qapısı 10 sütundan ibarətdir. Giriş qapısının hündürlüyü 12,5 metr, uzunluğu isə 80 metrdir. Parkın girişində 25 metr hündürlüyündə bayraq dirəyi ucaldılmışdır.*

*Bildirildi ki, burada Heydər Əliyev İctimai Mərkəzi də fəaliyyət göstərəcəkdir. Mərkəzin iki mərtəbədən ibarət olacaq binasının birinci mərtəbəsində foye, xarici dil mərkəzi, konfrans zalı, audio-vizual multimedia mərkəzləri, fotostudiya, istirahət və əyləncə mərkəzi, ikinci mərtəbədə isə kompyuter otağı, kitabxana və mətbuat mərkəzi, muzey, şahmat klubu və s. yerləşəcəkdir.*

*Parkda müxtəlif tədbirlər keçirmək üçün açıq meydança və fəvvarə tikilir. Həmçinin burada «Ana və uşaq» kafesi, istirahət köşkləri, uşaq əyləncə meydançası, əlil uşaqların reabilitasiyası mərkəzi inşa olunacaqdır. Parkın ərazisinə Almaniya istehsalı olan tamet döşənəcək, burada yaşıllıqlar salınacaqdır.*

*Prezident İlham Əliyev parkın eskiz layihəsinə, yenidənqurmadan sonrakı görünüşünü əks etdirən şəkillərə baxdı, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU XANIM KRİSTİN LAQARDA

Hörmətli xanım Laqard!

Beynəlxalq Valyuta Fondunun Sərəncamçı direktoru vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu mənada Azərbaycanda həyata keçirilən iqtisadi inkişaf proqramlarına Beynəlxalq Valyuta Fondunun töhfəsini məmnunluqla qeyd etmək istəyirəm.

Bu gün Beynəlxalq Valyuta Fondunun qarşısında qlobal maliyyə-iqtisadi və valyuta sisteminin idarə edilməsi üsullarının təkmilləşdirilməsinə yönəlmiş islahatların həyata keçirilməsi, maliyyə-bank sektorunun sabitliyinin təmin edilməsi, kəskin borc problemlərinin yeni qlobal maliyyə böhranına çevrilməsi təhlükəsinin qarşısının alınması kimi mühüm vəzifələr durur. Ümidvaram ki, Sizin rəhbərliyinizlə Beynəlxalq Valyuta Fondu bu məsul vəzifələrin öhdəsindən gələrək, beynəlxalq maliyyə əməkdaşlığının möhkəmləndirilməsinə əlavə təkan verəcəkdir.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, səadət, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyul 2011-ci il*

## İRAN İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ ƏLİ LARİCANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Əli Laricaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev İran İslam Şurası Məclisinin sədri Əli Laricaninin ölkəmizə səfərinin uğurlu olacağını dedi və səfərin Azərbaycan–İran əlaqələrinin inkişafı baxımından əhəmiyyətini qeyd etdi. Xalqlarımızın dostluq və qardaşlıq əlaqələrinin gücləndiyini vurğulayan prezident İlham Əliyev bu əlaqələrin iki dövlət arasındakı münasibətlərin inkişafına təkan verdiyini dedi.*

*Azərbaycan ilə İran arasında bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirən dövlətimizin başçısı siyasi sahədə əlaqələrin gücləndiyini vurğuladı. Azərbaycan prezidenti iqtisadi sahədə yaxşı nəticələrin əldə olunduğunu, xüsusilə nəqliyyat və enerji sektorlarında konkret layihələrin icra edildiyini və gələcəkdə bu istiqamətdə daha da fəal əməkdaşlıq etməyin zəruriliyini bildirdi.*

*Mədəniyyət və humanitar sahədə əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı bu sahədə əməkdaşlığı genişləndirməyin önəmini qeyd etdi. Dövlət başçısı Azərbaycan–İran əlaqələrinin ölkələrimizlə yanaşı, bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün də mühüm əhəmiyyət daşıdığını dedi. Parlamentlərarası əlaqələrə toxunan prezident*

*İlham Əliyev bu sahədə əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğuladı və əlaqələrin daha da genişləndirilməsi üçün qarşılıqlı səfərlərin zəruriliyini bildirdi.*

*Əli Laricani İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. Sonuncu dəfə Azərbaycana 14 il bundan əvvəl səfər etdiyini deyən qonaq ötən dövr ərzində ölkəmizdə çox böyük inkişaf proseslərinin şahidi olduğunu vurğulayaraq, bunu prezident İlham Əliyevin həyata keçirdiyi düzgün siyasətin nəticəsi kimi dəyərləndirdi və əldə olunan nailiyyətlərə görə dövlət başçısını təbrik etdi.*

*İran–Azərbaycan münasibətlərinin tarixi köklərə malik olduğunu deyən Əli Laricani Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkələrimiz arasında münasibətlərdə yeni səhifənin açılmasında xüsusi rolunu qeyd etdi. İran İslam Şurası Məclisinin sədri İran ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu dedi.*

*Dövlətimizin başçısı İlham Əliyev prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## «KEMPİNSKİ BADAMDAR» OTEL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyul 2011-ci il*

*İyulun 2-də Bakıda beşulduzlu «Kempinski Badamdar» otel kompleksinin açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılış mərasimində iştirak etmişlər.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını və ailə üzvlərini hərarətlə qarşıladılar.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya və Arzu Əliyevaya gül dəstələri təqdim edildi.*

*Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, respublikamızın paytaxtında «Kempinski Badamdar» otel kompleksi kimi möhtəşəm obyektin inşası Azərbaycanın qarşıya qoyduğu böyük məqsədlərin növbəti əyani nümunəsidir. Müxtəlif çeşidli yüksək xidmətin göstəriləcəyi otel kompleksi beynəlxalq səviyyəli nadir memarlıq incilərindən biridir. Bu lüks otel Avropada və dünyada xüsusi imicə malik Kempinski otellər qrupunun standartlarına uyğun inşa edilmişdir. 1897-ci ildə Berlində yaranan, mərkəzi ofisi Cenevrədə yerləşən Kempinski otellər qrupu dünyada ən böyük otel təşkilatının – Beynəlxalq Otellər Alyansının yaradıcısıdır.*

*Qeyd olundu ki, belə bir beynəlxalq səviyyəli şirkətin Azərbaycan bazarına maraq göstərməsi ölkəmizdə istər yerli, istərsə də xarici iqtisadi qurumlar üçün yaradılan əlverişli*

*investisiya mühitindən irəli gəlir. Dünyanın inkişaf etmiş ölkələri sırasında mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Bu və digər reallıqlar ölkəmizdə otel biznesinin genişləndirilməsini və keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını zəruri edir. Hazırda Azərbaycan dövləti bu baxımdan kompleks tədbirlər reallaşdırır. «Kempinski Badamdar» otel kompleksi də həmin istiqamətdə atılan əsaslı addımlardan biridir.*

*Bildirildi ki, paytaxtın Yasamal rayonunda Mikayıl Müşfiq küçəsində yerləşən «Kempinski Badamdar» otel kompleksi 2,5 hektar ərazini əhatə edir. Üç mərhələdə inşa edilən bu kompleksin ümumi sahəsi 84 min kvadratmetrdir. Ərazidə kompleks abadlaşdırma işləri aparılmış, müxtəlif çeşidli dekorativ ağac və kollar əkilmiş, yaşıllıq zolaqları salınmışdır. Mükəmməl infrastruktura malik kompleksin avadanlıqla təchizatı ən müasir standartlara uyğundur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Kempinski Badamdar» otel kompleksi istirahət mərkəzi kimi də fəaliyyət göstərəcəkdir.*

*Prezident İlham Əliyevin və ailə üzvlərinin diqqətinə çatdırıldı ki, otel kompleksindəki SPA və Sağlamlıq Mərkəzi də müasirliyi ilə diqqət çəkir. İdeal şərait yaradılmış Mərkəzin ümumi sahəsi 3,5 min kvadratmetrdir. Mərkəzdəki yapon bağçası isə sadəcə, nağıl təsiri bağışlayır. Burada səsləndirilən həzin musiqi və su şırıltısı insanda xoş ovqat yaradır, ruha təravət gətirir. Səkkiz metrlik bütöv akvariumdakı müxtəlif növ balıqlar Yaponiyadan gətirilmişdir. «Kempinski Badamdar» otel kompleksinin SPA və Sağlamlıq Mərkəzində göstərilən xidmət müştərilərdə zəngin təəssürat yaradacaq və onlara mənalı istirahət bəxş edəcəkdir.*

**İ l h a m Ə l i y e v**: Sabahınız xeyir olsun!

Sizi Kempinski otelinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Çox böyük hadisədir. Bakı şəhərində dünya şöhrətli otellər şəbəkəsi olan Kempinski oteli açılır. Otel

həm gözəlliyi ilə fərqlənir, həm də ki, burada ən yüksək şərait yaradılıbdır.

Kempinski otelinin Azərbaycanda fəaliyyətə başlaması çox gözəl hadisədir. Çünki bu otellər dünya miqyasında mühüm yer tutur. Bakıda Kempinski otelinin açılışı Azərbaycanın inkişafının göstəricisidir. Şəhərimiz inkişaf edir, gözəlləşir, yeni otellər açılır. İnvestorların Azərbaycan iqtisadiyyatına, xüsusilə xidmət sektoruna diqqəti və marağı, əlbəttə ki, bizi çox sevindirir.

Mən çox şadam ki, Bakıda belə gözəl, yaraşıqlı otel fəaliyyətə başlayır. Bu, şəhərimizə də əlavə yaraşıq, gözəllik verəcəkdir. Çox şadam ki, otelin xarici görünüşü də gözəldir və daxili tərtibatı, otaqlar, ictimai yerlər, restoranlar, əyləncə yerləri, istirahət zonaları ən yüksək səviyyədədir.

Bu il Azərbaycanda «Turizm ili» elan edilibdir. Bu, təsadüfi deyildir. Çünki turizm sektorunun inkişafına böyük diqqət göstərilir. Hesab edirəm ki, növbəti illərdə turizm sektoru Azərbaycanın iqtisadi potensialında mühüm yer tutacaqdır. İnkişaf etmiş, xüsusən də zəngin təbiətə malik olan ölkələrin iqtisadiyyatında turizm mühüm yer tutur. Azərbaycan zəngin ölkədir, turizmin inkişafı üçün gözəl yerlər vardır və biz bu imkanlardan istifadə etməliyik.

İndi bütün bölgələrdə yeni, gözəl, müasir mehmanxanalar, turizm məntəqələri açılır. Bu il təkcə Bakıda beşulduzlu 6 otel istifadəyə veriləcəkdir. Onların içində birinci otel «Kempinski Badamdar» otelidir. Bir il ərzində bir şəhərdə beşulduzlu 6 otelin, özü də ən məşhur otellər şəbəkəsinə mənsub olan otellərin fəaliyyətə başlaması onu göstərir ki, Azərbaycan sürətlə inkişaf edir, ölkəmizdə xidmət sektoru inkişaf edir. Əvvəllər investorları Azərbaycana cəlb edən sahələr enerji sektoru ilə məhdudlaşırdı. Bu da təbii idi, çünki o vaxt Azərbaycanda infrastruktur, şəhər nəqliyyatı lazımi səviyyədə deyildi, ümumiyyətlə, müstəqil ölkəmizin inkişafı birinci mərhələdə idi. Ancaq bu gün, ölkəmizin indiki dövründə xidmət sektoruna qoyulan sərmayə xüsusi

əhəmiyyət kəsb edir. Hesab edirəm ki, növbəti illərdə bu işlər bütün istiqamətlərdə daha da sürətlə aparılacaqdır.

Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu həm biz deyirik, həm də şəhərimizin qonaqları etiraf edirlər. Burada yaradılan şərait dünya səviyyəsindədir. Hesab edirəm ki, Kempinski otellər şəbəkəsinin çərçivəsində bu otel öz gözəlliyi və funksional mahiyyəti ilə fərqlənəcəkdir. Kempinski otelinin Azərbaycan ilə bağlı başqa planları da vardır. Bakıda, bəlkə də ölkəmizin digər şəhərlərində yeni təşəbbüslər irəli sürülə bilər. Hər halda, bu otelin fəaliyyətə başlaması otel biznesinə böyük təkan verəcəkdir.

Azərbaycanda xarici investisiyalar lazımi səviyyədə qorunur. Həm qanunvericilik bunu təmin edir, həm də ölkə rəhbərliyinin siyasəti bundan ibarətdir. Bunun nəticəsidir ki, adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan uzun illərdir MDB məkanında birinci yerdədir. Təkcə keçən il Azərbaycan iqtisadiyyatına təxminən 16 milyard dollar sərmayə yatırılıb.

Bu gözəl otelin tikilməsi, fəaliyyətə başlaması böyük hadisədir. Əlbəttə ki, buraya gələcək qonaqlara yaxşı xidmət göstərilməlidir. Əminəm ki, bu oteldə onun adına layiq xidmət göstəriləcək, qonaqlar burada qalmaqlarından məmnun olacaqlar.

Mən bu gün bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlmiş Kempinski otel şəbəkəsinin Avropa üzrə prezidentini xüsusilə salamlamaq istəyirəm. Bütün qonaqları salamlamaq istəyirəm və bu gözəl otelin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

* * *

*Kempinski otellər qrupunun Avropadakı otellər şəbəkəsinin prezidenti Canni van Daalen mərasimdə iştirakına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, sürətlə inkişaf edən Azərbaycanın böyük gələcəyi olacağına əminliyini vurğuladı. Qeyd etdi ki, Kempinski otellər qrupu Azərbaycanda*

*fəaliyyətə başlamaqdan məmnundur və bu əməkdaşlığın böyük perspektivi vardır. O bildirdi ki, otel kompleksində yerli kadrların işlə təmin olunması və onların ixtisaslarını artırması daim diqqət mərkəzində saxlanılacaqdır. Canni van Daalen müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün səylərini əsirgəməyəcəklərini vurğuladı.*

*Prezident İlham Əliyev «Kempinski Badamdar» otel kompleksinin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra prezident İlham Əliyev «Kempinski Badamdar» otel kompleksinin iqamətgahlar və ofislər binası ilə də tanış oldu. 14 mərtəbəli binanın birinci mərtəbəsində 850 nəfərlik ziyafət salonu yerləşir. Burada xidmət ən yüksək beynəlxalq standartlara cavab verir. On dördüncü mərtəbədəki iqamətgahlar da müasirliyi ilə seçilir. Sahəsi 750 kvadratmetr olan ən böyük iqamətgah dövlət və hökumət başçıları, eləcə də digər yüksək səviyyəli qonaqlar üçün nəzərdə tutulmuşdur. Hər bir iqamətgah bir neçə otaqdan ibarətdir. Burada təchizat maksimum səviyyədədir və kompleks xarakter daşıyır. Binanın 14-cü mərtəbəsində bar da fəaliyyət göstərir. Buradan ətrafı və paytaxtımızın gözəl panoramını seyr etmək mümkündür. Səkkiz və onuncu mərtəbədəki iqamətgahlarda hər cür şərait yaradılmışdır. Bu iqamətgahlar bir, iki, üç və dördotaqlıdır.*

*Prezident İlham Əliyev paytaxtın infrastrukturunun inkişafından bəhs edən qısa filmə baxdı.*

*Dövlətimizin başçısı və ailə üzvləri buz meydançasında kompozisiya zənginliyi və texniki elementlərin mürəkkəbliyi ilə bir-birindən fərqlənən nümunəvi çıxışları izlədilər.*

*«Kempinski Badamdar» otel kompleksi ilə tanış olan prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi və kollektivə uğurlar arzuladı.*

## QIRĞIZISTAN RESPUBLİKASI PARLAMENTİNİN SƏDRİ AXMATBEK KELDİBEKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Qırğızıstan Respublikası parlamentinin sədri Axmatbek Keldibekovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Qırğızıstan parlamentinin sədrinin böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin bütün sahələrdə müzakirə edilməsi və əlaqələrimizin gələcək inkişafının müəyyənləşdirilməsi üçün yaxşı fürsət yaradacağını dedi. Parlamentlərarası əməkdaşlığa toxunan prezident İlham Əliyev Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyətə başlamasından sonra bu əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu və ölkələrimizin parlamentlərinin bu təşkilat çərçivəsində fəal əməkdaşlıq etdiyini vurğuladı.*

*Qırğızıstan parlamentinin sədri Axmatbek Keldibekov ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi. Axmatbek Keldibekov 2008-ci ildə qırğız xalqının böyük yazıçısı və mütəfəkkiri Çingiz Aytmatovun Azərbaycanın ən yüksək mükafatlarından olan «Dostluq» ordeninə layiq görülməsinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ölkəsində Azərbaycan xalqının ümummilli lideri, böyük siyasi xadim Heydər Əliyevin xatirəsinin həmişə yüksək hörmətlə yad edildiyini qeyd edən Axmatbek Keldibekov ulu öndər Heydər Əliyevin hələ sovetlər birliyində yüksək dövlət vəzifəsində çalışdığı zaman milli respublikaların maraqlarını həmişə müdafiə etdiyini vurğuladı.*

## BAKIDA XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*4 iyul 2011-ci il*

*İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakıda Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişlər.*

*Xidmətin şəxsi heyəti və Müalicə-Diaqnostika Mərkəzinin kollektivi Azərbaycan prezidentini və xanımını hərarətlə qarşıladılar.*

*XDMX-nin rəisi, general-polkovnik Vaqif Axundov dövlətimizin başçısına raport verdi.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev səhiyyə ocağının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı və xanımı Mərkəzlə tanış oldular.*

*General-polkovnik Vaqif Axundov prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi ki, Mərkəzin tikilib istifadəyə verilməsi həm XDMX-nin, həm də Milli Qvardiyanın əməkdaşlarının sosial problemlərinin həlli istiqamətində atılan mühüm addımdır. Dövlətimizin başçısının tapşırığına əsasən, Mərkəzin yaradılması üçün XDMX-yə Yasamal rayonunun ərazisində 0,6 hektar torpaq sahəsi və müvafiq maliyyə vəsaiti ayrılmışdır. XDMX-nin əməkdaşlarının sağlamlığının qorunması, onların tibbi xidmətə olan ehtiyaclarının ödənilməsi məqsədi ilə inşa edilən bu Mərkəzdə əsasən Almaniya və digər Avropa ölkələrinin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılmışdır.*

*Bildirildi ki, bu müasir tibb ocağında ulu öndər Heydər Əliyevin xatirəsi ədəbiləşdirilmiş, «Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir» – deyən ümummilli liderin həyat və fəaliyyətinə həsr olunan fotoguşə yaradılmışdır.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Mərkəzin funksional diaqnostika və təcili yardım şöbələrinin fəaliyyəti ilə tanış oldular. Şöbələrdə xəstələrə yüksək səviyyədə xidmət göstərilməsi üçün hər cür şərait yaradılmışdır.*

*Mərkəzdə XDMX-nin və Milli Qvardiyanın formalaşmasında böyük rolu olan ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndərin və prezident İlham Əliyevin XDMX-nin şəxsi heyəti ilə görüşlərini əks etdirən fotostendlər yaradılmışdır. Binada 70 nəfərlik konfrans zalı, kompyuterlə təchiz olunmuş iclas zalı, arxiv, dəftərxana və digər xidməti otaqlar da vardır.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan xidmətin şəxsi heyətini və Mərkəzin kollektivini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi gözəl Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edir, uğurlar arzulayıram.

İki il əvvəl Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi müraciət etmişdi ki, yeni Müalicə-Diaqnostika Mərkəzi tikilsin. Mən bu təşəbbüsü dəstəklədim və qısa müddət ərzində gözəl bir Mərkəz tikildi. Əvvəlki dövrdə əməkdaşlara lazımi səviyyədə tibbi xidmət göstərilmirdi. Çünki şərait yox idi. İndi isə burada yaradılmış şərait hesab edirəm ki, ən yüksək səviyyədədir, bina çox gözəldir, rahatdır, genişdir. Daxili dizayn da çox gözəldir, ən gözəl, müasir avadanlıqlar quraşdırılıb. Bu avadanlıqlar imkan verir ki, istənilən xəstəliyin vaxtında müayinəsi və müalicəsi mümkün olsun, müasir əməliyyat blokları da vardır. Yəni ən müasir, dünya səviyyəsinə cavab verən xəstəxananın bütün əlamətləri burada vardır.

Mən çox şadam ki, qısa müddət ərzində gözəl Mərkəz tikilib və Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşlarına burada çox yüksək səviyyəli tibbi xidmət göstəriləcəkdir. Əlbəttə, burada quraşdırılan ən müasir avadanlıqda işləmək, bu avadanlığın fəaliyyətini, işini düzgün qurmaq üçün təcrübə lazımdır. Hesab edirəm ki, bu məsələ də öz həllini tapacaqdır.

Xüsusi Dövlət Mühafizə Xidmətinin çox vacib funksiyaları vardır: dövlət obyektlərinin qorunması, dövlət və hökumət qurumlarında işləyən insanların təhlükəsizliyinin təmin edilməsi. Elə etməliyik ki, Xidmətdə çalışan bütün əməkdaşların sosial problemləri layiqincə həllini tapsın.

Bu gün biz həm bu gözəl Müalicə-Diaqnostika Mərkəzinin açılışını qeyd edirik, eyni zamanda, Bakıda yeni, böyük sağlamlıq mərkəzinin təməl daşını da qoyacağıq. Bura çoxfunksiyalı böyük Mərkəz olacaqdır. Müxtəlif ixtisaslar üzrə bölmələr fəaliyyət göstərəcəkdir. Hesab edirəm ki, Bakı Sağlamlıq Mərkəzinin tikilib istifadəyə verilməsindən sonra şəhərimizin əsas səhiyyə istiqamətləri lazımi səviyyəyə qalxacaqdır.

Mən sizi bu gözəl Mərkəzin açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm və çox şadam ki, bu Mərkəz qısa müddət ərzində, böyük zövqlə tikilib. Burada quraşdırılan və mənə göstərilən avadanlıqlar inkişaf etmiş ölkələrin ən qabaqcıl xəstəxanalarında tətbiq olunur. Azərbaycanda tətbiq olunan bütün qabaqcıl təcrübə ən yüksək səviyyədə olmalıdır.

Burada müalicə olunacaq xəstələrin sağlamlığı Mərkəzdə çalışan tibb işçilərindən asılıdır. Əminəm ki, siz çox gözəl tibbi xidmət göstərəcəksiniz və hər halda, burada yaradılmış şərait bunu deməyə əsas verir. Bir daha sizi ürəkdən təbrik edirəm və sizə uğurlar arzulayıram.

**V a q i f  A x u n d o v** *(Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi, general-polkovnik):* Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Bu gün bizim üçün çox xoş bir gündür. Sizin bu tibb mərkəzinə gəlişiniz bizim üçün tarixi bir hadisəyə çevrilib.

Siz bizim şəxsi heyət ilə artıq altıncı dəfədir ki, görüş keçirirsiniz. 2005-ci ilin oktyabr ayında bizim hərbi şəhərciyin, inzibati binanın açılışında Sizin şəxsi heyətlə ilk görüşünüz olub. İkinci görüşünüz 2007-ci ilin oktyabr ayında bizim müasir tələblərə cavab verən Təlim-Tədris Mərkəzinin açılışında olub. Orada Siz şəxsi heyətin qarşısında çıxış etdiniz. Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyətinin qarşısında döyüş tapşırıqlarını qoydunuz. O tapşırıqlar bu gün şəxsi heyət tərəfindən çox yüksək peşəkarlıqla yerinə yetirilir.

Cənab Prezident, Sizin bundan əvvəlki görüşlərinizdən biri də 2010-cu ildə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Departamentinin inzibati binasının açılışında olub. Bu binanın açılışında da Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti qarşısında qoyduğunuz yeni vəzifələr əsasında onun maddi-texniki bazası genişləndirilir və gücləndirilir.

Cənab Prezident, bütün şəxsi heyət adından Sizi bir daha əmin etmək istəyirəm ki, Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti qarşısında qoyduğunuz bütün döyüş tapşırıqları böyük şərəflə, layiqincə yerinə yetiriləcəkdir. Biz fəaliyyətimizdə, işimizdə Sizə sədaqətimizi daim nümayiş etdirəcəyik.

Sizə bir daha «Çox sağ olun!» – deyirəm, cənab Prezident. Buraya gəldiyinizə, bu Mərkəzi açdığınıza və bu dəyərli vaxtınızı bizə sərf etdiyinizə görə çox sağ olun.

* * *

*Prezident İlham Əliyev yaradılmış şəraitdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## BAKI SAĞLAMLIQ MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*4 iyul 2011-ci il*

*İyulun 4-də Bakı Sağlamlıq Mərkəzinin təməlqoyma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı İlham Əliyev Bakı Sağlamlıq Mərkəzinin eskiz layihəsinə və görünüşünü əks etdirən fotoşəkillərə baxdı.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezident İlham Əliyevə inşa ediləcək yeni səhiyyə ocağı barədə məlumat verdi. Bildirdi ki, dövlətimizin başçısının 2010-cu il 6 avqust tarixli Sərəncamı əsasında inşa ediləcək Bakı Sağlamlıq Mərkəzi 2 korpusdan ibarət olacaqdır. Tikintinin ümumi sahəsi 45 min kvadratmetrdir. Mərkəzin layihələndirilməsi və tikintisi üçün prezidentin ehtiyat fondundan 5 milyon manat ayrılmışdır. Mərkəzdə müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans salonu da nəzərdə tutulur. Altımərtəbəli korpusda məsləhət kabinetləri, şüa diaqnostikası, funksional diaqnostika, endokrinoloji, terapiya, reabilitasiya, tibbi bərpa və s. şöbələr yerləşəcəkdir. Cərrahiyyə əməliyyatları da bu korpusda aparılacaqdır. Cərrahiyyə şöbəsi 123, reanimasiya və intensiv terapiya şöbəsi isə 30 çarpayılıqdır.*

*Prezident İlham Əliyev gilizi Mərkəzin təməlinə buraxdı və beton qarışığı tökdü.*

*Dövlətimizin başçısı inşaatçılara uğurlar arzuladı.*

**İ l h a m Ə l i y e v:** Şəkildə çox gözəl görünür, gərək reallıqda da gözəl olsun. Elə çalışaq ki, iki il yarıma istifadəyə verilsin. Sizə uğurlar arzulayıram.

## BİR QRUP İCTİMAİ XADİMİN «DOSTLUQ» ORDENİ VƏ «TƏRƏQQİ» MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ MƏRASİMİ

*Heydər Əliyev sarayı*

*5 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə təltif olunmuş bir qrup ictimai xadimə iyulun 5-də Heydər Əliyev sarayında, Dünya azərbaycanlılarının III qurultayında fasilə zamanı «Dostluq» ordenini və «Tərəqqi» medalını təqdim etmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təltif barədə 2011-ci il 4 iyul tarixli Sərəncamı oxundu.*

*Dövlətimizin başçısı Avropa Azərbaycanlıları Konqresinin prezidenti Başar Kömürə, Azərbaycan Universitetinin Fəxri doktoru Ertan Demirtaşa, «Azİs» Azərbaycan–İsrail Beynəlxalq Assosiasiyasının prezidenti İosif Şaqala, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Fondunun sədri Mehmet Akkan Suverə, Şimali Kipr Yaxın Doğu Universitetinin qurucu rektoru Suat Günselə, Rusiya Elmlər Akademiyasının akademiki Vladimir Kolesnikova «Dostluq» ordenini, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevaya isə «Tərəqqi» medalını təqdim etdi.*

*Mükafat alanlar Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildirdilər. Qeyd etdilər ki, xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinin yüksək qiymətləndirilməsi prezident İlham Əliyevin diaspor quruculuğuna diqqət və qayğısının əyani göstəricisidir. Bu mükafat onları daha fəal olmağa, Azərbaycan həqiqətlərinin təbliği işinə yeni töhfələr verməyə ruhlandırır.*

## DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA İŞTİRAK

*5 iyul 2011-ci il*

*Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ötən dövr ərzində milli dövlət quruculuğu sahəsində mühüm nailiyyətlər əldə etmiş, özünün hüquqi-siyasi, sosial-iqtisadi dayaqlarını möhkəmləndirmiş, iqtisadi potensialına, demokratik inkişaf səviyyəsinə, beynəlxalq aləmdə tutduğu mövqeyə görə regionun şəksiz lider dövlətinə çevrilmişdir. Əldə edilmiş nailiyyətlər ölkə daxilində milli birliyin möhkəmlənməsinə, dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə səbəb olmuş, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandırmış, ölkəmizin milli maraqları ətrafında sıx birləşmələri üçün zəmin yaratmışdır.*

*Dünya azərbaycanlılarının I qurultayı 2001-ci il noyabrın 9–10-da ümummilli lider Heydər Əliyevin sərəncamı ilə keçirilmişdir. Məhz bu qurultay xaricdəki soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşərək təşkilatlanması baxımından tarixi əhəmiyyət kəsb etmiş, milli diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur.*

*Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına ciddi təsir göstərmişdir. Həmin qurultayda ulu öndərin böyük iftixarla söylədiyi «Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam» kəlamı dillər əzbəri olmuşdur.*

*Azərbaycan prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması həmin il dekabrın 27-də «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında»*

*Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının təşkilatlanması prosesini daha da gücləndirmişdir.*

*Ümummilli liderimizin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan prezidenti İlham Əliyev də ulu öndərin bu siyasətini uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan həqiqətlərinin daha geniş coğrafiyada dünya ictimaiyyətinə çatdırılması, diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi ilə 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq həmin il martın 16-da Bakıda Dünya azərbaycanlılarının II qurultayı keçirilmişdir. Bir il sonra 2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu isə bütün türk xalqlarının həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan prezidentinin türk dünyasının birliyinə verdiyi önəmin parlaq təzahürü kimi tarixə düşmüşdür.*

*Prezident İlham Əliyev 2008-ci il noyabrın 19-da Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman imzalamışdır.*

*Həmin il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının toplantısında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edilmişdir.*

*Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı isə özünün çoxşaxəli fəaliyyəti ilə əsl nümunə nümayiş etdirir. Qurumun sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr, həyata keçirilən tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır.*

*Prezident İlham Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü haqqında bu il yanvarın 21-də imzaladığı Sərəncama uyğun olaraq keçirilən Dünya azərbaycanlılarının III qurultayında dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı*

*elm, ictimai və mədəniyyət xadimləri, iş adamları Bakıya gəlmişlər.*

*İyulun 5-də Heydər Əliyev sarayında Dünya azərbaycanlılarının III qurultayı öz işinə başladı. Qurultaydan əvvəl çoxsaylı nümayəndələr səhər tezdən Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdilər. Onlar ulu öndərin xatirəsini dərin ehtiramla anaraq, abidəsi önünə əklil qoydular, gül-çiçək dəstələri düzdülər.*

*Sonra qonaqlar görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər güllər qoydular.*

*Qurultay nümayəndələri Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini böyük ehtiramla yad etdilər, şəhid məzarları üzərinə güllər düzdülər, «Əbədi məşəl» abidəsi önünə tər çiçəklərdən hörülmüş əklil qoydular.*

*Heydər Əliyev sarayının foyesində Azərbaycan diasporuna dövlət qayğısını əks etdirən fotosərgi təşkil edilmişdir. Stendlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin ötən qurultaylarda və müxtəlif dövrlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərində çəkilmiş fotoşəkillər, milli diasporumuzun inkişafı ilə bağlı imzalanmış fərman, sərəncam və qanunların nüsxələri, diaspor quruculuğundan, respublikamızın sosial-iqtisadi inkişafından, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətdən bəhs edən kitablar və jurnallar, milli adət-ənənələrimizi, mədəniyyətimizi təbliğ edən videomateriallar nümayiş etdirildi.*

*Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söylədi.*

## DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA NİTQ

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!
Əziz həmvətənlər!

Mən sizin hamınızı Dünya azərbaycanlılarının III qurultayının açılışı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Bu qurultay çox əlamətdar bir hadisədir. Bakıda Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi artıq gözəl ənənəyə çevrilmişdir. Bu ənənənin təməlini 2001-ci ildə ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq dünya azərbaycanlıları bir araya gəldilər, çox gözəl qurultay keçirildi. Ondan sonra dünyada yaşayan azərbaycanlıların təşkilatlanması üçün yeni şərait yaradılmışdır.

2002-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. İndi onun adı Diasporla İş üzrə Komitədir. Bütün qitələrdə yaşayan soydaşlarımız komitənin fəaliyyəti nəticəsində öz təşkilatlarını yaratmışlar. Bu təşkilatlar bu gün artıq bütün qitələrdə, bütün ölkələrdə uğurla fəaliyyət göstərir.

Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi elan edilmişdir. Bu gün 31 dekabr bizim milli bayramımızdır.

Bu gün nümayiş olunan filmdə ölkəmizin inkişafının müxtəlif istiqamətləri göstərilmişdir. Azərbaycan bu il müstəqilliyinin 20 illik yubileyini qeyd edir. Bu 20 il ərzində biz

böyük və şərəfli yol keçmişik. İyirmiillik yubileyi qeyd edərkən ölkəmiz, xalqımız üçün ulu öndər Heydər Əliyevin verdiyi töhfələri bir daha yada salırıq. Müstəqil Azərbaycan üçün ən həlledici anlarda Azərbaycan xalqının tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bilmişdir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan müstəqilliyə qovuşmuşdur. Ancaq o vaxt ölkədə gedən proseslər və mövcud olan ağır vəziyyət müstəqilliyimizi sual altına qoymuşdu. Ölkədə xaos, anarxiya, kütləvi itaətsizlik hökm sürürdü. İqtisadi və siyasi tənəzzül faktiki olaraq ölkəmizi uçuruma aparırdı. Bundan əlavə, Ermənistanın Azərbaycana qarşı təcavüzü və təcavüz nəticəsində torpaqlarımızın işğal altına düşməsi, daxili çəkişmələr, qarşıdurmalar və vətəndaş müharibəsinin başlanması müstəqilliyimizin ilk illərinin hadisələri idi.

1993-cü ildə Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bütün xoşagəlməz hallara son qoyuldu. Ölkəmizdə sabitlik yarandı və Azərbaycanda inkişaf dövrü başlandı. Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, qurucusudur. Bu gün Azərbaycan onun qoyduğu yolla gedərək inkişaf edir.

Azərbaycanın inkişaf istiqamətləri 1993-cü ildə və dövlətçiliyimizin formalaşmasının ilk illərində müəyyən edilmişdir. O dövr üçün bu təşəbbüslər həlledici məna daşıyırdı. Çünki bu gün Azərbaycanın reallıqları məhz o dövrdə müəyyən edilmiş və seçilmiş istiqamətlər üzərində qurulmuşdur. Azərbaycan dünya birliyinə inteqrasiya etməli, açıq qapılar siyasəti aparmalı, xarici investisiyaları cəlb etməli idi. Biz bütün bunlara nail ola bilmişik. Azərbaycanda demokratik, dünyəvi dövlətin qurulması da məhz Heydər Əliyevin siyasətinin nəticəsidir. Bu gün Azərbaycan sürətlə və uğurla inkişaf edən ölkədir. Ölkəmizdə siyasi proseslər müsbət istiqamətdə gedir, siyasi sistem təkmilləşir, demokratik əsaslarla idarə olunur. Söz, vicdan, mətbuat azadlığı, insan hüquqlarının

qorunması məsələləri bizim üçün prioritetdir. Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Bütün beynəlxalq qurumlarla, beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq aparırıq.

Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Əsas Qanunumuz imkan verir ki, ölkəmiz uğurla və sürətlə inkişaf etsin.

Biz milli-mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Əsrlər boyu Azərbaycan xalqı milli-mənəvi dəyərlərini, ana dilini – Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir. Bununla bərabər, dünyada mövcud olan və bizim üçün məqbul sayılan ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq olunur, geniş modernləşmə siyasəti aparılır. Biz bundan sonrakı dövrdə də bu siyasətə sadiq qalacağıq.

Son illər aparılan iqtisadi islahatlar nəticəsində ölkə tam şəkildə özünü təmin edə bilir və hətta dünya üçün çox böyük problemlər yaratmış maliyyə və iqtisadi böhran Azərbaycana çox az təsir etmişdir. Ən böhranlı illərdə – 2008-ci, 2009-cu, 2010-cu illərdə Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir, iqtisadiyyatımız artmışdır.

Azərbaycanda siyasi və iqtisadi islahatlar bir-birini tamamlayır. Məqsədimiz ondan ibarətdir ki, bu islahatların dərinləşməsi nəticəsində güclü, müasir dövlət yaradılsın. Biz artıq bu istiqamətdə çox böyük nailiyyətlərə çata bilmişik.

Son 7 ildə ölkə iqtisadiyyatı üç dəfə, ümumi daxili məhsul 300 faiz artmışdır. Bu da dünya praktikasında analoqu olmayan bir təcrübədir. Sənaye istehsalı da təxminən üç dəfə artmış, yoxsulluq şəraitində yaşayanların sayı 5 dəfə azalmışdır. Bu onu göstərir ki, bizim tərəfimizdən aparılan islahatlar sosialyönümlü islahatlardır. Siyasətimizin təməlində insan amili dayanıbdır və bir neçə il əvvəl elan edilmiş «Biz neft kapitalını insan kapitalına çevirməliyik» şüarı bu gün reallaşır. Nəticədə iqtisadiyyatımızın bütün istiqamət-

lərində bir canlanma və inkişaf görürük. Maliyyə imkanlarımız genişlənir, xarici və daxili investisiyalar qoyulur. Təkcə keçən il ölkəmizə 16 milyard dollar sərmayə qoyulmuşdur. Ümid edirəm ki, bu il bu rəqəm daha da böyük olacaqdır.

İqtisadi müstəqillik imkan verir ki, beynəlxalq məsələlərlə bağlı fikrimizi açıq-aydın ifadə edək. Bölgədə gedən proseslərə Azərbaycanın təsir imkanları artır. Bu da təbiidir. Çünki Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir. Onu da qeyd etməliyəm ki, ümumi daxili məhsulun 80 faizi özəl sektorda formalaşır. O da öz növbəsində göstərir ki, Azərbaycanda liberal islahatlar uğurla aparılır.

Regional əməkdaşlıq təşəbbüslərinin irəli sürülməsi nəticəsində regionda çox gözəl əməkdaşlıq iqlimi yaranmışdır. Ulu öndər Heydər Əliyevin neft strategiyası çərçivəsində irəli sürdüyümüz təşəbbüslər gözəl nəticələrini verməkdədir. Azərbaycan çox uğurlu enerji siyasəti aparır. Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, son aylar daha çox Azərbaycanın adı çəkilir və bu da təbiidir. Biz bundan sonra da bu siyasətə sadiq qalacağıq. Azərbaycanın inkişafı təkcə iqtisadi addımlarla məhdudlaşmamalıdır, bütün istiqamətlərdə ən qabaqcıl texnologiyalar, ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq olunmalı, insanların yaşayış səviyyəsi ildən-ilə artmalıdır. Buna nail olmaq üçün bütün imkanlar vardır. Bizim düşünülmüş strategiyamız vardır və taktiki addımlarımız da çox uğurludur. Azərbaycan nə xarici, nə daxili siyasətdə, nə də icra etdiyi proqramlarda bir dəfə də olsun səhv etməmişdir. Nəticədə bu gün ölkəmizin dünyadakı hörməti xeyli artmışdır.

Azərbaycan etibarlı tərəfdaş kimi tanınır, bizim sözümüzə inanırlar. Bizimlə əməkdaşlıq və dostluq etmək istəyən ölkələrin sayı artmaqdadır. Müstəqillik ən böyük sərvətdir, ən böyük uğurumuzdur. Azərbaycan 20 ildir ki, müstəqil yaşayır, xalqı azaddır və öz taleyinin sahibidir, Azərbaycan

xalqının iradəsi bizim üçün ən vacib amildir. Ölkə qarşısında duran sosial-iqtisadi məsələlərin həlli əminəm ki, bundan sonra da uğurla icra ediləcəkdir. Çünki bunu deməyə əsas verən bizim təcrübəmiz, artıq əldə edilmiş maliyyə potensialımız və iqtisadi imkanlarımızdır.

Ölkə qarşısında duran ən ağrılı problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Əfsuslar olsun ki, uzun illər danışıqların aparılmasına baxmayaraq, bu məsələ həllini tapmır. Torpaqlarımız işğal altındadır, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü müdafiə edir, dəstəkləyir. Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, digər təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü orada müdafiə edilir və işğalçı qüvvələrin işğal edilmiş torpaqlardan çıxarılması da orada nəzərdə tutulur. Əfsuslar olsun ki, məsələ həllini tapmır. Bunun yeganə səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və sülhə hazır olmamasıdır. Ancaq biz yaxşı bilirik ki, gec-tez Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir.

Biz istəyirik ki, bunu sülh yolu ilə və tezliklə həll edək. Ermənistan tərəfi də anlamalıdır ki, artıq Azərbaycanda yaradılmış potensial Ermənistanın potensialı ilə müqayisə edilə bilməz. Bizim iqtisadi imkanlarımız və iqtisadi potensialımız Ermənistandakından 10 dəfə artıqdır. Vaxt keçdikcə bu fərq daha da çoxalacaq, iki ölkə arasındakı uçurum daha da genişlənəcəkdir. Ona görə Ermənistanın marağında olmalıdır ki, bu məsələ tezliklə öz həllini tapsın. Çünki Azərbaycanla rəqabət aparmaq indi onların gücündə deyildir. Bizim təkcə hərbi xərclərimiz Ermənistanın bütün dövlət büdcəsindən 50 faiz artıqdır. Azərbaycan dünya miqyasında zəngin ölkələrin arasında olacaqdır. Artıq beynəlxalq təşkilatların reytinqlərində Azərbaycanın mövqeləri istənilən istiqamətdə çox yüksəkdir. İqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinə görə biz MDB məkanında birinci yerdəyik. İnformasiya-

kommunikasiya texnologiyalarının tətbiqinə və hazırlığına görə biz MDB məkanında birinci yerdəyik. İnsan inkişafı indeksinə görə də ən böyük sıçrayışı Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə Azərbaycan etmişdir.

Biz çox yaxşı bilirik ki, 5 il, 10 il sonra Azərbaycanın potensialı nədən ibarət olacaqdır. Ona görə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunması həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına cavab verir. Beynəlxalq birlik də istəyir ki, bu münaqişəyə son qoyulsun. Son aylar ərzində bizi ruhlandıran vacib amillərdən biri də odur ki, bu məsələ ilə bağlı vasitəçilər və onların dövlət başçıları birmənalı şəkildə bildirirlər ki, status-kvo qəbuledilməzdir. Status-kvonun dəyişdirilməsi təbii ki, torpaqlarımızın işğal altından çıxmasını tələb edir. Ümid edirik ki, danışıqların nəticəsi olacaqdır. Azərbaycan danışıqlarda hər zaman konstruktivlik nümayiş etdirmişdir. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib tezliklə ərazi bütövlüyümüzü bərpa edək.

Siz, dünyada yaşayan azərbaycanlılar yaxşı bilirsiniz ki, Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız o ərazilərdə yaşamışdır, yaratmışdır. Ermənilər o əraziyə qonaq kimi gəlmişlər. Biz onların Dağlıq Qarabağa gəlməyinin tarixçəsini də yaxşı bilirik. 1978-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağda onların Dağlıq Qarabağa köçürülməsini əks etdirən abidə ucaldılmışdır. Müharibənin ilk illərində ermənilər o abidəni dağıtmışlar. Ancaq tarixi dəyişdirmək mümkün deyildir.

Tarix dəyişməzdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Zəngəzu-

run Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqemizi müdafiə edir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının verdiyi bəyanatda da Helsinki Yekun Aktına istinad edilir. Helsinki Yekun Aktında açıq-aydın göstərilir ki, ərazi bütövlüyü prinsipləri xalqların öz müqəddəratını müəyyən etmək prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Beləliklə, hüquqi cəhətdən də mövqemiz güclüdür.

Siyasi proseslərə təsir imkanları baxımından da Azərbaycan daha əlverişli mövqedədir. Çünki həm coğrafi baxımdan, həm gördüyümüz işlər, infrastruktur, enerji siyasəti, bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və Azərbaycanın rolu, əlbəttə ki, siyasi cəhətdən də çəkimizi daha da artırır. Mən şübhə etmirəm ki, bütün bu amillər, üstəgəl Azərbaycan Ordusunun güclənməsi nəticəsində biz Dağlıq Qarabağ münaqişəsini həll edə biləcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və bərpa ediləcəkdir.

Əziz dostlar, əziz həmvətənlər, bir daha sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, Vətənə gəlmək sizin üçün çox xoşdur. Bakının müasir görkəmi də əminəm ki, sizə çox xoş təəssürat bağışlayır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakı bizim paytaxtımızdır, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişaf planları da vardır. Əminəm ki, hər dəfə Bakıya gələndə siz şəhərimizin yeni, gözəl guşələri ilə tanış olacaqsınız. Bu fürsətdən istifadə edərək istərdim ki, Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti ilə bağlı fikirlərimi sizinlə bölüşüm.

Çox şadam ki, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşıb. Birinci qurultaydan keçən dövrdə, yəni 10 il ərzində böyük işlər görülübdür, təşki-

latların sayı artıbdır. 5 il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatıbdır. Bu çox vacibdir. Ancaq kəmiyyət bu məsələ ilə əlaqədar bəlkə də həlledici rol oynamır. Çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilər. Təşkilatlar arasında koordinasiya işlərinin aparılması onların fəaliyyətini daha da gücləndirir. Diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə bütün Azərbaycan icmasını birləşdirməlidir. İdeal variant ondan ibarət ola bilər ki, hər bir azərbaycanlı diaspor təşkilatlarına üzv olsun, onların tədbirlərində iştirak etsin, öz dəstəyini versin, öz köməyini göstərsin və diaspor təşkilatları tərəfindən də lazım olanda kömək görsün. Bunu etmək üçün bu təşkilatlar daha da güclü olmalıdır. Mən hesab edirəm ki, ən vacib amillərdən biri diaspor təşkilatlarının birliyidir. Bəzi hallarda bir ölkədə bir neçə diaspor təşkilatı fəaliyyət göstərir, böyük ölkələrdə, əlbəttə ki, onların sayı onlarladır. Əksər hallarda cəmiyyətlər arasında əlaqələr sağlamdır. Ancaq elə hallar var ki, orada müəyyən ziddiyyətlər, müəyyən problemlər, anlaşılmazlıqlar ortaya çıxır. Çox xahiş edirəm ki, əgər belə bir hal varsa, buna son qoyulsun. Çünki biz ölkə daxilində də, xaricdə də bir yerdə olmalıyıq. Birlik bizi gücləndirir. Birlik olmasa, güclü ola bilmərik. Bu aksiomadır. Ona görə də diaspor təşkilatlarının fəaliyyətinin inkişafı üçün biz birliyi tam şəkildə təmin etməliyik. Azərbaycanın dünyadakı daimi və diplomatik nümayəndəliklərinin sayı da artmaqdadır. Keçən qurultay zamanı bizim 46 səfirliyimiz və konsulluğumuz var idi. Hazırda onların sayı 65-ə çatmışdır. Yaxın zamanlarda 8 ölkədə yeni səfirlik və konsulluğun açılışı nəzərdə tutulur. Bu, ilk növbədə Azərbaycan dövlətinin qüdrətini göstərir. Hazırda 65-dir və 73-ə çatanda, əlbəttə ki, dünya miqyasında elə vacib ölkə qalmayacaq ki, orada səfirliyimiz olmasın. Səfirliklərlə diaspor təş-

kilatları arasındakı əməkdaşlıq daha da güclü, daha da məqsədyönlü olmalıdır.

Mən çox dərinə getmək istəməzdim, amma bəzi hallarda səfirliklərlə diaspor təşkilatları arasında olan ziddiyyətlər məni çox incidir. Biz buna yol verməməliyik. Səfirlik Azərbaycan dövlətinin bir parçasıdır, rəsmi nümayəndəliyidir, Azərbaycan dövlətinin xarici ölkələrdə simvoludur. Elə etməliyik ki, səfirliklərlə diaspor təşkilatları arasında daim mehriban münasibətlər olsun. Əgər hər hansı bir problem, anlaşılmazlıq, yaxud da ki, narazılıq varsa, dərhal öz həllini tapmalıdır. Hər kəs öz küncünə çəkilməməlidir ki, biz sonra müdaxilə edək və vəziyyəti normallaşdırmağa çalışaq. Onlar özləri bir-birinə hörmətlə yanaşmalıdırlar, bir-birinin fəaliyyətini dəstəkləməlidirlər, çünki bizim bir Vətənimiz var – Azərbaycan. Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, onun dövləti haqqında müsbət imic formalaşsın, xalqı haqqında reallığı əks etdirən bir təəssürat yaransın. Əgər xarici ölkə vətəndaşları görsələr ki, azərbaycanlılar xaricdə bir-biri ilə yola getmirlər, yaxud da ki, bir-birinin əleyhinə iş aparırlar, onlarda ölkə haqqında, xalqımız haqqında düzgün olmayan təəssürat yarana bilər. Sizdən xahiş edirəm ki, bu vaxta qədər kimin səhvindən nə olubsa olub, onu gərək qoyaq kənara, o səhifəni bağlayaq. Bundan sonra diaspor təşkilatları və səfirliklər bir komanda şəklində, bir yumruq kimi işləməlidirlər.

Biz səfirliklərlə diaspor təşkilatları arasında çox gözəl əməkdaşlıq edirik. Lakin elə hallar da var və əminəm ki, bu qurultaydan sonra bu məsələlər də yoluna qoyulacaqdır.

Diaspor təşkilatlarının fəaliyyəti erməni lobbisinin Azərbaycan əleyhinə apardığı çirkin kampaniyaya qarşı tutarlı bir cavab olmalıdır. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində bizim nə böyük maliyyə imkanlarımız var idi, nə də xaricdə yaşayan azərbaycanlılar da o vaxt hələ təşkilatlanmamışdılar. Ancaq hazırda bütün ölkələrdə diaspor təşkilatlarımız erməni təbliğatına qarşı Azərbaycan reallıqlarını

ortaya qoyurlar. Mən bu hərəkətləri, bu siyasəti alqışlayıram və bizim diaspor təşkilatlarının üzvlərinə bu fədakar və çox gözəl missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. Biz çalışmalıyıq ki, Azərbaycan haqqında reallıqları bütün dünyaya bildirək. Bizə qarşı dünyada erməni lobbisi fəaliyyət göstərir, mübarizə aparır. Onların təsir dairəsində olan bəzi siyasətçilər, bəzi ictimai qurumlar Azərbaycana qarşı ləkələmə kampaniyası aparırlar. Azərbaycan reallıqlarını təhrif etmək üçün uydurmalar, düzgün olmayan faktlar yayırlar, yalanlar, böhtanlar yağdırırlar.

Azərbaycan dövləti özünü qoruyur və qoruyacaqdır. Çox şadam ki, diaspor təşkilatlarımız da nəinki erməni lobbi təşkilatlarına tutarlı cavab verir, eyni zamanda, Ermənistana qarşı çox ciddi və real faktlar əsasında qurulmuş təbliğat işləri aparırlar. Mən xaricdə çalışan səfirlərimizlə görüşlərdə həmişə demişəm və bu gün də demək istəyirəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalı, özünümüdafiə xarakteri daşımamalıdır. Hücum diplomatiyamız nəticə verir. Xüsusilə nəzərə alsaq ki, Ermənistan–Azərbaycan münaqişəsində haqlı tərəf və zərər çəkən tərəf bizik, əlbəttə, arqumentlərimiz daha da ciddidir və daha da tutarlıdır. Hesab edirəm ki, növbəti dövrdə də erməni lobbisinə qarşı bütün dünyada mübarizəmizi davam etdirməliyik, onların yalanlarını ifşa etməliyik, Azərbaycan həqiqətlərini təbliğ etməliyik və Azərbaycan reallıqlarını olduğu kimi təqdim etməliyik. Müxtəlif konfranslar, simpoziumlar, «dəyirmi masa»lar keçirilir. Mən bunu alqışlayıram. Qəzetlər buraxılır, qəzetlərin sayı daha da çox olmalıdır və mütəmadi qaydada xaricdə Azərbaycan dilində qəzetlər buraxılmalıdır. O ölkələrin dillərində qəzetlər, jurnallar buraxılmalı, təbliğat xarakterli materiallar nümayiş etdirilməlidir. Biz indi internet dövründə yaşayırıq və Azərbaycanda internet azaddır. Bu da çox vacib bir məsələdir. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizə çatmışdır. Bəzi hallarda yenə də erməni təbliğatı nəticəsində, yaxud da ki, erməni lobbisinin təsiri altında olan bəzi riyakar siyasətçilər tərəfindən

Azərbaycanda guya mətbuat azadlığının olmaması haqqında fikirlər eşidirik. Necə ola bilər ki, azad internet olan ölkədə, internet istifadəçilərinin sayı 50 faiz olduğu təqdirdə, bütün azad mətbuat mövcud olduğu təqdirdə bizə desinlər ki, burada mətbuat azad deyil?! Azərbaycanın bugünkü reallıqlarını, siyasətini əks etdirən çoxsaylı saytlar yaradılmalıdır, dövlət qurumları bu işlərdə də öz köməyini göstərməlidir.

Soydaşlarımız – azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdırlar. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır. Ümid edirəm ki, biz növbəti qurultaya qədər artıq bu barədə də yaxşı xəbərlər eşidəcəyik. Bu həm orada yaşayan azərbaycanlılar üçün bir dəstək olacaq, dayaq olacaq, həm ölkəmiz üçün. Çünki xaricdə azərbaycanlılar nə qədər güclü olsa, dövlətimizin maraqları da o qədər yaxşı müdafiə olunacaqdır. Azərbaycan nə qədər güclü olsa, soydaşlarımız özlərini o qədər də əmin, rahat hiss edəcəklər.

Xaricdə yaşayan soydaşlarımızın müəyyən hissəsi kommersiya strukturlarında işləyir. Daha çox bizneslə məşğul olurlar. Onların kifayət qədər möhkəm iqtisadi dayaqları vardır. Biz bunu alqışlayırıq. İstəyirik ki, hər bir azərbaycanlı yaşadığı yerdən asılı olmayaraq, yaxşı yaşasın, zəngin olsun, imkanları geniş olsun. Mən çox şadam ki, xaricdə yaşayan soydaşlarımızın mütləq əksəriyyəti yaxşı yaşayır. Xarici ölkələrə işləmək üçün gedən, yaxud da ki, uzun illər orada yaşayan soydaşlarımız aşağı səviyyəli işlərdə işləmirlər. Onlar ya biznes strukturlarında, ya da ali məktəblərdə elmlə məşğul olurlar. Biznes strukturları da kifayət qədər möhkəmdir. Bizim onlardan yeganə arzumuz ondan ibarətdir ki, ətrafda olan soydaşlara da kömək göstərsinlər.

Azərbaycanın müvafiq dövlət strukturlarına, dövlət şirkətlərinə göstəriş verilmişdir və özəl şirkətlərə tövsiyə edilmişdir ki, çalışdıqları ölkələrdə azərbaycanlıları daha da çox işlərə cəlb etsinlər. Bu proses başlanmışdır. Hesab edi-

rəm ki, şirkətlərimiz xaricdə güclənən zaman orada yaşayan azərbaycanlılar bu işlərə daha da çox cəlb ediləcəklər. Burada söhbət təkcə azərbaycanlıları işə götürüb hansısa vəzifə verməkdən getmir. Xaricdə fəaliyyət göstərən şirkətlər Azərbaycan şirkətləri, dövlət şirkətləri tərəfindən icra edilən layihələrdə iştirak etməlidirlər. Podratçı, müqaviləçi kimi iştirak etməlidirlər. Onlar daha da çox pul qazanmalıdırlar.

Biz indi xaricdə Azərbaycan mədəniyyət evlərinin yaradılmasına başlamışıq. Bu yeni təşəbbüsdür. Aparıcı ölkələrin mərkəzi şəhərlərində Azərbaycan dövləti mülkiyyət almaq niyyətindədir. Orada həm Azərbaycan mədəniyyət evlərinin fəaliyyəti təşkil edilməlidir, eyni zamanda, Azərbaycan ticarət evləri də yaradılmalıdır. Göstəriş verilmişdir ki, paytaxt şəhərlərinin mərkəzi yerlərində, mərkəzi küçələrində Azərbaycan mərkəzləri yaradılmalıdır. Orada Azərbaycan məhsulları təqdim edilməlidir, satılmalıdır, digər təbliğat xarakterli materiallar yayılmalıdır. Yəni, bu bizim planlarımızda var və bu ildən başlayaraq artıq bu proses icra edilməyə başlanmışdır.

Diaspor təşkilatlarının imkanları da bu işlərdə öz rolunu oynamalıdır. Bu məsələ ilə bağlı Xarici İşlər Nazirliyinə, İqtisadi İnkişaf Nazirliyinə göstərişlər verilmişdir. Hesab edirəm ki, Diasporla İş üzrə Dövlət Komitəsi də bu işlərə qoşulmalıdır ki, biz bu işi maksimum səmərə və xaricdə yaşayan azərbaycanlıların maraqlarını təmin etmək şərti ilə həll edək. Bunun da həm orada yaşayan azərbaycanlılar, həm də bizim üçün böyük faydası olacaqdır.

Əziz dostlar, mənim sizə deyiləsi sözlərim çoxdur. Ancaq vaxt keçir. Mən bir daha demək istəyirəm ki, xaricdə yaşayan azərbaycanlıların III qurultayı çox əlamətdar hadisədir. Yenə də biz bir yerə yığışdıq, həm Azərbaycan xalqına, həm bütün dünyaya göstərdik ki, biz bir yerdəyik. Biz böyük bir xalqıq. Bu gün güclənən Azərbaycan bizim qürur mənbəyimizdir.

Mən əminəm ki, siz də Azərbaycanda gedən proseslərə yaxından bələd olan adamlar kimi, haqlı olaraq qürur hissi keçirirsiniz. Azərbaycan müstəqil ölkə kimi, 20 il ərzində böyük yol keçmişdir – tam şəkildə azad, müstəqil, gözəl iqtisadi imkanlarla. Azərbaycanda insanlar təhlükəsiz şəraitdə yaşayırlar. Əmniyyət, təhlükəsizlik, ictimai-siyasi asayiş qorunur, bütün azadlıqlar vardır. Siyasi və iqtisadi aləmdə heç bir məhdudiyyət yoxdur. Regionda mövqelərimiz kifayət qədər möhkəmdir və tam əminəm ki, getdikcə bizim təsir imkanlarımız daha da artacaqdır. Bizim xaricdə yaşayan böyük azərbaycanlı ailələrimiz vardır. Onlar öz doğma Vətəninə bağlı olan adamlardır. Biz hamımız harada yaşamağımızdan asılı olmayaraq, öz Vətənimizə bağlıyıq. Bura hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər.

Çıxışımı ulu öndər Heydər Əliyevin unudulmaz sözləri ilə yekunlaşdırmaq istəyirəm: «Biz hamımız fəxr edirik ki, azərbaycanlıyıq»!

## MOLDOVA RESPUBLİKASI QAQAUZ YERİNİN BAŞQANI MİXAİL FORMUZAL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Moldova Respublikası Qaqauz Yerinin Başqanı Mixail Formuzalı qəbul etmişdir.*

*Moldova Respublikası Qaqauz Yerinin Başqanı Mixail Formuzalın Dünya azərbaycanlılarının III qurultayında iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bunu Azərbaycan ilə Moldova arasında münasibətlərin göstəricisi kimi qiymətləndirdi.*

*Dünya azərbaycanlılarının III qurultayında iştirakını Azərbaycan ilə Moldova arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində atılan növbəti addım kimi dəyərləndirən Mixail Formuzal rəhbərlik etdiyi qurumun Azərbaycan diasporunun nümayəndələri və ölkəmizin Moldovadakı səfirliyi ilə sıx əlaqələr qurduğunu dedi. Mixail Formuzal münasibətlərimizin inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etdi.*

*Dövlətimizin başçısı Moldovaya ilk səfəri zamanı Azərbaycan xalqının mütəfəkkir şairi Nizami Gəncəvinin abidəsinin açıldığını xatırladaraq, ölkələrimiz arasında sıx əlaqələrin yaradılmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Qaqauzda xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılmasını xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin təzahürü kimi qiymətləndirdi.*

## LİTVANIN BAŞ NAZİRİ ANDRİUS KUBİLİUS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Litva Respublikasının Baş naziri Andrius Kubiliusu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu, əməkdaşlığımızın daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

## NATO BAŞ KATİBİNİN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINA ÜZV OLAN BİR SIRA DÖVLƏTLƏRİN BU TƏŞKİLATDAKI DAİMİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 6-da Birləşmiş Millətlər Təşkilatına üzv olan bir sıra dövlətlərin bu təşkilatdakı daimi nümayəndələrini qəbul etmişdir.*

*Prezident İlham Əliyev bu səfərin nümayəndə heyətinin üzvləri üçün ölkəmizi daha yaxından tanımaq və ikitərəfli əlaqələrin genişlənməsinə kömək göstərmək baxımından əhəmiyyətindən danışdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın BMT-də təmsil olunan ölkələrlə yaxşı əlaqələri vardır. Qonaqların təmsil etdikləri ölkələrlə Azərbaycanın siyasi əlaqələrinin yaxşı səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev həmin ölkələrlə gələcəkdə iqtisadi əlaqələrin genişləndirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın hazırda sürətlə inkişaf edən ölkə olduğunu və qarşılıqlı sərmayələrin qoyuluşunun müsbət nəticə verə biləcəyini vurğuladı və dedi ki, Azərbaycanın güclü iqtisadi potensialı mövcuddur, müxtəlif qitələrdə nəhəng sərmayə qoymaq imkanları var və nümayəndə heyətinin səfəri zamanı bu imkanların nəzərdən keçirilməsi mümkündür. Prezident İlham Əliyev Azərbaycanın bölgələrindən birinə də səfər etmələrinin nümayəndə heyətində ölkəmiz haqqında yaxşı təəssürat yaratmağa kömək edəcəyinə əminliyini ifadə etdi.*

*Nümayəndə heyəti adından danışan Qambiyanın BMT yanında daimi nümayəndəsi xanım Süzan Vaffa-Oqu bildirdi ki,*

*ölkəmizə səfərlərindən məmnundurlar. Qəbula görə prezident İlham Əliyevə təşəkkür edən qonaq Azərbaycanın BMT-dəki daimi nümayəndəliyinin fəaliyyətini də yüksək qiymətləndirdi. «Azərbaycan haqqında kənardan məlumat almaq mümkündür. Lakin səfər zamanı Azərbaycan haqqında birbaşa daha dolğun məlumat əldə edə biləcəyik» – deyən BMT təmsilçisi səfərlərinin müxtəlif sahələrdə əməkdaşlıq imkanlarını nəzərdən keçirmək baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi.*

*Prezident İlham Əliyev bildirdi ki, ikitərəfli əlaqələrin qurulması barədə fikir mübadiləsi aparılmalıdır. «Bunun üçün bizim siyasi əlaqələrimiz var» – deyən dövlətimizin başçısı vurğuladı ki, ikitərəfli əlaqələr iqtisadi sahədə də genişlənməlidir. Azərbaycanın bu sahədə çox işlər görə biləcəyini diqqətə çatdıran dövlətimizin başçısı bildirdi ki, ölkəmiz daim sərmayə qoymaq imkanlarından daha səmərəli istifadə etmək axtarışındadır. Prezident İlham Əliyev əlaqələrin beynəlxalq formatda genişləndirilməsi zərurətindən də danışdı. Dövlətimizin başçısı nümayəndə heyətinin üzvlərinə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verdi. Qeyd etdi ki, erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmaları barədə BMT Təhlükəsizlik Şurası, Baş Məclisi və digər beynəlxalq təşkilatların qətnamə və qərarları vardır. Bu sənədlərin kağız üzərində qalmasından təəssüf hissi keçirdiyini deyən prezident İlham Əliyev qeyd etdi ki, birgə çalışaraq elə bir mexanizm yaradılmalıdır ki, bu cür qərarlar icra edilsin. Azərbaycanın açıq ölkə olduğunu deyən prezident İlham Əliyev BMT-dəki nümayəndəliyimizin xalqlar və ölkələr arasında əlaqələrin daha yaxşı qurulması üçün fəal iş gördüyünü söylədi.*

*Azərbaycan prezidenti nümayəndə heyətinin üzvlərinə təmsil etdikləri ölkələrin dövlət və hökumət başçılarına salamlarını çatdırmağı xahiş etdi və onları münasib bildikləri vaxtda Azərbaycana səfərə dəvət etdi.*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Belçika arasındakı münasibətlərin, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişafı və möhkəmləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2011-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ ALİ ŞURASININ SƏDRİ FELDMARŞAL MƏHƏMMƏD HÜSEYN TANTAVİYƏ**

Hörmətli cənab Tantavi!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Misir xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2011-ci il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Maldiv münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyul 2011-ci il*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*7 iyul 2011-ci il*

*İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ölkəmizin ən iri sənaye mərkəzlərindən biri olan Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafı istiqamətində son illər mühüm tədbirlər həyata keçirilir. 2011-ci ilin ilk altı ayında Sumqayıtda 1000-dən artıq yeni daimi iş yeri açılmışdır. 2003–2010-cu illərdə şəhərdə yeni təhsil, səhiyyə və mədəniyyət obyektləri tikilib istifadəyə verilmiş və bu proses davam edir. Hazırda Sumqayıt şəhərinin abadlaşdırılması istiqamətində mühüm işlər görülür.*

### Nəsimi adına dənizkənarı mədəniyyət və istirahət parkında görülmüş yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 7-də Nəsimi adına Sumqayıt şəhər dənizkənarı mədəniyyət və istirahət parkında görülmüş əsaslı yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanış olmuşdur.*

*Şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bünövrəsi 1956–1960-cı illərdə qoyulmuş park 1967-ci ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin qərarına əsasən, Mədəniyyət və*

*istirahət parkı kimi fəaliyyətə başlamışdır. 23 hektar dənizkənarı sahəni əhatə edən parkın ərazisində küləyə və quraqlığa davamlı 39 növ ağac əkilmişdir. 1978-ci ildə parka dahi Azərbaycan şairi İmadəddin Nəsiminin adı verilmiş, 2003-cü ildə isə burada onun heykəli qoyulmuşdur.*

*Bildirildi ki, Sumqayıtın əsas magistral yolu olan Səməd Vurğun küçəsindən başlayaraq Xəzər dənizinin sahilinədək ərazini əhatə edən parkın ümumi sahəsi hazırda 80 hektardır. Nazirlər Kabinetinin qərarına əsasən, 2001-ci ildən Nəsimi adına Sumqayıt dənizkənarı mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə parkın ən müasir tələblərə cavab verən yeni möhtəşəm layihəsi hazırlanır.*

*Parkın gələcək görüntülərini əks etdirən stendlərə baxan dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurmadan sonra ərazi şəhər əhalisinin və qonaqların ən sevimli istirahət mərkəzinə çevriləcəkdir.*

*Prezident İlham Əliyev parkın ətrafındakı yaşayış binalarının fasadlarının, damlarının yenilənməsi və şəhərin müasir görkəminə uyğunlaşdırılması, parka yaxın küçə və məhəllələrin abadlaşdırılması ilə bağlı tövsiyələrini verdi.*

## SUMQAYIT ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 iyul 2011-ci il*

Sizi salamlayıram. Sumqayıt şəhərinin inkişafı ilə bağlı əlavə təkliflər vardır. Bu təkliflər nəzərdən keçirilir. Mən göstəriş vermişəm ki, Sumqayıtın abadlaşması ilə bağlı çox müasir bir layihə hazırlansın. Layihənin bir hissəsi burada göstərilir. Siz də yəqin ki, bu layihə ilə tanışsınız. Əminəm ki, yaxın zamanlarda Sumqayıtın bir neçə istiqamətində çox gözəl, müasir infrastruktur layihələri icra ediləcəkdir.

Həm binaların xarici görünüşü gözəlləşəcək, həm də daxilində təmir işləri aparılacaqdır. Sumqayıtda bulvarın tikintisi təşəbbüsünü də mən bir müddət əvvəl irəli sürmüşəm. Hazırda bulvarın görüntülərini biz bu stendlərdən görə bilərik. Sumqayıt şəhərində Bakı bulvarının standartlarına uyğun bulvar olmalıdır. Bakı bulvarı indi dünyanın ən gözəl bulvarlarından biridir, bəlkə də birincisidir. Sumqayıtın da bu dənizkənarı sahəsindən biz gərək səmərəli şəkildə istifadə edək. Bulvarın tikintisi başlayır. Birinci mərhələdə onun uzunluğu, hesab edirəm ki, bir kilometr olacaqdır. Sonra ən azı 2-3 kilometr artıracağıq. Sumqayıtda gözəl bulvar tikilməlidir, çimərliklər yaradılmalıdır.

Bildiyiniz kimi, Bakıdan Sumqayıta gələn yeni yolun çəkilişi də aparılır. Aeroport–Mərdəkan–Bilgəh istiqamətindən Sumqayıta qədər yeni yol çəkiləcəkdir. Bu yol da şəhərin inkişafına çox müsbət təsir göstərəcəkdir. Bu yol bulvarın yanından keçəcəkdir ki, həm gediş-gəliş rahat olsun, həm də yol infrastrukturu genişlənsin və müasirləşsin. Geniş abadlıq işləri görüləcəkdir. Sumqayıt Bakıya çox yaxındır. Sumqayıtlıların bəziləri Bakıda, Bakıda yaşayanların bəziləri

Sumqayıtda işləyirlər. Çünki ölkəmizdə inkişaf o qədər sürətlə gedir və bu yolboyu tikintilər, yeni binalar, sənaye müəssisələri ona gətirib çıxaracaq ki, Bakıda yaşayanlar da gəlib Sumqayıtda işləyəcəklər. Ona görə Sumqayıt paytaxt standartlarına tam şəkildə uyğunlaşdırılmalıdır. Mənim məqsədim bundan ibarətdir və bunu etmək üçün artıq biz konkret layihələrə başlamışıq. Prezidentin ehtiyat fondundan vəsait ayrıldı. Ondan sonra dövlət büdcəsində dürüstləşmə zamanı əlavə vəsaitin ayrılması nəzərdə tutulmuşdur. İlin sonuna qədər işlər sürətlə getsə, əlavə vəsait də ayrılacaqdır.

Elektrik enerjisi, qaz, su ilə təchizat xeyli dərəcədə yaxşılaşdırılmışdır. Demək olar ki, bu sahədə əsas problemlər öz həllini tapmışdır. Yeni kanalizasiya sisteminin yaradılması üçün mənə bu yaxınlarda əlavə təkliflər verilibdir. Təklifləri bəyəndim və yaxın zamanlarda Sumqayıtın kanalizasiya sisteminin yeniləşdirilməsi üçün əlavə addımlar atılacaqdır.

Yaxşı bilirsiniz ki, Sumqayıt sənaye şəhəri kimi formalaşmışdır. Əfsuslar olsun ki, indi bəzi xarici mətbuat orqanlarında Sumqayıtla bağlı qeyri-dəqiq informasiyalar yazılır, guya burada ekoloji vəziyyət ağırdır, çirklənmə həddən artıq çoxdur. Bunlar həqiqətə uyğun deyildir. Biz istəyirik ki, daha da çox qonaqlar gəlsinlər və görsünlər Sumqayıt necə gözəl, abad şəhərə çevrilibdir. Yaşıllıqlar salınıb, yaşamaq, istirahət etmək üçün yeni şərait yaradılıb.

İkinci məqsəd ondan ibarətdir ki, Sumqayıt ölkəmizin sənaye mərkəzinə çevrilsin. Bunu etmək üçün də imkanlar vardır. Sumqayıt sənaye şəhəri kimyaçılar şəhəri kimi yaranmışdır. Ancaq indi Sumqayıt gərək müasir sənaye şəhəri kimi inkişaf etsin. Bunun üçün konkret planlarımız vardır. Birinci növbədə, hər bir şəhərin sənaye potensialının inkişafı üçün vacib olan infrastruktur layihələri icra edilməlidir. Onların bir hissəsi reallaşıb. Bir müddət əvvəl böyük elektrik stansiyası tikilib, bu problem yoxdur artıq və o stansiyanın gücü gələcəyə də hesablanıbdır.

Sumqayıtın kimya kompleksində yenidənqurma işləri aparılır. O kompleksi müasir standartlara çatdırmalıyıq. Kimya müəssisələrində istehsal olunan məhsulların təkrar emalı üçün yeni müəssisələr də yaradılmalıdır. Bu məsələ ilə bağlı müvafiq göstərişlər verilibdir. Ümid edirəm ki, yaxın zamanlarda Sumqayıtda bəlkə də yüzlərlə yeni özəl kiçik və orta şirkət yaradılacaqdır ki, onlar kimya kompleksində istehsal olunan məhsullardan istifadə edib hazır məhsul buraxsınlar. Dünyanın müxtəlif yerlərində belə praktika vardır. Mən də şəxsən tanış olmuşam, kimyaçılar da bunu bilirlər. Yəni bu sahədə dünyada mövcud olan ən mütərəqqi təcrübəni tətbiq etməliyik. Bu həm iş yerlərinin yaradılmasına gətirib çıxaracaq, həm də şəhərin sənaye potensialı daha da inkişaf edəcəkdir.

Sumqayıtda neçə illərdir ölkə miqyasında və Cənubi Qafqazda ən böyük texnologiyalar parkı yaradılıbdır. Bu gün mən yenə də oraya gedəcəyəm, görülən işlərlə tanış olacağam. Mən dəfələrlə orada olmuşam, xarici qonaqları da dəvət edirik, gəlib görürlər və onlarda çox böyük təəssürat yaranır. Orada doğrudan da ən müasir, qabaqcıl texnologiyalar tətbiq olunur. Bu texnologiyalar parkı da imkan verəcəkdir ki, Sumqayıt böyük, dünya miqyaslı sənaye şəhəri kimi inkişaf etsin.

Bu gün uşaq-gənclər idman məktəbinin açılışını qeyd edəcəyik. Bilirsiniz ki, bu məktəb təqribən 40–50 il bundan əvvəl tikilmişdir, yararsız vəziyyətə düşmüşdür. Mənə bir müddət əvvəl müraciət edilmişdir ki, onu bərpa edək. Ehtiyat fondundan vəsait ayrıldı. Bu gün biz o məktəbi açacağıq ki, uşaqlar burada idmanla məşğul olsunlar.

Bundan başqa, Sumqayıtda yeni Olimpiya İdman Kompleksi də tikilir. Bu da sumqayıtlıların sağlamlığı üçün çox vacibdir. Mən arzu edirəm ki, siz də bütün işlərdə fəal iştirak edəsiniz. Çünki siz iştirak etməsəniz, işlərimiz yarımçıq qalacaqdır. Əminəm ki, sumqayıtlılar bu təşəbbüslərə ürəklə qoşulurlar və əllərindən gələni edəcəklər ki, şəhər daha da gözəlləşsin.

* * *

**M e h r i b a n  N ə c ə f o v a:** Biz sizi sumqayıtlılar adından salamlayırıq, şəhərimizə «Xoş gəlmisiniz!» – deyirik. Gərgin iş şəraitində vaxt tapıb sumqayıtlıların görüşünə gəldiyinizə görə hər bir sumqayıtlı adından Sizə təşəkkür edirik. Bu gün Sizin qayğınız nəticəsində Sumqayıt da bir tikinti meydançasına çevrilib, hər yerdə abadlıq işi aparılır. Sumqayıtda 4 əsas park vardır. Dördündə də möhtəşəm işlər gedir. Nəsimi parkının göstərilən şəkildə qurulması onu Fransanın Kann şəhərindəki məşhur parkları səviyyəsinə çıxaracaqdır. Biz bu işlərin yüksək səviyyədə görüləcəyinə inanırıq. Ona görə ki, Sizin işgüzarlığınıza, dərin intellektinizə və verdiyiniz sözə əməl etməyinizə inanırıq. Sumqayıta göstərdiyiniz qayğıya, məhəbbətə görə bütün sumqayıtlılar adından Sizə «Çox sağ olun!» – deyirik.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Bildiyiniz kimi, mən dəfələrlə Sumqayıtda olmuşam, son illər 6-7 dəfə. Əvvəlki dövrdə daha çox infrastruktur və şəhər təsərrüfatının inkişafı üçün vacib olan məsələlərlə məşğul idik. İlk növbədə, elektrik stansiyasının tikintisi, sonra sənaye müəssisələrinin işə salınması. İndi isə vaxt gəlib çatıb ki, biz şəhərin, necə deyərlər, estetik tərəfi ilə ciddi məşğul olaq. Nəzərdə tutulan layihələrin icrası, əlbəttə ki, mənim diqqətimi də cəlb edəcəkdir. Çünki bütün bu layihələr mənə məruzə edilib.

* * *

*Prezident İlham Əliyev Sumqayıtın müasir şəhərə çevrilməsi üçün yeni layihələrin icrasına başlanacağını bir daha diqqətə çatdırdı.*

*Sonra dövlətimizin başçısı parkın ərazisini gəzdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## 1 SAYLI UŞAQ-GƏNCLƏR İDMAN MƏKTƏBİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*7 iyul 2011-ci il*

*Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri çərçivəsində 1 saylı Uşaq-Gənclər İdman Məktəbinin əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Məktəbin müəllim və şagirdləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 1967-ci ildə istifadəyə verilmiş məktəb müxtəlif idman növləri üzrə Olimpiya oyunlarının, dünya və Avropa çempionatlarının çoxlu sayda qalib və mükafatçılarını yetişdirmişdir. Son vaxtlar məktəbin bir hissəsi əsaslı şəkildə bərpa olunmuş, digər hissələri isə tamamilə yenidən tikilmişdir. Tikinti və əsaslı təmir işlərinə 2008-ci ildə başlanılmışdır. Məktəbin ümumi ərazisi 3 hektardır. Qapalı tikililərin ərazisi 5500 kvadratmetrdir ki, bunun da 3000 kvadratmetri yeni tikilidir. Kompleks inzibati korpus, idman zalları və müxtəlif təyinatlı otaqlardan ibarətdir.*

*Dövlət başçısı boks zalına baxdı. Burada idmanın bu növü ilə məşğul olmaq üçün hərtərəfli şərait yaradılmışdır.*

*Boks trenajor zalı ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, burada quraşdırılan avadanlıq müasir standartlara cavab verir. Məktəbdə müasir üzgüçülük hovuzu da gənclərin ixtiyarına verilmişdir. Uzunluğu 25 metr, ümumi sahəsi 1320 kvadratmetr olan hovuz yeni tikililər sırasındadır. Burada ümumilikdə 100 nəfər üzgüçülüklə məşğul*

*olur. Ümumi ərazisi 134 kvadratmetr olan trinajor zalında məşqlərin davamlı keçirilməsi üçün müasir idman qurğuları quraşdırılmışdır.*

*Yenidənqurma zamanı məktəbin həyəti abadlaşdırılmış, geniş yaşıllıq zolaqları salınmışdır. Binanı elektrik enerjisi ilə fasiləsiz təmin etmək üçün yarımstansiya quraşdırılmışdır.*

*Məktəblə tanış olan prezident İlham Əliyev müəllim və şagirdlərə uğurlar arzuladı.*

## Heydər Əliyev parkında aparılmış yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanışlıq

*İyulun 7-də Azərbaycan prezidenti İlham Əliyev Sumqayıtın 9-cu mikrorayonu ərazisində şəhərin Heydər Əliyev prospekti ilə Zülfü Hacıyev və Şəmsi Bədəlbəyli küçələrinin kəsişməsində yerləşən Heydər Əliyev parkında aparılan yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanış olmuşdur.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına məlumat verdi ki, 1999-cu ildə istifadəyə verilmiş parkda yenidənqurma işləri bu ilin aprelində başlanmışdır.*

*Prezident İlham Əliyev parkın yenidənqurma sxemi ilə tanış oldu.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, 7,6 hektar ərazisi olan parkda müasir memarlıq üslubunda möhtəşəm giriş ucaldılmışdır. Parkda Heydər Əliyev Muzeyi, istirahət meydançası və yeni fəvvarələrin tikintisi nəzərdə tutulmuşdur. Muzeydə ulu öndər Heydər Əliyevin həyatının müxtəlif illərinə həsr olunan stendlər, Sumqayıta səfərlərini əks etdirən fotolar, ölkəmizə rəhbərlik etdiyi illərə aid sənəd və materiallar, digər tarixi eksponatlar toplanacaqdır. Muzeyin kitabxanasında Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən müxtəlif nəşrlər saxlanılacaqdır.*

*Bildirildi ki, parkın girişində 8 metr hündürlüyündə müasir saat qülləsinin də tikintisi aparılır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, parkda geniş yaşıllıq zolağı da salınacaq, müasir işıqlandırma sistemi və uşaqlar üçün attraksionlar qurulacaq, bir sözlə, şəhər sakinlərinin istirahəti üçün bütün şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev parkın ərazisini gəzdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## «Kimyaçı» Mədəniyyət sarayının qarşısında yaradılacaq meydanın sxemi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 7-də Sumqayıtda Dövlət Neft Şirkətinin «Azərikimya» İstehsalat Birliyinin tabeliyində olan Üzeyir Hacıbəyli adına «Kimyaçı» Mədəniyyət sarayının qarşısında yaradılacaq meydanın sxemi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Kimyaçı» Mədəniyyət sarayı 1986-ci ildə istifadəyə verilmişdir. Həmin vaxtdan etibarən sarayın qarşısındakı meydanda respublika və şəhər əhəmiyyətli müxtəlif tədbirlər keçirilmişdir.*

*Dövlət başçısı «Kimyaçı» Mədəniyyət sarayının inzibati binası ilə tanış oldu.*

*Bildirildi ki, üçmərtəbəli inzibati binanın birinci mərtəbəsində 1063 yerlik böyük konsert salonu, ikinci mərtəbəsində 204 yerlik kiçik müşavirə zalı vardır. Sarayın 56 iş, məşq, dərs otağında 350 yeniyetmənin məşğul olduğu 16 bədii özfəaliyyət dərnəyi fəaliyyət göstərir.*

## Cümə məscidində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıq

*İyulun 7-də prezident İlham Əliyev Sumqayıt şəhərindəki Cümə məscidində aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Cümə məscidi 1990-cı ildə şəhər əhalisinin şəxsi vəsaiti hesabına tikilərək istifadəyə verilmişdir.*

*Eyni vaxtda 700 nəfərin ibadət etmək imkanı olduğu bu məscid son illər təmir olunmadığından əvvəlki görkəmini itirmiş, divarlarda çatlar əmələ gəlmişdir. Məscidin həyətyanı sahəsinin də bərpasına ehtiyac vardır. Buna görə də prezident İlham Əliyevin tapşırığı ilə məsciddə əsaslı təmir işlərinə və yeni minarənin tikintisinə başlanılmışdır. Bu işlərin sayəsində sumqayıtlıların dini məbədi kompleksə çevriləcək və onun görkəminə də xüsusi gözəllik veriləcəkdir.*

*Məscidin təmirdən sonrakı vəziyyətini əks etdirən fotostendə baxan prezident İlham Əliyevə məlumat verildi ki, əsaslı təmir nəticəsində məscid yeni görkəmi ilə diqqəti cəlb edəcəkdir.*

*Dövlətimizin başçısına müqəddəs «Qurani-Kərim» hədiyyə olundu.*

*Məscidin həyətyanı sahəsini gəzən prezident İlham Əliyev ərazidə yaşıllaşdırma işlərinə də diqqət yetirilməsinin vacibliyini bildirdi.*

## Texnologiyalar parkında yaradılmış yeni müəssisələrlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 7-də Sumqayıt Texnologiyalar Parkında yaradılmış yeni müəssisələrlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə yüksəkgərginlikli elektrik avadanlığı zavoduna gəldi.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, zavodda dünyanın ən inkişaf etmiş ölkələrinin texnikası quraşdırılmışdır. Müəssisədə, əsasən Finlandiya, Almaniya və Türkiyənin əymə, lazerkəsmə dəzgahları istismar olunur.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, zavodda buraxılan ventilyasiya borularına da respublikamızda və xarici bazarlarda yüksək tələbat vardır. Burada 100 milli-*

*metrdən 1250 millimetrə qədər ölçüdə alüminium və ya sinklənmiş polad borular istehsal olunur.*

*Günəş kollektorları və istilik qazanlarının istehsalı sexində də ən son elmi-texniki yeniliklər tətbiq edilmişdir. Bundan başqa, müəssisələrdə çalışanlar Almaniya, Böyük Britaniya, Yaponiya, Türkiyə və dünyanın ən inkişaf etmiş digər ölkələrində xüsusi kurslarda təcrübə keçirlər.*

*Sonra avtobusla zavodun ərazisini gəzən dövlətimizin başçısına buradakı digər müəssisələr və perspektiv layihələr barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, artıq Sumqayıt Texnologiyalar Parkının rəqabətədavamlı və müxtəlifçeşidli məhsulları bir sıra beynəlxalq sərgilərdə nümayiş olunmuşdur. Zavod respublikamızda, eləcə də regionda analoqu olmayan istehsal müəssisəsidir.*

*İldə 40 min ton məhsul istehsal edilən zavodda tətbiq olunmuş texnologiya yüksək səmərəli və ekoloji təmiz istehsal prosesini təmin edir.*

*Qeyd edildi ki, Sumqayıt Texnologiyalar Parkında metal və ya poladın ilk dəfə sinklənməsi ilə yanaşı, təkrar sinkləmə əməliyyatları da aparılır.*

*Sumqayıt Texnologiyalar Parkındakı yeni müəssisələrin fəaliyyəti ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi, kollektivə uğurlar arzuladı.*

## BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI XƏZƏR RAYONUNDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*7 iyul 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə martın 9-da Bakı Şəhər İcra Hakimiyyətində şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına həsr olunmuş müşavirə keçirilmişdi. Həmin müşavirədə dövlətimizin başçısı şəhərətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı tapşırıqlar vermişdi. Bu tapşırıqların icrası ilə yerində tanış olmaq üçün prezident İlham Əliyev iyulun 7-də Xəzər rayonunun Buzovna qəsəbəsinə gəlmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə magistral yolun kənarında yerləşən çoxmərtəbəli yaşayış binalarında görülmüş üzlənmə işlərinə baxdı.*

*Diqqətə çatdırıldı ki, binaların həyətlərindəki köhnə istirahət yerləri müasirləşdirilir, bəzi məhəllələrdə yeniləri yaradılır. Bu zaman istirahətin rəngarəngliyi də nəzərə alınır. Belə ki, yeni quraşdırılan maraqlı uşaq əyləncə qurğuları, idman meydançaları balaca sakinlərin ürəyincədir.*

*Qəsəbədə aparılan abadlıq və yenidənqurma işləri ilə tanışlıqdan sonra dövlət başçısı sakinləri salamladı.*

**İ l h a m  Ə l i y e v:** Salam, xoş gördük. Necəsiniz, işlər necə gedir?

**S a k i n l ə r:** Çox sağ olun, minnətdarıq. Xoş gəlmisiniz, cənab Prezident!

**İ l h a m  Ə l i y e v:** Bu binalar çox gözəlləşib. Həm xarici gözəldir, həm girişlər, dam örtükləri, liftlər təzələnib. Park abadlaşdırılıb. Uşaqlar üçün idman meydançası yaradılıb.

**S a k i n l ə r:** Görülən bərpa işləri Sizin bizə yeni hədiyyənizdir. Allah Sizdən razı olsun. Burada həm böyüklər, həm də uşaqlar üçün çox gözəl şərait yaradılıb. Ona görə də bütün sakinlər adından Sizə dərin təşəkkürümüzü bildiririk.

**İ l h a m Ə l i y e v:** Bu evlər təmir olunub. İndi o tərəfdəki evlər də təmir edilir. Hər tərəf – şəhərin mərkəzi də, kənarı da gözəl, abad olmalıdır. Bilirsiniz ki, bütün qəsəbələrdə quruculuq işləri aparılır, yollar salınır, yeni məktəblər, xəstəxanalar tikilir, binalar təmir olunur. Bu binalar indi gözəllik nümunəsidir.

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

*Dövlət başçısı Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun ölkəmizə bu səfərinin Kazan görüşü zamanı müzakirə edilən məsələlərlə əlaqədar olmasının önəmini qeyd etdi. İkitərəfli əlaqələrin inkişaf səviyyəsinin çox böyük razılıq doğurduğunu deyən prezident İlham Əliyev bu münasibətlərin ölkələrimiz və region üçün vacib olduğunu vurğuladı. Prezident İlham Əliyev dinamik və uğurla inkişaf edən ikitərəfli münasibətlərimizin gündəliyini bir daha müzakirə etmək üçün səfərin yaxşı imkan yaratdığını dedi.*

*Xarici İşlər naziri Sergey Lavrov Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Kazanda Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk qrupunun Rusiyadan, ABŞ və Fransadan olan həmsədrlərinin iştirakı ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı keçirilən müzakirələrin nəticəsi olaraq məsələnin həlli ilə bağlı Rusiya prezidenti Dmitri Medvedevin Azərbaycan və Ermənistan prezidentlərinə müraciət hazırladığını dedi və həmin müraciəti dövlətimizin başçısına çatdırdı.*

*Dövlətimizin başçısı İlham Əliyev prezident Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## BELARUS RESPUBLİKASININ BAŞ NAZİRİ MİXAİL MYASNİKOVİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Belarus Respublikasının Baş naziri Mixail Myasnikoviçi qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla və dinamik şəkildə inkişaf etdiyini vurğulayaraq Azərbaycanın Belarusla bütün sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Gəncə avtomobil zavodunda Azərbaycan ilə Belarusun birgə layihələrinin uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bunu iqtisadi əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Belarusun Azərbaycana dost dövlət olduğunu və ölkələrimizin bütün qurumları arasında yüksək səviyyədə əlaqələrin yaradıldığını qeyd edən prezident İlham Əliyev Mixail Myasnikoviçin respublikamıza səfərinin əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi.*

*Baş nazir Mixail Myasnikoviç Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. Baş nazir ölkələrimiz arasında həyata keçirilən birgə layihələrə, o cümlədən Gəncə avtomobil zavodunda Azərbaycan ilə Belarusun birgə həyata keçirdiyi layihələrə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. O, Gəncədəki müəssisədə olarkən yeni istehsal sahələrinin açılışında iştirak etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## NATO-nun BAŞ KATİBİNİN MÜAVİNİ QABAR İKLODİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də NATO-nun Baş katibinin müavini Qabar İklodini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə NATO arasında əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizdə həyata keçirilən birgə layihələrin önəmi qeyd olunaraq Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliklə NATO-nun Təchizat və Təminat Agentliyinin birgə həyata keçirdiyi partlamamış mərmilərin təmizlənməsi layihəsinin başa çatmasından məmnunluq ifadə olundu.*

*Görüşdə, həmçinin terrorizmə qarşı mübarizə, enerji və kibertəhlükəsizlik sahələrində əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ RAFAEL MARTİNETTİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 iyul 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Beynəlxalq Güləş Federasiyasının prezidenti Rafael Martinettini qəbul etmişdir.*

*Görüşdə ölkəmizdə idmana dövlət səviyyəsində yüksək şəraitin yaradıldığı bildirildi, idmançılarımızın nüfuzlu beynəlxalq yarışlarda əldə etdiyi qələbələr qeyd olundu, Azərbaycanda təşkil edilən mötəbər beynəlxalq idman yarışlarının əhəmiyyətinə toxunularaq bu gün Bakıda keçirilən və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan güləş üzrə «Qızıl Qran Pri» beynəlxalq turnirinin önəmi vurğulandı.*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ OLİMPİYA KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ ÇİNGİZ HÜSEYNZADƏYƏ

Hörmətli Çingiz Hüseynzadə!

Sizi – respublikamızda olimpiya hərəkatının nümayəndəsini 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi fəaliyyətə başladığı vaxtdan etibarən Siz ölkəmizdə idmanın və olimpiya hərəkatının inkişaf etdirilməsi işinə töhfələr vermisiniz. Ötən illər ərzində idmançılarımızın Yay Olimpiya oyunlarında yüksək nailiyyətlər qazanmasında Sizin də xidmətiniz vardır.

Hazırda dünyada idman ölkələrindən biri kimi tanınan Azərbaycanın mötəbər beynəlxalq idman təşkilatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsində məqsədyönlü fəaliyyətiniz təqdirəlayiqdir. Bu istiqamətdə apardığınız səmərəli işlər Beynəlxalq Olimpiya Komitəsi və onun ayrı-ayrı qurumları tərəfindən lazımınca qiymətləndirilmişdir.

Ümidvaram ki, Siz respublikamızda olimpiya hərəkatının genişləndirilməsi və inkişaf etdirilməsi naminə bundan sonra da öz bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2011-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

«Bulqariya» teploxodunun qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2011-ci il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YANUKOVİÇƏ**

Hörmətli Viktor Fyodoroviç!

Rovno vilayətində qocalar evində yanğın nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2011-ci il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Abadan şəhərində baş vermiş partlayışlar nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 iyul 2011-ci il*

# QEYDLƏR

**1. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 5–7,189,202.

**2. Həzi Aslanov,** H ə z i  Ə h ə d  o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H. Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H. Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H. Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 6.

**3. Qafur Məmmədov,** Q a f u r  N ə s i r  o ğ l u (1922–1942) – Sovet İttifaqı Qəhrəmanı. Tuapse şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq həlak olmuşdur. – 7.

**4. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər

söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 8–19, 92, 133, 155, 157, 159, 161, 262, 263, 282, 290, 306, 308, 309, 310, 312, 322, 330.

**5. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 8, 9, 10, 11–13, 32–33, 40, 111, 128, 232, 233, 246, 262, 281, 286, 294, 304.

**6. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 8, 9, 10, 11–13, 308.

**7. Tamerlan Əliyev,** Tamerlan Əziz oğlu (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki

tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 8.

**8. Hacıbala Abutalıbov,** Hacıbala İbrahim oğlu (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 9, 11, 23, 76, 82, 87, 108, 140, 204.

**9. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 11,20,233,262,292.

**10. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 11, 20, 233, 262, 294.

**11. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 11, 32, 49, 280, 294.

**12. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 15, 29, 47, 56, 59, 60, 85, 86, 95, 96, 119, 120, 143, 147, 151, 167, 172, 175, 178, 180, 181, 183, 187, 189, 209, 211, 213, 214, 216, 220, 222, 26, 227, 228, 229, 237, 243, 251, 256, 258, 266, 267, 277, 279, 313, 314, 315, 326, 343.

**13. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 16.

**14. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 21, 119, 187, 211, 216, 236, 237, 245, 253, 258, 343.

**15. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin

qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 22, 47, 59, 95, 175, 178, 189, 190.

**16. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 27,28.

**17. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament depu-

tatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il Assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 29.

**18. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 31, 110, 139, 187, 211, 216, 237, 253, 256, 343.

**19. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 32, 294, 300, 340.

**20. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 34, 35,148.

**21. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 37, 38, 69, 88, 119, 175, 176, 183, 187, 206, 211, 216, 237, 247–253, 272, 243, 348.

**22. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 39–40.

**23. Çexiya,** Çexiya Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 41–61.

**24. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 41–61.

**25. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 43, 46, 47, 48, 53, 59, 61, 118, 119, 130, 136, 137, 172, 175, 177, 182, 183, 188, 189, 193, 197, 198, 209, 211, 212, 214, 216, 217, 220–224, 225, 234, 241.

**26. Avropa parlamenti,** Avroparlament – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı 751-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparla-

mentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərarlar verir, beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 47, 60, 95, 178, 214, 215–219, 234, 278, 313.

**27. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 47, 53, 59, 95, 178, 186, 189, 190, 212, 278, 313.

**28. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 47, 60, 68.

**29. Cənub qaz dəhlizi** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 59, 131, 136, 137, 182, 189, 208, 211.

**30. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 60, 95, 178, 190, 213, 226, 237, 266, 326.

**31. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 59, 66, 135,147, 182,183,189, 231, 275, 279, 313, 325–326.

**32. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 60, 190, 324, 345.

**33. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min $km^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 62.

**34. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 62.

**35. Elçin Quliyev,** Elçin İsağa oğlu (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif edilmişdir. – 64.

**36. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 69, 88, 175, 206, 226, 251, 252, 343, 348.

**37. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 70, 85–86, 340.

**38. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 70.

**39. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 71.

**40. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliyanın siyasi xadimi. 2006–2016-cı illərdə Portuqaliya Respublikasının

Prezidenti, 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 71.

**41. Filippin,** F i l i p p i n R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Manila şəhəridir. – 72.

**42. III Beniqno Akino** (d.1960) – siyasətçi. 2010–2016-cı illərdə Filippin Respublikasının Prezidenti olmuşdur. – 72.

**43. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 73.

**44. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O, həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 73.

**45. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 74, 292–293.

**46. Xamenei,** S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali dini rəhbəridir. – 74.

**47. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 74, 293.

**49. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 17,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanun-

verici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 75.

**50. Oljas Süleymenov** (d.1936) – məşhur qazax şairi, diplomat. Ümumittifaq Lenin komsomolu mükafatı laureatı. «Asiya» əsəri ilə məşhurlaşmışdır. Hazırda Qazaxıstan Respublikasının YUNESKO-da daimi nümayəndəsidir. – 75.

**51. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 84.

**52. Zivər bəy Əhmədbəyov,** Zivər bəy Gəraybəy oğlu (1873–1925) –Azərbaycan memarı. Zivər bəy ali təhsil almış ilk azərbaycanlı memardır. 1918–22-ci illərdə Bakının Baş memarı olmuşdur. Göyçayda məscid (1906), Şamaxıda «İmam məscidi» (1909), BakıdaTəzəpir məscidi, Göy məscid (1912–13), Bakı və Şamaxıda bir sıra yaşayış evlərinin layihələrini vermişdir. Zivər bəy Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirmişdir. – 87.

**53. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 88.

**54. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yara-

dılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 90–100, 263.

**55. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 95, 96, 119, 178, 181, 187, 211, 216, 217, 219, 223, 237, 253, 256, 258, 343.

**56. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 101,104, 205, 340.

**57. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 102–108, 226.

**58. Ciorcio Napolitano** (d.1925) – İtaliyanın siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 102–108.

**59. I Napoleon,** N a p o l e o n  B o n a p a r t (1769–1821) – 1804–14 və 1815-ci illərdə Fransa inperatoru. Napoleon istedadlı sərkərdə kimi, Fransa tarixində özünə layiqli yer tutmuşdur. Napoleon fitri istedada, müstəsna işgüzarlığa, dərin zəkaya və yenilməz iradəyə malik bir şəxsiyyət idi. – 106.

**60. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 118,130, 207–213, 217, 218, 224, 233, 234

**61. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin Birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf», «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 108,140, 204.

**62. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Si-

yasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 108, 140.

**63. Tofiq Bəhramov,** T o f i q  B ə h r a m  o ğ l u (1925–1993) – Azərbaycanın idman xadimi. Futbol üzrə ümumittifaq və beynəlxalq dərəcəli hakim, Azərbaycan SSR-nin Əməkdar məşqçisi, Əməkdar bədən tərbiyəsi və idman xadimi. Futbol üzrə 8-ci dünya çempionatında (1966, İngiltərə) futbol oyununu yaxşı idarə etdiyinə görə «Qızıl ilahə»nin surəti və «Qızıl fit»lə mükafatlandırılmışdır. – 116.

**64. Lüksemburq,** B ö y ü k  L ü k s e m b u r q  H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 576 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 124.

**65. Anri** (d.1955) – 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə Böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 124.

**66. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 125.

**67. İvo Yosipoviç** (d.1957) – Xorvatiyanın siyasi xadimi, kompozitor, pedaqoq. 2010–2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 125.

**68. Sloveniya,** S l o v e n i y a  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 20,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyana şəhəridir. – 126, 169–204.

**69. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci illərdə Sloveniya Respublikasının Prezidenti olmuşdur. – 126, 170–197, 199–203.

**70. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 127.

**71. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t  B a ğ ı  o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 128.

**72. Riçard Morninqstar** (d.1945) – ABŞ Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi (2009–2012), ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur (2012–2014). – 139.

**73. Serbiya,** S e r b i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı

prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 140–168.

**74. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 141–153, 155–167.

**75. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 144, 145, 173.

**76. Eldar Həsənov**, Eldar Hümbət oğlu (d.1955) – hüquqşünas. Hüquq elmləri doktoru, professor, diplomat. 1995–2000-ci illərdə Azərbaycan Respublikasının Baş prokuroru olmuşdur. 2001-ci ildən Azərbaycan Respublikasının Rumıniyada və həmçinin 2010-cu ildən Serbiya, Bosniya və Herseqovina, Monteneqroda Fövqəladə və Səlahiyyətli səfiridir. – 160–162.

**77. Əlövsət Ağalarov,** Əlövsət İbrahim oğlu (d.1954) –jurnalist, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət Nəşriyyatı – Azərnəşrin Baş redaktoru. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 162.

**78. Üzeyir bəy Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 163–167.

**79. Mehdi Hüseynzadə,** Mehdi Hənifə oğlu (1918–1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə

qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. – 189, 199–203.

**80. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 205.

**81. Belçika,** B e l ç i k a   K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 207–230, 232–246, 327.

**82. Herman Van Rompey** (d.1947) – Belçika siyasətçisi. 2008–2009-cu illərdə Belçikanın Baş naziri, 2009–2014-cü illərdə Avropa Şurasının sədri olmuşdur. – 220–224, 234.

**83. Albaniya,** A l b a n i y a   R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 233, 242.

**84. Sali Berişa** (d.1944) – Albaniyanın dövlət və siyasi xadimi. 1992–97-ci illərdə Albaniya Respublikasının Prezidenti, 2005-ci illərdə Albaniyanın Baş naziri olmuşdur. – 233, 242.

**85. Malavi,** M a l a v i   R e s p u b l i k a s ı – Şərqi Afrikada dövlət. Sahəsi 118,5 min km$^2$, əhalisi 16,7 milyon nəfərdir. Dövlət başçısı prezidentdir. Paytaxtı Lilonqve şəhəridir. – 255.

**86. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ

Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 256.

**87. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 257.

**88. Nikola Sarkozi** (d.1955) –Fransanın dövlət və siyasi xadimi. 2007–2012-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 258.

**89. Monqolustan,** Monqolustan Respublikası – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı  Ulan-Bator şəhəridir. – 260.

**90. Saxiaqiyn Elbeqdorj** (d.1963) – 2009–2017-ci illərdə Monqolustan Respublikasının Prezidenti olmuşdur. 1998 və 2004–2006-cı illərdə  Monqolustanda Baş nazir vəzifəsində çalışmışdır. – 260.

**91. Rəşid Nurqaliyev** (d.1956) – Rusiyanın dövlət xadimi, ordu generalı. 2004–2012-ci illərdə Rusiya Federasiyasında Daxili İşlər naziri olmuşdur. 2012-ci ildən Rusiya Təhlükəsizlik Şurası katibinin müavinidir. – 272.

**92. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 273–280.

**93. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin dövlətinin prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 273–280.

**94. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. – 288.

**95. Qüds** – Dünyanın ən qədim şəhərlərindən biri. Əhalisi 890 min nəfərdir. Müsəlman, yəhudi və xristianların «müqəddəs şəhəri» adlanır. Qüds haqqında ilk məlumat e.ə. 2-ci minilliyin ortalarına aiddir. Qüds müxtəlif vaxtlarda müxtəlif dövlətlərin hakimiyyəti altında olmuşdur. 1920–47-ci illərdə İngiltərənin Fələstin mandatlıq ərazisinin inzibati mərkəzi idi. 1947-ci ildən isə BMT-nin idarəsi altında xüsusi rejimli müstəqil inzibati vahid oldu. 1948–49-cu illər Ərəb–İsrail müharibəsindən sonra Qüds iki hissəyə bölündü: qərb hissəsi İsrailə, şərq hissəsi isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail qeyri-qanuni olaraq Qüdsün qərb hissəsini dövlətin paytaxtı elan etdi. 1967-ci ildə İsrail Qüdsün şərq hissəsini də işğal etdi. Qüds qədim müsəlman, yəhudi və xristian abidələri ilə zəngindir. – 278.

**96. Məkkə –** Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 278.

**97. Mədinə** – Səudiyyə Ərəbistanının şimal-qərbində şəhər. Qədim zamanlarda adı Yəsrib, erkən orta əsrlərdən Mədinədir. 622-ci ildə islamın banisi Məhəmməd əleyhissəlam Məkkədən Mədinəyə hicrət etmiş və burada müsəlman icmasını yaratmışdı. Məhəmməd əleyhissəlamın qəbri Mədinədədir. VII əsrdən müsəlmanların iki müqəddəs şəhərlərindən biridir. – 278.

**98. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə Heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 291.

**99. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 294,305,307.

**100. Arzu Əliyeva,** A r z u  İ l h a m  q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı, Heydər Əliyevin nəvəsi. Film prodüseri. – 294.

**101. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün

görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 322.

**102. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 327.

**103. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km$^2$, əhalisi 402 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 329.

**104. Məhəmməd Naşid** (d.1967) – 2008–2012-ci illərdə Maldiv Respublikasının Prezidenti olmuşdur. – 329.

**105. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 343.

**106. Çingiz Hüseynzadə,** Ç i n g i z M u x t a r o ğ l u (d.1951) – şərqşünas. Azərbaycan Atletika Federasiyasının prezidenti. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 347.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 128
**Abutalıbov Hacıbala** – 9, 11, 23, 76, 82, 87, 108, 140, 204
**Ağalarov Əlövsət** – 162
**Axalaya Baçana** – 34
**Axundov Vaqif** – 300
**Alam Əsəd** – 84
**II Albert** – 327
**Anri** – 124
**Appaturay Ceyms** – 324
**Aslanov Həzi** – 6
**Ayətullah Xamenei** – 74
**Bağırov Hüseynqulu** – 145
**Barrozu Xose** – 118, 130, 207–213, 217, 218, 224, 233, 234
**Başin İvan** – 199
**III Beniqno Akino** – 72
**Berzinş Andris** – 127
**Berişa Sali** – 233, 242
**Berk Saldıray** – 101
**Berdıməhəmmədov Qurbanqulu** – 350
**Bəhramov Tofiq** – 116
**Blatter Yozef** – 109, 110, 111, 115–117
**Bradtken Robert** – 119, 253
**Bruquye Jan-Lui** – 245
**Buzek Veji** – 68, 214, 215–219, 234
**Çiriç Neboyşa** – 144
**Demirtas Ertan** – 305
**Djikis-Deyanoviç Slavitsa** – 154
**Eftimiun Petros** – 29
**Elbeqdorj Saxiaqiyn** – 260
**II Elizabet** – 70
**Əhmədinejad Mahmud** – 74, 293

**Əhmədbəyov Zivər bəy** – 87
**Əliyev Əziz** – 8
**Əliyev Heydər** –8–19, 92, 133, 155, 157, 159, 161, 262, 263, 282, 290, 306, 308, 309, 310, 312, 322, 330
**Əliyev Tamerlan** – 8
**Əliyeva Arzu** – 294
**Əliyeva Leyla** – 294, 305, 307
**Əliyeva Mehriban** – 8, 9, 10, 11–13, 32–33, 40, 111, 128, 232, 233, 246, 262, 281, 286, 294, 304
**Əliyeva Zərifə xanım** – 8, 9, 10–11, 308
**Əl-Tüveycri Əbduləziz** – 20, 236
**Əsədov Oqtay** – 288
**Əsgərov Cahangir** – 146
**Ərdoğan Rəcəb Tayyib** – 205
**Fasye Bernar** – 119, 253
**Field Mark** – 85–86
**Fülen Stefan** – 225
**Fişer Hayntz** – 62
**Formuzal Mixail** – 322
**Gəncəvi Nizami** – 322
**Günsel Suat** – 305
**Hacıbəyli Üzeyir** – 163–167
**Haribaldi Cüzeppe** – 106
**Həsənov Eldar** – 160–162
**Həsənov Ramiz** – 47
**Holoçek Milan** – 45
**Hookon** – 123, 130
**Hüseynzadə Mehdi** – 189, 199–203
**Hüseynzadə Çingiz** – 347
**Xetaquri Aleksandr** – 131
**İklodin Qabar** – 345
**Jboqar Samuel** – 173
**Jukov Aleksandr** – 88
**XVI Karl Qustav** – 73
**Karteron Jan** – 232, 236
**Kasprşik Anji** – 119

**Keldibekov Axmatbek** – 299
**Klaus Vatslav** – 41–61
**Klausova Liviya** – 41, 49, 58
**Kolesnikov Vladimir** – 305
**Kömur Başar** – 305
**Kubilius Andrius** – 323
**Qantar Pavel** – 184
**Quliyev Elçin** – 64
**Quterres Antonio** – 66
**Laqard Kristin** – 291
**Laricani Əli** – 292–293
**Lavrov Sergey** – 343
**Layçak Miroslav** – 120
**Leskö Bruno** – 104
**Lukaşenko Aleksandr** – 254, 344
**Lupu Marian** – 103
**Mahmud Abbas** – 273–280
**Markoviç Predraq** – 146
**Martinettin Rafael** – 346
**Matula Radek** – 45
**Mazzin Cüzeppe** – 106
**Medvedev Dmitri** – 69, 88, 175, 206, 226, 251, 252, 343, 348
**Mehdiyev Ramiz** – 108, 140
**Mehdizadə Nizami** – 285–286
**Məlikova Zəriş** – 285
**Məmmədov Qafur** – 7
**Məmmədyarov Elmar** – 144, 145, 173
**Minnixanov Rustam** – 247–250
**Miyatoviç Dunya** – 22
**Morninqstar Riçard** – 139
**Mutarika Binqu** – 255
**Myasnikoviç Mixail** – 344
**Moratti Massimo** – 261
**Mrkoniç Milutin** – 145
**I Napoleon** – 106
**Napolitano Ciorcio** – 102–108
**Naşid Məhəmməd** – 329

**Nabb Dunkan** – 31
**Nikolaşvili Ramaz** – 35
**Nəcəfova Mehriban** – 335
**Nəsimi İmadəddin** – 331
**Nurqaliyev Raşid** – 272
**Obama Barak** – 256
**Obradoviç Jarko** – 144
**Ottinger Günter** – 118, 130, 233
**Pahor Borut** – 198
**Pabliçiç İqor** – 163
**Pan Çi Mun** – 231
**Paşazadə Allahşükür** – 39–40
**Paviç Milorad** – 155, 157, 158, 159, 161, 162, 164
**Petroviç Duşan** – 145
**Platini Mişel** – 110, 111, 114–115
**Popov İqor** – 119, 253
**Putin Vladimir** – 88
**Radiç Darya** – 173
**Rasizadə Artur** – 108, 140, 204
**Reynders Didier** – 233, 243
**Roiss Çerhard** – 62, 244
**Saakaşvili Mixeil** – 34
**Sarkisyan Serj** – 175
**Sarkozi Nikola** – 258
**Silva Anibal** – 71
**Suver Mehmet** – 305
**Süleymenov Oljas** – 75
**Tadiç Boris** – 141–153, 155–167
**Tağıyev Hacı Zeynalabdin** – 27, 28
**Tağızadə Tahir** – 45
**Tantavi Məhəmməd** – 328
**Tesla Nikola** – 156, 157, 161
**Tyurk Danilo** – 126, 170–197, 199–203
**Vaffa-Oqu Suzan** – 325
**Van Daalen Canni** – 297
**Van Rompey Herman** – 220–224, 234
**Vankoviç Zoran** – 185–186

**Villan Marko** – 105
**Vuazen Mişel** – 21
**Vuyanoviç Filipp** – 259
**Yanukoviç Viktor** – 349
**Yeremiç Vuk** – 144
**Yosipoviç İvo** – 125
**Yusifzadə Xoşbəxt** – 128–129

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abadan** | – 350 |
| **Albaniya** | – 233, 242 |
| **Almaniya** | – 32, 294, 300, 340 |
| **Aralıq dənizi** | – 134, 224 |
| **Amerika Birləşmiş Ştatları** | – 31, 119, 139, 187, 211, 216, 237, 253, 256, 343 |
| **Avropa** | – 53, 56, 61, 120, 131, 135, 149, 166, 183, 197, 209, 210, 218, 223, 224, 227, 234, 239, 240, 244, 300 |
| **Avstriya** | – 62 |
| **Balkan** (*yarımada)* | – 149, 150 |
| **Belarus** | – 254, 314 |
| **Belçika** | – 207–230, 232–246, 327 |
| **Belqrad** | – 140–162 |
| **Berlin** | – 294 |
| **Bilgəh** | – 67 |
| **Böyük Britaniya** | – 70, 85–86, 340 |
| **Brüssel** | – 207–230, 232–246 |
| **Buzovna** | – 341 |
| **Cenevrə** | – 294 |
| **Cənubi Qafqaz** | – 84, 209, 213, 215, 218, 286, 312 |
| **Çexiya** | – 41–61 |
| **Çin** | – 149 |
| **Dağlıq Qarabag** | – 15, 29, 47, 56, 59, 60, 85, 86, 95, 96, 119, 120, 143, 147, 151, 167, 172, 175, 178, 180, 181, 183, 187, 189, 209, 211, 213, 214, 216, 220, 222, 226, 227, 228, 229, 237, 243, 251, 256, 258, 266, 267, 277, 279, 313, 314, 315, 326, 343 |
| **Dunay çayı** | –166 |

**Fələstin** – 273–280
**Filippin** – 72
**Florensiya** – 107
**Fransa** – 21, 119, 187, 211, 216, 237, 245, 253, 258, 343
**Gürcüstan** – 34, 35, 148
**Xəzər dənizi** – 61, 131, 132, 133, 134, 149, 150,151, 224, 239, 240
**Xorvatiya** – 125
**İran** – 74, 292–293
**İrəvan xanlığı** – 314
**İsveç** – 73
**İtaliya** – 102–108, 226
**Kanada** – 257
**Kazan** – 219, 247–253
**Kosovo** – 143, 147, 167
**Qafqaz** – 36, 37, 38, 39, 40, 150
**Qala** – 78, 79, 81
**Qaraçuxur** – 82
**Qazaxıstan** – 75
**Qərbi Avropa** – 87
**Qırğızıstan** – 299
**Qüds** – 278
**Latviya** – 127
**Litva** – 323
**Lüksemburq** – 124
**Lyublyana** – 170–198
**Macarıstan** – 148
**Malavi** – 255
**Maldiv** – 329
**Mədinə** – 278
**Məkkə** – 278
**Mərdəkan** – 23–28, 67, 77, 79
**Mərkəzi Asiya** – 120
**Milan** – 261
**Misir** – 328
**Moldova** – 103, 322
**Monqolustan** – 260

**Montoneqro** – 259
**Moskva** – 16
**Naxçıvan MR** – 232
**Naxçıvan** – 15, 16
**Norveç** – 123
**Nova Qoritsa** – 189, 199–203
**Novi Sad** – 163–167
**Petrozavodsk** – 206
**Portuqaliya** – 71
**Praqa** – 57, 61
**Roma** – 102–108
**Rovno** – 349
**Rumıniya** – 148
**Rusiya** – 37, 38, 69, 88, 119, 175, 176, 183, 187, 206, 211, 216, 237, 247–253, 272, 343, 348
**Sabunçu** – 76, 82
**Serbiya** – 140–168
**Sloveniya** – 126, 169–204
**Sumqayıt** – 330–340
**Soçi** – 175
**Strasburq** – 186
**Sürix** – 110
**Şimali Qafqaz** – 36, 38
**Şüvəlan** – 76, 80
**Ukrayna** – 349
**Tatarıstan** – 247–253
**Tirol** – 227
**Turin** – 107
**Türkiyə** – 101, 104, 205, 340
**Türkmənistan** – 350
**Varşava** – 48, 57, 61, 208
**Yaponiya** – 340
**Yunanıstan** – 104
**Zabrat** – 83
**Zəngəzur** – 314

## MÜNDƏRİCAT

9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2011-ci il* .......... 5

SOVET İTTİFAQI QƏHRƏMANI QAFUR MƏMMƏDOVUN ADINI DAŞIYAN PARKLA TANIŞLIQ

*9 may 2011-ci il* .......... 7

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2011-ci il* .......... 8

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 88-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDA MÖHTƏŞƏM GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2011-ci il* .......... 9

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 88-ci İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 7 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLI MƏRASİMDƏ İŞTİRAK

*10 may 2011-ci il* .......... 11

İSESKO-nun BAŞ DIREKTORU ƏBDÜLƏZIZ BIN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*10 may 2011-ci il* .......... 20

FRANSA MİLLİ ASSAMBLEYASI MÜDAFİƏ KOMİSSİYA-SININ SƏDR MÜAVİNİ MİŞEL VUAZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 may 2011-ci il* .......... 21

ATƏT-in KİV AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ XANIM DUNYA MİYATOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2011-ci il* .......... 22

BAKIƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAF İLƏ BAĞLI MƏRDƏKANDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*12 may 2011-ci il* ........................................................................................ *23*

ATƏT-in PARLAMENT ASSAMBLEYASININ SƏDRİ PETROS EFTİMİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 may 2011-ci il* ........................................................................................ *29*

«BAKI ÜRƏK GÜNLƏRİ» BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

*13 may 2011-ci il* ........................................................................................ *30*

ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN NƏQLİYYAT KOMANDANI GENERAL DUNKAN MAK NABBİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 may 2011-ci il* ........................................................................................ *31*

«EUROVİSİON-2011» MAHNI MÜSABİQƏSİNDƏ QƏLƏBƏ QAZANMIŞ AZƏRBAYCAN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 may 2011-ci il* ........................................................................................ *32*

GÜRCÜSTANIN MÜDAFİƏ NAZİRİ BAÇANA AXALAYA İLƏ GÖRÜŞ

*16 may 2011-ci il* ........................................................................................ *34*

GÜRCÜSTANIN REGİONAL İNKİŞAF VƏ İNFRASTRUKTUR NAZİRİ RAMAZ NİKOLAŞVİLİ İLƏ GÖRÜŞ

*16 may 2011-ci il* ........................................................................................ *35*

BAKIDA KEÇİRİLMİŞ QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ HESABAT KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*16 may 2011-ci il* ........................................................................................ *36*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ VATSLAV KLAUSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*17 may 2011-ci il* ........................................................................................ *41*

ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUS İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*17 may 2011-ci il* ........................................................................................ *42*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*17 may 2011-ci il* ........................................................................................ *43*

SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*17 may 2011-ci il* ........................................................................................ *45*

ÇEXİYA PREZİDENTİ VATSLAV KLAUS İLƏ BİRGƏ
BƏYANATLARLA ÇIXIŞLAR

*17 may 2011-ci il* ........................................................................................ *46*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*17 may 2011-ci il* ........................................................................................ *49*

AZƏRBAYCAN–ÇEXİYA BİZNES FORUMUNDA İŞTİRAK

*17 may 2011-ci il* ........................................................................................ *50*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*17 may 2011-ci il* ........................................................................................ *58*

AVSTRİYANIN OMV ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİ
GERHARD ROİSS İLƏ GÖRÜŞ

*18 may 2011-ci il* ........................................................................................ *62*

DÖVLƏT BAYRAĞI MEYDANININ ƏTRAFINDA
HƏYATA KEÇİRİLMİŞ ABADLIQ VƏ QURUCULUQ
İŞLƏRİ İLƏ TANIŞLIQ

*18 may 2011-ci il* ........................................................................................ *63*

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN ƏMƏKDAŞLARI ÜÇÜN
İNŞA EDİLMİŞ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI
MƏRASİMİ

*19 may 2011-ci il* ........................................................................................ *64*

BMT-nin QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO
QUTERREŞ İLƏ GÖRÜŞ

*19 may 2011-ci il* ........................................................................................ *66*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTU, MƏRDƏ-KAN, BİLGƏH QƏSƏBƏLƏRİ VƏ PAYTAXT ISTİQAMƏ-TİNDƏ YENİ YOL İNFRASTRUKTURUNUN GENİŞLƏN-DİRİLMƏSİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*20 may 2011-ci il* ........ *67*

AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ GÖRÜŞ

*20 may 2011-ci il* ........ *68*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*23 may 2011-ci il* ........ *69*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*23 may 2011-ci il* ........ *70*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*23 may 2011-ci il* ........ *71*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA

*23 may 2011-ci il* ........ *72*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*23 may 2011-ci il* ........ *73*

İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MOHAMMAD REZA RAUF ŞEYBANİ İLƏ GÖRÜŞ

*23 may 2011-ci il* ........ *74*

QAZAXISTANIN YUNESKO-dakı DAİMİ NÜMAYƏNDƏSI, ŞAİR, YAZIÇI OLJAS SÜLEYMENOV İLƏ GÖRÜŞ

*23 may 2011-ci il* ........ *75*

BAKIƏTRAFI KƏND VƏ QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFI İLƏ BAĞLI PAYTAXTIN ŞÜVƏLAN VƏ SABUNÇU QƏSƏBƏLƏRİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*24 may 2011-ci il* ........................................ *76*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ DİREKTORU ƏSƏD ALAM İLƏ GÖRÜŞ

*25 may 2011-ci il* ........................................ *84*

BRİTANİYA–AZƏRBAYCAN PARLAMENT QRUPUNUN SƏDRİ MARK FİELDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 may 2011-ci il* ........................................ *85*

ZİVƏR BƏY ƏHMƏDBƏYOV PARKININ AÇILIŞI MƏRASİMİ

*26 may 2011-ci il* ........................................ *87*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ, RUSİYA FEDERASİYASI OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ ALEKSANDR JUKOV İLƏ GÖRÜŞ

*27 may 2011-ci il* ........................................ *88*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*27 may 2011-ci il* ........................................ *89*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBUL

*27 may 2011-ci il* ........................................ *90*

TÜRKİYƏNİN QURU QOŞUNLARI TƏLİM VƏ DOKTRİNA KOMANDANI SALDIRAY BERKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2011-ci il* ........................................ *101*

İTALİYAYA İŞGÜZAR SƏFƏR

*1 iyun 2011-ci il* ........................................ *102*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ VƏZİFƏSİNİ İCRA EDƏN MARİAN LUPU İLƏ GÖRÜŞ

*1 iyun 2011-ci il* ........................................................................ *103*

İTALİYANIN «EDİSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU BRUNO LESKÖ İLƏ GÖRÜŞ

*1 iyun 2011-ci il* ........................................................................ *104*

TECHNİP-İTALY (TEKNİP İTALİYA) ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MARKO VİLLAN İLƏ GÖRÜŞ

*1 iyun 2011-cu il* ........................................................................ *105*

İTALİYANIN BİRLƏŞMƏSİNİN 150 İLLİYİNƏ VƏ RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ BAYRAM MƏRASİMİ

*2 iyun 2011-ci il* ........................................................................ *106*

İTALİYA PREZİDENTİ CİORCİO NAPOLİTANONUN ADINDAN VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*2 iyun 2011-ci il* ........................................................................ *108*

BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ (FİFA) PREZİDENTİ CƏNAB YOZEF BLATTERƏ

*2 iyun 2011-ci il* ........................................................................ *109*

FİFA-nın PREZİDENTİ YOZEF BLATTER VƏ UEFA-nın PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞ

*5 iyun 2011-ci il* ........................................................................ *110*

BAKIDA OLİMPİYA STADİONUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*6 iyun 2011-ci il* ........................................................................ *111*

AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyun 2011-ci il* ........................................................................ *118*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*6 iyun 2011-ci il* ........................................................ *119*

AVROPA XARİCİ SİYASƏT XİDMƏTİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ İDARƏEDİCİ DİREKTORU MİROSLAV LAYÇAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyun 2011-ci il* ........................................................ *120*

BAKIYA GƏTİRİLMİŞ YENİ AVTOMOBİLLƏRƏ BAXIŞ

*6 iyun 2011-ci il* ........................................................ *121*

NORVEÇ KRALLIĞININ VƏLİƏHDİ HOOKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 iyun 2011-ci il* ........................................................ *123*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*7 iyun 2011-ci il* ........................................................ *124*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ

*7 iyun 2011-ci il* ........................................................ *125*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TYURKA

*7 iyun 2011-ci il* ........................................................ *126*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

*7 iyun 2011-ci il* ........................................................ *127*

XVIII BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*7 iyun 2011-ci il* ........................................................ *128*

XVIII BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA NİTQ

*7 iyun 2011-ci il* ........................................................ *132*

ABŞ-ın AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 iyun 2011-ci il* ............................................................................ *139*

SERBİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*8 iyun 2011-ci il* ............................................................................ *140*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*8 iyun 2011-ci il* ............................................................................ *141*

SERBİYA PREZİDENTİ BORİS TADİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*8 iyun 2011-ci il* ............................................................................ *142*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*8 iyun 2011-ci il* ............................................................................ *143*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 iyun 2011-ci il* ............................................................................ *144*

SERBİYA PREZİDENTİ BORİS TADİÇ İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*8 iyun 2011-ci il* ............................................................................ *147*

SERBİYA MİLLİ ASSAMBLEYASININ SƏDRİ SLAVİTSA DJUKİÇ-DEYANOVİÇ İLƏ GÖRÜŞ

*8 iyun 2011-ci il* ............................................................................ *154*

BELQRADDA TAŞMAYDAN PARKININ AÇILIŞI MƏRASİMİ

*8 iyun 2011-ci il* ............................................................................ *155*

AZƏRBAYCANIN SERBİYADAKI SƏFİRLİYİNİN AÇILIŞI MƏRASİMİ

*8 iyun 2011-ci il* ............................................................................ *160*

SERBİYANIN NOVİ SAD ŞƏHƏRİNDƏ ÜZEYİR HACIBƏYLİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*9 iyun 2011-ci il* ........................................................................................ *163*

SLOVENİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*9 iyun 2011-ci il* ........................................................................................ *169*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*9 iyun 2011-ci il* ........................................................................................ *170*

SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*9 iyun 2011-ci il* ........................................................................................ *171*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*9 iyun 2011-ci il* ........................................................................................ *172*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*9 iyun 2011-ci il* ........................................................................................ *173*

SLOVENİYA PREZİDENTİ DANİLO TYURK İLƏ BİRGƏ MƏTBUT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*9 iyun 2011-ci il* ........................................................................................ *174*

SLOVENİYA MİLLİ ASSAMBLEYASININ PREZİDENTİ PAVEL QANTAR İLƏ GÖRÜŞ

*9 iyun 2011-ci il* ........................................................................................ *184*

LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞ

*9 iyun 2011-ci il* ........................................................................................ *185*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*9 iyun 2011-ci il* ........................................................................................ *187*

AZƏRBAYCAN–SLOVENİYA BİZNES-FORUMUNDA İŞTİRAK

*10 iyun 2011-ci il* ...................................................................................... *191*

SLOVENİYANIN BAŞ NAZİRİ BORUT PAHOR İLƏ GÖRÜŞ

*10 iyun 2011-ci il* ........................................................................................ *198*

SLOVENİYANIN NOVO QORİTSA ŞƏHƏRİNDƏ SOVET İTTİFAQI QƏHRƏMANI MEHDİ HÜSEYNZADƏNİN MEMORİAL MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*10 iyun 2011-cu il* ........................................................................................ *199*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*13 iyun 2011-ci il* ........................................................................................ *205*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*21 iyun 2011-ci il* ........................................................................................ *206*

BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏR

*21 iyun 2011-ci il* ........................................................................................ *207*

AVROPA PARLAMENTİNİN SƏDRİ YEJİ BUZEK İLƏ GÖRÜŞ

*22 iyun 2011-ci il* ........................................................................................ *214*

AVROPA PARLAMENTININ SƏDRI YEJI BUZEK İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*22 iyun 2011-ci il* ........................................................................................ *215*

AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY İLƏ GÖRÜŞ

*22 iyun 2011-ci il* ........................................................................................ *220*

AVROPA İTTİFAQININ PREZİDENTİ HERMAN VAN ROMPEY İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*22 iyun 2011-ci il* ........................................................................................ *221*

AVROPA İTTİFAQININ GENİŞLƏNDİRİLMƏSİ VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI ŞTEFAN FÜLEN İLƏ GÖRÜŞ

*22 iyun 2011-ci il* ........................................................................................ *225*

«EURONEWS» TELEKANALINA MÜSAHİBƏ

*22 iyun 2011-ci il* ........................................................................................ *226*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ
ZATİ-ALİLƏRİ CƏNAB PAN Gİ MUNA

*22 iyun 2011-ci il* ........................................................................................ *231*

BRÜSSELDƏ KRANS MONTANA FORUMUNUN RƏSMİ
AÇILIŞI MƏRASİMİ

*23 iyun 2011-ci il* ........................................................................................ *232*

ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*23 iyun 2011-ci il* ........................................................................................ *242*

BELÇİKA  KRALLIĞI BAŞ NAZİRİNİN MÜAVİNİ,
MALİYYƏ NAZİRİ DİDİER REYNDERS İLƏ GÖRÜŞ

*23 iyun 2011-ci il* ........................................................................................ *243*

OMV VƏ RWE ŞİRKƏTLƏRİNİN İDARƏ HEYƏTLƏRİNİN
SƏDRLƏRİ GERHARD ROİSSİ VƏ YURGEN QROSMAN
İLƏ GÖRÜŞ

*23 iyun 2011-ci il* ........................................................................................ *244*

FRANSA PREZİDENTİNİN TERRORİZMLƏ MÜBARİZƏ
ÜZRƏ XÜSUSİ VƏ ŞƏXSİ MÜŞAVİRİ
JAN-LUİ BRUQUYE İLƏ GÖRÜŞ

*23 iyun 2011-ci il* ........................................................................................ *245*

KRANS MONTANA FORUMUNUN İŞTİRAKÇILARININ
ŞƏRƏFİNƏ NAHARDA İŞTİRAK

*23 iyun 2011-ci il* ........................................................................................ *246*

RUSİYA FEDERASİYASININ TATARISTAN
RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*23 iyun 2011-ci il* ........................................................................................ *247*

«KAZAN VERTOLYOT ZAVODU» ASC  İLƏ TANIŞLIQ

*24 iyun 2011-ci il* ........................................................................................ *248*

2013-cü İLDƏ KAZANDA KEÇİRİLƏCƏK XXVII ÜMUM-DÜNYA UNİVERSİADASININ KƏNDİ İLƏ TANIŞLIQ

*24 iyun 2011-ci il* ........................................................................................ *249*

«İT-PARK» – YÜKSƏK TEXNOLOGİYALAR PARKI İLƏ TANIŞLIQ

*24 iyun 2011-ci il* ........................................................................................ *250*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*24 iyun 2011-ci il* ........................................................................................ *251*

AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA PREZİDENT-LƏRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN TƏNZİM-LƏNMƏSİNƏ DAİR BİRGƏ BƏYANATLARI

*24 iyun 2011-ci il* ........................................................................................ *252*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*24 iyun 2011-ci il* ........................................................................................ *253*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİ-LƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*24 iyun 2010-cu il* ........................................................................................ *254*

MALAVİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİNQU VA MUTARİKAYA

*24 iyun 2010-cu il* ........................................................................................ *255*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*25 iyun 2010-cu il* ........................................................................................ *256*

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CONSTONA

*25 iyun 2011-ci il* ........................................................................................ *257*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*25 iyun 2011-ci il* ........................................................................................ *258*

MONTENEQRO PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
FİLİP VUYANOVİÇƏ

*25 iyun 2011-ci il* ........................................................................................ *259*

MONQOLUSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
SAXİAQİYN ELBEQDORJA

*25 iyun 2011-ci il* ........................................................................................ *260*

MİLANIN «İNTER» FUTBOL KLUBUNUN PREZİDENTİ
VƏ SAHİBİ MASSİMO MORATTİ İLƏ GÖRÜŞ

*25 iyun 2011-ci il* ........................................................................................ *261*

AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN 20-ci VƏ SİLAHLI
QÜVVƏLƏRİN 93-cü İLDÖNÜMLƏRİ MÜNASİBƏTİLƏ
TƏNTƏNƏLİ HƏRBİ PARADDA İŞTİRAK

*26 iyun 2011-ci il* ........................................................................................ *262*

AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN 20-ci VƏ SİLAHLI
QÜVVƏLƏRİN 93-cü İLDÖNÜMLƏRİ MÜNASİBƏTİLƏ BAKI-
DA KEÇİRİLMİŞ TƏNTƏNƏLİ HƏRBİ PARADDA NİTQ

*26 iyun 2011-ci il* ........................................................................................ *264*

RUSİYANIN DAXİLİ İŞLƏR NAZİRİ RAŞİD
NURQALİYEV İLƏ GÖRÜŞ

*27 iyun 2011-ci il* ........................................................................................ *272*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD
ABBASIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 iyun 2011-ci il* ........................................................................................ *273*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ
MAHMUD ABBAS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 iyun 2011-ci il* ........................................................................................ *274*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 iyun 2011-ci il* ........................................................................................ *275*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ MAHMUD ABBAS İLƏ BİRGƏ BƏYANATLARLA ÇIXIŞLAR

*28 iyun 2011-ci il* ........................................................................................ *276*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*29 iyun 2011-ci il* ........................................................................................ *280*

BAKI METROPOLİTENİNİN «DƏRNƏGÜL» STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*29 iyun 2011-ci il* ........................................................................................ *281*

BAKI TENNİS AKADEMİYASININ MƏRKƏZİ KORTUNUN AÇILIŞI MƏRASİMİ

*29 iyun 2011-ci il* ........................................................................................ *288*

HEYDƏR ƏLİYEV PARKINDA APARILMIŞ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*29 iyun 2011-ci il* ........................................................................................ *290*

BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU XANIM KRİSTİN LAQARDA

*1 iyul 2011-ci il* ........................................................................................ *291*

İRAN İSLAM ŞURASI MƏCLİSİNİN SƏDRİ ƏLİ LARİCANİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 iyul 2011-ci il* ........................................................................................ *292*

«KEMPİNSKİ BADAMDAR» OTEL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*2 iyul 2011-ci il* ........................................................................................ *294*

QIRĞIZISTAN PARLAMENTİNİN SƏDRİ AXMATBEK KELDİBEKOVUN BAŞÇILIQ ETDIYI NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyul 2011-ci il* ........................................................................................ *299*

BAKIDA XÜSUSİ DÖVLƏT MÜHAFİZƏ XİDMƏTİNİN MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*4 iyul 2011-ci il* ........................................................................................ *300*

BAKI SAĞLAMLIQ MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*4 iyul 2011-ci il* ............................................................................................ *304*

BİR QRUP İCTİMAİ XADİMİN «DOSTLUQ» ORDENİ VƏ «TƏRƏQQİ» MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ MƏRASİMİ

*5 iyul 2011-ci il* ............................................................................................ *305*

DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA İŞTİRAK

*5 iyul 2011-ci il* ............................................................................................ *306*

DÜNYA AZƏRBAYCANLILARININ III QURULTAYINDA NİTQ

*5 iyul 2011-ci il* ............................................................................................ *309*

MOLDOVA RESPUBLİKASI QAQAUZ YERİNİN BAŞQANI MİXAİL FORMUZAL İLƏ GÖRÜŞ

*5 iyul 2011-ci il* ............................................................................................ *322*

LİTVANIN BAŞ NAZİRİ ANDRİUS KUBİLİUS İLƏ GÖRÜŞ

*5 iyul 2011-ci il* ............................................................................................ *323*

NATO BAŞ KATİBİNİN QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*5 iyul 2011-ci il* ............................................................................................ *324*

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINA ÜZV OLAN BİR SIRA DÖVLƏTLƏRİN BU TƏŞKİLATDAKI DAİMİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 iyul 2011-ci il* ............................................................................................ *325*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*7 iyul 2011-ci il* ............................................................................................ *327*

MİSİR ƏRƏB RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ ALİ ŞURASININ SƏDRİ FELDMARŞAL MƏHƏMMƏD HÜSEYN TANTAVİYƏ

*7 iyul 2011-ci il* ............................................................................................ *328*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ

*7 iyul 2011-ci il* ............................................................ *329*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*7 iyul 2011-ci il* ............................................................ *330*

SUMQAYIT ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏ-
LƏRİ İLƏ GÖRÜŞ

*7 iyul 2011-ci il* ............................................................ *332*

1 SAYLI UŞAQ-GƏNCLƏR İDMAN MƏKTƏBİNİN ƏSASLI
TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI
MƏRASİMİ

*7 iyul 2011-ci il* ............................................................ *336*

BAKININ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİ-
SADİ İNKİŞAFI İLƏ BAĞLI XƏZƏR RAYONUNDA GÖRÜL-
MÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*7 iyul 2011-ci il* ............................................................ *341*

RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV
İLƏ GÖRÜŞ

*8 iyul 2011-ci il* ............................................................ *343*

BELARUSUN BAŞ NAZİRİ MİXAİL MYASNİKOVİÇ İLƏ
GÖRÜŞ

*8 iyul 2011-ci il* ............................................................ *344*

NATO-nun BAŞ KATİBİNİN MÜAVİNİ QABAR İKLODİN
İLƏ GÖRÜŞ

*8 iyul 2011-ci il* ............................................................ *345*

BEYNƏLXALQ GÜLƏŞ FEDERASİYASININ PREZİDENTİ
RAFAEL MARTİNETTİN İLƏ GÖRÜŞ

*8 iyul 2011-ci il* ............................................................ *346*

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ OLİMPİYA KOMİ-
TƏSİNİN VİTSE-PREZİDENTİ ÇİNGİZ HÜSEYNZADƏYƏ

*11 iyul 2011-ci il* ............................................................ *347*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*11 iyul 2011-ci il* ........................................................................................ *348*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YANUKOVİÇƏ

*11 iyul 2011-ci il* ........................................................................................ *349*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*11 iyul 2011-ci il* ........................................................................................ *350*

QEYDLƏR ........................................................................................ *351*

*Şəxsi adlar göstəricisi* ........................................................................................ *379*

*Coğrafi adlar göstəricisi* ........................................................................................ *384*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompyuter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.